"Azərbaycan Milli Ensiklopediyası"
Nəşriyyatı



WHO IS WHO
IN AZERBAIJAN

ENCYCLOPEDİC
QUESTIONNAIRE BOOK

"Azerbaijan National Encyclopedia"
Publiscing House
B a k u – 2 0 0 1

AZƏRBAYCANDA
KİM KİMDİR

ENSİKLOPEDİK SORĞU
KİTABI

743

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

"Azərbaycan Milli Ensiklopediyası"
Nəşriyyatı
B a k ı – 2 0 0 1

92(Az)
A40
92
A 99

Baş redaktor
İsmayıl VƏLİYEV

Qrup rəhbəri
Tarıyel CAHANGİR

A 40 **Azərbaycanda Kim Kimdir? — 2001.** Ensiklopedik sorğu kitabı. "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyatı. Bakı, 2001. 420 səh. Şəkilli.

Ensiklopedik sorğu kitabında respublikanın ali dövlət aparatlarında, nazirlik və dövlət komitələrində, şirkət və konsernlərdə, idarə və birliklərdə, səhmdar cəmiyyətlərində mühüm vəzifələrdə çalışan rəhbər kadrlar, icra hakimiyyətləri və bələddiyyələrin, elm-tədris müəssisələri və kütləvi informasiya vasitələrinin, partiyalar və ictimai-siyasi təşkilatların, səfirlik və nümayəndəliklərin və başqa sahələrin məsul işçiləri barədə məlumat verilir.

A $\frac{5001000000}{M-657-2001}$

ISBN5-89600-332-3

© "Azərbaycan Milli Ensiklopediyası"
Nəşriyyatı,
2001.

BİOQRAFİK SORĞU KİTABI

Müasir dövrdə sorğu-məlumat kitablarına maraq getdikcə artmaqdadır. Siyasi, iqtisadi və elmi-texniki mübadilələrin gündən-günə çoxalması nəticəsində müxtəlif səpkili ən kütləvi məlumat kitabları meydana gəlmiş və belə kitablar dünyanın əksər ölkələrində nəşr olunur. Ensiklopediyalar, kataloqlar, tematik təqvimlər, telefon kitabları, şirkət, müəssisə və ticarət təşkilatlarının sorğu kitabları hər il böyük tirajlarla buraxılır. İllik nəşrlər arasında dünyanın və ölkənin siyasət, mədəniyyət, elm və təsərrüfat sahəsində tanınmış adamlarının avtobioqrafiyalarını əks etdirən nəfis kitablar da xüsusi yer tutur. Azərbaycanda indiyədək belə kitablar nəşr etmək təşəbbüslərinə cəhd göstərilsə də, müxtəlif səbəblərdən, o cümlədən də iqtisadi çətinliklər və imkansızlıqlar nəticəsində bu istəklər həyata keçməmişdir.

Azərbaycanımızın müstəqillik yoluna qədəm qoyması, onun dünya ilə əlaqələrinin genişlənməsi iqtisadiyyata, ticarət şəbəkələrinə dair sorğu-məlumat xarakterli kitablara tələbatı artırmışdır. Bunu nəzərə alaraq, biz Azərbaycanın ölkə daxilində və bütün dünyada tanınan siyasi və dövlət xadimləri, görkəmli adamları haqqında məlumat kitablarına olan ehtiyacı ödəmək, belə nəşrlər sahəsində ənənə yaratmaq və bu işi gələcəkdə davam etdirmək məqsədilə "Kim kimdir?" adlı sorğu-məlumat kitabını nəşr etməyi qərara aldıq. Bu məqsədlə 1994-cü ildə "Azərbaycan Ensiklopediyası"nda xüsusi redaksiya yaradıldı və nəhayət, 1999-cu ildə bu adda ilk kitab işıq üzü gördü. Onu da qeyd etmək lazımdır ki, belə kitablar son vaxtlar xarici ölkələrdə müntəzəm nəşr olunur. Amerikada və İngiltərədə hazırlanan bu tipli böyük nəşrlər dünyəvi məlumatları əks etdirir və bütün dünyaya yayılır. Bizim təqdim etdiyimiz bu kitabda oxucular "Azərbaycanda kim kimdir?" sualına cavab tapa biləcəklər.

Məlumat kitabı, qeyd etdiyimiz kimi, "Azərbaycan Ensiklopediyası"nın təşəbbüsü ilə hazırlanmışdır. Bioqrafik məlumatlar və lüğətlər redaksiyası respublikamızın müxtəlif regionlarına, müxtəlif idarələrinə 1500-dən çox sorğu vərəqəsi göndərmişdir. Sorğu vərəqələrinə 900-ə qədər cavab alınmışdır. Kitabda, əsasən, rəhbər vəzifədə olanların, qəzet redaktorlarının, birlik və şirkət rəhbərlərinin, ali dövlət aparatında mühüm vəzifələrdə çalışan şəxslərin tərcümeyi-halları və fotoşəkilləri toplanmışdır. Bu kitabı lazımi səviyyədə nəşr edib oxucularımıza çatdırmaq üçün redaksiya əməkdaşları böyük səy göstərmişlər.

Müstəqil və suveren Azərbaycanda bundan sonra "Kim kimdir?" məlumat kitabının müntəzəm nəşr olunacağına ümid bəsləyirik. Gələcək nəşrlərin müasir tələblərə cavab verməsi və yüksək poliqrafik səviyyədə çapı üçün nəşriyyatımızda tədbirlər görülür. Əminik ki, Azərbaycanda da "Kim kimdir?" tipli kitablara maraq artacaq və oxucular bu kitablardan istədikləri adamlar haqqında hərtərəfli məlumat ala biləcəklər.

Kitabın nəşrində yaxından iştirak edən və redaksiya-işçi qrupuna kömək göstərən vətəndaşlarımızın hamısına minnətdarlığımızı bildiririk.

Hörmətli oxucularımızdan xahiş edirik ki, öz arzu və təkliflərini nəşriyyata bildirsinlər.



HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Əliyev Heydər Əlirza oğlu (d.10.05.1923, Naxçıvan ş.) — Azərbaycan Respublikasının Prezidenti, görkəmli siyasi xadim. Fəhlə ailəsində doğulmuşdur. Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra 1939-41 illərdə Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində oxumuşdur. 1941 ildən Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri işləmişdir. 1944 ilin mayında Heydər Əliyev Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmiş və burada 1969 ilə qədər məsul vəzifələrdə çalışmışdır. Dövlət təhlükəsizlik sistemində xüsusi təhsil almış, 1957 ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1964 ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967 ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir. Ona general-mayor rütbəsi verilmişdir.

1945 ildən 1991 ilə kimi Sov.İKP üzvü olmuşdur. Dağlıq Qarabağ Muxtar Vilayətində yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı mərkəzin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991 il iyul ayının 19-da Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir. 1992 ildə Yeni Azərbaycan Partiyasının əsasını qoymuş və partiyanın sədri seçilmişdir.

AKP MK-nın iyul (1969 il) plenumunda AKP MK-nın birinci katibi və MK-nın Büro üzvü seçilmişdir. AKP MK-nın avqust (1969 il) plenumundakı məruzəsində respublikada xalq təsərrüfatına və mədəni quruculuğa dövlət rəhbərliyini əsaslı surətdə yaxşılaşdırmaq, partiya və dövlət intizamını möhkəmləndirmək, kadrlara qarşı tələbkarlığı gücləndirmək və onların məsuliyyətini artırmaq xətti müəyyən olunmuşdur. Bu xətt sonrakı məruzə və çıxışlarında inkişaf etdirilərək elmi surətdə əsaslandırılmış, qəbul olunmuş qərarları yerinə yetirmək və mövcud nöqsanları aradan qaldırmaq sahəsində respublikanın dövlət və təsərrüfat təşkilatlarının, əmək adamlarının fəaliyyət proqramı olmuşdur.

H.Əliyev AKP 28 (1971, mart) və 29 (1976, yanvar) qurultaylarında hesabat məruzəsi ilə çıxış etmişdir. H.Əliyev Sov.İKP 24 (1971, mart-aprel) və 25 (1976, fevral-mart) qurultaylarında çıxış etmişdir. Həmin qurultaylarda Sov.İKP MK üzvü seçilmişdir. Sov.İKP MK-nın Plenumu (1976, mart) H.Əliyevi Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Sov.İKP MK Plenumu (1982, noyabr) Siyasi Büronun üzvü seçmişdir.

SSRİ Konstitusiyası komissiyasının üzvü kimi ölkənin yeni Konstitusiyası layihəsinin işlənib hazırlanmasında iştirak etmiş və SSRİ-nin yeni Konstitusiyasını qəbul edən SSRİ Ali Sovetinin növbədənkənar sessiyasında çıxış etmişdir (1977, oktyabr). O, Azərbaycan SSR-in yeni Konstitusiyasının layihəsini hazırlayan komissiyanın sədri təsdiq edilmişdir (1977, iyul). H.Əliyevin respublika Konstitusiyasının hazırlanmasında böyük xidməti olmuşdur. Azərbaycan SSR Ali Sovetinin növbədənkənar 7 sessiyasında H.Əliyev "Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanunun) layihəsi və onun ümumxalq müzakirəsininin yekunları haqqında" məruzə etmişdir (1978, aprel).

AKP MK-nın birinci katibi vəzifəsində H.Əliyev idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsinə, inzibati norma və qaydalara ciddi əməl edilməsinə, əmək və ictimai-siyasi fəallığın artırılmasına, iqtisadiyyatda uzun müddət davam edən geriliyin aradan qaldırılmasına nail olmuşdur. Dövlət planları ardıcıl olaraq yerinə yetirilmiş, xalq təsərrüfatının inkişafında rekord göstəricilər əldə edilmişdir Azərbaycan SSR 10 dəfə (1970-1979) Ümumittifaq sosializm yarışında qalib çıxmış və Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ-nın və ÜİLKGİ MK-nın keçici Qırmızı Bayrağı ilə təltif olunmuşdur.

H.Əliyev sovet dövründə Sov.İKP və SSRİ Ali Soveti nümayəndə heyətinin başçısı və üzvü kimi Almaniya, Rumıniya, Yuqoslaviya, İtaliya, Misir, Suriya və Hindistanda olmuşdur.

H.Əliyev SSRİ Ali Sovetinin (8, 9 və 10 çağırışların) deputatı seçilmiş, 9 çağırış SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini, Azərbaycan SSR Ali Sovetinin deputatı (7,8, 9,10 çağırış) və respublika Ali Soveti Rəyasət Heyətinin üzvü olmuşdur. 4 dəfə Lenin ordeni və Qırmızı Ulduz ordeni, eləcə də medallarla təltif edilmişdir.

Siyasi Büronun yeritdiyi xəttə etiraz edən H.Əliyev 1987 ildə vəzifəsindən istefa verərək müxalif mövqe tutmuşdur.

H.Əliyev 1990 ilin yanvar faciəsi ilə əlaqədar Moskvada Azərbaycanın daimi nümayəndəliyində bəyanatla çıxış edərək bu aktı Azərbaycana qarşı təcavüz kimi qiymətləndirmişdir.

H.Əliyev 1990 ilin iyul ayında Azərbaycana qayıtmış, həmin ildə də Azərbaycan Respublikasının millət vəkili seçilmişdir.

1991-1993 illərdə H.Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, eyni zamanda Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Azərbaycan Respublikası Ali Sovetinin ilk sessiyalarında fəal iştirak etmişdir. H.Əliyev Ali Sovetin birinci sessiyasında çıxış edərək doğma Vətən torpağına ancaq və ancaq respublikanın ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəldiyini bəyan etmiş, dağılmaqda olan Sovet İttifaqında, eləcə də Azərbaycanda mövcud vəziyyət haqqında fikirlərini söyləmiş, təkliflər vermiş, siyasi və iqtisadi böhranın səbəbləri, onların aradan qaldırılması yolları ilə bağlı qətiyyətli mövqeyini bildirmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini üzə çıxarmış və günahkarların dəqiq ünvanını göstərərək "yaranmış vəziyyətin günahkarı hakimiyyətdə olan Kommunist Partiyasının Mərkəzi Komitəsi, partiya və dövlət hakimiyyətini ələ keçirmiş Qorbaçovdur" demişdir (fevral, 1991-ci il).

H.Əliyev Ali Sovetin 7 mart 1991 il tarixli sessiyasında Azərbaycan xalqının gələcək taleyi ilə bağlı referendumda iştirak etmək və etməmək kimi mühüm bir məsələ haqqında mülahizə və təkliflərini bildirərək, respublikaları yeni ittifaq yaratmağa dəvət edən ölkə rəhbərliyinə kəskin etiraz etmiş, yeni ittifaq müqaviləsinin əvvəlkindən də yararsız olduğunu söyləmiş və yeni bir ittifaqa girməyi Azərbaycan xalqı üçün rəva bilmədiyini bildirmişdir. O, qətiyyətli mövqeyini belə ifadə etmişdir: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan Respublikası iqtisadi və müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır".

Xalqın birliyinə nail olmaqdan ötrü həlli labüd olan bir sıra məsələlərin aydınlaşdırılmasını, Sov.İKP-nin tərkib hissəsi olan Azərbaycan Kommunist Partiyasının hakimiyyətdən uzaqlaşdırılmasını tələb edən H.Əliyev 29 avqust 1991 il tarixli iclasda Azərbaycanda prezident seçkilərinin qeyri-demokratik keçirilməsinə qəti etirazını bildirmişdir.

1993 ilin iyununda vətəndaş müharibəsi həddinə gətirilmiş respublikada vəziyyəti sabitləşdirmək məqsədilə H.Əliyev Azərbaycanın dövlət rəhbərləri tərəfindən rəsmi surətdə Bakıya dəvət olunmuş, həmin il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyunun 24-dən isə Milli Məclisin qərarı ilə prezident səlahiyyətlərini həyata keçirməyə başlamışdır.

1993 il oktyabrın 3-də keçirilmiş ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçilmişdir. Andiçmə mərasimində prezident Heydər Əliyev Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının təminatçısı olacağına, Azərbaycan xalqının

milli və mənəvi ənənələrinə daim sadiq qalacağına və bu ənənələrin Azərbaycanda bərqərar olmasına, yaşamasına təminat yaradacağına and içmişdir.

Demokratikləşmə, plüralizm, bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan hüquqi dövlətin yaradılması üçün H.Əliyev ilk növbədə ölkə daxilində sabitliyin qorunması, iqtisadi islahatların aparılması, vətəndaş həmrəyliyi və milli birlik əldə edilməsinə çalışmışdır. Onun yeritdiyi uğurlu xarici siyasət nəticəsində müstəqil Azərbaycan dövlətinin beynəlxalq miqyasda tanınması və nüfuz qazanması təmin olunmuş, Azərbaycanın ərazi bütövlüyünün qorunması, Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş torpaqlarımızın azad olunması və yurdundan didərgin düşmüş milyondan artıq qaçqının doğma ocaqlarına qaytarılması problemləri, Azərbaycan haqqında həqiqətlər dünya ictimaiyyətinə çatdırılmışdır. Onun Azərbaycan prezidenti kimi BMT-nin sessiyalarında çıxışları, Fransa, ABŞ, İngiltərə, Belçika, Almaniya, İran, Türkiyə, Çin, Səudiyyə Ərəbistanı, Misir, Rusiya, Qazaxıstan, Qırğızıstan, Pakistan və s. ölkələrə rəsmi səfərləri də bu məqsədə xidmət etmişdir.

H.Əliyevin sədrliyi ilə hazırlanan və referendum nəticəsində qəbul edilən Azərbaycan Respublikasının yeni Konstitusiyasına əsasən 12 noyabr 1995 ildə müstəqil Azərbaycan Parlamentinə ilk demokratik seçkilər keçirilmişdir.

1998 il oktyabrın 11-də xalqın böyük fəallığı ilə keçirilən seçkilərdə H.Əliyev 76,11 faiz səs toplayaraq növbəti beş il müddətinə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

H.Əliyev müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına layiq görülmüşdür.

H.Əliyevin həyat yoldaşı, görkəmli oftalmoloq, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, professor Zərifə Əziz qızı Əliyeva 1985 ildə vəfat etmişdir. 2 övladı, 6 nəvəsi var.

ALIYEV HEYDAR ALIRZA OGLU

The President of Azerbaijan Republic

SHORT BIOGRAPHY

The whole life of Heydar Aliyev was devoted to people.

Heydar Alirza oglu Aliyev was born 10 th of May 1923 in ancient city of Nakhchivan, in the workers family. Aliyev graduated from Historical Department of Azerbaijan State University. In 1941-44 Heydar Aliyev occupied official position in Nakhchivan Autonomous Republic. From 1944 Aliyev worked in the Committee of State Security and in 1967-1969 he was the Chairman of same Committee. He was the first Azeri to occupy this high position and to become a General within the system of Committee of State Security.

In July, of 1969 Heydar Aliyev was elected the First Secretary of Central Committee of Azerbaijan Communist Party and leader of Republic. He occupied this position until December, 1982.

These 14 years are unforgettable years of development of economy, culture and national selfconsciousness of Azerbaijan people. During these years Heydar Aliyev became widely known as politician.

In December of 1982 Heydar Aliyev was promoted to the post of the first Deputy Prime Minister of the former USSR and worked there until October, 1987. Simultancously he was the member of Political Bureau of Central Committee of CPSU, i.e. he was one of the leaders of the country.

During 20 years Heydar Aliyev was the member of the Parliament of the Soviet Union, during five years he was Deputy Chairman of the Parliament.

As a result of disagreements and certain political opposition, in 1987 Heydar Aliyev sent in his resignation and left Political Bureau and Council of Ministers of the USSR.

In 1990, after agression againist Azerbaijan people and invasion of Soviet military troops Heydar Aliyev blamed this barbarous action and demanded punishment of guilty persons.

On 19th of July, 1991 Heydar Aliyev left Communist Party of the Soviet Union. As main reasons for such decision he indicated impunity of committees of bloody crime in January of 1990, hypocritical policy of Centre in Connection with Azerbaijan-Armenian conflict that resulted in suffering of both peoples and suppression of democratic Freedom in the Republic.

In 1990 Heydar Aliyev was elected the Deputy of Azerbaijan Republic, in 1991-1993 he was the Chairman of Supreme Majlis of Nakhchivan Autonomous Republic and Simultaneously-Deputy Chairman of Supreme Council of Azerbaijan Republic.

In June of 1993 Republic was at the verge of civil war. in order to normalize situation in Azerbaijan Heydar Aliyev was officially invited to come to Baku.

On 15 of June, 1993 Heydar Aliyev was elected the Chairman of Supreme Council of Azerbaijan, on 24 of June according to decision of National Assembly he was empowered as the President.

Short period he was able to achieve national consent and inner stability in society.

On the 3rd of October, 1993, as a result of elections, Heydar Aliyev was elected the President of Azerbaijan Republic.

On the 11th of October, 1998, as a result of elections, Heydar Aliyev was re-elected as President of Azerbaijan Republic for another presidential term.

The wife of Heydar Aliyev, famous ophthalmologist, member of Academy of Sciences of Azerbaijan Republic, professor Zarifa Aziz gyzy Aliyeva died in 1985.

Heydar Aliyev has a daughter, and a son and six grandchildren.





ABDULLAZADƏ FATMA HÜSEYN QIZI
Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Humanitar siyasət şöbəsinin müdiri

Abdullazade Fatma Huseyn gyzy
Head of the Department of Humanitarian Policy, President Machinery of the Azerbaijan Republic.

1948 il mayın 28-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini, 1991 ildə Moskva İctimai Elmlər Akademiyasını fərqlənmə diplomu ilə bitirmişdir. 1974 ildən Azərbaycan EA Riyaziyyat və Mexanika İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, 1985 ildən Azərbaycan EA partiya komitəsinin katibi, Azərbaycan KP MK elm və tədris müəssisələri şöbəsi müdirinin müavini, 1988 ildən Azərbaycan Neft Akademiyasında professor vəzifələrində işləmişdir. Moskva Aviasiya Akademiyasında müdafiə edərək (1988) fizika-riyaziyyat elmləri doktoru adı almışdır. 1993 ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiridir. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. Müasir riyaziyyatla bağlı araşdırmaları respublikamızda və xarici ölkələrdə nəşr olunmuşdur. Bir sıra elmi-populyar əsərlərin, metodik vəsaitlərin müəllifidir. Din, mədəniyyət və mənəviyyat problemlərinə həsr olunmuş bir neçə tədqiqat əsəri çap edilmişdir.
Ailəlidir, 2 övladı var.

Born 28 May 1948 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University. Head of the Department of Humanitarian Policy, President Machinery of the Azerbaijan Republic since 1993.
Married, has two children.



AĞAHÜSEYNOV TOFİQ YAQUB OĞLU
Azərbaycan Respublikası Prezidentinin Hərbi məsələlər üzrə köməkçisi, general-polkovnik

Agahuseynov Tofig Yagub oglu
Asistant President of the Azerbaijan Republic on Military Affairs, colonel-general.

1923 il fevralın 1-də Azərbaycan Respublikasının Şəki şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1941 ildə Zenit Artilleriyası Məktəbini, müharibədən sonra isə Hərbi Akademiyanı bitirmişdir. Sovet Ordusunda polk, diviziya, korpus komandiri vəzifələrində çalışmış, Böyük Vətən Müharibəsində iştirak etmişdir. Hava Hücumundan Müdafiə Qüvvələri Bakı Dairəsi komandirinin birinci müavini, Çexoslovakiya Respublikasında Varşava Müqaviləsi Silahlı Qüvvələrinin nümayəndəsi vəzifələrində işləmişdir. General-polkovnikdir. 1997 ildən Azərbaycan Respublikası Prezidentinin hərbi məsələlər üzrə köməkçisidir. "Oktyabr İnqilabı", I dərəcəli Vətən Müharibəsi ordenləri, üç "Qızıl Ulduz" və Çexoslovakiya Respublikasının "Qızıl Ulduz" ordenləri, bir çox medallarla təltif edilmişdir.

Born 1923 February 1 in Sheki, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Military Academy. Asistant President of the Azerbaijan Republic on Military Affairs since 1997.



ƏLƏSGƏROV FUAD MURTUZ OĞLU
Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri

Aleskerov Fuad Murtuz oglu
Head of the Department on Affair with Law-Protective Organs of the Executive Machinery of President of the Azerbaijan Republic

1959 il mayın 14-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.
1976 ildə burada 20 saylı şəhər orta məktəbini qızıl medalla, 1976-1981 illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1981 ildən Ədliyyə Nazirliyi Notariat və VVA İdarəsində məsləhətçi, nəzarət və icranın yoxlanması üzrə baş məsləhətçi, 1987 ildən Suraxanı rayonunun xalq hakimi vəzifələrində işləmişdir. 1990 ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin üzvü olmuşdur. 1994 ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiridir. Varşava şəhərində keçirilən Demokratik Təsisatlar və İnsan Hüquqları üzrə Beynəlxalq Simpoziumda respublika hüquqşünaslarını təmsil etmişdir (1994).
Evlidir, 2 övladı var.

Born 14 May 1959 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1981. Head of the Department on Affair with Law-Protective Organs of the Executive Machinery of President of the Azerbaijan Republic since 1994.
Married, has two children.



HƏSƏNOV ƏLİ MƏHƏMMƏDƏLİ OĞLU
Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı İctimai-siyasi şöbəsinin müdiri

Hasanov Ali Mahammedali oglu
Head of the Social-Political Department of the Executive Machinery of President of the Azerbaijan Republic.

1960 il martın 8-də Azərbaycan Respublikası Naxçıvan MR-in Şərur rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1988 ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və universitetin aspiranturasında saxlanılmışdır. 1991 ildə namizədlik dissertasiyası müdafiə etmişdir.
Yeni Azərbaycan Partiyasının yaradıcılarından biri kimi 1992 il noyabrın 21-də keçirilən təsis konfransında Siyasi Şuranın üzvü, I qurultayda isə İdarə Heyətinin üzvü seçilmişdir. 1993—1995 illərdə YAP ideologiya şöbəsinin müdiri vəzifəsində işləmişdir.
1995 ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı İctimai-siyasi şöbəsinin müdiridir. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasına rəhbərlik edir. Tarix elmləri namizədi, dosentdir. YUNESKO Beynəlxalq Kadr Akademiyasının həqiqi üzvüdür. 7 monoqrafiya, bir neçə toplu, 100-dən çox elmi-siyasi məqalənin müəllifidir.
Evlidir, 2 övladı var.

Born 1960 March 8 in Sharur district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the M.V.Lomonosov Moscow State University 1988. Head of the Social-Political Department of the Executive Machinery of President of the Azerbaijan Republic since 1995.
Married, has two children.

1950 il oktyabrın 20-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Amasiya rayonunun Güllübulaq kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Baytarlıq fakültəsini, Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu, Azərbaycan Universitetinin hüquq fakültəsini bitirmişdir.
1975—1978 illərdə Moskva şəhərində Ümumittifaq Baytarlıq Təcrübə İnstitutunun aspiranturasında oxumuşdur. Kənd təsərrüfatı elmləri namizədidir. 1978—1980 illərdə Azərbaycan Elmi-Tədqiqat Baytarlıq İnstitutunda baş elmi işçi, 1980—1984 illərdə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin idarə rəisi, 1984—1991 illərdə Azərbaycan KP MK-nın kənd təsərrüfatı şöbəsində təlimatçı, bölmə müdiri, 1991—1993 illərdə Azərbaycan Respublikasının Ali Sovetində müşavir vəzifələrində işləmişdir. 1993 ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiridir. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 16 elmi əsərin, 1 monoqrafiyanın müəllifidir.
Evlidir, 3 övladı var.

Born 1950 October 20 in Gullubulag village, Amasiya district, Armenia. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute; Azerbaijan State University. Chief of the Department on Affair with Territorial Management Organs of Executive Machinery of President of the Azerbaijan Republic since 1993.
Married, has three children.



HÜMBƏTOV YUSİF KƏRİM OĞLU
Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

Humbatov Yusif Kerim oglu
Chief of the Department on Affair with Territorial Management Organs of Executive Machinery of President of the Azerbaijan Republic.

1957 il iyulun 14-də Azərbaycan Respublikası Naxçıvan MR Naxçıvan rayonunun Nehrəm kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1974 ildə burada orta məktəbi, 1978 ildə Simferopol şəhərində ali təhsilini başa vurmuşdur. Bakıda ikiillik partiya məktəbini (qiyabi) 1981 ildə fərqlənmə diplomu ilə bitirmişdir. 1982—1988 illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində (qiyabi) təhsil almışdır. 1982 ildən Bakı şəhəri Səbail rayonunda orta məktəb müəllimi, 1982—1986 illərdə Azərbaycan LKGİ Səbail Rayon Komitəsi təşkilat şöbəsinin təlimatçısı, 1986—1991 illərdə rayon Xalq Nəzarəti Komitəsinin inspektoru, müavini, 1991 ildə isə Azərbaycan KP Səbail Rayon Komitəsi təşkilat şöbəsinin təlimatçısı, 1991—1992 illərdə Bakı "Xüsusisistemservis" istehsalat sahəsində hüquq məsləhətçisi, 1992—1994 illərdə Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyinin I dərəcəli müşaxəssisi, baş müşaxəssisi, müavini, 1994—1996 illərdə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Ümumi şöbəsi ümumi bölməsinin müdiri işləmişdir. 1996 il iyulun 9-dan Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Ümumi şöbəsinin müdiridir. 1990 ildə Səbail Rayon Xalq Deputatları Sovetinə deputat seçilmişdir.
Evlidir, 2 övladı var.

Born 14 July 1957 in Nehram village, Nakhchivan district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1988. Head of the General Department of the President Machinery, Azerbaijan Republic since 1996.
Married, has two children.



İSMAYILOV SÜLEYMAN ABBAS OĞLU
Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Ümumi şöbəsinin müdiri

Ismayilov Suleyman Abbas oglu
Head of the General Department of the President Machinery, Azerbaijan Republic.



KƏRİMOV VASİF ƏLİ OĞLU
Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Nəşr və tərcümə şöbəsinin müdiri

Kerimov Vasif Ali oglu
Head of the Publishing and Translation Department, Executive Machinery of President of the Azerbaijan Republic.

1937 il martın 9-da Qərbi Azərbaycanda (indiki Ermənistan) İrəvan şəhərində anadan olmuşdur. Azərbaycalıdır. 1948 ildə ailəliklə Azərbaycanın Xanlar şəhərinə köçürülmüşlər. 1955—1960 illərdə Azərbaycan Dövlət Universiteti filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Əmək fəaliyyətinə 1960 ildən Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin aparatında tərcüməçi kimi başlamışdır. Sonra burada məsləhətçi, baş məsləhətçi, tərcümə şöbəsinin müdiri, 1991—1997 illərdə Milli Məclis Aparatının Redaksiya—Nəşriyyat şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1997 ildən Respublika Prezidentinin İcra Aparatı Nəşr və tərcümə şöbəsinin müdiridir. SSRİ medalları, Azərbaycan Ali Sovetinin fəxri fərmanları ilə təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 9 March 1937 in Yerevan, Armenia. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1960. Head of the Publishing and Translation Department, Executive Machinery of President of the Azerbaijan Republic since 1997.
Married, has two children.



QULİYEV SƏLAHƏDDİN MƏLİK OĞLU
Azərbaycan Respublikası Prezidenti Mətbuat katibinin müavini

Guliyev Salaheddin Melik oglu
Vice-Secretary of the Press of President of the Azerbaijan Republic.

1958 il iyunun 13-də Azərbaycan Respublikası Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdur. 1980—1985 illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda təhsil almışdır. 1985-1989 illərdə "Bakı" və "Baku" axşam qəzetləri redaksiyasında ədəbi işçi, 1989-1991 illərdə "İttifaq teatr" Yaradıcılıq İstehsalat Birliyində redaktor, şöbə müdiri, direktor müavini vəzifələrində, 1992 ilin fevralınadək Azərbaycan Respublikası Mətbuat Komitəsi sistemində müxtəlif sahələrdə çalışmışdır. 1992—1993 illərdə Azərittifaqın mərkəzi aparatının Kadrlar idarəsi və metodoloji şöbəsində təlimatçı, baş təlimatçı işləmişdir. 1993 ilin dekabr ayından Azərbaycan Respublikası Prezidenti Mətbuat katibinin müavinidir.
Evlidir, 1 övladı var.

Born 1958 June 13 in Safikurd village, Goranboy district, Azerbaijan Republic. Graduated from the M.F.Akhundov Azerbaijan State Pedagogical Institute of Russian Language and Literature in 1985. Vice-Secretary of the Press of President of the Azerbaijan Republic since 1993.
Married, has one child.



MEHDİYEV RAMİZ ƏNVƏR OĞLU
Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri

Mehdiyev Ramiz Anvar oglu
Head of the Executive Machinery of President of the Azerbaijan Republic.

1938 il aprelin 17-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Orta məktəbi bitirdikdən sonra 1957 ildə Bakı Dənizçilik Məktəbində təhsil almışdır. Əmək fəaliyyətinə 1957 ildə "Xəzərdənizneftdonanması" idarəsində başlamışdır. 1961—1966 illərdə ADU-nun tarix fakültəsində təhsilini davam etdirmişdir. 1965 ildə Azərbaycan Komsomolunun MK-na işə dəvət olunmuşdur. 1965—1967 illərdə burada ali məktəb tələbələri şöbəsinin təlimatçısı, 1967—1968 illərdə Naxçıvan Vilayət Komsomol Komitəsinin ikinci katibi işləmişdir. 1968—1971 illərdə Lomonosov adına MDU-nun fəlsəfə fakültəsinin aspiranturasında təhsil almışdır. 1972 ildə dissertasiya müdafiə edərək fəlsəfə elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür. 1972—1974 illərdə ADU-da müəllim, 1974-1976 illərdə Azərbaycan KP MK Təbliğat və təşviqat şöbəsində mühazirəçi, 1976—1978 illərdə Azərbaycan KP MK-da Elm və Təhsil şöbəsi müdirinin müavini, 1978—1981 illərdə Azərbaycan KP 26 Bakı komissarı Rayon Komitəsinin birinci katibi və Azərbaycan KP MK-da Elm və Təhsil şöbəsinin müdiri, 1981-1983 illərdə Təşkilat-Partiya işi şöbəsinin müdiri, 1983—1988 illərdə Azərbaycan KP MK-da ideoloji məsələlər üzrə katib olmuşdur. 1988 ildən Azərbaycan Respublikası EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda politologiya şöbəsinin müdiri işləmişdir. Onun 2 monoqrafiyası, bir neçə kitabı və 100-dən artıq elmi məqaləsi çap olunmuşdur. 1993 ildə dissertasiya müdafiə edərək fəlsəfə elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. 1994—1995 illərdə Azərbaycan Respublikası Prezidenti İcra Aparatında şöbə müdiri işləmişdir. 1995 ilin fevralından Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri vəzifəsinə irəli çəkilmişdir. 1980—1990 illərdə Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. İki dəfə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 17 April 1938 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1966. Head of the Executive Machinery of President of the Azerbaijan Republic since 1995.
Married, has two children.

743
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI



MƏMMƏDOV NOVRUZ İSMAYIL OĞLU
Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Xarici əlaqələr şöbəsinin müdiri

Memmedov Novruz Ismayil oglu
Head of the Department of Foreign Relations of Executive Machinery of President of the Azerbaijan Republic.

1947 il martın 15-də Azərbaycan Respublikası Naxçıvan MR Naxçıvan rayonunun Şıxmahmud kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1970 ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu Avropa dilləri fakültəsinin fransız dili şöbəsini fərqlənmə diplomu ilə bitirmiş və institutda müəllim vəzifəsində saxlanmışdır.
1967—1968 illərdə Əlcəzairdə, 1971—1973 illərdə Qvineyada, 1978—1981 illərdə Əlcəzairdə tərcüməçi, baş tərcüməçi işləmişdir. 1991 ildə dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsini almışdır. 1992—1993 illərdə ADDİ-nin hazırlıq, 1993—1997 illərdə isə fransız dili fakültəsinin dekanı vəzifələrində işləmişdir.
1995—1997 illərdə Azərbaycan Respublikası Prezidentinin fransız dili üzrə tərcüməçisi olmuş və dəfələrlə onu Fransaya, Avropa Şurasına səfərlərdə müşayiət etmişdir. 1997 ilin aprel ayından Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı xarici əlaqələr şöbəsinin müdiridir.
20-dən artıq elmi məqalə və bir neçə kitabın müəllifidir. IX sinif üçün fransız dili dərsliyi "Le Fransais", "Fransız dilinin praktik fonetikası", "Terror haqqında həqiqət" (Erməni ekstremizmi: mənbəyi və səbəbləri) və b. misal göstərmək olar. Sonuncu kitab fransız dilindən rus dilinə tərcümədir. Siyasi və ictimai-siyasi mövzuya həsr olunmuş 100-dən artıq məqalənin müəllifidir. 1998 ildə Azərbaycan-Fransa dostluq münasibətlərinin möhkəmlənməsində xidmətlərinə görə Prezident Jak Şirak tərəfindən Fransanın Fəxri Legion Ordeninə layiq görülmüşdür.
Evlidir, 3 övladı var.

Born 15 March 1947 in Shykhmahmud village, Nakhchivan district, Azerbaijan Republic. Graduated from the M.F.Akhundov Azerbaijan State Pedagogical Institute of Foreign Languages in 1970. Head of the Department of Foreign Relations of Executive Machinery of President of the Azerbaijan Republic since 1997.
Married, has three children.



ORUCOV HİDAYƏT XUDUŞ OĞLU
Azərbaycan Respublikasının Milli Siyasət Məsələləri Üzrə Dövlət müşaviri

Orujov Hidayat Khudush oglu
State Counciller on the Affairs of National Policy of the Azerbaijan Republic.

1944 il sentyabrın 5-də Qərbi Azərbaycanda (indiki Ermənistan), Zəngəzur mahalı Mığrı rayonunun Maralzəmi kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1963 ildə Aldərə kənd orta məktəbini qızıl medalla bitirmişdir. 1963—1968 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə Maralzəmi kənd ibtidai məktəbində müdir kimi başlamışdır. 1966 ildən "Sovet Ermənistanı" qəzetində ədəbi işçi, 1968 ildən C.Cabbarlı adına İrəvan Dövlət Dram Teatrının direktoru, İrəvan Yazıçılar Birliyi Azərbaycan Şurasının sədri, 1984 ildən Bakıda "Gənclik" nəşriyyatının baş redaktor müavini, 1986 ildən baş redaktoru olmuşdur. Azərbaycan Yazıçılar Birliyinin (1978), Azərbaycan Jurnalistlər Birliyinin (1970), Teatr Xadimləri İttifaqının (1975) üzvüdür. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimidir (1991). 20-dən artıq şer, nəsr, tərcümə, publisistika və s. kitabların müəllifidir. Respublikanın ictimai-siyasi həyatı ilə bağlı elmi-publisistik kitabların tərtibçisi, ön söz müəllifi, məsləhətçi redaktoru, buraxılışına məsul olmuşdur. U.Şekspirin "Sonu yaxşı bitən iş yaxşı olar" dramını, H.B.Stounun "Tom dayının daxması" romanını, XIX əsr ingilis və island poeziyasından seçmələri, türk, rus, türkmən, osetin və başqa ədəbiyyatlardan nümunələri Azərbaycan dilinə çevirmişdir.
1992 ildən Azərbaycan Respublikası Prezidentinin Millətlərarası Münasibətlər Üzrə müşaviri, 1993 ildən isə Azərbaycan Respublikasının Milli Siyasət Məsələləri üzrə Dövlət müşavirdir. ABŞ, İsveçrə, Avstriya, Türkiyə, İran, Macarıstan və b. ölkələrdə xidməti səfərlərdə olmuşdur.
Evlidir, 3 övladı var.

Born 5 September 1944 in Maralzami village, Mygry district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1968. State Counciller on the Affairs of National Policy of the Azerbaijan Republic since 1993.
Married, has three children.



RƏHİMOV MAYIL SƏMƏD OĞLU
Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı İqtisadi siyasət şöbəsinin müdiri

Rahimov Mayil Samed oglu
Head of the Department of Economic Policy Executive Machinery of President of the Azerbaijan Republic.

1943 ildə Qərbi Azərbaycanın (indiki Ermənistan) Zəngibasar rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. Əmək fəaliyyətinə 1960 ildə fəhləliklə başlamışdır. İşləməklə yanaşı Xalq Təsərrüfatı İnstitutunda təhsilini davam etdirmiş və oranı 1969 ildə maliyyə və kredit ixtisası üzrə qurtarmışdır.
1966—1986 illərdə Dövlət Plan Komitəsində və onun nəzdindəki Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda elmi işçi, şöbə müdirinin müavini, şöbə müdiri, 1986—1991 illərdə Azərbaycan Dövlət Neft Akademiyasında dosent vəzifələrində işləmişdir. Hazırda Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında İqtisadi siyasət şöbəsinin müdiridir. İqtisad elmləri namizədi, dosentdir. 3 kitabın, o cümlədən, "Beynəlxalq maliyyə" dərsliyinin və 70-ə yaxın elmi məqalənin müəllifidir. Elmi əsərləri iqtisadi inkişaf, investisiyalar, maliyyə məsələlərinə, xarici iqtisadi əlaqələrə və digər makroiqtisadi problemlərə həsr olunmuşdur.
Evlidir, 2 övladı var.

Born 1943 in Zengibasar district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1969. Head of the Department of Economic Policy Executive Machinery of President of the Azerbaijan Republic. Married, has two children.



SEYİDZADƏ DİLARƏ BAĞIR QIZI
Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi, Prezidentin köməkçisi

Seyidzade Dilare Bagyr gyzy
Chief of the Secretariat of President of the Azerbaijan Republic, Assistant President.

1939 il oktyabrın 25-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1961 ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1961—1978 illərdə Azərbaycan EA Tarix İnstitutunda baş laborant, kiçik elmi işçi, 1978—1983 illərdə Azərbaycan Dövlət Konservatoriyasında baş müəllim, 1983—1993 illərdə Azərbaycan EA Tarix İnstitutunda baş elmi işçi, aparıcı elmi işçi, 1993-1997 illərdə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Humanitar siyasət şöbəsində böyük məsləhətçi, 1997—1998 illərdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, 1998—1999 illərdə Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəis müavini, Prezidentin köməkçisi vəzifələrində işləmişdir 1999 ilin oktyabr ayından Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi, Prezidentin köməkçisidir. Tarix elmləri doktorudur (1993). 3 monoqrafiya, 30-dan çox elmi məqalənin müəllifidir. Yeni Azərbaycan Partiyasının üzvüdür.

Born 1939 October 25 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University 1961. Chief of the Secretariat of President of the Azerbaijan Republic, Assistant President since 1999.



VƏLİZADƏ ELMİR TOFİQ OĞLU
Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı İnformasiya resursları və texnologiyaları mərkəzinin rəhbəri

Velizade Elmir Tofig oglu
Head of the Centre Information Resources and Technologies of the Executive Machinery of Prezident of the Azebaijan Republic

1964 ildə Azərbaycan Respublikasının Mingəçevir şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1981 ildə Bakı şəhərində orta məktəbi bitirdikdən sonra bir il Sənaye Tikintisi Nazirliyi 4 saylı Trestinin 45 saylı Tikinti İdarəsində betonçu işləmişdir. 1989 ildə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunu bitirmişdir. Təhsildə fərqləndiyinə görə təyinat üzrə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda saxlanılmış, Hesablama Mərkəzində mühəndis vəzifəsində çalışmış və EHM və proqramlaşdırma kafedrasında dərs demişdir. Eyni zamanda kafedranın dissertantı olaraq süni intellekt elmi istiqaməti üzrə ekspert sistemlərin yaradılması mövzusu ilə elmi fəaliyyət göstərmişdir. Bir neçə elmi məqaləsi vardır. Tədris vəsaitlərinin işlənilməsində iştirak etmişdir. 1991 ildən Azərbaycan Respublikası Prezidenti Aparatında çalışır. 1998 ildən Respublika Prezidentinin İcra Aparatı İnformasiya Resursları və Texnologiyaları Mərkəzinin rəhbəridir.

Born 1964 in Mingachevir, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1989. Head of the Centre Information Resources and Technologies of the Executive Machinery of Prezident of the Azebaijan Republic since 1998.


MİLLİ
MƏCLİS



ABASOVA ADİLƏ ZİYAT QIZI
Azərbaycan Respublikası Milli Məclisi Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri

Abasova Adila Ziyat gyzy
Head of Department of Social Legislation, Machinery of the Milli Mejlis of the Azerbaijan Republic

1942 il avqustun 3-də Azərbaycan Respublikasının Zəngilan rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1959—1964 illərdə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsində təhsil almışdır. Fizika-riyaziyyat elmləri doktoru (1987), professordur (1995). Əmək fəaliyyətinə 1964 ildə Azərbaycan EA Fizika İnstitutunda aspirant kimi başlamışdır. Sonra həmin institutda kiçik elmi işçi, baş elmi işçi, 1974 ildən Moskva şəhərindəki "Tətbiqi fizika" Elmi-Tədqiqat İnstitutunda baş elmi işçi, laboratoriya müdiri, 1992 ildən Azərbaycan Respublikası Ali Soveti Katibliyinin Sosial-mədəni qanunvericilik şöbəsində bölmə müdiri, daimi komissiyalar katibliyinin müdiri, şöbə müdiri vəzifələrində işləmişdir. 1995 ildən Azərbaycan Respublikası Milli Məclisi Aparatının Sosial qanunvericilik şöbəsinin müdiridir. Eyni zamanda Bakı Dövlət Universitetinin Yarımkeçiricilər fizikası kafedrasında professor vəzifəsində çalışır. Elmi tədqiqatlarının istiqaməti yarımkeçiricilər fizikasıdır. 100-dan çox elmi əsərin, 5 ixtiranın müəllifidir.
Ailəlidir, 1 övladı var.

Born 1942 August 3 in Zangilan district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1964. Head of Department of Social Legislation, Machinery of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has one child.



ABBASOV ƏLİ MƏMMƏD OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru

Abbasov Ali Memmed oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic, Rector of the Azerbaijan State Economic University

1953 il yanvarın 1-də Azərbaycan Respublikası Naxçıvan MR-ın Şahbuz rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1976 ildə Moskva Energetika İnstitutunun avtomatika və hesablama texnikası fakültəsini bitirmiş, 1977—1980 illərdə Ukrayna EA-nın aspiranturasında təhsil almışdır.
Azərbaycan EA İnformasiya-Telekommunikasiya Elmi Mərkəzinin direktoru, Azərbaycan Texniki Universitetinin professoru vəzifələrində işləmişdir. Hazırda Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Dövlət İqtisad Universitetinin rektorudur. Texnika elmləri doktoru, professordur. 100-ə qədər elmi əsərin, o cümlədən 3 monoqrafiya və 2 dərsliyin müəllifidir. Bir çox beynəlxalq layihələr və proqramlar üzrə aparılan elmi-texniki işlərin rəhbəri, NATO Elm departamentinin Azərbaycan Respublikası üzrə əlaqələndiricisidir. Avropa İNTERNET Assosiasiyasında Azərbaycanı təmsil edir (1995). Kembric Biblioqrafiya Mərkəzində 1991—1992 və 1995—1996 illərdə texnika və texnologiya sahəsində "İlin beynəlxalq adamı" hesab edilmişdir. 1994 ildən YUNESKO-da informasiya və telekommunikasiya üzrə ekspertdir. 1997 ildə Nyu-York EA-nın, 1998 ildə Beynəlxalq İnformatizasiya Akademiyasının həqiqi üzvü seçilmişdir.
Evlidir, 2 övladı var.

Born 1953 January 1 in Shahbuz district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Moscow Energy Institute in 1976. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic, Rector of the Azerbaijan State Economic University at present.
Married, has two children.



ABIYEV ƏHƏD MİKAYIL OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Abiyev Ahad Mikayil oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1958 il yanvarın 15-də Azərbaycan Respublikasının Masallı rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1985 ildə Azərbaycan İqtisad İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə Masallı Konserv Zavodunda başlamışdır. 1979 ildən Azərbaycan Respublikası Avtomobil Nazirliyinin 1 saylı tikinti-quraşdırma idarəsində usta, 1980 ildən Bakı şəhər Mənzil İdarəsində texnik, 1982 ildən Azərittifaqın Universal bazasında iqtisadçı, 1984 ildən Bakı şəhər Soveti İcraiyyə Komitəsində böyük müfəttiş, böyük iqtisadçı, 1991 ildən Bakı Şəhər İcra Hakimiyyəti əhalinin sosial müdafiəsi və məşğuliyyəti şöbəsinin rəisi vəzifələrində işləmişdir. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Evlidir, 2 övladı var.

Born 1958 January 15 in Masally district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Economic Institute in 1985. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has two children.



ALLAHVERDİYEV RƏFAEL XANƏLİ OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Allahverdiyev Rafael Khanali oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1945 il mayın 9-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1974 ildə İctimai Elmlər Akademiyasını, 1994 ildə "Qərb Universiteti"ni bitirmişdir. Əmək fəaliyyətinə "Qaradağneft" NMİ-də operator kimi başlamışdır. Serebrovski adına NMİ-də çilingər, sahə rəisi, Orconikidze Rayon Partiya Komitəsində təlimatçı işləmişdir. 1971 ildən Azərbaycan KP MK-da təlimatçı, partiya-təşkilat işi şöbəsinin inspektoru, ümumi şöbə müdirinin müavini, 1983 ildən Azərbaycan KP Nərimanov Rayon Komitəsinin birinci katibi, 1989 ildən respublika Ayıqlıq və Sağlamlıq Cəmiyyəti sədrinin müavini, Azərbaycan Respublikası Beynəlxalq Bankında İşlər müdiri, 1993 ilin iyul ayından Bakı Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrində çalışmışdır. 1985—1990 illərdə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. 2000 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. YAP Siyasi Şurasının üzvüdür.
Evlidir, 2 övladı var.

Born 1945 May 9 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Academy of Social Sciences in 1974; "West University" in 1994. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 2000.
Married, has two children.




ANAR (RZAYEV ANAR RƏSUL OĞLU)
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Yazıçılar Birliyinin sədri

Anar (Rzayev Anar Rasul oglu)
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic, Chairman of the Azerbaijan Writers Union.

1938 il martın 14-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1960 ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1960 ildə Azərbaycan EA Nizami adına Ədəbiyyat Muzeyində elmi işçi kimi başlamış, 1961 ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor, şöbə müdiri işləmişdir. 1964 ildə Moskvada Ali ssenari, 1972 ildə rejissor kurslarını bitirmişdir. 1968 ildən "Qobustan" incəsənət toplusunun baş redaktoru, 1987 ildən Azərbaycan Yazıçılar İttifaqının birinci katibi olmuşdur. 1991 ildən Azərbaycan Yazıçılar Birliyinin sədridir. Azərbaycanın Əməkdar incəsənət xadimi (1976), respublika Dövlət mükafatı laureatıdır (1980). 1983 ildə Asiya və Afrika Ölkələri ilə Respublika Həmrəylik Komitəsinin sədri, SSRİ Xalq deputatı, Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 40-dan artıq bədii və publisistik kitabı vardır. Bir neçə bədii filmin ssenari müəllifi və quruluşçu rejissorudur. "Literaturnoye obozreniye" jurnalının mükafatını almışdır (1987). "Şərəf nişanı" ordeni (1986) və İstiqlal ordeni ilə (1998) təltif olunmuşdur. 2000 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Mədəniyyət Məsələləri Daimi Komissiyasının sədridir.
Evlidir, 2 övladı var.

Born 1938 March 14 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1960. Chairman of the Azerbaijan Writers Union since 1991.
Married, has two children.



BABAYEV AQŞİN ƏLİSƏTTAR OĞLU
Azərbaycan Respublikası Milli Məclisi Aparatı Mətbuat xidmətinin müdiri

Babayev Agshin Alisattar oglu
Head of the Press Service of the Machinery of the Milli Mejlis, Azerbaijan Republic.

1936 il noyabrın 23-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1954—1959 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1958 ildə tələbə ikən "Avtomobil nəqliyyatçısı" qəzetində başlamışdır. 1959 ildən Teleradio Komitəsində kiçik redaktor, redaktor, sədr müavini vəzifələrində işləmişdir. 1991 ildən Azərbaycan Respublikası Milli Məclisi Aparatı Mətbuat Xidmətinin müdiridir. Azərbaycan Yazıçılar Birliyinin (1978) və Jurnalistlər Birliyinin (1961) üzvüdür. Filologiya elmləri namizədi (1967), Milli Yaradıcılıq Akademiyasının filologiya doktorudur (1991). 14-dən çox elmi və bədii kitabın, o cümlədən "Nazim Hikmət" (1978), "Müasir türk dramaturgiyasında ictimai motivlər" (1982) monoqrafiyalarının və bir çox tərcümə əsərlərinin müəllifidir. "Əmək rəşadətinə görə" (1970), "Əmək veteranı" medalları, "SSRİ televiziya və radio əlaçısı" nişanı (1980) və Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı (1986) ilə təltif olunmuşdur.
Evlidir, 2 övladı var.

Born 1936 November 23 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1959. Head of the Press Service of the Machinery of the Milli Mejlis, Azerbaijan Republic since 1991.
Married, has two children.




BAXŞƏLİYEVA GÖVHƏR BAXŞƏLİ QIZI
Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini

Bakhshaliyeva Govhar Bakhsali gyzy
Vice-Chairman of the Milli Mejlis of the Azerbaijan Republic.

1954 il noyabrın 26-da Azərbaycan Respublikasının Bərdə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1977 ildə ADU şərqşünaslıq fakültəsininin ərəb şöbəsini fərqlənmə diplomu ilə bitirmişdir. Həmin ildən Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunda baş laborant, kiçik elmi işçi, elmi işçi, baş elmi işçi, şöbə müdiri, 1993 ildən diretkor müavini, 1997 ildən direktor vəzifələrində işlçəmişdir. 2000 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatı, 2001 ilin iyun ayından Milli Məclis sədrinin müavinidir.
1984 ildə namizədlik, 1996 ildə doktorluq dissertasiyaları müdafiə etmişdir. Filologiya elmləri doktorudur. 6 kitab, 60-dan çox elmi məqalənin müəllifidir.

Born 1954 November 26 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1977. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 2000; Vice-Chairman of the Milli Mejlis since 2001.



BƏXTİYAR VAHABZADƏ (VAHABZADƏ BƏXTİYAR MAHMUD OĞLU)
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Xalq şairi, MEA-nın həqiqi üzvü

Vahabzade Bakhtiyar Mahmud oglu
Deputy of the Milli Mejlis of Azerbaijan Republic. Peoples Poet.

1925 ildə Azərbaycan Respublikasının Şəki şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1942—1947 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almış, burada aspiranturada saxlanmışdır. Universitetdə müəllim, baş müəllim, professor kimi çalışmış, eyni zamanda elmi tədqiqatla məşğul olmuşdur. 1943 ildən şair və dramaturq kimi bədii yaradıcılığını ardıcıl davam etdirir.
Azərbaycanın Xalq şairi (1984), filologiya elmləri doktoru (1964), Azərbaycan Respublikası MEA-nın həqiqi üzvü (2001), Əməkdar incəsənət xadimi (1974), Azərbaycan Dövlət mükafatı (1976) və M.F.Axundov adına Ədəbi mükafat (1989) laureatıdır. 1990 və 1995 illərdə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır. 50-dən artıq kitabın müəllifidir. Pyesləri Azərbaycan Dövlət Akademik Dram Teatrında tamaşaya qoyulmuşdur. Qırmızı Əmək Bayrağı, "Şöhrət" ordenləri və medallarla təltif olunmuşdur.

Born 1925 in Sheki, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1947. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1990.



ƏLƏSGƏROV MURTUZ NƏCƏF OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin sədri

Aleskerov Murtuz Najaf oglu
Chairman of the Milli Mejlis of the Azerbaijan Republic.

1928 il sentyabrın 20-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1944 ildə Gəncə şəhər 28 saylı Orta Məktəbini bitirmişdir. 1945—1950 illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır.
Əmək fəaliyyətinə Bakı Dövlət Universitetində baş müəllim kimi başlamışdır. 1953—1956 illərdə BDU-da baş müəllim, dosent, 1957 ildən konstitusiya kafedrasının müdiri, 1993—1997 illərdə Bakı Dövlət Universitetinin rektoru olmuşdur. Hazırda Azərbaycan Respublikası Milli Məclisinin sədridir.
Beynəlxalq hüquq sahəsində tədqiqatlar aparmışdır. "Bərabərhüquqlu əməkdaşlıq" (1975), "Təbiət və qanun" (1980), "Konstitusiyaya əməl etmək hamının borcudur" (1982), "Asiya və Afrika dövlətlərinin hüquqi subyektliyi" (1976) kimi bir sıra monoqrafik əsərlərin və dərsliklərin müəllifidir. Hüquq elmləri doktoru, Beynəlxalq Hüquq Assosiasiyasının (1960), Jurnalistlər İttifaqının (1980) üzvü, Əməkdar hüquqşünas (1980), "Bilik" cəmiyyətinin üzvüdür (1955).
Evlidir, 3 övladı var.

Born 1928 September 20 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1950. Chairman of the Milli Mejlis of the Azerbaijan Republic since 1995. Married, has three children.



CƏFƏROV ƏHMƏD MƏMMƏDBAĞIR OĞLU
Azərbaycan Respublikası Milli Məclisi İşlər İdarəsinin müdiri

Jafarov Ahmad Memmedbagyr oglu
Head of the Managing Department of the Milli Mejlis of the Azerbaijan Republic.

1951 il aprelin 21-də Azərbaycan Respublikası Naxçıvan MR-in Şərur rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1972 ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini bitirmiş və təyinatla tikinti-quraşdırma idarəsinə göndərilmişdir. 1980 ilədək həmin idarədə iş icraçısı, baş mühəndis işləmişdir. 1980 ildən Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyətində mütəxəssis, baş mütəxəssis, referent, baş referent, məsləhətçi, baş məsləhətçi, 1993 ildən Milli Məclisdə İşlər müdirinin müavini vəzifələrində çalışmışdır. 1997 ilin may ayından İşlər İdarəsinin müdiridir.
Evlidir, 4 övladı var.

Born 1951 April 21 in Sharur district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1972. Head of the Managing Department of the Milli Mejlis of the Azerbaijan Republic since 1997. Married, has four children.



ƏLİYEV İLHAM HEYDƏR OĞLU
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, respublika Milli Olimpiya Komitəsinin prezidenti, Milli Məclisin deputatı

Aliyev Ilham Haydar oglu
Depute of the Milli Mejlis of the Azerbaijan Republic, Vice-president of Azerbaijan State Oil Company

1961 il dekabrın 24-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1977 ildə Bakı şəhərindəki 6 saylı orta məktəbi bitirmişdir. 1977—1982 illərdə Moskva şəhərində Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda təhsil almışdır. İxtisasca diplomatdır.
Əmək fəaliyyətinə 1982 ildə başlamışdır. 1982 ildən Moskva şəhərində Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda aspirant, müəllim,1991 ildən Moskva şəhərində "Orient" Şirkətinin Baş direktoru işləmişdir. 1994 ildə Azərbaycan Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti vəzifəsinə təyin olunmuşdur. 1997 ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, həmin il Milli Olimpiya Komitəsinin prezidenti seçilmişdir. 1985 ildə namizədlik dissertasiyası müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsini almışdır.
Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir (1995, 2000). Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.
Evlidir, 3 övladı var.

Born 24 December 1961 in Baku, Azerbaijan Republic. Graduated from the State Institute of International Relations in 1982, in Moscow. Vice-President of the Azerbaijan State Oil Company since 1994; deputy of the Milli Mejlis of the Azerbaijan Republic sinse 1995.
Married, has three children.



ƏLİRZAYEV ƏLİ QƏNBƏRƏLİ OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Alirzayev Ali Ganbarali oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1945 ildə Azərbaycan Respublikası Naxçıvan MR Babək rayonunun Nehrəm kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1963—1968 illərdə Azərbaycan Politexnik İnstitutunda təhsil almışdır. İqtisad elmləri doktorudur (1985). 1973 ildən Azərbaycan EA İqtisadiyyat İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri, 1986 ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda elmi işlər üzrə prorektor, 1987 ildən İqtisad İnstitutunda direktor müavini, professor, 1991 ildən Naxçıvan Dövlət Universitetinin kafedra müdiri, 1993 ildən Azərbaycan Dövlət İqtisad İnstitutunun professoru olmuşdur. 1997 ildən həmin institutda kafedra müdiri vəzifəsində işləyir.
1997 ilin may ayında Milli Məclisə deputat seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır. 150-yə qədər elmi məqalənin, 10 monoqrafiyanın müəllifidir.
Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.
Evlidir, 3 övladı var.

Born 1945 in Nehram village, Babek district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1968. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1997.
Married, has three children.



ƏLİYEV CƏLAL ƏLİRZA OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan MEA-nın həqiqi üzvü

Aliyev Jalal Alirza oglu
Member of the Azerbaijan National Academy of Sciences. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1928 il iyun ayının 30-da Azərbaycan Respublikası Naxçıvan MR-ın Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Naxçıvan Müəllimlər İnstitutunu (1944) və ADU-nun biologiya fakültəsini (1951) fərqlənmə diplomu ilə, Azərbaycan EA-nın bitkilərin fiziologiyası ixtisası üzrə aspiranturasını (1954) qurtarmışdır.
1955 ildə namizədlik dissertasiyasını, 1971 ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. Azərbaycan Respublikası EA-nın akademiki (1980), Rusiya Kənd Təsərrüfatı EA-nın həqiqi üzvü (1995), Ukrayna EA (1995) və Belorusiya Aqrar EA-nın (1996) həqiqi üzvü, Nyu-York EA-nın (1995) üzvü, Azərbaycan Respublikası EA Botanika İnstitutunun məhsuldarlıq proseslərinin molekulyar-genetik əsasları şöbəsinin və Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi Əkinçilik İnstitutu bitkilərin fiziologiyası şöbəsinin müdiridir. Uzun illərdir ki, kənd təsərrüfatı bitkilərinin, başlıca olaraq buğdanın məhsuldarlıq proseslərinin nəzəri əsası kimi fotosintezin kompleks şəkildə tədqiq olunmasını inkişaf etdirir. Bu tədqiqatlar bitkilərin məhsuldarlığının fizioloji, biokimyəvi və molekulyar genetik əsaslarını, həmçinin məhsuldarlıq proseslərini, bitki orqanizminin həyat fəaliyyətinin quruluş-funksional təşkilini bütün səviyyələrdə — molekulyardan bütün bitki və əkinə kimi tədqiqini əhatə edir.
Fotosintez yolu ilə buğdanın göstərici əlamətləri, morfo-fizioloji və aqronomik xüsusiyyətləri, xarici mühitin amillərinin tədqiqi və buğda geotiplərinin real və potensial imkanlarının öyrənilməsi ilə "ideal buğda" tipinin bioloji məhsuldarlığını və yüksək dən məhsuldarlığını müəyyənləşdirən prinsiplər təyin edilmişdir. Fotosintezin ilkin proseslərinin bitkilərin məhsuldarlığı ilə əlaqəsi ideyasını ilk dəfə 1970 illərin əvvəllərində irəli sürmüş və onun kollektivində aparılan çoxlu müxtəlif eksperimentlərlə sübut etmişdir. Azərbaycanda fiziki-kimyəvi biologiya sahəsində tədqiqatları inkişaf etdirməklə molekulyar biologiyanın, molekulyar genetikanın və gen biotexnologiyasının respublikada inkişafının əsasını qoymuşdur.
Biologiya, kimya, fizika, riyaziyyat, aqrokimya üzrə gənc mütəxəssislərdən ibarət elmi kollektiv yaradılmışdır.
350-dən artıq elmi əsərin, o cümlədən 12 monoqrafiya və kitabın müəllifidir. Azərbaycan Respublikasının Əməkdar elm xadimidir (1982). İki dəfə Qırmızı Əmək Bayrağı, "İstiqlal" ordenləri və medallarla təltif edilmişdir.
Evlidir, 1 övladı var.

Born 30 June 1928 in Nakhchivan city, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1957. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has one child.



ƏLİYEV KƏRƏM QARA OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Aliyev Kerem Gara oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1950 il aprelin 1-də Azərbaycan Respublikasının Cəbrayıl rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1974 ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu, 1992 ildə Türkiyədə "Özəlləşdirmə və sərbəst bazar iqtisadiyyatı" kursunu bitirmişdir.
Əmək fəaliyyətinə 1966 ildə "Azərneftyoltəmirtikinti" trestində fəhləliklə başlamışdır. 1970 ildə Azərbaycan Respublikası Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda böyük laborant, Respublika Kolxozlararası Kökəltmə Birliyində böyük iqtisadçı, Kənd Təsərrüfatı Nazirliyinin Baş Maliyyə İdarəsində böyük, baş iqtisadçı, 1979 ildən nazirliyin Plan-İqtisad və Maliyyə İdarəsinin rəisi, 1986 ildən respublika Nazirlər Kabinetində böyük referent, aparıcı mütəxəssis və bölmə müdiri, 1993 ildən Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrində işləmişdir. 2000 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.
Evlidir, 3 övladı var.

Born 1950 April 1 in Jabrayil district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1974. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 2000.
Married, has three children.



ƏLİYEV QULAMHÜSEYN SURXAY OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Aliyev Gulamhuseyn Surkhay oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic

1958 ildə Azərbaycan Respublikası Masallı rayonunun Köhnə Alvadı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
1984 ildən həmin universitetin Konstitusiya hüququ kafedrasında müəllim, 1992 ildən Azərbaycan Respublikası Ali Soveti Aparatında əvvəlcə konstitusiya hüquq məsələləri bölməsinin müdiri, sonra dövlət quruculuğu şöbəsinin müdiri, Azərbaycan Respublikası Prezidentinin parlamentlə əlaqələr üzrə müşaviri vəzifələrində işləmişdir. 1989 ildən AXC-nin, 1990 ildən AXC Ali Məclisinin üzvü, 1992 ildən AXC Ali Məclisinin sədridir. 2000 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.
Evlidir, 4 övladı var.

Born 1958 in Kohna Alvady village, Masally district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku State University in 1984. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has four children.



ƏLİYEV ŞAİTDİN SƏRDAR OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Aliyev Shaitdin Sardar oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1947 il oktyabrın 18-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə 156 saylı orta məktəbdə komsomol komitəsinin katibi kimi başlamışdır. 1969 ildən Bakı Şəhəri M.Əzizbəyov Rayon Komsomol Komitəsində şöbə müdiri, Azərbaycan komsomolunun Mərkəzi Komitəsində təlimatçı, 1973 ildən Bakı Şəhəri M.Əzizbəyov Rayon Partiya Komitəsində təlimatçı, rayon Komsomol Komitəsinin birinci katibi, 1977 ildən Bakı Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsində əmək müvəkkili, 1977 ildən Bakı şəhəri 156 saylı orta məktəbdə direktor müavini, 1978 ildən Bakı şəhəri 112 saylı texniki peşə məktəbində direktor, 1981 ildən Bakı şəhəri Binə qəsəbə Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, 1985 ildən Bakı Şəhəri Şüvəlan Qəsəbə Xalq Deputatları Sovetinin sədri vəzifələrində işləmişdir. 1990 ildə Azərbaycan Respublikası Ali Sovetinin deputatı, sonra Azərbaycan Respublikası MM-nin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
"Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir (1976).
Evlidir, 5 övladı var.

Born 1947 October 18 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1971. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 2000.
Married, has five children.



ƏLİYEV YAŞAR TOFİQİ
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Aliyev Yashar Tofigi
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1948 il iyulun 5-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1965—1971 illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda təhsil almışdır. Bakı şəhəri Əzizbəyov Rayon Komsomol Komitəsinin birinci katibi olmuş, həkim, baş həkim kimi fəaliyyət göstərmişdir. Professordur. 1990 ildə Azərbaycan Respublikası Ali Sovetinə deputat, 1994 ilin oktyabrından Milli Məclisin deputatı seçilmişdir. 2000 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.
Evlidir, 2 övladı var.

Born 5 July 1948 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Medical Institute in 1971. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has two children.



ƏMİROV CƏMALƏDDİN ABBAS OĞLU
Azərbaycan Respublikası Milli Məclisi İşlər İdarəsi müdirinin müavini

Amirov Jamaladdin Abbas oglu
Vice-Head of the Managing Department of Milli Mejlis of the Azerbaijan Republic.

1956 ildə Qərbi Azərbaycanda (indiki Ermənistan) Qafan rayonunda anadan olmuşdur. Azərbaycalıdır. 1975—1980 illərdə Azərbaycan Neft və Kimya İnstitutunda təhsil alaraq geofizik ixtisasına yiyələnmişdir. 1980-1985 illərdə Rusiya Federasiyasının Samara, sonra da Qərbi Sibirin Surqut şəhərində ayrı-ayrı vəzifələrdə çalışmışdır. 1986—1989 illərdə "Xəzərneftgeofizik" trestində aparıcı geofizik, 1989—1991 illərdə Hindistanda kontrakt əsasında, 1991—1993 illərdə "Xəzərneftgeofizik" trestində, 1993 ildən Milli Məclisin İşlər İdarəsində müxtəlif vəzifələrdə işləmişdir. Hazırda Milli Məclis İşlər İdarəsi müdirinin müavinidir.
Evlidir, 3 övladı var.

Born 1956 in Gafan district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1980. Vice-Head of the Managing Department of Milli Mejlis of the Azerbaijan Republic.
Married, has three children.



ƏSƏDOV OQTAY SABİR OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Abşeron Regional Səhmdar Su Cəmiyyətinin prezidenti

Asadov Ogtay Sabir oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic, President of the Absheron Regional Stock Water Company

1955 il yanvarın 3-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Qafan rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1976 ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir. 1976 ildən Bakı Məişət Kondisionerləri Zavodunda usta köməkçisi, usta, 1979 ildən respublika Baş Quraşdırma Xüsusi İnşaat İşləri İdarəsində böyük mühəndis, 1981 ildən "Azərtexmontaj" trestində baş texnoloq, rəis, Layihə Quraşdırma Birliyinin rəisi, 1991 ildən "Santexmontaj" trestinin rəisi, "Santexmontaj" İstehsalat Birliyinin rəisi vəzifələrində işləmişdir. 1996 ilin fevral ayından Abşeron Regional Səhmdar Su Cəmiyyətinin prezidentidir. 2000 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.
Evlidir, 2 övladı var.

Born 1955 January 3 in Gafan district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1976. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 2000.
Married, has two children.

1956 il yanvarın 18-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1973—1978 illərdə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində təhsil almışdır. Filologiya elmləri namizədidir. 1978 ildən Azərbaycan Respublikası EA Əlyazmalar İnstitutunda baş laborant , kiçik elmi işçi, "Elm" qəzetinin baş redaktor müavini, 1992 ildən "Səs" qəzetinin baş redaktoru işləmişdir. 1995 ildən Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Evlidir, 2 övladı var.

Born 1956 January 18 in Baku, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1978. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has two children.



ƏSGƏROV AĞABƏY MƏMMƏD OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Askerov Agabey Memmed oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1941 il iyunun 15-də Azərbaycan Respublikası Kəlbəcər rayonunun Xallanlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1958—1963 illərdə Azərbaycan Dövlət Universitetində təhsil almışdır.
1963 ildən Azərbaycan Dövlət Universitetinin fizika fakültəsində laborant, müəllim, baş müəllim, dosent, dekan müavini, professor, prorektor vəzifələrində çalışmışdır. Fizika-riyaziyyat elmləri doktoru (1992), professordur (1993). Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür (1995). 130-dan çox elmi məqalənin, 2 ixtiranın və 40-dan çox publisist məqalənin müəllifidir. 1995 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır. Elm və Təhsil Məsələləri Daimi Komissiyasının sədridir.
Evlidir, 2 övladı var.

Born 1941 June 15 in Khallanly village, Kelbajar district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1963. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.
Married, has two children.



ƏSGƏROV ŞAHLAR QAÇAY OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Askerov Shahlar Gachay oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.



ƏSGƏROV ZİYAFƏT ABBAS OĞLU
Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini

Askerov Ziyafat Abbas oglu
Vice-Chairman of the Milli Mejlis of the Azerbaijan Republic.

1963 il oktyabrın 24-də Azərbaycan Respublikası Naxçıvan MR Babək rayonunun Aşağı Uzunoba kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1985—1990 illərdə Bakı Dövlət Universitetində təhsil almışdır.
1990 ildən Bakı Dövlət Universiteti Konstitusiya hüququ kafedrasında işləmişdir. 2000 ildən Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavinidir. Təhlükəsizlik və Müdafiə Məsələləri Daimi Komissiyasının sədridir. Hüquq elmləri namizədi, dosentdir. Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir, 1 övladı var.

Born 1963 October 24 in Ashagy Uzunoba village, Babek district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku State University in 1990. Vice-Chairman of the Milli Mejlis of the Azerbaijan Republic since 2000.
Married, has one child.



ƏYYUBOV ŞİRZAD ŞAHBAZ OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Eyyubov Shirzad Shahbaz oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1953 il yanvarın 1-də Azərbaycan Respublikası Ağsu rayonunun Gəgəli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1974—1980 illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda təhsil almışdır.
Əmək fəaliyyətinə 1970 ildə Şamaxı rayonunun üzümçülük sovxozunda fəhlə kimi başlamışdır. 1980 ildən Şamaxı rayonu Çarhan kənd, 1982 ildən Adnalı kənd orta məktəblərində rus dili və ədəbiyyatı müəllimi, 1992 ildən Şamaxı rayon İcra Hakimiyyəti başçısının birinci müavini və başçısı vəzifələrində işləmişdir. 1996 ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Evlidir, 2 övladı var.

Born 1953 January 1 in Gegeli village, Agsu district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the M.F.Akhundov Azerbaijan Pedagogical Institute of Russian Language and Literature in 1980. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1996.
Married, has two children.

1956 il sentyabrın 15-də Azərbaycan Respublikası Yardımlı rayonunun Talavar kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1978—1984 illərdə istehsalatdan ayrılmadan Bakı Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır.
1977 ildən Sumqayıt "Üzvi sintez" İstehsalat Birliyində maşinist, elektrik montyoru, 1987 ildən 4 saylı axşam məktəbində təsərrüfat işləri üzrə direktor müavini və müəllim, 1988 ildən V.İbrahim adına Sumqayıt şəhər 35 saylı orta məktəbdə tarix müəllimi işləmişdir. 1990 ildə Azərbaycan Respublikası Ali Sovetinə, 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Evlidir, 2 övladı var.

Born 1956 September 15 in Talavar village, Yardymly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku State University in 1984. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has two children.



FƏTTAYEV MİRMAHMUD MİRƏLİ OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Fattayev Mirmahmud Mirali oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1938 il fevralın 23-də Azərbaycan Respublikası Naxçıvan MR Babək rayonunun Çeşməbasar kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1955 ildə Nehrəm Kənd Orta Məktəbini bitirmişdir. 1959—1964 illərdə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini, 1975 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir.
Əmək fəaliyyətinə 1955 ildə Naxçıvan rayonu Güdneyt kənd klubunun müdiri kimi başlamışdır. 1958 ildən Çeşməbasar səkkizillik məktəbinin müəllimi, 1968 ildən Naxçıvan Vilayət Partiya Komitəsinin təlimatçısı, 1970 ildən Ordubad Rayon Partiya Komitəsinin ikinci katibi, 1976 ildən Naxçıvan MR Əhaliyə Məişət Xidməti naziri, 1978 ildən Ordubad Rayon Partiya Komitəsinin I katibi, 1986 ildən Culfa Rayon Partiya Komitəsinin I katibi, 1983 ildən Naxçıvan MR M ədəniyyət naziri vəzifələrində işləmişdir. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır. 1970—1990 illərdə Naxçıvan şəhər və Ordubad rayon XDS-nin deputatı, 1990—1995 illərdə Naxçıvan MR Ali Sovetinin deputatı seçilmişdir. "Şərəf nişanı" ordeni (1975) və medallarla təltif edilmişdir.
Evlidir, 5 övladı var.

Born 1938 February 23 in Cheshmabasar village, Babek district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1964; Baku Higher School in 1975. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has five children.



HEYDƏROV FƏTTAH SƏMƏD OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Heydarov Fattah Samad oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.



HƏSƏNOV CƏFƏR İSMAYIL OĞLU
Azərbaycan Respublikası Milli Məclisi maliyyə şöbəsinin müdiri

Hasanov Jafar Ismayil oglu
Head of the Department of Finance of the Milli Mejlis of the Azerbaijan Republic

1950 il iyulun 22-də Azərbaycan Respublikası Naxçıvan MR-in Şərur rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1975 ildə Azərbaycan Neft və Kimya İnstitutunun mühəndis-iqtisad fakültəsini bitirmişdir. 1975—1993 illərdə "Bakıbaştikinti" idarəsinin müəssisə və təşkilatlarında iş icraçısı, təchizat şöbəsinin rəisi, plan-istehsalat şöbəsinin rəisi, baş mühasib vəzifələrində çalışmışdır. 1994 ildən auditor kimi fəaliyyətə başlamış, 1996 ildən Auditorlar Palatası Şurasının üzvü seçilmişdir. Hazırda Milli Məclisin maliyyə şöbəsinin müdiridir.
Evlidir, 2 övladı var.

Born 1950 in Sharur district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1975. Head of the Department of Finance of the Milli Mejlis of the Azerbaijan Republic.
Married, has two children.



HÜSEYNLİ TOFIQ GÜLMALI OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, "Sumqayıtçörək" Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri

Huseynli Tofig Gulmaly oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic, Chairman of the Board of "Sumgaitchorek" Stock Society

1952 il avqustun 21-də Azərbaycan Respublikası Qubadlı rayonunun Qunnanlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1969 ildə Sumqayıt şəhərində orta məktəbi bitirmişdir. Həmin il Sumqayıt Şəhər Ticarət İdarəsində əmək fəaliyyətinə başlamış və iki il fəhlə işləmişdir. 1971—1973 illərdə hərbi xidmətdə olmuşdur. 1973—1979 illərdə Moskva Yeyinti Sənayesi İnstitutunda təhsil almışdır. 1974—1982 illərdə Bakı şəhər 4 saylı Çörək zavodunda fəhlə və usta, 1982—1992 illərdə Sumqayıt Çörək Qənnadı Kombinatında istehsalat şöbəsinin rəisi, 1992—1997 illərdə Sumqayıt Çörək-Qənnadı Kombinatının direktoru vəzifələrində işləmişdir. 1997 ildən "Sumqayıtçörək" Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədridir. 2000 ildə Azərbaycan Recpublikası Milli Məclisinin deputatı seçilmişdir.
Evlidir, 5 övladı var.

Born 1952 August 21 in Gunnanly village, Gubadly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Moscow Food Industry Institute in 1979. Chairman of the Board of "Sumgaitchorek" Stock Society since 1997.
Married, has five children.



XANLAROVA ZEYNƏB YƏHYA QIZI
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Khanlarova Zeynab Yahya gyzy
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic

1936 il dekabrın 28-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. 1956 ildə Bakı məktəbəqədər tərbiyə məktəbini, 1961 ildə A.Zeynallı adına Musiqi Məktəbini bitirmişdir. Akademik Opera və Balet Teatrının baş solisti işləmişdir. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır. "Şərəf nişanı" ordeni (1971), bir sıra xarici ölkələrin orden və medalları ilə təltif olunmuşdur. Əfqanıstan, Türkiyə, Yəmən və Əlcəzair ölkələrinin fəxri vətəndaşıdır. Azərbaycan Respublikasının Əməkdar artisti (1967), Azərbaycan Respublikasının Xalq artisti (1975), SSRİ Xalq artisti (1980), Ümumittifaq "Qızıl val" mükafatı laureatı (1986), Ümumdünya Festivalı laureatı, Azərbacan Dövlət mükafatı laureatı (1985) adlarına layiq görülmüşdür.
Ailəlidir, 2 övladı var.

Born 1936 December 28 in Baku, Azerbaijan Republic. Graduated from the A.Zeynally Music-School in 1961. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has two children.



İBRAHİMBƏYOV MAQSUD MƏMMƏDİBRAHİM OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Ibrahimbeyov Magsud Memmedibrahim oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1935 il mayın 11-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. 1954—1959 illərdə Azərbaycan Dövlət Politexnik İnstitutunun inşaat fakültəsində təhsil almışdır. 1964 ildə Moskva şəhərində Ali ssenariçi, 1973 ildə Ali rejissorluq kurslarını bitirmişdir. Yazıçılar İttifaqının üzvü (1970), Kinematoqrafçılar və Jurnalistlər Birliyinin üzvü (1971), Əməkdar incəsənət xadimi (1975), Dövlət mükafatı laureatıdır (1976). Əmək fəaliyyətinə 1959 ildə Azərbaycan Tikinti Nazirliyinin "Azərağırsənayetikinti" trestində iş icraçısı kimi başlamışdır. 1964 ildən Mərkəzi Televiziya və Radio Verilişləri Komitəsinin Azərbaycan üzrə xüsusi müxbiri işləmişdir. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Qırmızı Əmək Bayrağı ordeni (1984) və medallarla təltif edilmişdir.
Evlidir, 3 övladı var.

Born 1935 May 11 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1959. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has three children.



İBRAHİMOV ELDAR RZA OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Ibrahimov Eldar Rza oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1945 il martın 12-də Azərbaycan Respublikası Naxçıvan MR Babək rayonunun Cəhri kəndində anadan olmuşdur. Azərbaycanlıdır.
Əmək fəaliyyətinə Naxçıvan tikinti idarəsində başlamışdır. 1963—1970 illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda təhsilini davam etdirmişdir. 1963 ildən istehsalatda müxtəlif vəzifələrdə çalışmışdır. 1993 ildən Naxçıvan MR Baş nazirinin birinci müavini, Dövlət İqtisad və Plan Komitəsinin sədri vəzifələrində işləmişdir. Naxçıvan MR Ali Sovetinin (1995) və Azərbaycan Respublikası Ali Sovetinin (1990), Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir (1995). 2000 ildən Milli Məclisin deputatıdır. Aqrar Siyasət Daimi Komissiyasının sədridir.
Evlidir, 3 övladı var.

Born 1945 March 12 in Jehri village, Babek district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1970. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1990.
Married, has three children.



İBRAHİMOV NAZİM HÜSEYN OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Ibrahimov Nazim Huseyn oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1963 il dekabrın 23-də Azərbaycan Respublikası Naxçıvan MR Babək rayonunun Nehrəm kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1985 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. 1997 ildən Ukrayna Respublikasında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri işləmişdir. 2000 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.
Evlidir.

Born 1963 December 23 in Nehram village, Babek district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1985. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 2000.
Married.

1938 il iyulun 2-də Azərbaycan Respublikasının Astara şəhərində anadan olmuşdur. 1956—1962 illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində təhsil almışdır. 1963 ildən Mirqasımov adına Respublika Klinik Xəstəxanasının uroloji şöbəsində həkim, 1965 ildən Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun urologiya kafedrasında assistent, 1971 ildən həmin institutun cərrahi xəstəliklər kafedrasında assistent, 1977 ildən N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun urologiya kafedrasında dosent, professor, kafedra müdiri olmuşdur. Tibb elmləri doktoru (1974), professordur (1977). 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır. 7 monoqrafiyanın, 110-dan artıq məqalənin, 6 ixtira və səmərələşdirici təklifin müəllifidir.
Evlidir, 2 övladı var.

Born 1938 July 2 in Astara, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the N.Narimanov Azerbaijan State Medical Institute in 1962. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has two children.



İMANVERDİYEV SUDEİF BƏŞİR OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Imanverdiyev Sudeif Bashir oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1958 il iyunun 10-da Azərbaycan Respublikası Zəngilan rayonunun Vənətli kəndində anadan olmuşdur. 1980 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini, Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə 1980 ildə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində başlamışdır. 1980 ildən orada müxbir, kiçik redaktor, redaktor, böyük redaktor, şöbə müdiri, 1987 ildən Azərbaycan Televiziyası "Gənclik" Baş redaksiyasının baş redaktoru, 1990 ildən "Kirpi" satirik jurnalında şöbə redaktoru vəzifələrində çalışmışdır. 1992 ildən Azərbaycan Mətbuat Fondunun sədridir. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır. YAP Siyasi Şurasının üzvüdür. Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanına və "Qızıl qələm" mükafatına layiq görülmüşdür.
Evlidir, 3 övladı var.

Born 1958 in Venetli village, Zangilan district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1980. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has three children.



İSMAYILOV İMAMVERDİ İBİŞ OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Ismayilov Imamverdi Ibish oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.



KƏRİMOV ƏLİ ƏMİRHÜSEYN OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AXCP-nin sədri

Kerimov Ali Amirhuseyn oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1965 il sentyabrın 25-də Azərbaycan Respublikası Saatlı rayonunun Azadkənd kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Bakı Mebel Kombinatında fəhlə işləmişdir. 1991 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Sonra orada Beynəlxalq hüquq fakültəsində müəllimlik etmişdir. 1989—1991 illərdə AXC ADU şöbəsinin əlaqəçisi, AXC Ali Məclisinin üzvü olmuşdur. 1992 il fevralın 16-da AXC Ali Məclisi sədrinin 1-ci müavini seçilmişdir. 1992 ildən Azərbaycan Respublikası Prezidenti Aparatının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri, 1991 ildən "Azadlıq" qəzetinin parlament müxbiri, 1993 ildən Dövlət katibi, 1994 ildən AXC sədrinin siyasi məsələlər üzrə müavini olmuşdur. Hazırda AXCP-nin sədridir. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Evlidir, 1 övladı var.

Born 1965 September 25 in Azadkend village, Saatly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1968. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has one child.



KƏRİMOV KƏRİM HACIXAN OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Kerimov Kerim Hajikhan oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1936 il fevralın 18-də Azərbaycan Respublikası Qax rayonunun Qax-Muğal kəndində anadan olmuşdur. 1955 ildə Şəki Pedaqoji Texnikumunu, 1960 ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə tələbəlik illərində başlamışdır. 1960 ildən Bakıda Toxuculuq kombinatında usta köməkçisi, usta, kadrlar şöbəsinin rəisi, tədris-kurs kombinatının direktoru, mənzil-istismar sahəsinin rəisi, 1980 ildən Bakı Məişət Kondisionerləri zavodunda şöbə rəisi vəzifələrində işləmişdir. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır. İntizam komissiyasının sədridir. "Əmək veteranı" medalı ilə təltif edilmişdir.
Evlidir, 3 övladı var.

Born 1936 February 18 in Gakh-Mugal village, Gakh district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1960. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has three children.



QARALOV ZAHİD İBRAHİM OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Garalov Zahid Ibrahim oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1934 il iyulun 10-da Gürcüstan Respublikası Dmanisi rayonunun Ormeşen kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1951—1956 illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1956 ildə Ormeşen kəndində müəllim kimi başlamışdır. Sonra orada məktəb direktoru, 1959 ildən Dmanisi Rayon Komsomol Komitəsində I katib, 1961 ildən ADPİ-də aspirant olmuşdur. 1964 ildə fizikanın tədrisi metodikası üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. Həmin vaxtdan Azərbaycan Təhsil Nazirliyinin Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini, direktor, 1984 ildən Maarif nazirinin müavini, 1987 ildən Azərbaycan ETPEİ-nun direktoru vəzifələrində çalışmışdır. Azərbaycanın Əməkdar müəllimidir (1981). 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatı, Regional məsələlər Daimi Komissiyasının sədridir. 200-dən çox elmi məqalənin, monoqrafiyaların, dərsliklərin müəllifidir. Qırmızı Əmək Bayrağı ordeni (1981), "Əməkdə fərqlənməyə görə" medalı ilə və fəxri fərmanlarla təltif edilmişdir.

Born 1934 July 10 in Ormeshen village, Dmanisi district, Georgia. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1956. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has three children.



QƏHRƏMANOV ELDAR ƏVƏZ OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Gahramanov Eldar Avaz oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1948 il yanvarın 30-da Azərbaycan Respublikasının Oğuz şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə Türkmənistan Dövlət Universitetini, 1990 ildə Ali Partiya Məktəbini bitirmişdir.
Əmək fəaliyyətinə Türkmənistan Respublikası Mərkəzi Statistika İdarəsində fəhlə kimi başlamışdır. Sonralar həmin idarədə mexanik, təsərrüfat müdiri, iqtisadçı, böyük iqtisadçı, 1971 ildən Oğuz Kolxozlararası Tikinti İdarəsində inşaat texniki, mühasib, iqtisadçı, 1974 ildən Oğuz Rayon Məlumat-Hesablama Stansiyasının rəisi, 1978 ildən Azərbaycan Respublikası Mərkəzi Statistika İdarəsində şöbə rəisi, 1981 ildən Azərbaycan KP MK-da təlimatçı, bölmə müdiri, 1989 ildən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini vəzifələrində işləmişdir. 1996 ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Evlidir, 3 övladı var.

Born 1948 January 30 in Oguz, Azerbaijan Republic. Graduated from the Turkmenistan State University in 1971. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1996.
Married, has three children.



QULİYEV NİZAMİ YUSİF OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Guliyev Nizami Yusif oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1956 il avqustun 17-də Azərbaycan Respublikasının Gədəbəy şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1975—1979 illərdə Gəncə Dövlət Pedaqoji İnstitutunda təhsil almışdır. Əmək fəaliyyətinə 1973 ildə Gədəbəy rayon Əhaliyə Məişət Xidməti Kombinatında fəhlə kimi başlamışdır. 1979 ildən Gədəbəy Şəhər Orta Məktəbində müəllim, 1982 ildən Gədəbəy Rayon Qiyabi Orta Məktəbində tədris işləri üzrə direktor müavini, 1988 ildən Söyüdlü Kənd Orta Məktəbində direktor, 1989 ildən respublika "Bilik" cəmiyyəti Gədəbəy rayon təşkilatının məsul katibi, 1992 ildən Gədəbəy rayon Xalq Deputatları Sovetində ümumi şöbənin müdiri vəzifələrində işləmişdir. 1996 ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Evlidir, 3 övladı var.

Born 1956 August 17 in Gedebey, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Ganja State Pedagogical Institute in 1979. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1996.
Married, has three children.



QULİYEV NOVRUZ MƏHƏMMƏD OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Guliyev Novruz Mehemmed oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1952 il martın 22-də Azərbaycan Respublikası Cəbrayıl rayonunun Əmirvarlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1969—1974 illərdə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsində təhsil almışdır.
Əmək fəaliyyətinə 1974 ildə Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutunda başlamışdır. Həmin ildə Moskvada SSRİ EA-nın A.N.Bax adına Biologiya İnstitutunun aspiranturasına qəbul olunmuş və 1978 ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. 1981—1987 illərdə Azərbaycan EA molekulyar biologiya və molekulyar genetika bölməsində böyük elmi işçi, 1987—1995 illərdə Azərbaycan EA Botanika İnstitutunda böyük elmi işçi, aparıcı elmi işçi, laboratoriya müdiri vəzifələrində çalışmışdır. 1992 ildə biologiya elmləri doktoru alimlik dərəcəsi almışdır. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Evlidir, 2 övladı var.

Born 1952 March 22 in Amirvarly village, Jabrail district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1974. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has two children.

1950 il mayın 18-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1967—1974 illərdə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində təhsil almışdır.
Əmək fəaliyyətinə 1971 ildə Əfqanıstan Respublikasında tərcüməçi kimi başlamışdır. 1974—1979 illərdə İran İslam Respublikasında ezamiyyətdə olmuşdur. 1981 ildən Azərbaycan SSR Ali Sovetində referent, Ali Sovet sədrinin böyük referenti, ümumi şöbə müdirinin müavini vəzifələrində işləmişdir. 1991 ildən Milli Məclis Aparatı Ümumi şöbəsinin müdiridir.
Evlidir, 2 övladı var.

Born 1950 May 18 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1976. Head of the Common Department of the Machinery of Milli Mejlis of the Azerbaijan Republic since 1991.
Married, has two children.



QULİYEV TƏLATÜM ƏLİÖVSƏT OĞLU
Azərbaycan Respublikası Milli Məclisi Aparatı Ümumi şöbəsinin müdiri

Guliyev Telatum Aliovsat oglu
Head of the Common Department of the Machinery of Milli Mejlis of the Azerbaijan Republic.

1954 il yanvarın 7-də Azərbaycan Respublikası Şəmkir rayonunun Koltəhnəli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1978 ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1978 ildən orta məktəbdə tarix müəllimi, 1985 ildən İncəsənət Universitetində müəllim, universitetin prorektoru vəzifələrində işləmişdir. Beynəlxalq münasibətlər üzrə elmi tədqiqatla məşğul olur. 2000 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.

Born 1954 January 7 in Koltehnali village, Shamkir district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku State University in 1978. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 2000.



QURBANLI MÜBARİZ QƏHRƏMAN OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Gurbanly Mubariz Gahraman oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.



QURBANOV ŞAMİL DÜNYAMALI OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Gurbanov Shamil Dunyamaly oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1934 il mayın 10-da Gürcüstan Respublikası Bolnisi rayonunun Faxralı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1955—1960 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır.
Əmək fəaliyyətinə "Azərbaycan məktəbi" jurnalında başlamışdır. 1960 ildən ADU-da baş laborant işləmiş, ADU-nun aspiranturasında təhsilini davam etdirmişdir. 1966 ildən "Bakı" qəzetində şöbə müdiri, 1968 ildən ADU-nun Azərbaycan dili kafedrasında müəllim, 1972 ildən universtitetin SSRİ xalqları ədəbiyyatı kafedrasında müəllim, baş müəllim, dosent, professor, filologiya fakültəsinin dekan müavini, 1988 ildən Bakı Dövlət Universitetinin şərqi slavyan və türk xalqları ədəbiyyatı kafedrasının müdiri vəzifələrində işləmişdir, Filologiya elmləri doktoru (1977), professordur (1980). 20 kitabın və 300-dən çox elmi məqalənin müəllifidir. Jurnalistlər Birliyinin (1978) üzvüdür. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Evlidir, 2 övladı var.

Born 1934 May 10 in Fakhraly village, Bolnisi district, Georgia. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1960. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has two children.



MANAFOVA ASYA SƏRDAR QIZI
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Manafova Asya Sardar gyzy
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1941 il yanvarın 3-də Azərbaycan Respublikasının Qusar şəhərində anadan olmuşdur. Ləzgidir. 1979 ildə Sov. İKP MK yanında İctimai Elmlər Akademiyasını bitirmişdir.
Əmək fəaliyyətinə 1959 ildə Bakı Tibb Preparatları Zavodunda fəhləliklə başlamışdır. 1959—1964 illərdə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda təhsil almışdır. Mühəndis-texnoloqdur. 1965 ildən Elmi-Tədqiqat "Olefinlər" İnstitutunda və təcrübə zavodunda aparatçı, mühəndis, böyük mühəndis, 1969 ildən Qusar Şəhər Sanitar-Epidemioloji Stansiyasında kimyaçı-mühəndis, laboratoriya müdiri, 1974 ildən Qusar Rayon Partiya Komitəsinin katibi, 1979 ildən Azərbaycan KP MK-da məsul işçi, 1981 ildən Masallı Rayon İcraiyyə Komitəsinin sədri, 1982 ildən Azərbaycan KP MK-da məsul işçi, 1990 ildən Qusar Rayon Partiya Komitəsinin birinci katibi, rayon Sovetinin sədri, İcra Hakimiyyətinin başçısı, 1992 ildə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində şöbə rəisi olmuşdur. 1991 ildə Azərbaycan Ali Sovetinin deputatı, 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır. Təbii Ehtiyatlar və Ekologiya Məsələləri Daimi Komissiyasının sədridir. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.
Ailəlidir, 1 övladı var.

Born 1941 January 3 in Gusar district, Azerbaijan Republic. Lezghin. Graduated from the M.Azizbeyov State Institute of Oil and Chemistry in 1964. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1990.
Married, has one child.



MEHBALIYEV SƏTTAR SULİDDİN OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

Mehbaliyev Sattar Suliddin oglu
Chairman of the Confederation of Azerbaijan Trades Unions, Deputy of the Milli Mejlis of the Azerbaijan Republic

1955 il oktyabrın 28-də Azərbaycan Respublikası Naxçıvan MR Şərur rayonunun Qıvraq kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1979 ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə 1973 ildə 4 saylı Keşlə Dəmir-Beton Məmulatları Zavodunda fəhləliklə başlamışdır. 1976—1979 illərdə Ə.Bayramov adına Tikiş-İstehsalat Birliyində fəhlə, təchizatçı, əmtəəşünas, mühəndis-iqtisadçı, baş mühasib, 1980—1993 illərdə Azərbaycan Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Komitəsində təlimatçı-müfəttiş, maliyyə şöbəsinin müdiri və sədri vəzifələrində işləmişdir. Hazırda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədridir. 1973 ildən Azərbaycan Həmkarlar İttifaqının üzvüdür. 2000 ildən Milli Məclisin deputatıdır.
Evlidir, 3 övladı var.

Born 1955 October 28 in Gyvrag village, Sharur district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1970. Chairman of the Confederation of Azerbaijan Trades Unions since 1993.
Married, has three children.



MƏMMƏDXANOV ANAR CAMALİ OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Memmedkhanov Anar Jamali oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1970 il iyulun 20-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1987 ildə Bakı şəhərindəki 160 saylı orta məktəbi bitirmişdir. 1987—1992 illərdə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində təhsil almışdır.
1991 ildən Bakı Şən və Hazırcavablar Klubunun prezidenti və "Bakılı oğlanlar" komandasının kapitanı idi. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Evlidir, 1 övladı var.

Born 1970 July 20 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1992. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 2000.
Married, has one child.



MƏMMƏDOV ÇİNGİZ BÜLBÜL OĞLU
Azərbaycan Respublikası Milli Məclisi Aparatı Daimi komissiyalar şöbəsinin müdiri

Memmedov Chingiz Bulbul oglu
Chief of the Department of Permanent Comissions of the Machinery of Milli Mejlis of the Azerbaijan Republic

1938 ildə Gürcüstan Respublikasının Tbilisi şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1956 ildə Azərbaycan SSR Sənaye Tikintisi Nazirliyinin 10 saylı mərkəzi avtonəqliyyat kontorunda elektrik vəzifəsində çalışmışdır. 1957—1961 illərdə Azərbaycan Neft və Kimya İnstitutunda təhsil almışdır. 1960 ildən Azərbaycan LKGİ MK-da statistik, təlimatçı, 1962 ildən Gənclər Təşkilatları Komitəsi sədrinin müavini, 1964 ildən "Baktuneltikinti" İdarəsində iqtisadçı, 1967 ildən Dövlət Plan Komitəsində böyük mühəndis, İşlər müdiri, 1972 ildən Dövlət Üzümçülük və Şərabçılıq Komitəsində baş mütəxəssis, 1973 ildən Azərbaycan Neft və Kimya İnstitutunda xarici əlaqələr şöbəsi rəisinin müavini, 1974 ildən "Bakkondisioner" xüsusi konstruktor bürosunda aparıcı mühəndis, xarici əlaqələr şöbəsi rəisinin müavini, 1976 ildən Azərbaycan SSR Sənaye Tikintisi Materialları Nazirliyi Satış İdarəsinin rəisi, "Təştextikintimaterial" tresti iqtisadi təhlil şöbəsi rəisinin müavini, 1977 ildən Bülbül Xatirə Muzeyi Fondlarının baş mühafizi, 1989 ildən Azərbaycan Respublikası Nazirlər Kabinetində referent-məcul növbətçi, aparıcı inspektor-məsul növbətçi, bölmə müdiri, 1993 ildən Azərbaycan Respublikası Ali Sovetində inzibati binanı istismar idarəsinin I dərəcəli mütəxəssisi, Dövlət quruculuğu şöbəsinin baş mütəxəssisi, daimi komissiyalar katibliyinin katibi, baş məsləhətçi vəzifələrində işləmişdir. 1996 ilin aprelindən Azərbaycan Respublikası Milli Məclisi Aparatı Daimi komissiyalar şöbəsinin müdiridir.
Evlidir, 2 övladı var.

Born 1938 in Tbilisi, Georgia. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1961. Chief of the Department of Permanent Comissions of the Machinery of Milli Mejlis of the Azerbaijan Republic since 1996.
Married, has two children.



MƏMMƏDOVA ƏSMƏTXANIM BƏYƏHMƏD QIZI
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Memmedova Asmatkhanym Bayahmad gyzy
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1941 il martın 5-də Azərbaycan Respublikası Bakı şəhərinin Maştağa qəsəbəsində anadan olmuşdur. Azərbaycanlıdır. 1959 ildə C.Cabbarlı adına 187 saylı orta məktəbi bitirmişdir. 1960—1965 illərdə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində təhsil almışdır.
1966—1969 illərdə Azərbaycan EA Şərqşünaslıq İnstitutunun aspiranturasında oxumuşdur. 1969 ildən Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində müəllim, dosent vəzifələrində işləmişdir. 1972 ildə filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1996 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Ailəlidir, 4 övladı var.

Born 1941 March 5 in Mashtaga settlement, Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1965. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1996.
Married, has four children.

1952 il mayın 12-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1969—1974 illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır. Hüquq elmləri namizədi (1982), dosent (1987), Azərbaycan Hüquqşünaslar İttifaqının üzvüdür (1989).
1978 ildən Bakı Dövlət Universitetinin hüquq fakültəsində müəllim, baş müəllim, dekan müavini, dosent, 1990 ildən SSRİ Konstitusiya Nəzarəti Komitəsinin üzvü, 1992 ildən Azərbaycan Respublikası Ali Soveti Katibliyinin Hüquq təminatı və nəzarəti şöbəsinin müdiri, 1993 ildən Azərbaycan Respublikası Ali Soveti Katibliyinin rəisi vəzifələrində işləmişdir. 1993 ildən Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəridir. Elmi tədqiqatının istiqaməti hüquq və dövlət nəzəriyyəsi, konstitusiya hüququ, insan hüquqlarıdır.
Evlidir, 1 övladı var.

Born 1952 May 12 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1974. Chief of the Machinery of Milli Mejlis of the Azerbaijan Republic since 1993.
Married, has one child.



MİRZƏYEV SƏFA ABBAS OĞLU
Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri

Mirzayev Safa Abbas oglu
Chief of the Machinery of Milli Mejlis of the Azerbaijan Republic.

1953 il iyunun 6-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1976 ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir. 1980 ilədək 2 saylı şəhər xəstəxanasında nevroloq-həkim işləmişdir. 1980—1992 illərdə Moskva Tibb Akademiyasında aspirant, doktorant olmuşdur. Tibb elmləri doktorudur (1991). 1992 ildən Respublika Psixogen-nevroloji Xəstəliklər Mərkəzinin rəhbəri, Azərbaycan Respublikası Prezidenti Aparatının analitik-ekspert xidməti rəhbərinin müavini və analitik-informasiya bölməsinin müdiri, Azərbaycan Respublikası Prezidentinin Ermənistan-Azərbaycan münaqişəsi üzrə xüsusi nümayəndəsi və Prezident Aparatı xarici əlaqələr şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1993 ildə Azərbaycan Xalq Cəbhəsinin sədr müavini, 1994 ildə Azərbaycan Demokratiyasının İnkişafı Fondunun vitse-prezidenti seçilmişdir. 40-dan çox elmi əsər və məqalənin müəllifidir.

Born 1953 June 6 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Medical Institute in 1976. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 2000.



MOLLAZADƏ ASİM NAZİM OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Mollazade Asim Nazim oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.



MUSAYEV MADƏR ƏLƏSGƏR OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Musayev Madar Alesker oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1947 il noyabrın 26-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1975—1982 illərdə Moskva Kooperasiya İnstitutunun Bakı filialında təhsil almışdır. 1964 ildən Binəqədi Rayon Ticarət İdarəsində satıcı şagirdi, kiçik satıcı, mağaza müdiri, 1985 ildən "Bahar" ticarət mərkəzinin direktoru işləmişdir. 1990 ildə Azərbaycan Respublikasının Ali Sovetinə, 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Evlidir, 3 övladı var.

Born 1947 November 26 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku Branch of the Moscow Cooperation Institute in 1982. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has three children.



OSMANOV HİKMƏT SALEH OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Osmanov Hikmet Saleh oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1957 il iyulun 30-da Azərbaycan Respublikası Quba rayonunun Cimi kəndində anadan olmuşdur. 1979 ildə Azərbaycan Dövlət Universitetini, 1990 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir. 1979 ildən Quba şəhər 1 saylı orta məktəb komsomol komitəsinin katibi, 1981 ildən Azərbaycan LKGİ Quba Rayon Komitəsinin katibi, 1995 ildən Azərbaycan KP Quba Rayon Komitəsində təlimatçı, 1990 ildən təşkilat şöbəsinin müdiri, 1991 ildən Quba Sovxoz Texnikumunun direktoru, 1992 ildən Quba Kənd Təsərrüfatı Texnikumunun direktoru, 1994 ildən Quba Sovxoz Texnikumunun direktoru vəzifələrində işləmişdir. 1996 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Evlidir, 2 övladı var

Born 1957 July 30 in Cimi village, Guba district, Azerbaijan Republic. Graduated from the Baku Higher Party School in 1979. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1996.
Married, has two children.



PƏNAHLI AMALYA ƏLİŞ QIZI
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Bakı Bələdiyyə Teatrının bədii rəhbəri və direktoru

Panahli Amalya Alish gyzy
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1945 il iyunun 15-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1962—1966 illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun kino və dram aktyoru fakültəsində təhsil almışdır.
Əmək fəaliyyətinə 1964 ildə M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında aktyor kimi başlamışdır. Azərbaycan Komsomolu (1968), Azərbaycan Dövlət mükafatı (1972) laureatıdır. 1973 ildə Əməkdar artist, 1985 ildə Xalq artisti fəxri adlarına layiq görülmüşdür. "Şöhrət" ordeni və medallarla təltif edilmişdir. 1992 ildən Bakı Bələdiyyə Teatrının bədii rəhbəri və direktorudur. 10 əsərə quruluş vermişdir. 2000 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. MDB Parlamentlərarası Assambleyasında Mədəniyyət, İnformasiya, Turizm və İdman Daimi Komissiyası sədrinin müavini, Azərbaycan—İtaliya Parlamentlərarası İşçi Qrupunun sədri, Azərbaycan Teatr və Kino İttifaqlarının üzvüdür.
Ailəlidir, 2 övladı var.

Born 1945 June 15 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Art Institute in 1966. Director of the Baku Municipal Theatre since 1992.
Married, has two children.



RAMAZANOV HACIMƏMMƏD YUSİF OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Ramazanov Hajimemmed Yusif oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1951 il dekabrın 25-də Azərbaycan Respublikası Zaqatala rayonunun Sumaylı kəndində anadan olmuşdur. 1971 ildə Zaqatala Pedaqoji Texnikumunu, 1976 ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə 1976 ildə Zaqatala rayonunun Sumaylı kənd səkkizillik məktəbində əmək, rəsmxətt və fizika müəllimi kimi başlamışdır. 1982 ildən Zaqatala Rayon Xalq Maarifi şöbəsində inspektor, metodist və müdir vəzifələrində işləmişdir. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Evlidir, 2 övladı var.

Born 1951 December 25 in Sumayli village, Zagatala district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1976. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has two children.



RƏCƏBLİ HADI MUSA OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Rajably Hady Musa oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1947 il oktyabrın 25-də Azərbaycan Respublikası Lənkəran rayonunun Veravul kəndində anadan olmuşdur. 1964—1970 illərdə Moskvada Yeyinti Sənayesi İnstitutunu, 1978 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir.
Əmək fəaliyyətinə 1963 ildə Lənkəran şəhərindəki 14 saylı çörək zavodunda fəhlə kimi başlamışdır. 1963 ildən həmin zavodda laborant, mühasib, iqtisadçı, 1971 ildən Lənkəran Şəhər Komsomol Komitəsinin II katibi, I katibi, 1978 ildən "Bakinski raboçi" qəzetinin cənub bölgəsi üzrə xüsusi müxbiri, 1980 ildən Lənkəran Şəhər İcraiyyə Komitəsinin sədri, 1981 ildən Azərbaycan KP MK-da inspektor, 1983 ildən Şəki Şəhər PK-nin birinci katibi, 1989 ildən Azərbaycan Respublikası Nazirlər Kabinetində böyük referent, aparıcı mütəxəssis, bölmə müdiri, şöbə müdirinin müavini, şöbə müdiri vəzifələrində işləmişdir. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır. Sosial Siyasət Daimi Komissiyasının sədridir.
"Şərəf nişanı" ordeni (1986), "Əmək igidliyinə görə" (1976), "Əmək rəşadətinə görə" medalları ilə təltif edilmişdir.
Evlidir, 4 övladı var.

Born 1947 October 25 in Veravul village, Lenkaran district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Moscow Food Industry Institute in 1970. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has four children.



RƏHİMZADƏ ARİF QAFAR OĞLU
Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini

Rahimzade Arif Gafar oglu
First Vice-Chairman of the Milli Mejlis, Azerbaijan Republic.

1941 il fevralın 3-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1963 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini bitirmişdir.
Əmək fəaliyyətinə Azərbaycan Elmi-Tədqiqat Heyvandarlıq İnstitutunda elmi əməkdaş kimi başlamışdır. 1963—1967 illərdə aspiranturada elmi-tədqiqat üzərində çalışmış, dissertasiya müdafiə edib, kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsi almışdır. 1967 ildən Leninqrad vilayət meyvə-tərəvəz keyfiyyətinə nəzarət üzrə dövlət müfəttişliyində müfəttiş, Ümumittifaq Elmi-Tədqiqat Əkinçilik İnstitutunun Krım təcrübə stansiyasında elmi əməkdaş, Azərbaycan Elmi-Tədqiqat Yemçilik, Çəmənçilik və Otlaqlar İnstitutunda elmi əməkdaş, Azərbaycan SSR Nazirlər Sovetində böyük referent, Azərbaycan KP MK-da təlimatçı, bölmə müdiri, şöbə müdirinin müavini, Quba Rayon Partiya Komitəsinin birinci katibi, Azərbaycan KP MK-da şöbə müdiri, Azərbaycan Respublikası Ali Sovetində daimi komissiyanın sədri, 1993—1994 illərdə Azərbaycan Respublikasının Dövlət müşaviri vəzifələrində işləmişdir. 1994 ilin oktyabrından Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavinidir. 1991 ildə respublika Ali Sovetinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır, YAP Siyasi Şurasının üzvüdür. "Xalqlar dostluğu" və "Şərəf nişanı" ordenləri ilə təltif olunmuşdur.
Evlidir, 2 övladı var.

Born 1941 February 3 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1963. First Vice-Chairman of the Milli Mejlis since 1993.
Married, has two children.

1967 il mayın 24-də Azərbaycan Respublikası Naxçıvan MR Culfa rayonunun Saltaq kəndində anadan olmuşdur. 1992 ildə Azərbaycan Neft Akademiyasını bitirmişdir. "Azərneftkimyazavodtəmir" trestinin 1 saylı TTİ-də çilingər, 1989 ildən "Azərneftkimyazavodtəmir" trestinin "Böyük kimya uğrunda" qəzetində müxbir, redaktor, 1991 ildən "İki sahil" qəzetində məsul katib işləmişdir. Həmin ilin dekabrından qəzetin baş redaktorudur. 2000 ilin noyabr ayında Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür (1991). "Kamil sənətkar" və "Qızıl qələm" mükafatları laureatıdır (1994). YAP Siyasi Şurasının üzvüdür.
Evlidir, 2 övladı var.

Born 1967 May 24 in Saltag village, Julfa district, Nakhchivan AR, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1992. Editor-in-chief of the newspaper "Iki sahil" since 1991.
Married, has two children.



RƏHİMZADƏ VÜQAR GƏNCƏLİ OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, "İki sahil" qəzetinin baş redaktoru

Rahimzade Vugar Ganjali oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic, Editor-in-Chief of the newspaper "Iki sahil

1946 il mayın 20-də Azərbaycan Respublikası Yardımlı rayonunun Hamarkənd kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1963—1968 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır.
1968 ildən "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi, xüsusi müxbir, teatr və kino, tənqid və ədəbiyyatşünaslıq şöbələrinin müdiri, 1978 ildən "Yazıçı" nəşriyyatında incəsənət redaksiyasının müdiri, baş redaktorun müavini, baş redaktor, 1989 ildən "Azərbaycan" qəzetinin baş redaktoru, 1991 ildən Dövlət Mətbuat Komitəsinin sədri, Azərbaycan Respublikası Mətbuat və İnformasiya naziri vəzifələrində işləmişdir. 14 kitabın müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür (1978). Filologiya elmləri namizədidir (1976). Azərbaycan milli azadlıq hərəkatının liderlərindən biridir. Azərbaycan Ali Sovetinin deputatı (1990), Milli Məclisin üzvü (1991) seçilmişdir. Azərbaycan Komsomolu mükafatı (1982), M.F.Axundov adına ədəbi mükafat (1989), "Qızıl qələm" mükafatı (1993) laureatıdır. Azərbaycan Milli Məclisinin deputatı (2000), Vətəndaş Həmrəyliyi Partiyasının sədridir.
Evlidir, 3 övladı var.

Born 1946 May 20 in Hamarkend village, Yardymly district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1968. Deputy of the Milli Mejlis, Chairman of the Citizen Solidarity Party.
Married, has three children.



SABİR RÜSTƏMXANLI (RÜSTƏMXANLI SABİR XUDU OĞLU)
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Vətəndaş Həmrəyliyi Partiyasının sədri

Sabir Rustamkhanly (Rustamkhanly Sabir Khudu oglu)
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic, Chairman of the Citizen Solidarity Party



SADIQOV FİKRƏT MƏMMƏD OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, "Azərkimya" Dövlət Şirkətinin prezidenti

Sadygov Fikret Memmed oglu
Prezident of the "Azerkimya" State Company, Deputy of the Milli Mejlis of the Azerbaijan Republic

1940 il aprelin 28-də Azərbaycan Respublikası Naxçıvan MR-in Ordubad şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1959—1965 illərdə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsində təhsil almışdır. Y.Məmmədəliyev medalı ilə təltif edilmişdir. Texnika elmləri doktoru (1994), Əməkdar mühəndis (1993), Azərbaycan Dövlət mükafatı laureatı (1980), Beynəlxalq Mühəndislər Akademiyasının həqiqi üzvü, Beynəlxalq Şərq Neft Akademiyasının akademiki, Beynəlxalq EKO Energetika Akademiyasının həqiqi üzvüdür.
Əmək fəaliyyətinə 1956 ildə Ordubad İpək fabrikində fəhlə kimi başlamışdır. 1965 ildən Sumqayıt şəhərində Üzvi Məhsullar Zavodunda mühəndis-texnoloq, sex rəisinin müavini, istehsalın texnologiyası üzrə rəis müavini, sex rəisi, şöbə rəisinin müavini, mərkəzi laboratoriya rəisinin müavini, 1973 ildən "Kimyasənaye" İB-nin Sistematik Yuyucu Vasitələr Zavodunda baş mühəndis əvəzi, baş mühəndis, 1974 ildən "Üzvi-Sintez" İB-də şöbə rəisi, baş mühəndis əvəzi, baş mühəndis, 1981 ildən "Kimya-Sənaye" İB-də direktor, 1988 ildən həmin birlikdə baş direktor vəzifələrində işləmişdir. 1992 ildən "Azərkimya" Dövlət Şirkətinin prezidentidir.
Sumqayıt şəhər XDS-nə (1990), Azərbaycan Respublikasının Milli Məclisinə (1995, 2001) deputat seçilmişdir. Orden və medallarla təltif olunmuşdur.Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir, 2 övladı var.

Born 1940 April 28 in Ordubad, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1965. Prezident of the "Azerkimya" State Company since 1992; Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has two children.



SƏFƏRLİ MAYİS İSMAYIL OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Yurddaş Partiyasının sədri

Safarli Mayis Ismayil oglu
Chairman of the Azerbaijan Yurddash Party, Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1958 il mayın 23-də Azərbaycan Respublikası Qubadlı rayonunun Məlikəhmədli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1982 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir.
Əmək fəaliyyətinə 1976 ildə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində başlamışdır. "Vışka" qəzetində müxbir işləmişdir.
1988—1993 illərdə Azərbaycan Yurddaş Cəmiyyətinin sədri, 1993 ildən isə eyniadlı partiyanın sədridir. 2000 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.
Evlidir, 2 övladı var.

Born 1958 May 23 in Melikahmadli village, Gubadly district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1982. Chairman of the Azerbaijan Yurddash Party since 1993.
Married, has two children.

1937 il iyulun 18-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Vedi rayonunun Şirazlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1959—1964 illərdə Azərbaycan Dövlət Universitetində təhsil almışdır.
1955 ildən Ağdaş və Bərdə rayonlarında fəhlə işləmişdir. 1964 ildən Yevlax və Bakı şəhərində müəllim, 1966 ildən Azərbaycan Neft və Kimya İnstitutunun Siyasi iqtisad kafedrasında müəllim, 1967 ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda aspirant olmuşdur. İqtisad elmləri doktoru (1985), professordur (1986). 1971 ildən Moskva Kooperativ İnstitutunun Bakı filialında baş müəllim, dosent, kafedra müdiri, 1989 ildən direktor müavini, direktor, 1995 ildən Azərbaycan Kooperasiya İnstitutunun rektoru vəzifələrində işləmişdir. 8 kitabın və 170 elmi məqalənin müəllifidir. Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir (1995). 2000 ildən Milli Məclisin deputatıdır. İqtisadi Siyasət Daimi Komissiyasının sədridir. Dövlət İdarəçilik Akademiyasının professorudur.
Evlidir, 2 övladı var.

Born 1937 July 18 in Shirazly village, Vedi district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1964. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has two children.



SƏFƏROV SƏTTAR İSMAYIL OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Safarov Sattar Ismayil oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1952 il yanvarın 15-də Azərbaycan Respublikası İmişli rayonunun Qaradonlu kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1968—1972 illərdə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsil almışdır.
Əmək fəaliyyətinə 1972 ildə İmişli rayonunda müəllim kimi başlamışdır. 1975 ildən direktor müavini, 1990 ildən Rayon XTŞ-nin müdiri vəzifələrində çalışmışdır. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır. Bir neçə bədii kitabın müəllifidir. "Ən yaxşı müəllim" (ÜİLKGİ, 1978) fəxri adına layiq görülmüşdür.
Evlidir, 3 övladı var.

Born 1952 January 15 in Garadonlu village, Imishli district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1972. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has three children.



SƏYYAD ARAN (SALAHLI SƏYYAD ADİL OĞLU)
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Sayyad Aran (Salahly Sayyad Adil oglu)
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.



SİRUS TƏBRİZLİ (TƏBRİZLİ SİRUS XUDADAT OĞLU)
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Sirus Tebrizli (Tebrizli Sirus Khudadat oglu)
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic

1942 il mayın 9-da Cənubi Azərbaycanın Təbriz şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Əmək fəaliyyətinə Quba Konserv Zavodunda, Maşın-Traktor Stansiyasında fəhlə kimi başlamışdır. 1966 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Təhsil illərində Bakı və Sumqayıt şəhərlərində müəllimlik etmişdir. 1971 ildən "Ədəbiyyat və incəsənət" qəzetində ədəbi işçi, elmi-publisistika şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 1989 ilə kimi "Ulduz", "Azərbaycan" jurnallarında işləmişdir. Yeni Azərbaycan Partiyasının yaradıcılarından biridir. Hazırda YAP-ın sədr müavinidir. 1996—2001 illərdə Azərbaycan Respublikasının Mətbuat və İnformasiya naziri işləmişdir. 1995 ildə Milli Məclisə deputat seçilmişdir. Azərbaycan Yazıçılar Birliyi və Jurnalistlər Birliyinin üzvüdür. "Qızıl qələm" mükafatı laureatıdır. ABŞ Linkol şəhərinin fəxri vətəndaşıdır. 2000 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. İnsan Hüquqları Daimi Komissiyasının sədridir.
Evlidir, 2 övladı var.

Born 1942 May 9 in Tebriz, Sourth Azerbaijan. Graduated from the Azerbaijan State University in 1966. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 2000.
Married, has two children.



ŞAHTAXTİNSKAYA NAİRƏ ƏLİABBAS QIZI
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Shahtakhtinskaya Naira Aliabbas gyzy
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic

1951 il aprelin 16-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. 1971 ildə A.Zeynallı adına Musiqi Məktəbinin fortepiano bölməsini bitirmişdir. 1972—1977 illərdə M.Lomonosov adına Moskva Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır. Tarix elmləri doktorudur (1992). 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır.
Ailəlidir, 2 övladı var.

Born 1951 April 16 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the M.Lomonosov Moscow State University in 1977. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has two children.

1960 il yanvarın 14-də Azərbaycan Respublikası Naxçıvan MR Şərur rayonunun Aralıq kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1981 ildə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunu və BDU-nun hüquq fakültəsini bitirmişdir.
Əmək fəaliyyətinə 1976 ildə İliç Rayon Xalq Maarifi şöbəsində mühasib köməkçisi kimi başlamışdır. 1981 ildən Şərur rayon 6 saylı təmir-tikinti idarəsində fəhlə, Dəmirçi kənd orta məktəbində müəllim, həm də Naxçıvan trikotaj malları fabrikində kadr üzrə təlimatçı işləmişdir. 1982—1983 illərdə hərbi xidmətdə olmuşdur. 1983 ildən Naxçıvan Trikotaj malları fabrikində xüsusi şöbənin rəisi, 1991 ildən Naxçıvan MR Ali Məclisi sədrinin baş köməkçisi vəzifələrində çalışmışdır. 1994—1995 illərdə Naxçıvan MR Baş nazirinin Xarici iqtisadi əlaqələr üzrə birinci müavini işləmişdir. 1995 ildə Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan MR Ali Məclisinə deputat seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır. 1995 il dekabrın 16-dan Naxçıvan MR Ali Məclisinin sədridir.
Evlidir, 3 övladı var.



TALIBOV VASİF YUSİF OĞLU
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri

Talybov Vasif Yusif oglu
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic, Chairman of the Supreme Mejlis of the Nakhchivan Autonomous Republic

Born 1960 January 14 in Aralyg village, Sharur district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Y.Memmedeliyev Nakhchivan State Pedagogical Institute in 1981. Chairman of the Supreme Mejlis of the Nakhchivan Autonomous Republic since 1995.
Married, has three children.

1942 il noyabrın 25-də Ukrayna Respublikasının Kiyev şəhərində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirmişdir. 1959—1962 illərdə hərbi məktəbdə təhsil almışdır.
Əmək fəaliyyətinə 1962 ildən Murmansk vilayətində vzvod komandiri kimi başlamışdır. 1968—1973 illərdə Moskvada hərbi akademiyada təhsilini davam etdirmişdir. Hərbi xidmətdən 1994 ildə Ordu Hərbi Şurasının üzvü ikən tərxis olunmuşdur. 1991 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. 2000 ildən yenidən Milli Məclisə deputat seçilmişdir. "Qırmızı ulduz" (1981), II-III dərəcəli "Vətənə xidmət etməyə görə" (1977—1987) ordenləri və 9 medalla təltif edilmişdir.
Evlidir, 2 övladı var.



TİMOŞENKO VLADİMİR VASİLYEVİÇ
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Timoshenko Vladimir Vasilyevich
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

Born 1942 November 25 in Kiyev sity, Ukraine. Graduated from the Military Academy in 1973, Moscow. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1991.
Married, has two children.



ZABELİN MİXAİL YURYEVİÇ
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Zabelin Mikhail Yuryevich
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic.

1946 il martın 19-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Rusdur. 1974 ildə Azərbaycan Dövlət Politexnik İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə 1965 ildə quraşdırıcı kimi başlamışdır. Rayon Komsomol Komitəsinin katibi, Bakı Şəhər Partiya Komitəsinin təlimatçısı, Azərbaycan KP MK təlimatçısı vəzifələrində çalışmışdır. 1990 ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır. Azərbaycan Rus icmasının sədridir. "Əmək veteranı" medalı ilə təltif olunmuşdur.
Evlidir, 2 övladı var.

Born 1946 in Baku, Azerbaijan Republic. Russian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1974. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1990.
Married, has two children.



ZƏLİMXAN YAQUB (YAQUBOV ZƏLİMXAN USUB OĞLU)
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Zelimkhan Yagub (Yagubov Zelimkhan Usub oglu)
Deputy of the Milli Mejlis of the Azerbaijan Republic

1950 il yanvarın 21-də Gürcüstan Respublikası Bolnisi rayonunun Kəpənəkçi kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir.
Əmək fəaliyyətinə 1967 ildə fəhləliklə başlamışdır. 1973 ildən satıcı, baş satıcı, mağaza müdiri və Könüllü Kitabsevərlər Cəmiyyətində müxtəlif vəzifələrdə çalışmışdır. 1984 ildən "Yazıçı" nəşriyyatında redaktor, redaksiya müdiri olmuşdur. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 2000 ildən Milli Məclisin deputatıdır. 11 şer kitabının müəllifidir. "Şöhrət" ordeni və Hacı Zeynalabdin Tağıyev adına mükafatla təltif olunmuşdur.
Evlidir, 4 övladı var.

Born 1950 January 21 in Kapanakchi village, Bolnisi district, Georgia. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1973. Deputy of the Milli Mejlis of the Azerbaijan Republic since 1995.
Married, has four children.

NAZİRLƏR KABİNETİ



ABBASOV ABBAS AYDIN OĞLU
Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Abbasov Abbas Aydin oglu
First Vice-Prime Minister of the Azerbaijan Republic

1949 il avqustun 4-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. Həmin il respublika Baytarlıq Laboratoriyasında baytar həkim kimi əmək fəaliyyətinə başlamışdır. 1973 ildən Abşeron rayonunun quşçuluq sənayesi sahəsində baytar həkim, sex rəisi, 1979 ildən Bakı Broyler fabrikinin direktoru, 1982 ildən Özbəkistan Respublikasının quşçuluq təsərrüfatlarında direktor müavini, 1983 ildən Özbəkistan SSR Dövlət Quşçuluq Cənayesi Komitəsi sədrinin müavini, 1989 ildən Abşeron Quşçuluq Aqrar-İstehsalat firmasının baş direktoru, 1990 ildən Azərbaycan KP Abşeron RK-nın birinci katibi, rayon XDS İcraiyyə Komitəsinin sədri, Azərbaycan Respublikasının Dövlət müşaviri vəzifələrində işləmişdir. 1992 ilin may ayından Azərbaycan Respublikası Baş nazirinin birinci müavinidir.

Azərbaycan Dövlət Millətlərarası Komitəsinin, Azərbaycan Dövlət Aqrar İslahatı Komissiyasının, Kənd Təsərrüfatında Nümunəvi Özəl Təsərrüfatların Formalaşmasına Dövlət Yardımı Komissiyasının sədridir. Azərbaycan—Rusiya, Azərbaycan—Ukrayna, Azərbaycan—Özbəkistan İqtisadi Əlaqələr Komissiyasının rəhbəri, MDB Dövlətlərarası İqtisadiyyat Komitəsi Rəyasət Heyətində Azərbaycan Respublikasının təmsilçisidir. Yunan-Roma Güləşi üzrə Azərbaycan Federasiyasının sədri, idman ustasıdır. Baytarlıq elmləri namizədidir. 1990—1995 illərdə Azərbaycan Respublikasının xalq deputatı olmuşdur.

Evlidir, 3 övladı var.

Born 1949 August 4 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1971. First Vice-Prime Minister of the Azerbaijan Republic since 1992.

Married, has three children.



ABBASOV MƏMMƏD CƏFƏRQULU OĞLU
Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini

Abbasov Memmed Jafargulu oglu
First Vice-Prime Minister of the Nakhchivan Autonomous Republic

1950 il avqustun 10-da Azərbaycan Respublikası Naxçıvan MR Şərur rayonunun Çərçiboğan kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 1969 ildən tikinti idarəsində fəhlə işləmişdir. Sonra rayon ictimai təminat şöbəsində hesabatçı, Arpaçay su tikinti idarəsində mühəndis, 1979 ildən Çərçiboğan kolxozunda baş iqtisadçı, M.Hüseynzadə adına kolxozda sədr, 1981 ildən Naxçıvan MSSR Nazirlər Sovetində kənd təsərrüfatı şöbəsinin müdiri, 1982 ildən Naxçıvan Vilayət Partiya Komitəsində şöbə müdiri, 1985 ildən Azərbaycan KP MK-nın təşkilat-partiya işi şöbəsində inspektor, 1988 ildən Azərbaycan KP Şərur Rayon Komitəsinin birinci katibi vəzifələrində çalışmışdır. 1991 ildən Naxçıvan MR Baş nazirinin birinci müavinidir. Naxçıvan MR Ali Sovetinin deputatı (1983—1990), Azərbaycan Ali Sovetinin deputatı (1990) seçilmişdir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Born 1950 August 10 in Cherchibogan village, Sharur district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1973. First Vice-Prime Minister of the Nakhchivan Autonomous Republic since 1991.



DADAŞOV RASİM MÜSEYİB OĞLU
Azərbaycan Respublikası Nazirlər Kabineti Neft və Kimya şöbəsinin müdiri

Dadashov Rasim Museyib oglu
Head of the Department of Oil and Chemistry, Cabinet of Ministers of the Azerbaijan Republic

1933 il yanvarın 21-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1957 ildə Azərbaycan Dövlət Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini bitirmişdir. Mühəndis-geoloqdur.
Əmək fəaliyyətinə 1957 ildə NQÇİ-də neft və qaz quyularının tədqiqatçı operatoru kimi başlamışdır. Sonra orada quyuların istismarı üzrə mühəndis, mühəndis-geoloq, 1964 ildən iriləşdirilmiş "Cənub" mədənində baş geoloq, 1966 ildən N.Nərimanov adına NQÇİ-də geoloji şöbənin rəisi, baş geoloq vəzifələrində işləmişidr. 1981 ildən Azərbaycan Respublikası Nazirlər Kabinetində neft və kimya şöbəsinin müdiridir.
70-dən artıq elmi əsərin, bir sıra ixtiraların müəllifidir. "Xalqlar dostluğu" ordeni, medallar və Azərbaycan Respublikası Ali Sovetinin fəxri fərmanları ilə təltif olunmuşdur. Bakı şəhər XDS-nin (9 və 10 çağırış) deputatı seçilmişdir. Geologiya-minerologiya elmləri namizədidir.
Evlidir, 3 övladı var.

Born 21 January 1933 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Industrial Institute in 1957. Head of the Department of Oil and Chemistry, Cabinet of Ministers of the Azerbaijan Republic since 1981.
Married, has three children.



EYYUBOV YAQUB ABDULLA OĞLU
Azərbaycan Respublikası Baş nazirinin müavini

Eyyubov Yagub Abdulla oglu
Vice-Prime Minister of the Azerbaijan Republic

1945 il oktyabrın 24-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1972 ildə Azərbaycan Politexnik İnstitutunun sənaye və mülki tikinti fakültəsini bitirmişdir. 1964-1967 illərdə hərbi xidmətdə olmuşdur. 1963—1964 illərdə I. Şmidt adına Maşınqayırma zavodunda tornaçı, 1970—1972 illərdə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsində komsomol komitəsinin katibi, 1972—1973 illərdə Azərbaycan Politexnik İnstitutunda baş laborant, 1973—1975 illərdə Azərbaycan Politexnik İnstitutu partiya komitəsi katibinin müavini, 1975—1997 illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda baş müəllim, dosent, dekan müavini, dekan, elmi işlər üzrə prorektor, kafedra müdiri, 1997 ildən Azərbaycan Respublikası Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-Mədən Nəzarəti Komitəsinin sədri vəzifələrində işləmişdir. Hazırda Azərbaycan Respublikası Baş nazirinin müavinidir. 1971—1975 illərdə Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. Texnika elmləri doktorudur. 100-dən çox elmi əsərin, monoqrafiyanın müəllifidir. Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir, 3 övladı var.

Born 1945 October 24 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1972. Vice-Prime Minister of the Azerbaijan Republic.
Married, has three children.



ELÇİN (ƏFƏNDİYEV ELÇİN İLYAS OĞLU)
Azərbaycan Respublikası Baş nazirinin müavini, xalq yazıçısı

Elchin (Efendiyev Elchin Ilyas oglu)
Vice-Prime Minister of the Azerbaijan Republic, Peoples Poet

1943 il mayın 13-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1960 ildə orta məktəbi bitirmişdir. 1960—1965 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır.
1965—1969 illərdə Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasında oxumuşdur. 1970 ildə "Azərbaycan bədii nəsri ədəbi tənqiddə (1945—1965)" mövzusunda namizədlik dissertasiyası, 1997 ildə "Ədəbiyyatda tarix və müasirlik problemi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1969 ildən kiçik elmi işçi, baş elmi işçi, 1975 ildən Azərbaycan Yazıçılar İttifaqının katibi, 1987 ildən Xaricdə Yaşayan Həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr "Vətən" Cəmiyyətinin sədri olmuşdur. Yazıçılar Birliyinin üzvü (1968), Ümumittifaq Komsomolu mükafatı laureatı (1982), Azərbaycanın Əməkdar incəsənət xadimi (1984), BDU-nun professoru (1998), xalq yazıçısıdır (1998). 1988—1993 illərdə Azərbaycan Ali Soveti xarici işlər komissiyasının üzvü seçilmişdir. 1993 ildən Azərbaycan Respublikası Baş nazirinin müavinidir. Bədii və elmi kitabların, pyeslərin, məqalələrin, publisist yazıların müəllifidir. Ssenarisi əsasında 7 bədii film çəkilmişdir. 6 pyesi Azərbaycan və Türkiyə teatrlarında tamaşaya qoyulmuşdur. Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. Bədii əsərləri bir çox xarici dillərə tərcümə olunmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif edilmiş (1986), ədəbi mükafatlara layiq görülmüşdür.
Evlidir, 3 övladı var.

Born 1943 May 13 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1965. Vice-Prime Minister of the Azerbaijan Republic since 1993.
Married, has three children.



ƏSƏDOV RÜFƏT İZZƏT OĞLU
Azərbaycan Respublikası Nazirlər Kabineti Aqrar-sənaye şöbəsinin müdiri

Asadov Rufat Izzet oglu
Head of the Department of Agriculture and Industry of the Cabinet of Ministers of the Azerbaijan Republic

1940 il aprelin 23-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1957—1962 illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda təhsil almışdır.
Əmək fəaliyyətinə 1962 ildə Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunda laborant kimi başlamışdır. 1967 ildən laborant, elmi işçi və şöbə müdiri, 1975 ildən Kənd Təsərrüfatı Nazirliyində baş aqronom, şöbə rəisi, 1979 ildən Respublika Nazirlər Kabinetində böyük referent, şöbə müdirinin müavini vəzifələrində işləmişdir. Hazırda Azərbaycan Respublikası Nazirlər Kabineti Aqrar-sənaye şöbəsinin müdiridir. Kənd təsərrüfatı elmləri namizədidir (1967). "Xalqlar dostluğu" ordeni ilə təltif olunmuşdur. 1990 ildə Azərbaycan Respublikasının xalq deputatı seçilmişdir.
Evlidir, 2 övladı var.

Born 1940 April 23 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1962. Head of the Department of Agriculture and Industry of the Cabinet of Ministers of the Azerbaijan Republic.
Married, has two children.



HACIYEV AĞABALA ŞAMXAL OĞLU
Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsinin müdiri

Hajiyev Agabala Shamkhal oglu
Head of Affairs Administration of the Cabinet of Ministers, Azerbaijan Republic

1941 ildə Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1975 ildə Ukrayna Respublikası Xarkov Dəmiryol Mühəndisləri İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə 1959 ildə Bakı Parovoz Deposunda fəhləliklə başlamışdır. 1965—1978 illərdə "Azərenerji" Baş Rayon İdarəsinin "Azərenerjisazlama" müəssisəsində mühəndis, böyük mühəndis, sex rəisinin müavini, 1978—1983 illərdə Azərbaycan Respublikası Dövlət Plan Komitəsinin energetika və elektrikləşdirmə şöbəsinin müdiri, 1983—1991 illərdə Dövlət Plan Komitəsi sədrinin müavini, 1991—1994 illərdə Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsi müdafiə və müdafiə sənayesi şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1994 ildən Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsinin müdiridir.
Azərbaycan Respublikasının Əməkdar iqtisadçısı, texnika elmləri namizədidir. Maşınqayırma və energetikanın inkişafı və problemləri üzrə 19 elmi məqalənin müəllifidir.
Evlidir, 3 övladı var.

Born 1941 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Kharkov Railway Engineers Institute in 1975. Head of the Affairs Administration of the Cabinet of Ministers, Azerbaijan Republic since 1994.
Married, has three children.



HƏSƏNOV ƏLİ ŞAMİL OĞLU
Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri

Hasanov Ali Shamil oglu
Vice-Prime Minister of the Azebaijan Republic, Chairman of the State Comittee on the Affairs of Refugees and Forsed Migrants, Deputy of the Milli Mejlis of the Azerbaijan

1948 il aprelin 10-da Azərbaycan Respublikası Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1969 ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu, 1985 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir.
Əmək fəaliyyətinə 1969 ildə "Azərneftkimyaquraşdırma" Tresti Birinci Sumqayıt Quraşdırma İdarəsində usta kimi başlamışdır. Sonralar həmin idarədə iş icraçısı, baş iş icraçısı, şöbə müdiri, baş mühəndis, 1978 ildən "Kimyasənaye" İstehsalat Birliyində baş direktorun əsaslı tikinti üzrə müavini, 1978 ildən "Sumqayıtkimyasənaye" Birliyi baş direktorunun tikinti üzrə müavini, 1979 ildən "Üzvisintez" İstehsalat Birliyində tikinti üzrə direktor müavini, 1980 ildən Sumqayıt Şəhər İcraiyyə Komitəsi sədrinin müavini, Sumqayıt Şəhər Partiya Komitəsinin ikinci katibi, 1983 ildən Sumqayıt Şəhər İcraiyyə Komitəsi sədrinin birinci müavini, 1991 ildən Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini, 1993 ildən "Azərkimya" Dövlət Şirkəti prezidentinin müavini, birinci müavini, 1997 ilin oktyabr ayından Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinin sədri vəzifələrində işləmişdir. 1998 ildən Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. 1990—1996 illərdə Respublika Ali Sovetinə deputat seçilmişdir.
Evlidir, 2 övladı var.

Born 1948 April 10 in Boyuk Marjanly village, Jabrail district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1969. Chairman of the State Comittee on the Affairs of Refugees and Forsed Migrants since 1998.
Married, has two children.



İSMAYILOV SƏYYAF FƏTİŞ OĞLU
Azərbaycan Respublikası Nazirlər Kabineti Maşınqayırma və energetika şöbəsinin müdiri

Ismayilov Sayyaf Fetish oglu
Head of the Department of Machine-Building and Energetics, Cabinet of Ministers, Azerbaijan Republic

1946 il noyabrın 19-da Azərbaycan Respublikası İmişli rayonunun Nurulu kəndində anadan olmuşdur. 1963—1968 illərdə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda təhsil almışdır.
Əmək fəaliyyətinə 1968 ildə Sumqayıt "Neftqazavtomat" EİB-də texnik kimi başlamışdır. Sonra orada mühəndis, kiçik və böyük elmi işçi, laboratoriya müdiri, 1986 ildən Azərbaycan SSR Nazirlər Soveti İşlər İdarəsinin müdafiə sənayesi şöbəsində referent, 1989 ildən Azərbaycan Respublikası Nazirlər Soveti İşlər İdarəsi maşınqayırma şöbəsinin baş mütəxəssisi vəzifələrində işləmişdir. 1993 ildən Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsi maşınqayırma və energetika şöbəsinin müdiridir. Texnika elmləri namizədidir (1976). 25-dən artıq elmi məqalənin müəllifidir.
Evlidir, 2 övladı var.

Born 1946 November 19 in Nurulu village, Imishli district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1968. Head of the Department of Machine-Building and Energetics, Cabinet of Ministers, Azerbaijan Republic
Married, has two children.



KATİBLİ KAMİL MƏCİD OĞLU
Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsi məxfi şöbəsinin müdiri

Katibli Kamil Mejid oglu
Head of the Secret Department in Affairs Administration of the Cabinet of Ministers of the Azerbaijan Republic

1949 il fevralın 1-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1967—1972 illərdə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində təhsil almışdır.
1974 ildən Azərbaycan Respublikası Nazirlər Soveti nəzdində Xarici Turizm İdarəsinin inspektoru, 1983 ildən Azərbaycan Dövlət Teleradio Şirkətinin Xarici Verilişlər Baş redaksiyasında redaktor, şöbə müdiri, 1990 ildən Azərbaycan Respublikası Nazirlər Kabinetində referent, baş referent, mətbuat katibi, mətbuat mərkəzinin rəhbəri vəzifələrində işləmişdir. 1994 ildən Nazirlər Kabineti İşlər İdarəsi məxfi şöbəsinin müdiridir. Jurnalistlər Birliyinin üzvüdür.
Evlidir, 1 övladı var.

Born 1949 February 1 in Baku, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1972. Head of the Secret Department in Affairs Administration of the Cabinet of Ministers of the Azerbaijan Republic since 1994.
Married, has one child.



RASİZADƏ ARTUR TAHİR OĞLU
Azərbaycan Respublikasının Baş naziri

Rasizade Artur Tahir oglu
Prime Minister of the Azerbaijan Republic

1935 il fevralın 26-da Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1957 ildə Azərbaycan Sənaye İnstitutunu bitirərək Neft Maşınqayırma İnstitutunda mühəndis vəzifəsində işləməyə başlamışdır. 1973 ilədək həmin institutda elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmışdır. 1973—1977 illərdə ittifaq Neft-Maşınqayırma Birliyində baş mühəndis, 1977—1978 illərdə Neft-Maşınqayırma İnstitutunun direktoru, 1978—1981 illərdə Azərbaycan Dövlət Plan Komitəsi sədrinin müavini, 1981—1986 illərdə Azərbaycan KP MK-nın şöbə müdiri, 1986—1992 illərdə respublika Baş nazirinin müavini, 1992—1996 illərdə "İqtisadi İslahatlar Fondu"nda məsləhətçi, 1996 ildən Azərbaycan Respublikası Prezidentinin köməkçisi, həmin ildən respublika Baş nazirinin birinci müavini vəzifələrində işləmişdir. 1996 ildən Azərbaycan Respublikasının Baş naziridir.
Dövlət mükafatı laureatıdır (1971).
Evlidir, 1 övladı var.

Born 1935 February 26 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Industrial Institute in 1957. Prime Minister of the Azerbaijan Republic since 1996.
Married, has one child.




QULİYEV SAHİB ƏLİ OĞLU
Azərbaycan Respublikası Nazirlər Kabineti Təsərrüfat İdarəsinin rəisi

Guliyev Sahib Ali oglu
Chief of the Administration of Economy of the Cabinet of Ministers of the Azerbaijan Republic

1945 il oktyabrın 12-də Azərbaycan Respublikasının Şəmkir rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1975 ildə Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunun Bakı filialını bitirmişdir. Mühəndis-mexanikdir.
1961—1971 illərdə Respublika Kommunal Təsərrüfatı Nazirliyinin təmir-tikinti idarəsində və Bakı Gəmi Təmiri Zavodunda çilingər işləmişdir. 1973—1976 illərdə Bakı Gəmi Təmiri Zavodunda Komsomol Komitəsinin katibi, 1976—1978 illərdə "Volodya Dubinin" gəmisi kapitanının birinci köməkçisi, 1978—1990 illərdə Azərbaycan KP MK-nın sənaye-nəqliyyat şöbəsində təlimatçı, partiya təşkilatı və kadrlarla iş şöbəsində inspektor, məsul təşkilatçı, 1990-1993 illərdə Azərbaycan Respublikası Nazirlər Kabineti Təsərrüfat İdarəsi rəisinin müavini, təsərrüfat şöbəsi müdirinin müavini, Azərbaycan Respublikası Prezidenti Aparatı İşlər İdarəsi təsərrüfat şöbəsi müdirinin müavini vəzifələrində çalışmışdır. 1993 ildən Azərbaycan Respublikası Nazirlər Kabineti Təsərrüfat İdarəsinin rəisidir.
Evlidir.

Born 1945 October 12 in Shamkir district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku Branch of Odessa Institute of Marine Engineers in 1975. Chief of the Administration of Economy of the Cabinet of Ministers of the Azerbaijan Republic since 1993.
Married.



SADIQOV İSMAYIL RZA OĞLU
Azərbaycan Respublikası Nazirlər Kabineti elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsinin müdiri

Sadygov Ismayil Rza ogly
Head of the Department of Science, Culture and Peoples Education, Cabinet of Ministers, Azerbaijan Republic

1941 il iyulun 15-də Azərbaycan Respublikası Naxçıvan MR-in Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1957—1962 illərdə Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsində təhsil almışdır. Mühəndis-mexanikdir.
Əmək fəaliyyətinə 1962 ildə Azərbaycan Politexnik İnstitutunun materiallar müqaviməti kafedrasında laborant kimi başlamışdır. Sonra həmin institutda baş laborant, dosent, kafedra müdiri, partiya komitəsinin katibi vəzifələrində işləmişdir. Texnika elmləri doktoru (1984), Beynəlxalq Mühəndislər Akademiyasının müxbir üzvüdür (1994). 1983 ildə Azərbaycan Respublikası Nazirlər Sovetinin şöbə müdiri vəzifəsinə təyin edilmişdir. Hazırda Nazirlər Kabineti elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsinin müdiridir.
Evlidir, 3 övladı var.

Born 1941 July 15 in Nakhchivan, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1962. Head of the Department of Science, Culture and Peoples Education, Cabinet of Ministers, Azerbaijan Republic.
Married, has three children.



SALAHOV ŞAHİN RASİM OĞLU
Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsi tikinti, inşaat materialları və tikinti sənayesi şöbəsinin müdiri

Salahov Shahin Rasim oglu
Head of the Department of Building, Building Materials and Building Industry, Affairs Administration of the Cabinet of Ministers, Azerbaijan Republic

1952 il oktyabrın 3-də Azərbaycan Respublikasının Bərdə rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1974 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. Mühəndis-hidrotexnikdir.
Əmək fəaliyyətinə 1974 ildə Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin Abşeron mexaniki suvarma idarəsində sahə mühəndisi kimi başlamışdır. 1977—1985 illərdə "Xüsusisənayemənzilsutikinti" trestinin istehsalat şöbəsində mühəndis, böyük mühəndis, şöbə rəisinin müavini, şöbə rəisi, 1985—1986 illərdə həmin trestin 34 saylı Səyyar Mexanikləşdirilmiş Dəstəsinin rəisi, 1986-1990 illərdə trestdə istehsalat şöbəsinin rəisi və trest müdirinin istehsalat üzrə müavini, 1990—1993 illərdə Qaçqınlar və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin "Qaçqınınşaat" İTB-də istehsalat texniki şöbəsinin rəisi, 1 saylı trestin istehsalat texniki şöbəsinin rəisi və baş mühəndisi, 1993 ildən Nazirlər Kabineti İşlər İdarəsinin tikinti, inşaat materialları və tikinti sənayesi şöbəsində böyük referent, şöbə müdirinin müavini vəzifələrində işləmişdir. Hazırda həmin şöbənin müdiridir.
Evlidir, 2 övladı var.

Born 1952 October 3 in Barda district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1974. Head of Department of Building, Building Materials and Building Industry, Affairs Administration of the Cabinet of Ministers, Azerbaijan Republic since 1993.
Married, has two children.



ŞƏRİFOV ABİD QOCA OĞLU
Azərbaycan Respublikası Baş nazirinin müavini

Sharifov Abid Goja ogly
Vice-Prime Minister of the Azerbaijan Republic

1940 il iyunun 1-də Azərbaycan Respublikasının Şəki şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1962 ildə Azərbaycan Dövlət Politexnik İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə 1962 ildə Bakı Baş Tikinti İdarəsində başlayaraq onun trestlərində tikinti ustası, iş icraçısı, böyük iş icraçısı, texniki istehsalat şöbəsinin rəisi və baş mühəndis əvəzi, 1972 ildən həmin idarənin 23 saylı tikinti idarəsinin rəisi, Azərbaycan SSR Nazirlər Sovetinin Əsaslı tikinti şöbəsində böyük referent, "Azərnəqliyyattikinti" trestinin rəisi, sonra 1988 ildən "Azərnəqliyyatyoltikinti" layihə-sənaye tikinti Birliyinin rəisi, 1991 ildən Türkiyə Respublikasının Çerkesköy-Kapıkulu şəhərləri arasında dəmir yolunu elektrikləşdirən tikinti idarəsi rəisinin müavini, 1993 ildən "Azərnəqliyyatyoltikinti" layihə-sənaye tikinti Birliyinin bazasında yaradılan eyniadlı Dövlət Şirkətinin prezidenti vəzifələrində işləmişdir. 1995 ildən Azərbaycan Respublikası Baş nazirinin müavinidir. "Şərəf nişanı" (1976), "Oktyabr inqilabı" (1980) ordenləri ilə təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 1940 June 1 in Sheki, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1962. Vice-Prime Minister of the Azerbaijan Republic since 1995.
Married, has two children.



VƏLİYEVA GÜNƏŞ MƏHƏRRƏM QIZI
Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsi hüquq şöbəsinin müdiri

Veliyeva Gunesh Maharram gyzy
Head of the Department of Law of the Administration on Affairs of Cabinet of Ministers, Azerbaijan Republic

1953 il dekabrın 16-da Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Burada 4 saylı şəhər orta məktəbini bitirdikdən sonra M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuş, 1974 ildə Azərbaycan Dövlət Universitetinə köçürülmüş və 1976 ildə təhsilini başa vurmuşdur. Hüquqşünasdır. Əmək fəaliyyətinə 1976 ildə Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunda kiçik elmi işçi kimi başlamışdır. 1977 ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində baş məsləhətçi, 1981 ildə Azərbaycan Respublikası Nazirlər Soveti İşlər İdarəsinin hüquq şöbəsində referent, aparıcı mütəxəssis, böyük referent, 1993 ildən Azərbaycan Dövlət Neft Şirkəti hüquq şöbəsinin rəisi vəzifələrində işləmişdir. 1994 ildən Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsi hüquq şöbəsinin müdiridir.
Ailəlidir, 2 övladı var.

Born 1953 December 16 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1976. Head of the Department of Law of the Administration on Affairs of Cabinet of Ministers, Azerbaijan Republic since 1994.
Married, has two children.

NAZİRLİKLƏR VƏ DÖVLƏT KOMİTƏLƏRİ



ABBASOV NAMİQ RƏŞİD OĞLU
Azərbaycan Respublikasının Milli Təhlükəsizlik naziri, general-leytenant

1940 ildə Azərbaycan Respublikası Naxçıvan MR-in Ordubad rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1957—1962 illərdə Azərbaycan Dövlət Universitetində təhsil almışdır.
Əmək fəaliyyətinə 1956 ildə Ordubad yerli sənaye kombinatında fəhlə kimi başlamış, 1962—1970 illərdə "Abşeron" qəzetində şöbə müdiri, məsul katib, redaktor müavini, 1970 ildən Abşeron Rayon Partiya Komitəsinin II katibi, 1977 ildən təhlükəsizlik orqanlarında şöbə rəisinin müavini, şöbə rəisi, sədr müavini, 1992 ildən Azərbaycan Respublikası Milli Təhlükəsizlik nazirinin birinci müavini vəzifələrində çalışmışdır. 1995 ilin mart ayından Azərbaycan Respublikasının Milli Təhlükəsizlik naziridir.
Evlidir, 2 övladı var.

Abbasov Namig Rashid oglu
Minister of National Security of the Azerbaijan Republic, Lieutenant-General

Born 1940 in Ordubad district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1962. Minister of National Security of the Azerbaijan Republic since 1995.
Married, has two children.



ABBASZADƏ MƏLEYKƏ MEHDİ QIZI
Azərbaycan Respublikası Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasının sədri

1953 ildə Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1975 ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin hesablama riyaziyyatı və kibernetika fakültəsini bitirmişdir.
1975 ildən Azərbaycan EA-nın Kibernetika İnstitutunda baş laborant, elmi işçi, 1987 ildən Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunda şöbə müdiri, 1989 ildən Azərbaycan Neft və Kimya İnstitutunda aparıcı elmi işçi, 1990 ildən "İstedad" Assosiasiyası sədrinin birinci müavini, 1994 ildən Tələbə Qəbulu Üzrə Dövlət Komissiyası sədrinin birinci müavini vəzifələrində işləmişdir. 2000 ilin oktyabr ayından Azərbaycan Respublikası Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasının sədridir.
Texnika elmləri namizədidir (1988). 40-dan çox elmi məqalənin müəllifidir.
2 övladı var.

Abbaszade Maleyka Mehdi gyzy
Chairman of the State Commission on Entrance of Students of the Azerbaijan Republic

Born 1953 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the M.V.Lomonosov Moscow State University in 1975. Chairman of the State Commission on Entrance of Students of the Azerbaijan Republic since 2000.
Married, has two children.



BABAYEV HEYDƏR AYDIN OĞLU
Azərbaycan Respublikasının Prezidenti Yanında Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsinin sədri

Babayev Heydar Aydin oglu
Chairman of the State Committee on Securities under the President of the Azerbaijan Republic

1957 ildə Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1980 ildə T.Şevçenko adına Kiyev Dövlət Universitetinin beynəlxalq iqtisadi münasibətlər fakültəsini bitirmişdir.
Əmək fəaliyyətinə Azərbaycan TSP-də xarici sərgilər üzrə müfəttiş vəzifəsi ilə başlamışdır. 1981 ildən SSRİ Xarici İqtisadi Əlaqələr Bankında valyuta mühafizəsi müfəttişi, idarə rəisinin müavini, 1989 ildən "Bolqarsovinvest"in SSRİ üzrə rəhbərinin müavini, 1992 ildən "Xariciiqtisadibank"ın Türkiyədə baş nümayəndəsi, 1997 ildən "Mostbank"ın vitse-prezidenti, həmin bankın Böyük Britaniyada baş nümayəndəsi vəzifələrində işləmişdir. 1999 ildən Azərbaycan Respublikası Prezidenti Yanında Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsinin sədridir.
Evlidir, 1 övladı var.

Born 1957 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the T.Shevchenko Kiev State University in 1980. Chairman of the State Committee on Securities under the President of the Azerbaijan Republic since 1999.
Married, has one child.



BAĞIROV HÜSEYNQULU SEYİD OĞLU
Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri

Baghyrov Huseyngulu Seyid oglu
Minister of Ecology and Natural Resources of the Azerbaijan Republic

1955 ildə Azərbaycan Respublikasının Quba şəhərində anadan olmuşdur. Ali təhsilli, professordur.
"Qərb" Universitetinin təsisçisi və prezidentidir. Xarici ölkələrin, o cümlədən ABŞ universitetlərində dərs demiş və tədqiqatlar aparmışdır. 1993 ildən "Qərb" Universitetinin rektoru, 2000 ildən Azərbaycan Respublikasının Ticarət naziri olmuşdur. 2001 ilin may ayından Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziridir.
Bir sıra Beynəlxalq akademiya və assosiasiyaların, o cümlədən, Beynəlxalq Sosial və Pedaqoji Elmlər Akademiyası, ABŞ Fulbrayt Assosiasiyası, Avropa İnzibati Elmlər Assosiasiyasının (Belçika) həqiqi üzvüdür.

Born 1955 in Guba, Azerbaijan Republic. Rektor and founder of the University "Garb". Minister of Trade of the Azerbaijan Republic in 2000. Minister of Ecology and Natural Resources of the Azerbaijan Republic since 2001.
Married, has three children.



BAXŞIYEV ƏLÖVSƏT QƏZƏNFƏR OĞLU
Naxçıvan Muxtar Respublikasının Baş naziri

Bakhshiyev Alovsat Gazanfar oglu
Prime Minister of the Nakhchivan Autonomous Republic

1956 il iyun ayının 22-də Azərbaycan Respublikası Naxçıvan MR Şərur rayonunun Kərimbəyli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1977 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir.
1977 ildən Şərur Rayon Kommunal Təsərrüfatı İdarəsində mühasib, 1979 ildən "Naxçıvan MR-in 50 illiyi" adına sovxozda iqtisadçı, Baş mühasib , 1986 ildən Şərur Rayon İcraiyyə Komitəsi sədrinin müavini, birinci müavini, 1994 ildən Naxçıvan MR Maliyyə naziri, 1998 ildən Naxçıvan MR Maliyyə və İqtisadiyyat naziri vəzifələrində işləmişdir. 2000 ilin fevral ayından Naxçıvan Muxtar Respublikasının Baş naziridir.
Evlidir, 3 övladı var.

Born 22 June 1956 in Kerimbeyli village, Sharur district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1977. Prime Minister of the Nakhchivan Autonomous Republic since 2000.
Married, has three children.



BEYDULLAYEV MƏMMƏD ƏMİRƏLİ OĞLU
Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Bakı Qarnizonunun rəisi, polkovnik

Beydullayev Memmed Amirali oglu
Vice-Minister of the Ministry of Defence of the Azerbaijan Republic, Chief of the Baku Garrison, Colonel

1953 il yanvarın 15-də Azərbaycan Respublikası Dəvəçi rayonunun Nohurlar kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1975 ildə Bakı Ali Ümumqoşun Komandirlər Məktəbini, 1986 ildə Frunze adına Hərbi Akademiyanı bitirmişdir.
1975—1983 illərdə Uzaq Şərq Hərbi Dairəsində tağım komandiri, bölük komandiri, taburun qərargah rəisi, 1986—1990 illərdə Macarıstanda SSRİ qoşunları tərkibində tabur komandiri, alayın qərargah rəisi vəzifələrində çalışmışdır. 1990 ildə məlum hadisələrə görə Azərbaycana qayıtmışdır. 1992—1993 illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əməliyyat İdarəsi rəisinin müavini, 1993—1995 illərdə BDU Hərbi kafedrasının rəisi vəzifələrində işləmiş, 1995 ildən Müdafiə Nazirliyi Kadrlar İdarəsinin rəisi vəzifəsini icra etmişdir.
1995 ilin iyun ayından Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Bakı Qarnizonunun rəisidir.
Evlidir, 2 övladı var.

Born 15 January 1953 in Nohurlar village, Devechi district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Frunze Military Academy in 1986. Vice-minister of the Ministry of Defence, Chief of the Baku Garrison since 1995.
Married, has two children.



CAVADOV GÜLMƏMMƏD SÜLEYMAN OĞLU
Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Material Ehtiyatları Komitəsinin sədri

Javadov Gulmemmed Suleyman oglu
Chairman of the State Committee of Material Resources under the Cabinet of Ministers of the Azerbaijan Republic

1949 il oktyabrın 17-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.
1972 ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir. Mühəndis-elektrikdir.
Əmək fəaliyyətinə 1971 ilin sentyabr ayında Azərbaycan Neft və Kimya Sənayesi Nazirliyi İstehsalat Əmtəə Kontorunda başlamış və bir il burada çilingər işləmişdir. 1972 ildən Bakı Elektron Hesablayıcı Maşınlar Zavodunda mühəndis-texnoloq, 1972—1974 illərdə Moskva vilayəti Zaqorsk şəhər Elektromexanik zavodunda mühəndis, 1974—1986 illərdə Bakı Elektron Hesablayıcı Maşınlar Zavodunda şöbə rəisi, 1986—1992 illərdə həmin zavodun direktoru, 1993—1996 illərdə Bakı "Peyk" zavodunda direktor müavini, 1996—1999 illərdə həmin zavodun direktoru vəzifələrində çalışmışdır. 1999 ilin aprel ayından Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Material Ehtiyatları Komitəsinin sədridir.
Evlidir, 2 övladı var.

Born 1949 October 17 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State İnstitute of Oil and Chemistry in 1972. Chairman of the State Committee of material Resources under the Cabinet of Ministers of the Azerbaijan Republic since 1999.
Married, has two children.



DÜNYAMALIYEV ZAHİD VƏLİ OĞLU
Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini, general-mayor

Dunyamaliyev Zahid Veli oglu
First Vice-Minister of Internal Affairs of the Azerbaijan Republic, Major-General

1944 il martın 27-də Azərbaycan Respublikası Naxçıvan MR-ın Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1969 ildə Azərbaycan Dövlət Universitetini, 1989 ildə Volqoqrad Ali İstintaq Məktəbini bitirmişdir.
1969 ildə Azərbaycan SSR Elmlər Akademiyası Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutunda kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlamış, 1972 ildən Azərbaycan Elmi-Tədqiqat Neft və Kimya Proseslərinin Avtomatlaşdırılması İnstitutunda böyük mühəndis işləmişdir. 1977 ildə daxili işlər orqanlarına işə göndərilmişdir. 1977—1983 illərdə DİN Əməliyyat, Statistik İnformasiya İdarəsində rəis müavini, 1983—87 illərdə həmin idarənin rəisi, 1987—1990 illərdə Gəncə Şəhər Daxili İşlər İdarəsinin rəisi, 1991—1992 illərdə respublika DİN Tədris Mərkəzinin rəisi, 1993 ilin mart ayından Bakı Şəhər Sabunçu Rayon Polis İdarəsi rəisinin müavini, 1993 ilin iyul ayından Azərbaycan DİN Mühafizə İdarəsinin rəisi vəzifələrində işləmişdir. 1993 ilin avqust ayından Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavinidir. SSRİ DİN-in I, II, III dərəcə medalları ilə təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 27 March 1944 in Nakhchivan city, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1969. First Vice-Minister of Internal Affairs of the Azerbaijan Republic since 1993.
Married, has two children.

1950 ildə Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirlər Məktəbini, 1982 ildə Moskvada M.Frunze adına Hərbi Akademiyanı bitirmişdir. 1971-1992 illərdə SSRİ Silahlı Qüvvələrində tağım, bölük komandiri, tabır qərargahının rəisi, tabur komandiri, alay qərargahının rəisi, alay komandiri vəzifələrində çalışmışdır. 1992 il fevralın 17-dən Azərbaycan Respublikası Silahlı Qüvvələrində xidmət edir. Müdafiə Nazirliyi Baş Qərargah rəisinin birinci müavini, Baş Qərargah rəisi — Müdafiə nazirinin vəzifəsinin icraçısı, Müdafiə nazirinin müavini vəzifələrində işləmişdir. 1995 ildən Azərbaycan Respublikasının Müdafiə naziridir.
Evlidir, 2 övladı var.

Born 1950 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the M.Frunze Military Academy in 1982, Moscow. Minister of Defence of the Azerbaijan Republic since 1995.
Married, has two children.



ƏBİYEV SƏFƏR AXUNDBALA OĞLU
Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik

Abiyev Safar Akhundbala oglu
Minister of Defence of the Azerbaijan Republic, Colonel-General

1940 il iyunun 15-də Azərbaycan Respublikasının Şəki rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1960 ildə Bakı Rabitə Elektrotexnikumunu, 1965 ildə Odessa Elektrotexniki Rabitə İnstitutunu bitirmişdir.
1960 ildə Maştağa ATS-də texnik kimi əmək fəaliyyətinə başlamışdır. 1965 ildən Bakı şəhər 3 saylı ATS-də mühəndis, Mərkəzi Telefon Qovşağında sex rəisi, Bakı Şəhər Telefon Şəkəbəsində stansiya xidmətinin rəisi, 1970 ildən Şəhər Telefon Şəbəkəsində stansiya xidməti rəisi, baş mühəndis, 1975—1985 illərdə Bakı Şəhər Telefon Şəbəkəsinin rəisi, 1985—1997 illərdə Azərbaycan Respublikası Rabitə nazirinin müavini vəzifələrində işləmişdir. 1997 ilin iyul ayından Azərbaycan Respublikasının Rabitə naziridir.
Evlidir, 3 övladı var.

Born 15 June 1940 in Sheki district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Odessa Electrotechnical Communication Institute in 1960. Minister of Communication of the Azerbaijan Republic since 1997.
Married, has three children.



ƏHMƏDOV NADİR ALI OĞLU
Azərbaycan Respublikasının Rabitə naziri

Ahmadov Nadir Aly oglu
Minister of Communication of the Azerbaijan Republic



ƏHMƏDZADƏ ƏHMƏD CUMA OĞLU
Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri

Ahmadzade Ahmad Juma oglu
Chairman of the Committee of Melioration and Water Economy under the Cabinet of Ministers of the Azerbaijan Republic

1945 il yanvarın 7-də Azərbaycan Respublikasının Qax rayonunda anadan olmuşdur. 1966 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmiş, mühəndis-hidrotexnik ixtisasına yiyələnmişdir. 1978 ildə Sov.İKP MK yanında İctimai Elmlər Akademiyasını bitirmişdir. Əmək fəaliyyətinə 1961 ildə 11 saylı Bakı Şəhər Tikinti İdarəsində fəhlə kimi başlamışdır. 1966 ildən Azərbaycan ETHMİ-də böyük mühəndis, 1967 ildən Qax SSİ-də böyük mühəndis, 1967—1975 illərdə Qax SSİ-nin rəisi, 1975—1976 illərdə Qax XDS İcraiyyə Komitəsinin sədri, 1978—1980 illərdə Abşeron Rayon XDS İcraiyyə Komitəsinin sədri, 1980—1987 illərdə Azərbaycan KP Füzuli RK-nın birinci katibi, 1987—1991 illərdə Azərbaycan KP Şəmkir RK-nın birinci katibi, 1991 ildən Şəki Şəhər Partiya Komitəsinin birinci katibi, Şəki Şəhər İcraiyyə Komitəsinin sədri, 1991—1992 illərdə Quba Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrində işləmişdir. 1993 ildən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədridir.
1981—1995 illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmiş, orden və medallarla təltif olunmuşdur.
Evlidir, 3 övladı var.

Born 7 January 1945 in Gakh district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1966. Chairman of the Committee of Melioration and Water Economy under the Cabinet of Ministers of the Azerbaijan Republic since 1993. Married, has three children.



ƏLƏKBƏROV ƏVƏZ ƏKBƏR OĞLU
Azərbaycan Respublikasının Maliyyə naziri

Alekberov Avaz Akber oglu
Minister of Finance of the Azerbaijan Republic

1952 il iyulun 23-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Göyçə mahalının Cil kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu, 1982 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir. İqtisadçıdır.
Əmək fəaliyyətinə 1973 ildən başlayaraq Bakı Baş Tikinti, Azərkəndtikinti və s. idarələrdə iqtisadçı, baş iqtisadçı, plan şöbəsinin rəisi, trest müdirinin müavini, 1981 ildən Azərbaycan SSR Nazirlər Sovetinin iqtisadiyyat şöbəsində böyük referent, şöbə müdirinin müavini, 1991 ildən Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri vəzifələrində çalışmışdır. 1999 ilin iyul ayından Azərbaycan Respublikasının Maliyyə naziridir.
Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir, 2 övladı var.

Born 1952 July 23 in Jil village, Goyja region, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1973. Minister of Finance of the Azerbaijan Republic since 2000.
Marrried, has two children.



ƏLƏKBƏROV ƏSGƏR ƏLƏKBƏR OĞLU
Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavini, general-mayor

Alekberov Asker Alekber oglu
Vice-Minister of Internal Affairs of the Azerbaijan Republic, Major-General

1954 il iyulun 16-da Qərbi Azərbaycanda (indiki Ermənistan) Masis rayonunun Rənclər kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Əmək fəaliyyətinə 1971 ildə "Azərdənizneftikinti" Birliyinin 3 saylı Tikinti İdarəsində fəhləliklə başlamışdır. 1977 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu, 1988 ildə SSRİ DİN-in Milis Akademiyasını bitirmişdir.
1977 ildən Naxçıvan MR Ordubad Rayon Kənd Təsərrüfatı Birliyində baş mühəndis, 1979 ildən Naxçıvan Şəhər Komsomol Komitəsində şöbə müdiri, 1980 ildən Naxçıvan Vilayət Komsomol Komitəsində şöbə müdiri, 1983 ildən Naxçıvan Vilayət Partiya Komitəsində təlimatçı, şöbə müdirinin müavini, 1988 ildən Naxçıvan MR Daxili İşlər nazirinin müavini, 1993 ildən Bakı Şəhər Xətai Rayon Polis İdarəsinin Qərargah rəisi, Qaradağ Rayon Polis İdarəsinin rəisi, 1993 ildən Azərbaycan Respublikası DİN Kadrlar İdarəsinin rəisi vəzifələrində işləmişdir. 1994 ilin oktyabr ayından Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavinidir.
Evlidir, 5 övladı var.

Born 16 July 1954 in Renjber village, Masis district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1977, Militia Academy of the Ministry of Internal Affairs of the USSR in 1988. Vice-Minister of Internal Affairs of the Azerbaijan Republic since 1994.
Married, has five children.



ƏLƏKBƏROVA DİLARƏ ZÜLFÜQAR QIZI
Naxçıvan MR Dövlət Təbiəti Mühafizə Komitəsinin sədri

Alekberoba Dilare Zulfugar gyzy
Chairman of the State Committee of Protection of Nature of the Nakhchivan AR

1939 il yanvarın 2-də Azərbaycan Respublikası Naxçıvan MR Şahbuz rayonunun Yuxarı Remişin kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1966 ildə Bakı Rabitə Texnikumunu, 1977 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir.
Əmək fəaliyyətinə Naxçıvan rabitə qovşağında telefonçu kimi başlamışdır. 1986 ildən Naxçıvanda Araz Su Elektrik Stansiyasında texnik, mühəndis, 1972 ildən 619 saylı dəmir yol tikintisində kadrlar üzrə baş inspektor, 1977 ildən Naxçıvan Vilayət Partiya Komitəsində təlimatçı, 1978 ildən katib vəzifələrində işləmişdir. 1989 ildən Naxçıvan MR Dövlət Təbiəti Mühafizə Komitəsinin sədridir.

Born 1939 January 2 in Yukhary Remmishin village, Shahbuz district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku Communication Technical School in 1966, Baku Higher Party School in 1977. Chairman of the State Committee of Protection of Nature of the Nakhchivan AR since 1989.



ƏLİYEV FƏRHAD ŞÖVLƏT OĞLU
Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri

Aliyev Farhad Shovlat oglu
Minister of Economic development of the Azerbaijan Republic

1963 il aprelin 1-də Azərbaycan Respublikasının Cəlilabad rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir.
1989 ildən Azərbaycan LKGİ MK-nın təşkilat şöbəsində bölmə müdiri, 1991 ildən "Gənclik" Sovet-Türkiyə müştərək müəssisəsinin baş direktoru, 1992 ildən "Sputnik" Beynəlxalq Gənclər Turizm Səhmdar Cəmiyyətinin prezidenti, 1992 ildən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Xarici Turizm Şurası sədrinin birinci müavini, 1995 ildən "Azərşərqticarət" Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri, 1997 ildən Azərbaycan Respublikası Ticarət nazirinin birinci müavini, Ticarət naziri, 1999 ildən Azərbaycan Respublikası Dövlət Əmlakı naziri vəzifələrində işləmişdir. 2001 ildən Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziridir.
Evlidir, 2 övladı var.

Born 1963 April 1 in Jalilabad district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Civil Engineering Institute. Minister of State Property of the Azerbaijan Republic since 1999. Minister of Economic Development of the Azerbaijan Republic since 2001.
Married, has two children.



ƏLİYEV İRŞAD NADİR OĞLU
Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri

Aliyev Irshad Nadir ogly
Minister of Agriculture of the Azerbaijan Republic

1944 il iyun ayının 30-da Azərbaycan Respublikası Goranboy rayonunun Kürzallar kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1970 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu, 1974 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir. Əmək fəaliyyətinə 1961 ildə Goranboy rayonundakı "Çəkic-Oraq" kolxozunda kolxozçu kimi başlamış, Kənd Texniki Təminat Birliyində çilingər işləmişdir. 1967 ildən "Çəkic-Oraq" kolxozunda mühəndis, 1970—1972 illərdə Rayon Komsomol Komitəsində II katib, 1974 ildən rayon PK-də təlimatçı, II katib, 1982 ildən Azərbaycan MK təşkilat şöbəsində inspektor, 1983 ildən Balakən, Ucar, Goranboy rayon Partiya Komitələrinin birinci katibi, Goranboy rayon Soveti və İcra aparatının rəhbəri, 1992 ildən Prezident Aparatında məsləhətçi, respublika Qaçqınlar və Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri vəzifələrində çalışmışdır. 1994 ilin oktyabr ayından respublika Kənd Təsərrüfatı naziridir. "Şərəf nişanı" ordeni, iki medalla təltif edilmiş, Azərbaycan Ali Sovetinin Fəxri fərmanına layiq görülmüşdür.
Evlidir, 3 övladı var.

Born 30 June 1944 in Kurzallar village, Goranboy district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku Higher Party School in 1974. Minister of Agriculture of the Azerbaijan Republic since 1994.
Married, has three children.



ƏLİYEV RAFİQ YƏHYA OĞLU
Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin sədri

Aliyev Rafiq Yahya oglu
Chairman of the State Committee of the Azerbaijan Republic for the work with Religious Association.

1947 il yanvarın 1-də Azərbaycan Respublikası Ağdam rayonunun Sofulu kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1968 ildə ADU-nun şərqşünaslıq fakültəsinin ərəb dili bölməsini bitirmişdir.
1985 ildən Azərbaycan EA Şərqşünaslıq İnstitutunda din tarixi bölməsinin müdiri, 1997 ildən xarici əlaqələr üzrə müdir müavini, 1992 ildən EA-nın Qafqazda İslam Araşdırmaları Mərkəzinin direktoru vəzifələrində işləmişdir. 2001 ilin iyun ayından Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin sədridir. "İrşad" İslam Araşdırmaları Mərkəzinin təsisçisi, "İslam araşdırmaları" jurnalının baş redaktoru (Azərbaycan və ingilis dillərində), "Şərq tibb jurnalı"nın təsisçisidir (Azərbaycan və ingilis dillərində).
Fəlsəfə elmləri doktoru, professordur. 9 monoqrafiya, 100-ə yaxın elmi məqalənin müəllifidir. Afrika Problemləri Üzrə Elmi Şuranın üzvü, İslam Araşdırmaları Üzrə Koordinasiya Şurasının üzvü (Rusiya EA), "Dünyada Sülh Uğrunda" Professorlar Akademiyasının üzvüdür (ABŞ).
Evlidir, 2 övladı var.

Born 1947, January 1 in Sofulu village, Aghdam district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1968. Chairman of the State Committee of the Azerbaijan Republic for the work with Religious Association at present.
Married, has two children.



ƏSƏDOV HEYDƏR XANIŞ OĞLU
Azərbaycan Respublikası Maliyyə nazirinin müavini, Baş Dövlət Xəzinədarlığının baş direktoru

Asadov Heydar Khanysh oglu
Vice-Minister of Finance of the Azerbaijan Republic, Director General of the Central State Exchequer

1959 il oktyabrın 24-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Sisian rayonunun Qızılcıq kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1983 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə 1978 ildə başlamış, Bakı şəhəri Əzizbəyov rayonu Ticarət İdarəsində, 1979—1980 illərdə Bakı şəhəri Əzizbəyov adına İstehsalat Kombinatında fəhlə işləmişdir. 1980—1981 illərdə Bakı şəhəri Əzizbəyov adına Xəstəxanada mühasib, 1981—1984 illərdə Mərkəzi Statistika İdarəsində böyük təftişçi-mühasib, 1987—1992 illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda iqtisadçı, müəllim, baş müəllim vəzifələrində çalışmışdır. 1983—1986 illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun aspirantı, 1992 ildən isə Türkiyənin Mərmərə Universitetinin doktorantı olmuşdur. 1995 ilin fevral ayından Azərbaycan Respublikası Maliyyə nazirinin müavini, 1996 ilin yanvar ayından Baş Dövlət Xəzinədarlığının baş direktorudur. İqtisad elmləri namizədidir (1978). 24 elmi əsərin, o cümlədən bir monoqrafiyanın müəllifidir.
Evlidir, 3 övladı var.

Born 1959 October 24 in Gyzyljyg village, Sisyan district, Western Azerbaijan (now Armenia). Graduated from the Azerbaijan State Institute of National Economy in 1983. Vice-Minister of Finance of the Azerbaijan Republic since 1995, Director General of the Central State Exchequer since 1996.
Married, has three children.



FƏTİZADƏ İLQAR FƏTİ OĞLU
Azərbaycan Respublikası Maliyyə nazirinin birinci müavini

Fetizade Ilgar Feti oglu
Vice-Minister of Finance of the Azerbaijan Republic

1956 il sentyabrın 30-da Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1978 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun maliyyə-statistika fakültəsini bitirmişdir. İqtisadçıdır. 1978—1980 illərdə ordu sıralarında xidmət etmişdir.
Əmək fəaliyyətinə 1978 ildə Respublika Maliyyə Nazirliyinin Ştat İdarəsində başlamışdır. 1980—1988 illərdə həmin idarədə böyük iqtisadçı, baş iqtisadçı, şöbə rəisi, 1988—1992 illərdə Maliyyə Nazirliyi Dövlət Orqanları Aparatının Maliyyələşdirilməsi İdarəsinin rəisi, 1992 ildən Azərbaycan Respublikası Maliyyə nazirinin müavini, 1992—1999 illərdə Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu sədrinin birinci müavini vəzifələrində işləmişdir. 1999 ilin sentyabr ayından Azərbaycan Respublikası Maliyyə nazirinin birinci müavinidir.
Evlidir, 1 övladı var.

Born 1956 September 30 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1978. Vice-Minister of Finance of the Azerbaijan Republic since 1999.
Married, has one child.



HACIYEV CAHANGIR FEVZİ OĞLU
Azərbaycan Beynəlxalq Bankı İdarə Heyətinin sədri

Hajiyev Jahangir Fevzi oglu
Chairman of the Board of Administration of the Azerbaijan International Bank

1961 il oktyabrın 10-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1986 ildə ADU-nun şərqşünaslıq fakültəsinin ərəb şöbəsini, 1993 ildə ABŞ-ın Texas Universitetini (menecment, beynəlxalq maliyyə və hüquq), Hollandiyanın Xarici Əlaqələr Nazirliyi nəzdində beynəlxalq maliyyə və hüquq kurslarını bitirmişdir.
1991 ildən Azərbaycan Respublikasının Ticarət Nazirliyində mütəxəssis, 1993 ildən Azərbaycan Respublikası Xarici İqtisadi Əlaqələr Nazirliyində idarə rəisi, 1996 ildən Azərbaycan Beynəlxalq Bankında Kredit Komitəsinin sədri, Kredit və İnvestisiyalar Departamentinin direktoru vəzifələrində işləmişdir. 2001 ilin mart ayından Azərbaycan Beynəlxalq Bankı İdarə Heyətinin sədridir.
Evlidir, 2 övladı var.

Born 10 October 1961 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1986; Texas University in 1993, USA. Chairman of the Board of Administration of the Azerbaijan International Bank since 2001.
Married, has two children.



HACIYEV XANLAR İRŞAD-FAİQ OĞLU
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri

Hajiyev Khanlar Irshad-Faig oglu
Chairman of the Constitution Court, Azerbaijan Republic

1956 il sentyabrın 9-da Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1973—1987 illərdə ADU-nun hüquq fakültəsində təhsil almışdır.
1978 ildən Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunda fəaliyyət göstərmiş, eyni vaxtda Moskva şəhərinə ezam edilərək SSRİ EA-nın Dövlət və Hüquq İnstitutunda stajçı olmuşdur. 1980 ildə MDU-nun hüquq fakültəsinin aspiranturasına qəbul edilmişdir. 1983 ildə hüquq elmləri namizədi alimlik dərəcəsi almışdır. 1983 ildən RF Ali Məhkəməsində məsləhətçi, 1985 ildən "Sovetskaya yustitsiya" jurnalında şöbə redaktoru, 1988 ildən SSRİ Ali Məhkəməsində baş məsləhətçi vəzifələrində çalışmışdır. 1990 ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin üzvü, 1992 ildən Ali Məhkəmə sədrinin birinci müavini, 1993—1998 illərdə Ali Məhkəmənin sədri vəzifələrində işləmişdir. 1998 ilin iyul ayından Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədridir.
Avropa Şurası Venetsiya komissiyasının üzvü seçilmişdir.
Evlidir, 1 övladı var.

Born 9 September 1956 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1978. Chairman of the Constitution Court of the Azerbaijan Republic since 1998.
Married, has one child.



HEYDƏROV KƏMALƏDDİN FƏTTAH OĞLU
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Heydarov Kamaladdin Fattah oglu
Chairman of the State Customs Committee of the Azerbaijan Republic

1961 il iyulun 15-də Azərbaycan Respublikası Naxçıvan MR Naxçıvan rayonunun Çeşməbasar kəndində anadan olmuşdur. Azərbaycanlıdır.
Orta təhsilini 1978 ildə Naxçıvan şəhərindəki 1 saylı orta məktəbdə, ali təhsilini 1984 ildə Bakı Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsində almışdır.
Əmək fəaliyyətinə 1978 ildə "Xəzərdənizneftqaz" Kəşfiyyatı İdarəsində başlamış, texnik və geoloq vəzifələrində çalışmışdır. 1995 ilin yanvar ayından Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədridir. Azərbaycan Teykvando Federasiyasının prezidentidir.
Evlidir, 2 övladı var.

Born 15 July 1961 in Cheshmabasar village, Nakhchivan district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1984. Chairman of the State Customs Committee of the Azerbaijan Republic since 1995.
Married, has two children.



HƏSƏNOV ŞAİR NƏCMƏDDİN OĞLU
Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin sədri

Hasanov Shair Nejmaddin oglu
Chairman of the state Building and Architecture Committee of the Azerbaijan Republic

1936 il iyulun 10-da Azərbaycan Respublikasının Qusar şəhərində anadan olmuşdur. 1958 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. 1958 ildən Azərbaycan SSR Tikinti Nazirliyinin təşkilatlarında briqadir, mühəndis, baş mühəndis, nazirliyin texniki idarəsi rəisinin müavini, trestin baş mühəndisi, nazirliyin istehsalat idarəsinin rəisi, 1977 ildən Azərbaycan SSR Kənd Tikinti nazirinin birinci müavini, respublika "Başkolxozsovxoztikinti" idarəsinin rəisi, 1983 ildən Azərbaycan SSR Kənd Tikintisi naziri, Azərbaycan SSR Dövlət Aqrar-Sənaye Komitəsi sədrinin müavini, 1990 ildən Azərbaycan Respublikası Dövlət Tikinti Komitəsi sədrinin müavini, "Azəravtoyol" İB rəisinin müavini, Azərbaycan Respublikası Tikinti Materialları Sənayesi naziri, 1991 ildən "Azərtikintimaterialsənaye" Dövlət Konserninin prezidenti və Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Mənzil-Kommunal Təsərrüfatı Komitəsinin sədri vəzifələrində işləmişdir. 2001 ilin aprel ayından Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin sədridir.
Bir çox elmi məqalə və ixtiranın müəllifidir. Azərbaycanın Əməkdar mühəndisidir (1982). Azərbaycan SSR Ali Sovetinin (X, XI çağırış) deputatı olmuşdur. "Şərəf nişanı" (1982) və Qırmızı Əmək Bayrağı (1986) ordenlərinə, bir yubiley medalına layiq görülmüşdür.
Yeni Azərbaycan Partiyasının üzvüdür (1993).

Born 1936 July 10 in Gusar, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1958. Chairman of the State Building and Architecture Committee of the Azerbaijan Republic.



HƏSƏNOVA SÜDABƏ CƏMŞİD QIZI
Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri

Hasanova Sudabe Jamshid gyzy
Chairman of the Supreme Court of the Azerbaijan Republic

1947 il fevralın 5-də Azərbaycan Respublikası Naxçıvan MR Şərur rayonunun Yengicə kəndində anadan olmuşdur. Azərbaycanlıdır.
1966—1971 illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır.
Əmək fəaliyyətinə 1963 ildə Şərur Rayon Xalq Məhkəməsində məhkəmə iclas katibi kimi başlamışdır. 1971—1972 illərdə Abşeron Rayon Xalq Məhkəməsində təcrübəçi-hakim, 1972—1973 illərdə Ədliyyə Nazirliyi məhkəmə orqanları idarəsində məsləhətçi, 1973—1979 illərdə Binəqədi Rayon Xalq Məhkəməsində xalq hakimi, 1979—1980 illərdə Bakı Şəhər Məhkəməsi Rəyasət Heyətinin üzvü, 1980—1987 illərdə Azərbaycan KP MK-nın inzibati orqanlar şöbəsində təlimatçı, Ali Məhkəmə Rəyasət Heyətinin üzvü, 1987 ildən Ədliyyə nazirinin 1-ci müavini, 1998 ildən Azərbaycan Respublikasının Ədliyyə naziri vəzifələrində işləmişdir. 2000 ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin sədridir.
Ailəlidir, 2 övladı var.

Born 1947 February 5 in Yengija village, Sharur district, Nakhchivan AR, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1971. Chairman of the Supreme Court of the Azerbaijan Republic.
Married, has two children.



XANBABAYEV ŞƏMSƏDİN HÜSEYNQULU OĞLU
Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini

Khanbabayev Shamsaddin Huseyngulu oglu
Vice -Minister of the Labour and Social Defence of Population Azerbaijan Republic

1939 il aprelin 1-də Azərbaycan Respublikası Naxçıvan MR Ordubad rayonun Aşağı Əndəmic kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1968 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir.
1965 ildən Abşeron Rayon Kommunal Təsərrüfatı Şöbəsində mühəndis, 1967 ildən Abşeron Rayon Təmir-Tikinti İdarəsində iş icraçısı, baş mühəndis, rəis, 1976 ildən Naxçıvan MR Mənzil Kommunal Təsərrüfatı nazirinin müavini, 1977 ildən Ordubad rayon İcraiyyə Komitəsinin sədri, 1980 ildən Ordubad Rayon Partiya Komitəsinin birinci katibi, 1983 ildən Naxçıvan Şəhər Partiya Komitəsinin birinci katibi, 1990 ildən Naxçıvan MR Dövlət Plan Komitəsinin sədri, eyni zamanda Naxçıvan MR Baş nazirinin müavini, 1992 ildən Naxçıvan MR Baş naziri vəzifələrində işləmişdir. 2000 ilin fevral ayından Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavinidir.
"Şərəf nişanı" ordeni və Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Üç çağırış Naxçıvan MR Ali Sovetinə deputat seçilmişdir.
Evlidir, 2 övladı var.

Born 1939, April 1 in Ashaghy Andalij village, Ordubad district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan Polytechnical Insitute in 1968. Vice -Minister of the Labour and Social Defence of Population since 2000.
Married, has two children.



İNSANOV ƏLİ BİNNƏT OĞLU
Azərbaycan Respublikasının Səhiyyə naziri

Insanov Ali Binnat oglu
Minister of Health of the Azerbaijan Republic

1946 il martın 22-də Qərbi Azərbaycanın (indiki Ermənistan) Ləmbəli kəndində anadan olmuşdur. 1965 ildə orta məktəbi gümüş medalla bitirmişdir. 1965—1972 illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda təhsil almışdır.
Azərbaycan Elmi-Tədqiqat Vərəm İnstitutunda şöbə müdiri, elmi işlər üzrə direktor müavini və direktor vəzifələrində çalışmışdır. 1985 ildə Moskvada doktorluq dissertasiyası müdafiə etmişdir. 1985 ildən N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müəllimi və 1991 ildən ictimai əsaslarla kafedra müdiri vəzifələrində işləmişdir. 1993 ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. 2 ixtiranın (ilk Vətən dərman preparatı "İnsanovin" və "İnsanov bronxolotini"), 4 monoqrafiyanın, 200-dən çox məqalənin müəllifidir.
Ümumdünya Biotexnoloqlar Cəmiyyətinin vitse-prezidenti, Vərəm Əleyhinə Beynəlxalq İttifaqın, Avropa Respirator Cəmiyyətinin, Nyu-York Elmlər Akademiyasının üzvü, Ümumdünya Səhiyyə təşkilatı Baş Assambleyasının vitse-prezidenti seçilmişdir (1998).
Əməkdar elm xadimidir. Səhiyyədə islahatlara görə Beynəlxalq Konfransın Qızıl medalına layiq görülmüşdür (1998). Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir (1995).

Born 22 March 1946 in Lembeli village, Western Azerbaijan (now Armenia). Graduated from the Azerbaijan State Medical Institute in 1986. Minister of Health of the Azerbaijan Republic.



KƏRİMOV MAHMUD KƏRİM OĞLU
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti

Kerimov Mahmud Kerim oglu
President of the Azerbaijan National Academy of Sciences

1948 ildə Qərbi Azərbaycanın (indiki Ermənistan) İrəvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirmişdir. 1973 ildən Azərbaycan EA-nın Fizika İnstitutunda, 1974 ildən Radiasiya Tədqiqatları bölməsində müxtəlif vəzifələrdə çalışmışdır. 1984 ildən EA Radiasiya Tədqiqatları bölməsinin direktoru işləmişdir. 2001 ildən Azərbaycan Milli Elmlər Akademiyasının prezidentidir. Fizika-riyaziyyat elmləri doktoru (1989), professor (2000), Milli EA-nın həqiqi üzvüdür (2001). 116 elmi əsərin və ixtiraların müəllifidir. Rəhbərlik etdiyi laboratoriya İNTAS Beynəlxalq qrantlarını (1995, 1997), NATO-nun "Sülh naminə elm" proqramının qrantını (2001) almışdır. MDB ölkələri üzrə Atom enerjisinin sülh məqsədi ilə istifadəsi komissiyasında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsidir. 1999 ildə Atom enerjisindən sülh məqsədləri üçün istifadə edilməsi üzrə türkdilli dövlətlərin Komitəsinə üzv seçilmişdir.

Born 1948 in Iravan, West Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1971. President of the Azerbaijan National Academy of Sciences since 2001.



QARAYEV ƏBÜLFƏZ MÜRSƏL OĞLU
Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm naziri

Garayev Abulfaz Mursal oglu
Minister of Youth, Sport and Tourism of the Azerbaijan Republic

1956 il noyabrın 13-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1979 ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə 1978 ildə Saatlı rayonunda müəllimliklə başlamışdır. 1988—1990 illərdə Moskva şəhərində İctimai Elmlər Akademiyasının aspirantı olmuşdur. Fəlsəfə elmləri namizədidir (1992). 1994 il iyul ayının 26-dan Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm naziridir.
Evlidir, 1 övladı var.

Born 13 November 1956 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Foreign Languages in 1979. Minister of Youth and Sport of the Azerbaijan Republic since 1994.
Married, has two children.



QASIMOV AYDIN ELYAS OĞLU
Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini, Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin rəisi, ədliyyə general-mayoru

Gasymov Aydin Elyas oglu
Vice-Minister of Justice of the Azerbaijan Republic, Chief of the Central Administration on Execution of Court Resolutions, Major-General

1953 il sentyabrın 11-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1980 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
Əmək fəaliyyətinə 1970 ildə Azərbaycan Respublikası Baş Meliorasiya və Su Tikintisi İdarəsinin 10 saylı Tikinti İdarəsində fəhləliklə başlamış, 1974 ildən respublika Avtomobil Yolları Nazirliyinin 35 saylı Yol—İstismar İdarəsində təmirçi, 1975 ildən İmişli Lokomotiv Deposunda qiymətləndirici, İmişli Rayon Kənd Təsərrüfatı İdarəsində baş hüquqşünas, 1977 ildən həmin idarədə hüquq şöbəsinin rəisi vəzifələrində işləmişdir. 1980 ildən daxili işlər orqanlarına işə göndərilmişdir. Həmin ildən Zəngilan Rayon DİŞ-də cinayət-axtarış əməliyyatı müvəkkili, 1983 ildən Tərtər Rayon DİŞ-də baş əməliyyat müvəkkili, 1986 ildən Azərbaycan Respublikası DİN Baş Cinayət-Axtarış İdarəsində əməliyyat müvəkkili, 1988 ildən Tərtər Rayon DİŞ rəisinin müavini, 1991 ildən Bərdə Rayon DİŞ rəisinin müavini, 1992 ildən Bakı Şəhər Baş Polis İdarəsi CAİ-də baş əməliyyat müvəkkili, şöbə rəisinin müavini, şöbə rəisi, CA İdarəsi rəisinin müavini, 1994 ildən Qaradağ Rayon Polis İdarəsinin rəisi vəzifələrində çalışmışdır. 1997 ilin mart ayından Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini, Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin rəisidir.
Evlidir, 3 övladı var.

Born 1953 September 11 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1980. Vice-Minister of Justice of the Azerbaijan Republic, Chief of the Central Administration on Execution of Court Resolutions since 1997.
Married, has three children.



QASIMOV KƏRİM QASİM OĞLU
Naxçıvan MR Meliorasiya və Su Təsərrüfatı naziri

Gasymov Kerim Gasym oglu
Minister of Melioration and Water Economy of the Nakhchivan AR

1946 il noyabrın 5-də Azərbaycan Respublikası Naxçıvan MR Babək rayonunun Cəhri kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. Eyni zamanda 1965 ildən Naxçıvan Rayonlararası Meyvə-Tərəvəz Tədarükü Kontorunda hesabatçı, 1966 ildən Naxçıvan Sovxoz Şərabçılıq Trestində müfəttiş, mühəndis-normalaşdırıcı və mühəndis-mikrobioloq, 1968 ildən Naxçıvan MR Nazirlər Sovetində təlimatçı, sədrin köməkçisi, 1974 ildən Naxçıvan MR Nazirlər Soveti İşlər İdarəsinin müdiri, 1980 ildən Babək rayon XDS İcraiyyə Komitəsinin sədri, 1985 ildən Naxçıvan MR Dövlət Aqrar-Sənaye Komitəsində şöbə müdiri vəzifələrində işləmişdir. 1991 ilin iyulundan Naxçıvan MR Meliorasiya və Su Təsərrüfatı naziridir.
Evlidir, 3 övladı var.

Born 1946 November 5 in Jehri village, Babek district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1971. Minister of Melioration and Water Economy of the Nakhchivan AR sinse 1991.
Married, has three children.



QULİEV ƏLƏKBƏR NURU OĞLU
Naxçıvan Muxtar Respublikasının Təhsil naziri

Guliyev Alekber Nuru oglu
Minister of Education of the Nakhchivan Autonomous Republic

1948 il sentyabrın 21-də Azərbaycan Respublikası Naxçıvan MR-in Qaraçuq kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1980 ildən müəllim, 1981 ildən Qaraçuq Kənd Orta Məktəbinin direktoru, 1983 ildən Naxçıvan Şəhər İcraiyyə Komitəsinin katibi, 1984 ildən Naxçıvan şəhər 2 saylı Orta Məktəbinin direktor müavini, direktoru olmuşdur. 1996 ildən Naxçıvan MR Təhsil naziridir. Naxçıvan MR Əməkdar müəllimi adına layiq görülmüş (1991), Naxçıvan MR Ali Sovetinin deputatı seçilmişdir (1995).

Born 1948 September 21 in Garachug village, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Minister of Education of the Nakhchivan Autonomous Republic since 1996.



QULİYEV VİLAYƏT MUXTAR OĞLU
Azərbaycan Respublikasının Xarici İşlər naziri

Guliyev Vilayat Mukhtar ogly
Minister of the Foreign Affairs of the Azerbaijan Republic

1952 il noyabrın 5-də Azərbaycan Respublikasının Ağcabədi şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1970—1975 illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1975 ildə Beyləqan rayon orta məktəbində müəllim kimi başlamışdır. 1978—1981 illərdə istehsalatdan ayrılmaqla Azərbaycan EA-nın aspiranturasında təhsil almışdır. 1981 ildən Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda şöbə müdiri, direktor müavini, 1992 ildən Türkiyə Respublikasının Atatürk Universitetinin professoru, 1994 ildən Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçi, 1996 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 2000 ildən Azərbaycan Respublikasının Xarici İşlər naziridir. 1982 ildə elmlər namizədi, 1990 ildə isə elmlər doktoru alimlik dərəcəsini almışdır. 3 monoqrafiyanın və 300-ə yaxın məqalənin müəllifidir.
Evlidir, 2 övladı var.

Born 1952 November 5 in Agjabedi settlement. Azerbaijanian. Graduated from the Baku State University in 1975. Minister of the Foreign Affairs of the Azerbaijan Republic since 2000.
Married, has two children.



QULİYEVA ZƏHRA TAHİR QIZI
Azərbaycan Respublikası Qadın Problemləri Üzrə Dövlət Komitəsinin sədri

Guliyeva Zahra Tahir gyzy
Chairman of State Committee of the Azerbaijan Republic on Woman Problems

1923 il yanvarın 18-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1944 ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir. Həmin ildən institutun göz xəstəlikləri kafedrasında ordinator, assistent, dosent, professor və kafedra müdiri vəzifələrində çalışmışdır. 1958 ildə namizədlik, 1967 ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. Həmin illərdən institutda dekanın əvəzedicisi, tədris işləri üzrə prorektor, 1972 ildən rektor vəzifələrində işləmişdir. 1975 ildən Azərbaycan Oftalmoloqları Elmi Cəmiyyətinin sədridir. 150-dən çox elmi əsərin, 2 monoqrafiya, dərslik və bir neçə dərs vəsaitinin müəllifidir. "Sevil" Qadınlar Məclisi sədrinin müavini, Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü, Bakı Şəhər Sanitariya-Təmizlik Məsələləri Üzrə Komissiyanın sədridir.
Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı", "Şöhrət" (1998) ordenləri və medallarla təltif edilmişdir. 8-9-cu çağırış SSRİ Ali Sovetinin və Bakı Şəhər Sovetinin deputatı olmuş, Əməkdar elm xadimi adına layiq görülmüşdür. 1998 ilin yanvar ayından Azərbaycan Respublikası Qadın Problemləri Üzrə Dövlət Komitəsinin sədridir.
Ailəlidir, 2 övladı var.

Born 18 January 1923 in Baki, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Medical Institute in 1944. Chairman of the State Committee of the Azerbaijan Republic on Woman Problems since 1998.
Married, has two children.



MEHDİYEV ƏQİL SƏFTƏR OĞLU
Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri

Mehdiyev Agil Saftar oglu
Minister of Health of the Nakhchivan Autonomous Republic

1920 il martın 20-də Azərbaycan Respublikası Naxçıvan MR Babək rayonunun Nehrəm kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1949 ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu, 1959 ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir. 1959 ildən Naxçıvan rayonu Qahıb Kənd Xəstəxanasında baş həkim, 1960 ildən Nehrəm kənd sahə xəstəxanasında baş həkim, 1973 ildən N.Nərimanov adına muxtar respublika Xəstəxanasında baş həkim, 1983 ildən Nehrəm Kənd Sahə xəstəxanasında həkim-terapevt vəzifələrində işləmişdir.
1995 ilin iyunundan Naxçıvan MR Səhiyyə naziridir. Azərbaycanın Əməkdar həkimidir (1981). "Səhiyyə əlaçısı" döş nişanına (1975), Naxçıvan MR Ali Soveti Rəyasət heyətinin Fəxri fərmanına (1964) və 3 medala layiq görülmüşdür. Naxçıvan rayon və şəhər sovetlərinə deputat seçilmişdir.

Born 1920 March 20 in Nehram village, Babek district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Medical Institute in 1959. Minister of Health of the Nakhchivan AR since 1995.



MƏMMƏDQULİYEV MAHMUD ƏHMƏD OĞLU
Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini

Memmedguliyev Mahmud Ahmad oglu
Vice-Minister of Foreign Affairs of the Azerbaijan Republic

1949 il fevralın 16-da Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Burada orta məktəbi bitirdikdən sonra 1967—1972 illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1972 ildə ADU-da müəllim kimi başlamışdır. Sonra 1974 ildən Bakı və Moskva şəhərlərində Səhmdar-Kommersiya Bankı İdarə Heyəti sədrinin müavini, 1993 ildən Azərbaycan Xarici İşlər nazirinin müavini. Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Krallığında Fövqəladə və Səlahiyyətli səfiri vəzifələrində işləmişdir. Hazırda Azərbaycan Respublikası Xariici İşlər nazirinin müavinidir. Evlidir, 3 övladı var.

Born 16 February 1949 in Ganja, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Institite of National Economy in 1972. Vice-Minister of Foreign Affairs of the Azerbaijan Republic since 1993.
Married, has three children.



MƏMMƏDOV FAZİL ƏSƏD OĞLU
Azərbaycan Respublikasının Vergilər naziri

Memmedov Fazil Asad ogly
Minister of Taxes of the Azerbaijan Republic

1964 ildə Azərbaycan Respublikasının Şəmkir rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1985 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun maliyyə-kredit fakültəsini bitirmişdir.
1987 ildən Gəncə Sənaye-Tikinti Bankında iqtisadçı, kassa müdiri, Bakı Sənaye-Tikinti Bankının Əməliyyat İdarəsində iqtisadçı, 1989 ildən Maliyyə-Kredit Texnikumunda müəllim, kafedra müdiri,1993 ildən "Vüsal" Kommersiya Bankı İdarə Heyətinin sədri, 1994 ildən Aqrar-Sənaye Bankı Şəmkir Rayon şöbəsinin müdiri, 1995 ildən Dövlət Gömrük Komitəsi Maliyyə-Tarif və Valyuta Nəzarəti Baş İdarəsi rəisinin müavini, həmin idarənin rəisi, Dövlət Gömrük Komitəsi sədrinin müavini, 1999 ildən Baş Dövlət Vergi Müfəttişliyinin rəisi vəzifələrində işləmişdir. 2000 ilin fevral ayından Azərbaycan Respublikasının Vergilər naziridir.
Evlidir, 1 övladı var.

Born 1964 in Shamkir district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institite of National Economy in 1985. Minister of Taxes of the Azerbaijan Republic since 2000.
Married, has one child.



MƏMMƏDOV FİKRƏT FƏRRUX OĞLU
Azərbaycan Respublikasının Ədliyyə naziri, II dərəcə Dövlət ədliyyə müşaviri

Memmedov Fikret Farrukh oglu
Minister of Justice of the Azerbaijan Republic

1955 il iyulun 1-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1977 ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin hüquq fakültəsini, 1988 ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə 1977 ildə rayon prokurorunun köməkçisi kimi başlamış, Bakı şəhər və respublika prokurorluqlarında şöbə prokuroru, və böyük prokuror vəzifələrində işləmiş, respublika prokurorluğu Təşkilat-nəzarət şöbəsinin rəisi olmuşdur. 1984—1989 illərdə Azərbaycan KP MK İnzibati orqanlar şöbəsində təlimatçı, Respublika Prokurorluğunda şöbə və idarə rəisi, Sumqayıt Şəhər prokuroru, 1995 ildən respublika baş prokurorunun müavini vəzifələrində işləmişdir. 2000 ilin aprel ayından Azərbaycan Respublikasının Ədliyyə naziridir, Azərbaycan Respublikası Prezidenti yanında Məhkəmə-Hüquq Şurasına sədrlik edir. Dəfələrlə respublika və beynəlxalq təşkilatlar tərəfindən Fəxri fərmanlarla təltif edilmişdir. 2-ci dərəcə Dövlət ədliyyə müşaviri, "Prokurorluğun fəxri işçisi"dir. BMT-nin Narkotiklərə Nəzarət Proqramının Yaxın və Orta Şərq üzrə yardımçı komissiyası sədrinin birinci müavini olmuş, hazırda Beynəlxalq Prokurorlar Assosiasiyası İcraiyyə Komitəsinin və Cinayətkarlığın Qarşısının Alınması üzrə Beynəlxalq Asiya Təşkilatı Direktorlar Şurasının üzvüdür. BMT, Avropa Şurası, ATƏT, Beynəlxalq Prokurorlar Assosiasiyası və digər mötəbər beynəlxalq təşkilatların keçirdiyi konqres, konfrans, sessiya, seminar və s. tədbirlərdə Azərbaycan nümayəndə heyətinin başçısı və üzvü kimi iştirak etmiş, bir çox xarici dövlətlərin və nüfuzlu beynəlxalq təşkilatların rəhbərliyi ilə görüşlər keçirərək danışıqlar aparmış, Azərbaycan hökuməti adından beynəlxalq konvensiya və müqavilələr imzalamış, onların icrası ilə bağlı hesabatlar vermiş, ölkədəki vəziyyət və aparılan islahatlar barədə çıxışlar edərək beynəlxalq ictimaiyyətin diqqətini erməni terrorizminə, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyona yaxın soydaşlarımızın hüquqlarının kobudcasına pozulmasına cəlb etmişdir. Xarici ölkələrdə bir sıra əsərləri dərc edilmişdir. İngilis dilində sərbəst danışır.
Evlidir, 3 övladı var.

Born 1 July 1955 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the M.V.Lomonosov Moscow State University in 1977. Minister of Justice of the Azerbaijan Republic since 2000.
Married, has two children.



MƏMMƏDOV QƏRİB ŞAMİL OĞLU
Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri

Memmedov Garib Shamil oglu
Chairman of the State Land and Cartography Committee of the Azerbaijan Republic

1947 il yanvarın 6-da Qərbi Azərbaycanda (indiki Ermənistan) Amasiya rayonunun Yeniyol kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1970 ildə V. İ. Lenin adına API-ni fərqlənmə diplomu ilə bitirmişdir. Əmək fəaliyyətinə 1970 ildən Respublika KT Nazirliyinin Elmi-Tədqiqat Eroziya bölməsində laborant kimi başlamışdır. 1972 ildən Azərbaycan EA Torpaqşünaslıq və Aqrokimya İnstitutunda kiçik elmi işçi işləmiş, bir il sonra həmin institutun aspiranturasına daxil olmuş, namizədlik dissertasiyasını müdafiə etmişdir. Sonra institutda kiçik elmi işçi, böyük elmi işçi, 1984 ildə isə laboratoriya müdiri olmuşdur. 1991 ildə Dnepropetrovsk Dövlət Universitetində doktorluq dissertasiyası müdafiə etmişdir. Respublikada ekologiya ixtisası üzrə yeganə professor-ekoloqdur. 1994 ildən Azərbaycan EA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, 1997 ildən Dövlət Torpaq Komitəsinin sədri vəzifələrində işləmişdir. Hazırda Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədridir. Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki, Azərbaycan və Rusiya Torpaqşünaslıq Cəmiyyətlərinin üzvüdür, 1998-ci ildə Beynəlxalq Torpaqşünaslar Cəmiyyətinə ömürlük üzv seçilmişdir. Akademik Həsən Əliyev adına Respublika Ekologiya Fondunun sədridir. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 300-dən çox elmi əsərin, 4 monoqrafiyanın, 20-dən çox kitab, kitabça və metodiki tövsiyənin, 4 səmərələşdirici təklifin müəllifidir.

Born 6 January 1947 in Yeniyol village, Amasiya district, Western Azerbaijan, (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1970. Chairman of the State Land Committee of the Azerbaijan Republic since 1997.
Married, has two children.



MƏMMƏDOV ZİYA ƏRZUMAN OĞLU
Azərbaycan Dövlət Dəmir Yolunun rəisi

Memmedov Ziya Arzuman oglu
Chief of the Azerbaijan State Railway

1952 il aprelin 28-də Azərbaycan Respublikası Ucar rayonunun Qazıqumlaq kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1988 ildə Rostov Dəmir Yolu Nəqliyyatı Mühəndisləri İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə 1971 ildə Azərbaycan Dəmir Yolu Biləcəri Lokomotiv Deposunda elektrovoz maşinistinin köməkçisi vəzifəsi ilə başlamışdır. Sonra burada elektrovoz maşinisti, 1980—1981 illərdə Biləcəri Lokomotiv Deposu istismar sexinin ilk partiya təşkilatı katibi, 1981—1983 illərdə Biləcəri Lokomotiv Deposu Həmkarlar Komitəsinin sədri, 1983—1984 illərdə Azərbaycan Dəmir Yolu Hərəkət xidmətinin lokomotiv dispetçeri, 1984—1987 illərdə Biləcəri Lokomotiv Deposu rəisinin müavini, mühəndis-texnoloqu, 1987—1989 illərdə Biləcəri Lokomotiv Deposu Dəvəçi Əvəzedici Məntəqəsinin rəisi, 1989—1991 illərdə Gəncə Lokomotiv Deposunun rəisi, 1991—1993 illərdə Azərbaycan Dəmir Yolu Lokomotiv Təsərrüfatı Xidmətinin rəisi, 1993—1996 illərdə Azərbaycan Dəmir Yolu rəisinin müavini vəzifələrində işləmişdir. 1996 ilin iyul ayından Azərbaycan Dövlət Dəmir Yolunun rəisidir.
Evlidir, 2 övladı var.

Born 28 April 1952 in Gazygumlag village, Ujar district, Azerbaijan Republic. Azerbaijanian.Graduated from the Rostov Institute of Engineers of Railway Transport in 1988. Chief of the Azerbaijan State Railway since 1996.
Married, has two children.

1946 ildə Qərbi Azərbaycanda (indiki Ermənistan) İcevan rayonunun Salah kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1969 ildə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1970—1972 illərdə ADU-nun aspirantı olmuş, 1973 ildə namizədlik, 1989 ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Professordur. 1971—1989 illərdə ADU-nun mexanika-riyaziyyat fakültəsinin müəllimi, baş müəllimi, dosent, dekan müavini, 1989—1992 illərdə Azərbaycan Respublikasının Xalq Təhsili Nazirliyində ali təhsil idarəsinin rəisi və nazir müavini, 1992—1996 illərdə BDU-nun tədris işləri üzrə prorektoru, 1997—1998 illərdə BDU-nun rektoru vəzifələrində işləmişdir. 1998 ilin mart ayından Azərbaycan Respublikasının Təhsil naziridir. 50-dən çox elmi əsərin, 100-dən çox elmi-publisistik məqalənin, 6 kitabın, 1 monoqrafiyanın müəllifidir. Riyaziyyat üzrə ixtisaslaşdırılmış doktorluq dissertasiyası müdafiə şurasının həmsədri, Təhsil Sahəsində İslahatlar Üzrə Dövlət Komissiyasının sədridir. Əməkdar Elm xadimidir. Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvüdür.
Evlidir, 3 övladı var.

Born 1946 in Salah village, Ijevan district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1969. Minister of Education of the Azerbaijan Republic since 1998.
Married, has three children.




MƏRDANOV MİSİR CUMAYIL OĞLU
Azərbaycan Respublikasının Təhsil naziri

Mardanov Misir Jumayil oglu
Minister of Education of the Azerbaijan Republic

1928 il sentyabrın 10-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.
1949 ildə Azərbaycan Sənaye İnstitutunu bitirmişdir. Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiri, Rusiya Elmi-Tədqiqat Neft İnstitutu və Rusiya EA Mexanika Problemləri İnstitutunda laboratoriya rəhbəri olmuşdur. Texnika elmləri doktoru (1957), professor (1959), Azərbaycan EA-nın akademiki (1991), Bolqarıstan EA-nın akademiki (1991), Azərbaycanın Əməkdar elm və texnika xadimidir (1971). Əmək fəaliyyətinə 1948 ildə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda baş laborant kimi başlamış, 1950 ildən kiçik elmi işçi, şöbə müdiri işləmişdir. 1959 ildən kafedra müdiridir. 1992 ildən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədridir. 60-dan çox monoqrafiyanın, 400-ə qədər elmi məqalənin, 40-dan çox ixtira və patentin müəllifidir. Qırmızı Əmək Bayrağı (1966, 1980), "Şərəf nişanı" (1959), "Oktyabr inqilabı" (1986) ordenləri, "Əməkdə igidliyə görə" (1970) medalı, Azərbaycan Ali Sovetinin Fəxri fərmanı (1978), SSRİ Nazirlər Sovetinin (1986), SSRİ Ali Təhsil Nazirliyinin (1986) mükafatları, Azərbaycan Dövlət mükafatı (1980, 1986), 3 dəfə Qubkin adına mükafatla təltif olunmuş, SSRİ Qaz Sənayesinin fəxri işçisi (1975), Bolqarıstanın fəxri neftçisi (1980) adına layiq görülmüşdür.

Born 10 September 1928 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Industrial Institute in 1949. Chairman of the Higher Certifying Commission of the Azerbaijan Republic since 1992.



MİRZƏCANZADƏ AZAD XƏLİL OĞLU
Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri

Mirzajanzade Azad Khalil oglu
Chairman of the Higher Certifying Commission, Azerbaijan Republic



MURADOV RAMİZ ƏYYUB OĞLU
Naxçıvan MR Dövlət Əmlakı naziri

Muradov Ramiz Eyyub oglu
Minister of State Property of the Nakhchivan AR

1950 il dekabrın 12-də Azərbaycan Respublikası Naxçıvan MR Şərur rayonunun Vərməziyar kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1972 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil almışdır. Əmək fəaliyyətinə 1972 ildə Naxçıvan MR Kənd Təsərrüfatı İdarəsində böyük iqtisadçı kimi başlamışdır. 1974 ildən Naxçıvan sovxoz texnikumunda müəllim, tədris işləri üzrə direktor müavini, 1989 ildən direktor, 1992 ildən Bakı Maliyyə-İqtisad Kolleci Naxçıvan filialının direktoru, 1993 ildən Naxçıvan MR Dövlət Əmlak Komitəsinin sədri vəzifələrində işləmişdir. Hazırda Naxçıvan MR Dövlət Əmlakı naziridir.
Evlidir, 3 övladı var.

Born 1950 December 12 in Vermeziyar village, Sharur district. Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1972. Minister of State Property of the Nakhchivan AR since 1993.
Married, has three children.



MUSTAFAYEV VAQİF BEHBUD OGLU
Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavini

Mustafayev Vaqif Behbud oglu
Vice-minister of Culture of the Azerbaijan Republic

1953 il avqustun 28-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. 1975 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu, 1982—1984 illərdə Moskva şəhərində ikiillik Ali ssenarist və rejissor kurslarını bitirmişdir.
1973 ildən C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında rejissor köməkçisi, 1977 ildən rejissor, 1985 ildən rejissor və quruluşçu-rejissor vəzifələrində işləmişdir. 2001 ilin sentyabr ayından Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavinidir.
"Belə lazımdır" qısametrajlı filmi "Ən yaxşı rejissor işinə görə" (Moskva, 1982), "Musiqili xaş" qısametrajlı filmi "Ən yaxşı ssenariyə görə" (Moskva, 1983) mükafatlarına, "Yaramaz" tammetrajlı bədii filmi Azərbaycan Dövlət mükafatına (1988), Bolqarıstan, Yaponiya, ABŞ, Kanada və başqa ölkələrdə keçirilən kino-festivallarının əsas mükafatlarına layiq görülmüşdür.
"Nakəs" tammetrajlı bədii filmi "Qızıl qartal" kinofestivalının iki əsas mükafatı (Tbilisi, 1991) və Avropa Türk—İslam Kültür Birliyinin Qızıl medalı, "Hər şey yaxşılığa doğrudur" qısametrajlı bədii filmi beynəlxalq kino festivalının 4 mükafatının hamısı ilə (Almaniya, 1997) təltif edilmişdir.
"H. Əliyev. Əsl məhəbbət haqqında" — Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə həsr edilmiş sənədli-bədii silsilə filmlərin altıncı filmi IV "Avrasiya Teleforum" festivalında əsas prizə layiq görülmüşdür (Moskva, 2001).
Avropa Kino və Televiziya Akademiyasının üzvü (1991), respublikanın Əməkdar incəsənət xadimidir.
Evlidir, 3 övladı var.

Born 1953, August 28 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from Azerbaijan State Institute of National Economy in 1975, High Script Writers courses in Moscow, 1984. Member of the Academy of European Cinema and Television. Vise-minister of Culture at present.
Married, has three children.

1954 il martın 15-də Azərbaycan Respublikasının Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1976 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. 1979—1983 illərdə Leninqrad Aqrofizika İnstitutunun aspirantı olmuş, 1983 ildə namizədlik dissertasiyası müdafiə etmişdir. Texnika elmləri doktorudur. 1983 ildən Bakı şəhərində elmi-tədqiqat institutlarında kiçik elmi işçi, baş elmi işçi vəzifələrində çalışmışdır. Elmi fəaliyyəti riyaziyyatın ekoloji və iqtisadi sistemlərə tətbiqi sahəsinə aiddir. 3 monoqrafiyanın və 30-dan artıq elmi məqalənin müəllifidir. 1987 ildən BDU-nun dosenti, professorudur. Hazırda kafedra müdiridir. 1992 ildə YAP-ın təsis konfransında YAP sədrinin müavini seçilmişdir. 1996 il noyabrın 19-dan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir.
Evlidir, 3 övladı var.

Born 15 March 1954 in Nakhchivan, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1976. Minister of Labour and Social Defence of Population of the Azerbaijan Republic since 1996.
Married, has three children.



NAĞIYEV ƏLİ TEYMUR OĞLU
Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri

Nagiyev Ali Teymur oglu
Minister of Labour and Social Defence of Population, Azerbaijan Republic

1949 il avqustun 26-da Azərbaycan Respublikasının Lənkəran şəhərində anadan olmuşdur. Buxara şəhərində "Mir-Ərəb" müsəlman ruhani mədrəsəsində (1971) və İmam Əl-Buxari adına Daşkənd İslam İnstitutunda təhsil almışdır.
Əmək fəaliyyətinə 1966 ildə Lənkəran rayonundakı Cim kəndində fəhlə kimi başlamışdır. 1975 ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsində məsul katib, 1978 ildən sədr müavini, Təzə pir məscidinin axundu işləmişdir. 1980 ildən Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislamdır. 1990 ildən "Qafqaz Evi" Beynəlxalq forumu çərçivəsində Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. 1992 ildə tarix elmləri doktoru alimlik dərəcəsi almışdır.
1986 ildə İordaniya İslam Mədəniyyəti Kral Akademiyasının müxbir üzvü, 1992 ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının həqiqi üzvü, Ümumdünya İslam Konqresi Təşkilatının və 1994 ildə "Azərbaycan dünyası" Beynəlxalq Əlaqələr Cəmiyyəti Rəyasət Heyətinin üzvü seçilmişdir. "Xalqlar dostluğu" (1992) ordeni, Misir Ərəb Respublikasının I dərəcəli "Elm və Sənət" (1992) ordeni, "Şöhrət" (1994) ordeni ilə təltif edilmişdir. 1989 ildə SSRİ Parlamentinin üzvü, 1991 ildə Azərbaycan Respublikası Ali Sovetinin deputatı və 1992 ildə Milli Məclisin üzvü olmuşdur.
Evlidir, 6 övladı var.

Born 26 August 1949 in Lenkaran, Azerbaijan Republic. Graduated from the Imam Al-Bukhara Dashkend Islam Institute in 1975. Chairman of the Administration of Caucasus Mussulmans since 1980.
Married, has six children.



PAŞAZADƏ ALLAHŞÜKÜR HÜMMƏT OĞLU
Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam

Pashazade Allahshukur Hummat oglu
Chairman of the Administration of Caucasus Mussulmans, Sheikhulislam



PƏNAHOV MƏZAHİR MƏHƏMMƏD OĞLU
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri

Panahov Mazahir Mahammad oglu
Chairman of the Central Election Committee of the Azerbaijan Republic

1951 il martın 13-də Azərbaycan Respublikası Tovuz rayonunun Qaraxanlı kəndində anadan olmuşdur. 1972 ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1971—1977 illərdə Rusiya EA-nın Fizika-Texnika İnstitutunda diplomçu və aspirant olmuşdur. 1977—1993 illərdə BDU-da müəllim, dosent, professor işləmişdir. 1996 ildən Ümumi fizika kafedrasının müdiridir. 2000 ilin may ayından Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədridir.
1979 ildə namizədlik, 1992 ildə doktorluq dissertasiyaları müdafiə etmişdir.
Evlidir, 3 övladı var.

Born 1951 March 13 in Garakhanly village, Tovuz district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1972. Chairman of the Central Election Committee of the Azerbaijan Republic since 2000.
Married, has three children.



RƏFİYEV AKİF BƏŞİR OĞLU
Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini, III dərəcə Dövlət Ədliyyə müşaviri

Rafiyev Akif Bashir oglu
Vice-Minister of Justice of the Azerbaijan Republic

1936 il martın 23-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1960 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. Hüquqşünasdır. 1960—1961 illərdə Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunda ekspert-kriminalist, 1961—64 illərdə Şamxor Rayon prokurorunun köməkçisi, 1964—1966 illərdə Azərbaycan SSR Prokurorluğunda prokuror, 1966—1970 illərdə İsmayıllı Rayon prokuroru, 1970—1976 illərdə Mingəçevir Şəhər prokuroru, 1976—1979 illərdə Zaqatala Rayon prokuroru, 1979—1982 illərdə Sumqayıt Şəhər prokuroru, 1982—1989 illərdə Azərbaycan SSR Daxili İşlər Nazirliyi İstintaq İdarəsinin rəisi, 1989—1991 illərdə Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavini vəzifələrində işləmişdir. 1991 ilin avqust ayından Azərbaycan Respublikası Ədliyyə nazirinin müavinidir. Azərbaycan Respublikasının əməkdar hüquqşünasıdır (1989). Müharibə və Əmək veteranıdır.
Evlidir, 2 övladı var.

Born 23 March 1936 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1960. Vice-Minister of Justice of the Azerbaijan Republic since 1991.
Married, has three children.



POLAD BÜLBÜLOĞLU
Azərbaycan Respublikasının Mədəniyyət naziri

Polad Bulbuloglu
Minister of Culture of the Azerbaijan Republic

1945 ildə Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.
1963 ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuş, 1968 ildə Q.Qarayevin sinfini bitirmişdirş.
1965 ildən həm bəstəkar, həm də müğənni kimi dünyada Azərbaycan müsiqi mədəniyyətini təbliğ etmiş, keçmiş Sovet İttifaqında populyar olan müxtəlif estrada kollektivlərinə rəhbərlik etmişdir. 20-dən çox kinofilmə və bir sıra teatr tamaşalarına musiqi yazmışdır. 1969 ildə SSRİ Bəstəkarlar İttifaqına və Kinematoqrafçılar İttifaqına üzv seçilmişdir. Ümumittifaq televiziya festivallarının — "Mahnı—72", "Mahnı—77", "Mahnı—78", və "Mahnı—79"un laureatı olmuşdur.
Bakı şəhər Sovetinin deputatı seçilmiş (1987), Azərbaycan Komsomolu mükafatı laureatı adına layiq görülmüşdür.
Azərbaycan Respublikasının Xalq artisti, Əməkdar incəsənət xadimidir.
1987 ildən M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri və direktoru işləmişdir. 1988 ilin dekabrından Azərbaycan Respublikasının Mədəniyyət naziridir. Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir (1995).
1994, 1997 və 2000 ildə "TÜRKSOY" Beynəlxalq təşkilatının baş direktoru vəzifəsinə seçilmişdir.
Azərbaycan Respublikası Milli Yaradıcılıq Akademiyasının sənətşünaslıq doktoru (1991), Ə.Hüseynzadə adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin fəxri professoru (1995), "Avropa-Asiya" Beynəlxalq Humanitar Akademiyasının həqiqi üzvü, akademikdir (1999). Musiqi sənəti ixtisası üzrə professordur (2000).
2000 ilin fevral ayında Moskva şəhərindəki "Ulduzlar" meydanında Polad Bülbüloğlunun şərəfinə yeni Ulduz həkk olunmuşdur. O, bu şərəfə layiq görülən ilk Azərbaycan musiqiçisidir.
Evlidir, 3 övladı var.

Born 4 February 1945 in Baku, Azerbaijan Republic. Graduated from the U.Hajibeyov Azerbaijan State Conservatorie in 1968. Minister of Culture of the Azerbaijan Republic since 1988.
Married, has three children.



RÜSTƏMOV ELMAN SİRAC OĞLU
Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin sədri

Rustamov Elman Siraj oglu
Chairman of the Board of Administration of National Bank

1952 ildə Azərbaycan Respublikasının Cəbrayıl rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1968—1973 illərdə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda təhsil almışdır.
Əmək fəaliyyətinə 1973 ildə Azərbaycan SSR Dövlət Plan Komitəsi Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda iqtisadçı kimi başlamışdır. İqtisad elmləri namizədidir.
Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda böyük iqtisadçı, bölmə müdiri, 1991 ildən Azərbaycan Respublikası Prezidenti Aparatında iqtisadiyyatı idarəetmə şöbəsinin böyük məsləhətçisi, 1992 ildən Azərbaycan Respublikası Milli Bankı İdarə heyəti sədrinin birinci müavini, 1993 ildən Aqrar-Sənaye Səhmdar-Kommersiya Bankı İdarə Heyəti sədrinin müavini, 1994 ildən Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti sədrinin birinci müavini vəzifələrində işləmişdir. 1995 ilin yanvarından Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin sədridir.
Evlidir, 3 övladı var.

Born 1952 in Jabrail district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1973. Chairman of the Board of Administration of National Bank since 1995.
Married, has three children.



RZAYEV RAİL QURBAN OĞLU
Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, general-mayor

Rzayev Rail Gurban oglu
Vice-Minister of Defence of the Azerbaijan Republic, Major-General

1945 il martın 10-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1978 ildə Marşal Jukov adına Hava Hücumundan Müdafiə Hərbi Akademiyasını bitirmişdir.
1966 ildən Hava Hücumundan Müdafiə Qoşunlarının Bakı Hərbi Dairəsində, 1969 ildən "N" hərbi hissələrində müxtəlif vəzifələrdə çalışmışdır. 1978 ildən "N" hərbi hissəsində diviziya komandiri, 1980 ildən hərbi hissə komandirinin müavini, 1982 ildən hərbi hissənin komandiri vəzifələrində işləmişdir. 1993 ilin iyun ayından Azərbaycan Respublikası Müdafiə nazirinin müavini — HHQ və HHM Qoşunları komandanıdır.
Evlidir, 3 övladı var.

Born 1945 March 10 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Zhukov Military Academy in 1978. Vice-Minister of Defence of the Azerbaijan Republic since 1993.
Married, has three children.



RZAYEVA GÜLZAR LƏTİF QIZI
Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin sədri

Rzayeva Gulzar Latif gyzy
Chairman of the Court of Appeal of the Azerbaijan Republic

1950 il yanvarın 13-də Azərbaycan Respublikası Yevlax rayonunun Səmədabad kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1968—1973 illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır.
1973—1977 illərdə Azərbaycan Respublikasının Vəkillər Kollegiyasında vəkil işləmişdir. 1977 ildə prokurorluq orqanlarına göndərilmiş və 1981 ilə qədər Bakı şəhəri Əzizbəyov Rayon prokurorunun köməkçisi, 1981 ildən Bakı şəhəri Əzizbəyov Rayonunun xalq hakimi, 1985 ildən Əzizbəyov Rayon Xalq Məhkəməsinin sədri, 1987 ilin may ayından Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini, mülki məsələlər üzrə Ali Məhkəmə kollegiyasının sədri vəzifələrində çalışmışdır. 2000 ildən Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin sədridir.
Ailəlidir, 1 övladı var.

Born 1950 January 13 in Samadabad village, Yevlakh district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1973. Chairman of the Court of Appeal of the Azerbaijan Republic.
Married, has one child.



SADIXOV ƏLƏSGƏR HƏSƏN OĞLU
Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini

Sadykhov Aleskar Hasan oglu
First Vice-Prime Minister of the Nakhchivan Autonomous Republic

1946 il sentyabrın 23-də Azərbaycan Respublikası Naxçıvan MR-in Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1967 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. Mühəndis-hidrotexnikdir.
Əmək fəaliyyətinə 1967 ildə fəhləliklə başlamışdır. 1968 ildən 6 saylı Tikinti-Quraşdırma İdarəsində usta, iş icraçısı, baş mühəndis, rəis, 1977 ildən Naxçıvan MR Meliorasiya və Su Təsərrüfatı İdarəsinin rəisi, Naxçıvan MR Meliorasiya və Su Təsərrüfatı nazirinin müavini, 1983 ildən Naxçıvan şəhər İcraiyyə Komitəsinin sədri, 1988 ildən Naxçıvan "Aqrartikinti" Trestinin rəisi, 1989 ildən Naxçıvan MR Nazirlər Soveti sədrinin birinci müavini, 1990 ildən Naxçıvan MR Meliorasiya və Su Təsərrüfatı naziri vəzifələrində işləmişdir. 1991 ilin iyul ayından Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavinidir.
Evlidir, 3 övladı var.

Born 23 September 1946 in Nakhchivan, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1967. First Vice-Prime Minister of the Nakhchivan Autonomous Republic since 1991.
Married, has three children.



SADIQOV NƏCMƏDDİN HÜSEYN OĞLU
Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-leytenant

Sadygov Nejmeddin Huseyn oglu
First Vice-Minister of the Ministry of Defence of the Azerbaijan Republic, Chief of the General Staff of Armed Forces, Lieutenant-General

1956 il mayın 24-də Dağıstan MSSR-in Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1975 ildə Bakı Ali Ümumqoşun Komandirlər Məktəbini, 1988 ildə Frunze adına Hərbi Akademiyanı bitirmişdir. General-leytenantdır.
1979—1980 illərdə ASQQ 3 Ümumqoşun Ordusunda tağım və bölük komandiri, 1980—1984 illərdə Qırmızıbayraqlı Ümumqoşun Ordusunda bölük komandiri, tabırın qərargah rəisi — komandir müavini, 1988—1992 illərdə 5 Əlahiddə Qvardiya Ordu Korpusunda tabır komandiri, alay komandirinin müavini vəzifələrində çalışmış, sonra məlum hadisələrə görə Azərbaycan Silahlı Qüvvələrinə qəbul edilmişdir. 1992—1993 illərdə briqada komandiri, Ordu korpusunun komandiri, Səhra Cəbhə İdarəsinin Qərargah rəisi vəzifələrində işləmişdir. 1993 ilin noyabr ayından Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisidir.
"Azərbaycan Bayrağı" ordeni (1995) və "Döyüş xidmətlərinə görə" medalı (1984) ilə təltif edilmişdir.
Evlidir, 3 övladı var.

Born 24 May 1956 in Derbend, Daghestan Autonomous Republic, Russion Federation. Azerbaijanian. Graduated from the Frunze Military Academy in 1988, Moscow. First Vice-Minister of the Ministry of Defence of the Azerbaijan Republic, Chief of the General Staff of Armed Forces since 1993.
Married, has three children.



ŞÜKÜROV NAZİM HÜSEYN OĞLU
Naxçıvan Muxtar Respublikasının Maliyyə-İqtisadiyyat naziri

Shukurov Nazim Huseyn oglu
Minister of Finance-Economics of the Nakhchivan Autonomous Republic

1964 il yanvarın 1-də Azərbaycan Respublikası Naxçıvan MR-in Şahbuz qəsəbəsində anadan olmuşdur. Azərbaycanlıdır. 1984 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir.
1984 ildən Naxçıvan MR Maliyyə Nazirliyində böyük iqtisadçı, 1986 ildən Büdcə şöbəsində böyük inspektor, Büdcə şöbəsinin rəisi, 1994 ildən Maliyyə nazirinin müavini, 1998 ildən Maliyyə-İqtisadiyyat nazirinin müavini vəzifələrində işləmişdir. 2000 ilin fevral ayından Naxçıvan MR-in Maliyyə-İqtisadiyyat naziridir.
Evlidir, 3 övladı var.

Born 1964 January 1 in Shahbuz settlement, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1984. Minister of Finance-Economics of the Nakhchivan Autonomous Republic since 2000.
Married, has three children.

1948 il dekabrın 22-də Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Bakı Xüsusi Orta Milis Məktəbini, 1980 ildə SSRİ DİN-in Polis Akademiyasını bitirmişdir.
Əmək fəaliyyətinə 1970 ildə Azərbaycan Respublikası Xankəndi Daxili İşlər İdarəsində polis nəfəri kimi başlamışdır. 1973 ildən Xankəndi DİŞ cinayət-axtarış qrupunda əməliyyat müvəkkili, Şuşa Rayon DİŞ cinayət-axtarış bölməsinin rəisi, Xankəndi Daxili İşlər İdarəsi rəisinin müavini, Əli Bayramlı şəhər DİŞ-in rəisi vəzifələrində işləmiş, iki dəfə Naxçıvan MSSR-də Daxili İşlər naziri olmuşdur (1987—1989 və 1993—1994). 1989 ildə Azərbaycan Respublikası DİN CAİ-nin rəisi vəzifəsinə təyin edilmişdir. Əli Bayramlı Şəhər Sovetinə (1985, 1987) və Naxçıvan MR Ali Sovetinə deputat seçilmişdir (1988). 1994 ilin aprelindən Azərbaycan Respublikasının Daxili İşlər naziridir.
Evlidir, 3 övladı var.



USUBOV RAMİL İDRİS OĞLU
Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-leytenant

Usubov Ramil Idris oglu
Minister of Internal Affairs of the Azerbaijan Republic, Lieutenant-General

Born 22 December 1948 in Khojaly, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Police Academy of the Ministry of Internal Affairs of the USSR in 1980. Minister of Internal Affairs of the Azerbaijan Republic since 1994.
Married, has three children.

1943 il iyunun 28-də Azərbaycan Respublikası Ağstafa rayonunun Həsənsu kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1962—1971 illərdə Azərbaycan Dövlət İqtisad İnstitutunda təhsil almışdır. Əmək fəaliyyətinə 1961 ilin aprel ayında Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində başlamışdır. Orada 1961 ildən statist-iqtisadçı, şöbə rəisinin müavini, şöbə rəisi, Dövlət Statistika Komitəsi sədrinin müavini, birinci müavini, 1990 ildən Azərbaycan Respublikası Dövlət Plan Komitəsində şöbə müdirinin müavini, 1992 ildən Azərbaycan Respublikası Prezidenti Aparatında baş məsləhətçi vəzifələrində işləmişdişr. 1993 ilin may ayından Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədridir. Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanı, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.
Evlidir, 2 övladı var.



VƏLİYEV ARİF MİKAYIL OĞLU
Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri

Veliyev Arif Mikayil oglu
Chairman of the State Statistic Committee of the Azerbaijan Republic

Born 28 June 1943 in Hasansu village, Agstafa district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Economic Institute in 1971. Chairman of the State Statistic Committee of the Azerbaijan Republic since 1993.
Married, has two children.



VƏLİYEV CƏFƏR CƏBRAYIL OĞLU
Azərbaycan Respublikası İqtisad Məhkəməsinin sədri

Veliyev Jafar Jabrail oglu
Chairman of the Economic Court of the Azerbaijan Republic

1930 il noyabrın 12-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1953 ildə Leninqrad Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. 1953 ildən Azərbaycan Respublikası Nazirlər Sovetində rəhbər vəzifələrdə, 1960 ildən Azərbaycan KP MK inzibati orqanlar şöbəsi müdirinin müavini, 1962 ildən Azərbaycan Respublikası Prokurorunun birinci müavini, 1971 ildən Azərbaycan KP MK inzibati orqanlar şöbəsinin müdiri, 1979 ildən Azərbaycan Respublikasının Daxili İşlər naziri, 1987 ildən Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun kafedra müdiri, 1992 ildən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri vəzifələrində işləmişdir. 2000 ildən Azərbaycan Respublikası İqtisad Məhkəməsinin sədridir. Hüquq elmləri namizədi (1963), professor (1993), Azərbaycan Milli Yaradıcılıq Akademiyasının hüquq doktoru (1991), Azərbaycanın əməkdar hüquqşünası (1990), daxili xidmət general-leytenantıdır.
Polşa, Çexoslovakiya, Monqolustan, Kuba dövlətləri və SSRİ-nin orden və medalları ilə təltif edilmişdir. 100-ə qədər elmi məqalə və monoqrafiyanın müəllifidir.
Evlidir, 3 övladı var.

Born 1930 November 12 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Leningrad State University in 1953. Chairman of the Economic Court of the Azerbaijan Republic since 2000.
Married, has three children.



VƏLİYEV SALEH CƏBRAYIL OĞLU
Naxçıvan MR Dövlət Statistika Komitəsinin sədri

Veliyev Saleh Jabrail oglu
Chairman of the State Committee of Statistics of the Nakhchivan AR

1938 il aprelin 5-də Azərbaycan Respublikası Naxçıvan MR Babək rayonunun Nehrəm kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1959 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. 1961 ildən Babək rayonunun Nehrəm kolxozunda iqtisadçı, Naxçıvan KZTS-nın təcrübə-nümunə təsərrüfatında aqronom-iqtisadçı, Naxçıvan MR Dövlət Plan Komitəsində böyük iqtisadçı, kənd təsərrüfatı bölməsini müdiri, 1964 ildən Naxçıvan Kənd Təsərrüfatı Texnikumunda müəllim, 1965 ildən Naxçıvan MR Statistika İdarəsində rəis müavini, 1965 ildən Statistika İdarəsi yanında Maşın-Hesablama Stansiyasının rəisi, 1976 ildən Statistika İdarəsi Hesablama Mərkəzinin rəisi, 1977 ildən Naxçıvan MR Nazirlər Sovetində referent, təlimatçı, 1980 ildən Naxçıvan MR Maliyyə nazirinin müavini vəzifələrində işləmişdir. 1983 ilin iyulundan Naxçıvan MR Dövlət Statistika Komitəsinin sədridir. Azərbaycanın əməkdar iqtisadçısıdır (1991). "Şərəf nişanı" ordeni və Naxçıvan MR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir.
Evlidir, 5 övladı var.

Born 1938 Aprel 5 in Nehram village, Babek District, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1959. Chairman of the State Committee of Statistics since 1983.
Married, has five children.

1952 il dekabrın 7-də Azərbaycan Respublikası Naxçıvan MR-in Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Naxçıvan Pedaqoji İnstitutunu, 1990 ildə SSRİ DİN Volqoqrad Ali İstintaq Məktəbini bitirmişdir.
Əmək fəaliyyətinə 1973 ildən başlamışdır. Naxçıvan MR-in Hərbi Komissarlığında inspektor, baş inspektor, I şöbə rəisinin köməkçisi vəzifələrində çalışmışdır. 1979 ildə daxili işlər orqanlarına işə göndərilmişdir. Həmin ildən Naxçıvan MR Daxili İşlər Nazirliyində müvəkkil, baş müvəkkil, bölmə rəisi, qərargah rəisi vəzifələrində işləmişdir. 1993 ildən Naxçıvan MR DİN-də bölmə rəisi, 1994 ildən Babək Rayon Polis Şöbəsinin rəisi, 1994 ildən Azərbaycan Respublikası DİN-də Qərargah rəisi vəzifələrində çalışmışdır. 1998 ilin fevralından Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavinidir.
"Azərbaycan Bayrağı" ordeni və medallarla təltif edilmişdir.
Evlidir, 3 övladı var.



ZALOV ORUC İBRAHİM OĞLU
Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavini, polis polkovniki

Zalov Oruj Ibrahim oglu
Vice-Minister of Internal Affairs of the Azerbaijan Republic, Colonel

Born 7 December 1952 in Nakhchivan city, Azerbaijan Republic. erbaijanian. Graduated from the Nakhchivan State Pedagogical Institute in 1978. Vice-Minister of Internal Affairs of the Azerbaijan Republic since 1998.
Married, has three children.

1953 il iyunun 7-də Gürcüstan Respublikası Marneuli rayonunun Qızıl Hacılı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1971-1975 illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil almışdır. İqtisadçıdır. Əmək fəaliyyətinə 1975 ilin avqust ayında Nəsimi Rayon Dövlət Bankında iqtisadçı kimi başlamışdır. 1977 ildən Dövlət Bankı Azərbaycan Kontorunda iqtisadçı, böyük iqtisadçı, baş iqtisadçı, 1982 ildən Dövlət Bankı Nəsimi Rayon şöbəsində şöbə rəisi, şöbə müdirinin müavini, 1987 ildən Dövlət Bankı Yasamal Rayon Şöbəsinin müdiri, 1988 ildən Mənzil-Kommunal Təsərrüfatı və Sosial İnkişaf Bankı Yasamal Rayon şöbəsinin müdiri, 1991 ildən Dövlət Bankı Yasamal Rayon Şöbəsinin müdiri, 1992 ildən Azərbaycan Respublikası Milli Bankı Sənaye-İnvestisiya Bankı Yasamal Rayon Şöbəsinin müdiri, 1993 ildən Azərbaycan Sənaye-İnvestisiya Səhmdar Kommersiya Bankı Yasamal Rayon Filialının müdiri, 1998 ildən Azərbaycan Sənaye-İnvestisiya Səhmdar Kommersiya Bankı İdarə Heyətinin sədri vəzifələrində işləmişdir.
Hazırda Birləşmiş Universal Səhmdar Bankı İdarə Heyətinin sədridir.
Evlidir, 3 övladı var.



ZEYNALOV HACI ZAKİR HACI OĞLU
Azərbaycan Birləşmiş Universal Səhmdar Bankı İdarə Heyətinin sədri

Zeynalov Haji Zakir Haji oglu
Chairman of the Board of United Universal Stock bank of the Azerbaijan Republic

Born 1953 June 7 in Gyzyl Hajili village, Marneuli district, Georgia. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1975. Chairman of the Board of United Universal Stock bank of the Azerbaijan Republic.
Married, has three children.

DÖVLƏT ŞİRKƏTLƏRİ, KONSERNLƏRİ, SƏHMDAR CƏMİYYƏTLƏRİ VƏ BİRLİKLƏRİ



ABASOV LİTVİN İBİŞ OĞLU
"Azərkəndtikinti" Dövlət Şirkətinin prezidenti

Abasov Litvin Ibish oglu
President of the "Azerkendtikinti" State Company

1937 il aprelin 6-da Qərbi Azərbaycanda (indiki Ermənistan) İrəvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1958 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir.
1958 ildən Bakı şəhərində "Cənub" Hidrospektrin stansiyasında instruktor, "Azağırsənayetikinti" trestində briqadir, 4 saylı Dəmir-Beton Məmulatları Zavodunda iş icraçısı, sahə rəisi, şöbə rəisi, 1961 ildən "Dəmir-beton" trestinin divar, dəmir-beton blokları zavodunda baş mühəndis, 4 saylı Dəmir-Beton Məmulatları zavodunda baş mühəndis, direktor, 1967 ildən 2 saylı Evtikmə kombinatında rəis, direktor, 2 saylı Zavod Tikmə Kombinatında rəis, "Dəmir-beton" trestində müdir, 1979 ildən Sənaye Tikintisi Nazirliyinin Mexanizasiya və Nəqliyyat İdarəsində rəis, 1980 ildən "Kəndtikinti" nazirinin müavini, 1986—1989 illərdə "Dövlətaqrosənaye" Əsaslı Tikinti və Yenidənqurma Baş İdarəsi rəisinin birinci müavini, 1989 ildən "Azərkəndtikinti" İstehsalat Birliyinin rəisi vəzifələrində işləmişdir. 1993 ilin mayından "Azərkəndtikinti" Dövlət Şirkətinin prezidentidir.
Respublika Ali Sovetinə deputat seçilmişdir (1990). "Şərəf nişanı" ordeni (1971), "Əmək şöhrəti" medalı (1970), Azərbaycan Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir (1970). Azərbaycanın Əməkdar mühəndisi fəxri adına layiq görülmüşdür (1976).
Evlidir, 2 övladı var.

Born 6 April 1937 in Yerevan, Armenia. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1958. President of the "Azerkendtikinti" State Company since 1993.
Married, has two children.



ABBASOV KAMAL RƏŞİD OĞLU
"Azərbxariciticarət" Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri

Abbasov Kamal Rashid oglu
Chairman of the Administrative Staff of "Azerbkharijitijaret" Stock Society

1941 il dekabrın 31-də Azərbaycan Respublikası Naxçıvan MR-in Ordubad şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1969 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. Mühəndis-mexanikdir. Əmək fəaliyyətinə 1958 ildə Bakı Elektrik Maşınqayırma Zavodunda tornaçı kimi başlamışdır. 1965 ildən Bakı Elektrik Ştamp zavodunda frezerçi, sex ustası, 1967 ildən "Azərelektroterm" Xüsusi Konstruktor Bürosunda mühəndis-texnoloq, mühəndis-konstruktor, 1970 ildən Salyan Plastmas Emalı Zavodunda texniki-istehsalat şöbəsinin müdiri, 1972 ildən Bakı Məişət Kondisionerləri Zavodunda şöbə rəisi, baş mühəndisin müavini, 1983 ildən Ryazan Kondensator zavodu Bakı filialında baş mühəndis, 1984 ildən "Azərelektroterm" Elm-İstehsalat Birliyində baş mühəndis, 1988 ildən "Azərelektroterm" EİB Elektrik Ağır Qaynaq Zavodunun direktoru, 1989 ildən "Azərelektroterm" EİB-də baş konstruktor, baş mühəndisin müavini, 1991 ildən "Çərəz" kiçik müəssisəsinin direktoru, 1995 ildən "Azərbxariciticarət" Birliyi baş direktorunun müavini vəzifələrində çalışmışdır. 1997 ilin sentyabr ayından "Azərbxariciticarət" Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədridir.
Evlidir, 2 övladı var.

Born 31 December 1941 in Ordubad, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1969. Chairman of the Administrative Staff of "Azerbkharijitijaret" Stock Society since 1997.
Married, has two children.



ABDULLAYEV MƏHYƏDDİN YƏHYA OĞLU
"Azərmənzilkomplektlayihətəmir" Respublika Birliyinin direktoru

Abdullayev Mahyaddin Yahya oglu
Director of the Republican Association of "Azermenzilcomplectlayihetemir"

1943 il dekabrın 29-da Azərbaycan Respublikası Zəngilan rayonunun Bartaz kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. Mühəndis-hidrotexnikdir.
1964—1970 illərdə Azərbaycan Boruyayma zavodunda əmək fəaliyyətinə başlamış, sonralar burada mühəndis, 1970—1977 illərdə Sumqayıt şəhər İcraiyyə Komitəsində idarə rəisi vəzifələrində çalışmışdır. 1992 ilin noyabr ayından "Azərmənzilkomplektlayihətəmir" Respublika Birliyinin direktorudur.
Evlidir, 2 övladı var.

Born 29 December 1943 in village Bartaz, Zangilan district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1973. Director of the Republican Association of "Azermenzilcomplectlayihetemir" since 1992.
Married, has two children.



AXUNDOV SƏNAN SƏMƏNDƏR OĞLU
Azərbaycan Respublikası Standartlaşdırma və Metrologiya Mərkəzinin rəisi

Akhundov Senan Samandar oglu
Chief of the Centre of Standartization and Metrology of the Azerbaijan Republic

1932 il martın 28-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1955 ildə Moskva Avtomexanika İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə 1956 ildə Bakı Elektrik Maşınqayırma Zavodunda başlamış, burada sahə, sex rəisi, baş mühəndisin müavini, 1968 ildən Avtomobil Ehtiyat Hissələri Zavodunun direktoru, 1972 ildən Bakı Məişət Kondisionerləri Zavodunun direktoru, 1976 ildən İttifaq Elektrik Maşınqayırma BİB Məişət Kondisionerləri Zavodunun direktoru, 1982 ildən Azərbaycan SSR Yerli Sənaye naziri, 1986 ildən SSRİ Nazirlər Soveti yanında Azərbaycan SSR-in Moskvada Daimi Nümayəndəliyinin sədri vəzifələrində çalışmışdır. 1989 ilin iyunundan Azərbaycan Respublikası Standartlaşdırma və Metrologiya Mərkəzinin rəisidir.

Born 28 March 1932 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Institute of Automechanics in 1955, Moscow. Chief of the Centre of Standartization and Metrology of the Azerbaijan Republic since 1989.



BƏŞİROV AYDIN, AĞƏMİ OĞLU
Azərbaycan Respublikası Xəzər Dəniz Gəmiçiliyinin rəisi

Bashirov Aydin Agami oglu
Chief of the Administration of Caspian Steamship Navigation

1947 il iyunun 29-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Burada 187 saylı orta məktəbi bitirdikdən sonra Bakı Dəniz Üzgüçülüyü məktəbində və Odessa Ali Dəniz Mühəndisliyi məktəbində təhsil almışdır. Gəmi sürücülüyü üzrə mühəndisdir. Əmək fəaliyyətinə Xəzər Dəniz Gəmiçiliyi İdarəsində başlamışdır: matros, kapitan köməkçisi, kapitanın baş köməkçisi, gəmi kapitanı işləmişdir. Uzaq səfərlər kapitanı kimi Avropa, Asiya və Afrika qitələrinin bir çox ölkələrində xidməti səfərdə olmuşdur.

Born 29 June 1949 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Odessa Higher Sea Engineering School. Chief of the Administration of Caspian Steamship Navigation.



BƏYBALAYEV QƏMBƏR BƏYLƏR OĞLU
"Aztelekom" İstehsalat Birliyinin baş direktoru

Beybalayev Gambar Beylar oglu
Director General of the "Aztelekom" Production Union

1957 il martın 1-də Azərbaycan Respublikası Quba rayonunun Əlik kəndində anadan olmuşdur. Azərbaycanlıdır.
1973 ildə Nərimanabad kəndində N.Nərimanov adına Orta Məktəbi, 1978 ildə Azərbaycan Politexnik İnstitutunun elektrotexnika fakültəsini bitirmişdir. Mühəndisdir. 1983—1985 illərdə hərbi xidmətdə olmuşdur.
1978 ildə təyinat əsasında respublika Elektrik Rabitəsi və Radiolaşdırma Qovşağında əmək fəaliyyətinə başlamışdır. 1985—1988 illərdə Azərbaycan Respublikası Rabitə Nazirliyi Elektrik Rabitəsi və Radiolaşdırma Qovşağında böyük mühəndis, istehsalat laboratoriyasının rəisi, 1988—1997 illərdə "Rayon Rabitəsi" İstehsalat Birliyində baş mühəndis, 1997—1998 illərdə "Aztelekom" İstehsalat Birliyində rəis müavini, baş mühəndis vəzifələrində işləmişdir. 1998 ilin aprel ayından "Aztelekom" İstehsalat Birliyinin baş direktorudur.
Qarabağ müharibəsi veteranıdır. 30-a yaxın səmərələşdirici təklifin müəllifidir. Qızıl Aypara Cəmiyyəti İcraiyyə Komitəsinin Fəxri fərmanı ilə təltif edilmişdir. Keçmiş SSRİ Yaradıcı Gənclər mükafatı və Hacı Zeynalabdin Tağıyev mükafatı laureatıdır.
Evlidir, 2 övladı var.

Born 1957 March 1 in Alik village, Guba dsitrict, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1978. Director General of the "Aztelekom" Production Union since 1998.
Married, has two children.



CAMALOV YAVƏR TALIB OĞLU
Azərbaycan Dövlət Neft Şirkəti Quruda Neft və Qazçıxarma İstehsalat Birliyinin baş direktoru

Jamalov Yavar Talyb oglu
Director General of the Oil and Gas Extracting Union on Land, Azerbaijan State Oil Company

1949 il oktyabrın 17-də Azərbaycan Respublikası Sabirabad rayonunun Çölbeşdəli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1972 ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir. 1972—1995 illərdə "Şirvanneft" NQÇİ-də operator mühəndis, böyük mühəndis, növbə rəisi, sex rəisinin müavini, neft-qazçıxarma sexinin rəisi, baş mühəndis, NQÇİ-nin rəisi vəzifələrində işləmişdir. 1995 ildən Quruda Neft və Qazçıxarma İstehsalat Birliyinin baş direktorudur.
Evlidir, 3 övladı var.

Born 17 October 1949 in Cholbeshdali village, Sabirabad district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1972. Director General of the Oil and gas Extracting Union on Land since 1995.
Married, has three children.



ƏLİYEV NATİQ AĞAƏMİ OĞLU
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

Aliyev Natig Agaemi oglu
President of the State Oil Company of the Azerbaijan Republic

1947 il noyabrın 23-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1965—1970 illərdə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda təhsil almışdır. Əmək fəaliyyətinə təyinatla göndərildiyi "Xəzərdənizneft" İstehsalat Birliyinin "Azərdənizneftkeşfiyyat" trestinin 1 saylı qazma idarəsində qazmaçı köməkçisi kimi başlamışdır. 1971—1974 illərdə Azərbaycan SSR EA Geologiya İnstitutunun aspiranturasında təhsil almışdır. Geologiya-mineralogiya elmləri namizədidir. 1975 ildən həmin institutda kiçik elmi işçi, böyük elmi işçi, 1984 ildən Azərbaycan KP MK neft və kimya şöbəsinin təlimatçısı, sosial-iqtisadi şöbənin bölmə müdiri olmuş, 1992 ildən Bakı şəhərində İngiltərə İLESKO İNTERNEYŞNL LTD Şirkəti nümayəndəliyinin baş direktoru vəzifəsində çalışmışdır. 1993 il avqustun 8-dən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidentidir. Neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı üzrə 30-dan çox elmi məqalənin müəllifidir. Beynəlxalq Şərq Neft KMEN Akademiyasının akademikidir (1994).

Born 23 November 1947 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1970. President of the State Oil Company of the Azerbaijan Republic since 1993.




ƏFƏNDİYEV ŞAİQ KƏRİM OĞLU
"Azərtunelmetrotikinti" Səhmdar Cəmiyyətinin sədri

Efendiyev Shaig Kerim oglu
President of the "Azertunelmetrotikinti" State Company

1936 il oktyabrın 21-də Azərbaycan Respublikasının Qazax şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1955—1960 illərdə Azərbaycan Dövlət Universitetində təhsil almışdır.
Əmək fəaliyyətinə "Bakı tuneltikinti" idarəsində başlamışdır. Burada fəhlə, növbə, sahə, şöbə rəisi, baş mühəndis, idarə rəisi, 1980 ildən Kubada Sovet mütəxəssislərinin rəhbəri, baş müşavir vəzifələrində işləmişdir. 1987 ildən "Azərtunelmetrotikinti" Dövlət Şirkətinin prezindentidir.
Evlidir, 2 övladı var.

Born 21 October 1936 in Gazakh, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1960. Prezident of the "Azertunelmetrotikinti" State Company since 1987.
Married, has two children.



ƏHMƏDOV MEHMAN MƏHƏMMƏD OĞLU
"Azərekspo"nun baş direktoru

Ahmadov Mehman Mahammad oglu
Director General of "Azerexpo"

1955 il fevralın 27-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1978 ildə Azərbaycan Dövlət Unirvesitetinin şərqşünaslıq fakültəsini bitirmişdir. 1976—1977 illərdə Yəmən Ərəb Respublikasında ərəb dili üzrə tərcüməçi, 1978—1979 illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində tərcüməçi, 1979—1982 illərdə Liviya Respublikasında tərcüməçi, 1982—1983 illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində tərcüməçi, redaktor, 1983—1989 illərdə Azərbaycan Ticarət-Sənaye Palatasında sərgilər şöbəsinin rəisi, 1990—1991 illərdə Ticarət-Sənaye Palatası "Azərxariciservis" firmasının direktoru vəzifəsinin icraçısı, 1991—1996 illərdə "Azərxariciservis" firmasının baş direktoru vəzifələrində işləmişdir. 1996 ildən "Azərekspo"nun direktoru. Azərbaycan Ticarət Sənaye Palatasının vitse-prezindentidir.
Evlidir, 2 övladı var.

Born 27 Fevruary 1955 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1978. Director General of "Azerexpo" since 1996.
Married, has two children.



ƏHMƏDOV TAĞI MƏHƏMMƏD OĞLU
Bakı Metropoliteninin rəisi

Ahmadov Tagy Mahammad oglu
Chief of the Baku Metro

1948 il fevralın 1-də Azərbaycan Respublikası Naxçıvan MR Şahbuz rayonunun Yuxarı Remeşin kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1965 ildə Naxçıvan Kənd Təsərrüfatı Texnikumunu, 1977 ildə Azərbaycan Politexnik İnstitutunu, 1987 ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir. 1965 ildən "Badamlı" zavodunda fəhlə, 1970 ildən Bakı Metrotikinti təşkilatında şaxtaçı, 1970—1994 illərdə Bakı Metropoliteninin tunel qurğuları və yol xidmətində IV—V dərəcəli tunel fəhləsi, böyük tunel ustası, distansiya rəisi, 1994—1998 illərdə Tunel Qurğuları Xidmətinin rəisi vəzifələrində işləmişdir. 1998 ilin iyul ayından Bakı Metropoliteninin rəisidir.
1997 ildən İnşaat Mühəndisləri Universitetinin aspirantıdır. "Tunellərin zəlzələyə davamlılığı" mövzusunda tədqiqat işi aparır.
Evlidir, 1 övladı var.

Born 1 Fevruary 1948 in Yukhary Ramashin village, Shahbuz district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1977. Chief of the Baku Metro since 1998.
Married, has one child.



ƏLİYEV ƏNVƏR ADİL OĞLU
"Azərsənaycticikinti" Səhmdar Cəmiyyətinin sədri

Aliyev Anvar Adil oglu
Chairman of the "Azersanaycticikinti" Joint-Stock Company

1938 il martın 15-də Azərbaycan Respublikası Naxçıvan MR-in Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1962 ildə Azərbaycan Politexnik İnstitutunun mülki inşaat fakültəsini bitirmişdir. İnşaatçı-mühəndisdir.
1962 ildən Azərbaycan Respublikası Sənaye Tikinti Nazirliyi 4 saylı Trestin 43 saylı Tikinti İdarəsində usta, iş icraçısı, 1967 ildən 5 saylı Trestin 51 saylı Tikinti İdarəsində rəis müavini, 8 saylı Trestin 84 saylı Tikinti İdarəsində baş iş icraçısı, baş mühəndis, 1971 ildən AHİŞ-in Kurortlar İdarəsində baş mühəndis, 1972 ildən respublika Sənaye Tikintisi Nazirliyi 4 saylı Trestin 41 saylı Tikinti İdarəsində baş iş icraçısı, 45 saylı Tikinti İdarəsinin rəisi, 1981 ildən 1 saylı Trestin rəisi, 1984 ildən Sənaye Tikinti nazirinin müavini, 1997 ildən "Sənayetikinti" Dövlət Şirkətinin vitse-prezidenti (həmin ilin dekabr ayına qədər) vəzifələrində işləmişdir. 1999 ilin iyul ayından "Azərsənayetikinti" Səhmdar Cəmiyyətinin sədridir.
"Şərəf nişanı" ordeni (1982), Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanı (1989) ilə təltif edilmişdir. Sumqayıt şəhər Xalq Deputatları Sovetinə deputat seçilmişdir (1982). Azərbaycan Respublikasının Əməkdar inşaatçısıdır. Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir, 3 övladı var.

Born 15 March 1938 in Nakhchivan, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1962. Chairman of the "Azersanayetikinti" Joint-Stock Company since 1999.
Married, has three children.

1950 il iyulun 11-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1980 ildə Leninqrad Mülki Aviasiya Məktəbini bitirmişdir. 1972 ildən Ukrayna Mülki Aviasiya İdarəsinin Çerkasski Birləşmiş Aviadəstəsində ikinci pilot, Bakı şəhəri Zabrat Birləşmiş Aviadəstəsində eskadrilya komandiri, uçuş dəstəsi komandirinin müavini, 1978 ildən Yevlax Birləşmiş Aviadəstəsinin komandiri, Hava limanının rəisi, 1981 ildən Bakı Birləşmiş Aviadəstəsində ikinci pilot, kapitan, eskadrilya komandirinin müavini, eskadrilya komandiri, 1991 ildən Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1993 ildən Dövlət Konserninin Türkiyədə baş nümayəndəsi vəzifələrində işləmişdir. 1996 ildən "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktorudur
Evlidir, 2 övladı var.

Born 11 July 1950 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Liningrad Civil Aviation School in 1980. Director of the "Azerbaijan Hava Yollary" State Concern since 1996.
Married, has two children.



ƏSGƏROV CAHANGİR CƏLAL OĞLU
"Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru

Askerov Jahangir Jalal oglu
Director General of the "Azerbaijan Hava Yollary" State Concern

1947 il oktyabrın 9-da Qərbi Azərbaycanda Krasnoselsk rayonunun Ağbulaq kəndində anadan olmuşdur. 1972 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir.
1966 ildən İdman İstehsalat Birliyində çilingər, sahə ustası, ekspeditor, mühəndis, baş direktorun müavini, 1996 ildən Kənd Təsərrüfatında Nümunəvi Özəl Təsərrüfatların Formalaşmasına Yardım Layihəsini Həyata Keçirən Mərkəzi İşçi Orqanın rəhbəri vəzifələrində işləmişdir. 2000 ildən Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyinin rəhbəridir.
İqtisad elimləri namizədidir. YAP Siyasi Şurasının üzvüdür.
Evlidir, 2 övladı var.

Born 1947 October 9 in Agbulag village, Krasnoselsk district, West Azerbaijan. Graduated from the Azerbaijan State Institute of National Economy in 1972. Head of the Agency on Rendering Help to Development of Private Sector in Agriculture since 2000.
Married, has two children.



HÜSEYNOV VAQİF ASLAN OĞLU
Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyinin rəhbəri

Huseynov Vagif Aslan oglu
Head of the Agency on Rendering Help to Development of Private Sector in Agriculture



HÜSEYNOV ADİL ŞEYRUZ OĞLU
"Azərekspertiza" Birliyinin baş direktoru

Huseynov Adil Sheyruz Oğlu
Director General of the "Azerekspertiza" Union

1952 il oktyabrın 2-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu və Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. İqtisad elmləri namizədidir. 1976 ildən "Binəqədineft NQÇİ-də bədən tərbiyəsi üzrə təlimatçı, "Neftçi" futbol komandasının oyunçusu, 1977 ildən "Məhsul" Kənd Könüllü İdman Cəmiyyətinin təlimatçısı, 1979 ildən "Spartak" Könüllü İdman Cəmiyyətinin təlimatçısı, Bakının "Avtomobilçi" futbol komandasının oyunçusu, 1980 ildən Azərbaycan SSR Ticarət-Sənaye Palatasında ekspert, baş ekspert, şöbə müdiri, "Azərekspertiza" firmasının direktoru vəzifələrində işləmişdir. 1994 ilin iyul ayından "Azərekspertiza" Birliyinin baş direktorudur. Azərbaycan Respublikası Ticarət-Sənaye Palatasının vitse-prezidentidir.
Evlidir, 2 övladı var.

Born 2 October 1952 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Physical Cultute; Azerbaijan State Institute of National Economy. Director General of the "Azerekspertiza" Union since 1994.
Married, has two children.



HÜSEYNOV HÜSEYN ƏBDÜRRƏHMAN OĞLU
"Azəravtonəqliyyat" Dövlət Konserninin prezidenti

Huseynov Huseyn Abdurrahman oglu
Prezident of the "Azeravtonagliyyat" State Concern

1951 il sentyabrın 17-də Qazaxıstan Respublikasının Taldı-Kurqan vilayətində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Daşkənd Avtomobil və Avtomobil Yolları İnstitutunu bitirmişdir. 1973 ildən Özbəkistan Respublikasının Sir-Dərya vilayətindəki Avtomobil Nəqliyyatı Trestində böyük mühəndis, 1978 ildən Daşkənd Avtomobil və Avtomobil Yolları İnstitutunda assistent, baş müəllim, 1985 ildən Özbəkistanın Cızaq vilayətindəki Hərbiləşdirilmiş Avtonəqliyyat müəssisəsinin rəisi, 1991 ildən Özbəkistan Milli Nəqliyyat-Ekspeditor Şirkətinin baş direktoru vəzifələrində işləmişdir. 1996 ilin sentyabr ayından "Azəravtonəqliyyat" Dövlət Konserninin prezidentidir.
Texnika elmləri namizədidir. Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir, 2 övladı var.

Born 17 September 1951 in Taldi-Kurgan region, Gazakhstan Republic. Azerbaijanian. Graduated from the Dashkend Automobile and Automobile Roads Institute in 1973. President of the "Azeravtonagliyyat" State Concern since 1996.
Married, has two children.



XUDİYEV NİZAMİ MANAF OĞLU
Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Khudiyev Nizami Manaf oglu
Chairman of the State TV and Radio Broadcasting Company of the Azerbaijan Republic, Deputy of the Milli Mejlis, Azerbaijan Republic

1949 ildə Azərbaycan Respublikası Naxçıvan MR Şahbuz rayonunun Şahbuz qəsəbəsində anadan olmuşdur. Azərbaycanlıdır. 1966—1970 illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsində təhsil almışdır. İnstitutu fərqlənmə diplomu ilə bitirdikdən sonra Azərbaycan dilçiliyi kafedrasında müəllim saxlanmışdır. 1979 ildən institut həmkarlar ittifaqı komitəsinin sədri seçilmişdir. 1991 ildən N.Tusi adına ADPU-nun birinci prorektoru, 1994 ildən isə həmin universitetin rektoru olmuşdur. 1996 ilin sentyabr ayından Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədridir.
Filologiya elmləri doktoru (1990), professordur. 200-dən çox elmi məqalənin, 30 monoqrafiya, dərslik, dərs vəsaitinin müəllifidir.
Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir (1995). 2000 ildən Milli Məclisin deputatıdır. Azərbaycan Yazıçılar Birliyi və Jurnalistlər Birliyinin üzvüdür. Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir. YAP İdarə Heyətinin üzvüdür.
Evlidir, 3 övladı var.

Born 1949 in Shahbuz settlement, Shahbuz district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1970. Chairman of the State TV and Radio Broadcasting Company of the Azerbaijan Republic since 1996.
Married, has three children.



İMANOV KAMRAN SULTAN OĞLU
Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri

Imanov Kamran Sultan oglu
Chairman of the Copyright Agency of the Azerbaijan Republic

1946 il noyabrın 5-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Sistemli qərar qəbuletmə və idarəetmə üzrə mütəxəssisdir, 120-dən artıq elmi işin müəllifidir. Ümumdünya Əqli Mülkiyyət Təşkilatı Akademiyasını bitirmişdir.
1972—1976 illərdə elmi-tədqiqat laboratoriyasına rəhbərlik etmiş, Azərbaycan Neft Akademiyasının baş müəllimi, 1977—1982 illərdə ADU-nun nəzdində ali məktəblərarası elmi-tədqiqat hesablama mərkəzinin direktoru, 1983—1992 illərdə Azərbaycan İnşaat Mühəndisləri Universitetinin birinci prorektoru, tədris işləri üzrə prorektoru vəzifələrində çalışmışdır.
1980 ildə ilk dəfə olaraq humanitar-sosial sahədə proqnozlaşdırma və modelləşdirmə üzrə elmi laboratoriya yaratmışdır. 1981—1983 illərdə Azərbaycan KP Sosioloji Tədqiqatlar Mərkəzinin elmi katibi, respublika Gənc Alimlər Şurasının sədri işləmiş, test sestemi yaradıcı kollektivinə, 1993—1994 illərdə Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasına rəhbərlik etmişdir. Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanı və Təhsil əlaçısı döş nişanına, ən yaxşı elmi-tədqiqat işinə görə SSRİ Dövlət Təhsil Komitəsinin Elmi mükafatı laureatı adına layiq görülmüşdür.
Evlidir, 2 övladı var.

Born 5 November 1946 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Chairman of the Copyright Agency of the Azerbaijan Republic.
Married, has two children.



PİRVERDİYEV ETİBAR SİNABƏDDİN OĞLU
"Azərenerji" Səhmdar Cəmiyyətinin prezidenti

Pirverdiyev Etibar Sinabeddin oglu
President of the "Azenergy" Stock Company

1964 ildə anadan olmuşdur. İxtisasca mühəndis-elektrikdir. Azərbaycan Kosmik Araşdırmalar İnstitutunda, Bakı Qazan-Mexaniki Zavodunda, 2000 ildən Azərbaycan Respublikası Dövlət Əmlakı Nazirliyi Özəlləşdirilmiş səhmdar cəmiyyətlərində dövlət payının tənzimlənməsi şöbəsinin rəisi, 2001 ildən "Bakıelektrikşəbəkə" ASC-nin sədri vəzifələrində işləmişdir. 2001 ilin noyabr ayından "Azərenerji" Səhmdar Cəmiyyətinin prezidentidir.

Born 1964. Electrical engineer. President of the "Azenergy" Stock Company since 2001.



KAZIMOV QƏMBƏR XIDIR OĞLU
Azərbaycan Respublikası Dövlət Tərəvəz Toxumçuluğu Assosiasiyasının sədri

Kazymov Gambar Khydyr oglu
Chairman of the State Vegetable Seed-Growing Association, Azerbaijan Republic

1932 il mayın 5-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1949—1954 illərdə Moskvada K.A.Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasında təhsil almışdır.
Əmək fəaliyyətinə 1954 ildə Xudat rayonundakı Qusarçay təcrübə stansiyasında təsərrüfat müdiri kimi başlamışdır. 1955 ildən Xudat MTS-ində baş aqronom, Elmi-Tədqiqat Əkinçilik İnstitutunda aspirant, 1959 ildən Azərbaycan Respublikası Nazirlər Sovetində referent, 1960 ildən Azərbaycan KP MK-da təlimatçı, şöbə müdiri, birinci katibin köməkçisi, 1962 ildən Azərbaycan KP MK katibi, 1970 ildən Azərbaycan Elmi-Tədqiqat Yemçilik İnstitutunun direktoru, Abşeron rayonu Ramana və Məmmədli sovxozlarının baş aqronomu, direktoru, Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun baş elmi işçisi, Abşeron rayonu Şurabad sovxoz direktorunun müavini, 1989 ildən Respublika Sənaye Quşçuluğu Birliyinin rəisi vəzifələrində işləmişdir. 1990 ildən Azərbaycan Dövlət Tərəvəz Toxumçuluğu Assosiasiyasının sədridir.

Born 5 May 1932 in Ganja, Azerbaijan Republic. Graduated from the K.A.Timiryazev Agricultural Academy in 1954, Moscow. Chairman of the State Vegetable Seed-Growing Association of the Azerbaijan Republic since 1990.



QƏMBƏROV MİRİ ƏHƏD OĞLU
Azərbaycan Dövlət Kontrakt Korporasiyası, "Azərkontrakt" Səhmdar Cəmiyyətinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Gambarov Miri Ahad oglu
President of the "Azerkontrakt" Joint-Stock Company

1935 il mayın 25-də Azərbaycan Respublikası Lerik rayonunun Siyov kəndində anadan olmuşdur. Orta məktəbi fərqlənmə attestatı ilə bitirdikdən sonra iki il Lənkəran kərpic zavodunda fəhlə, nəzarətçi texnik, komsomol təşkilatı katibi işləmişdir.
1956 ildə Bakı Kooperativ Texnikumunu, 1964 ildə Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakültəsini bitirmişdir. Həmin ildən "Azərittifaq"da əmtəəşünas, baş əmtəəşünas, Tikinti Təsərrüfat Malları Baş İdarəsində baş direktorun müavini və baş direktoru, 1979 ildən Bakı Şəhər Ticarət İdarəsində şöbə rəisi, indiki Yasamal Rayon Ticarət İdarəsinin direktoru, 1982 ildən respublika İdman və Mədəni Mallar İdarəsinin baş direktoru, 1994 ildən Azərbaycan Respublikasının Ticarət naziri vəzifələrində işləmişdir. 1997 ilin iyun ayından Azərbaycan Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Səhmdar Cəmiyyətinin sədridir.
1981—1994 illərdə Yasamal Rayon və Bakı sovetlərinə deputat seçilmişdir. 2000 ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.
Evlidir, 4 övladı var.

Born 25 May 1935 in Siyov village, Lerik district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1964. President of the "Azerkontrakt" Joint-Stock Company since 1997.
Married, has four children.



QULİYEV ALİM SƏLİM OĞLU
Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti sədrinin birinci müavini

Guliyev Alim Salim oglu
First Vice-Chairman of the Board of Administration of National Bank of the Azerbaijan Republic.

1960 ildə Azərbaycan Respublikasının Mirbəşir rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1977—1981 illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil almışdır.
Əmək fəaliyyətinə 1981 ildə SSRİ Dövlət Bankının Şamaxı rayon şöbəsində iqtisadçı kimi başlamışdır. 1981 ildən 1983 ilədək ordu sıralarında xidmət etmişdir. 1983 ildən SSRİ Dövlət Bankının Şamaxı Rayon şöbəsində iqtisadçı, SSRİ Dövlət Bankı Azərbaycan Respublikası Kontorunun Təftiş idarəsində müfəttiş, böyük müfəttiş, 1988 ildən Səhmdar-Kommersiya Aqrar-Sənaye Bankının Nəzarət-təftiş idarəsində aparıcı müfəttiş, baş müfəttiş, İdarə heyəti sədrinin müavini, 1993 ildən Azərbaycan Respublikasının Milli Bankında Banklara nəzarət idarəsinin rəisi vəzifələrində çalışmışdır. 1995 ilin mart ayından Təftiş Departamentinin direktoru və İdarə Heyəti sədrinin müavini vəzifəsini icra etmişdir. 1995 ildən Səhmdar-Kommersiya Əmanət Bankının Müvəqqəti İdarəetmə Komitəsinin sədri işləmişdir.
1996 il sentyarbın 24-dən Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti sədrinin birinci müavinidir.
Evlidir, 2 övladı var.

Born 1960 in Mirbashir district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the D.Bunyadzade Azerbaijan State Institute of National Economy in 1981. First Vice-Chairman of the Board of Administration of National Bank of the Azerbaijan Republic since 1996.
Married, has two children.



QULİYEV BƏSİRƏT NADİR OĞLU
"Bakı Taxıl" Açıq Tipli Səhmdar Cəmiyyətinin sədri

Guliyev Basirat Nadir oglu
Head of the "Baku Grain" Joint-Stock society

1956 il oktyabrın 15-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Bakı Şəhər 125 saylı Orta Məktəbi bitirmişdir. 1977—1979 illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur. 1974—1980 illərdə Azərbaycan Dövlət Universiteninin hüquq fakültəsində təhsil almışdır. Hüquqşünasdır.
Əmək fəaliyyətinə 1973 ildə başlamış və bir il "Azərkəndtəsərrüfattexnika" Birliyi 2 saylı Respublika Bazasının hüquq şöbəsində iddiaçı vəzifəsində çalışmışdır. 1973—1977 illərdə Bakı şəhəri Oktyabr Rayon (indiki Yasamal rayonu) Xalq Məhkəməsində məhkəmə iclas katibi, 1979—1989 illərdə Bakı Məişət Kondisionerləri Zavodunda təmirçi çilingər, hüquq məsləhətçisi, 1989—1992 illərdə Azərbaycan Respublikası Dövlət Plan Komitəsinin xarici iqtisadi əlaqələr şöbəsində aparıcı iqtisadçı, 1992—1993 illərdə H.Z.Tağıyev adına Bakı Taxıl Məhsulları Kombinatında aparıcı hüquq məsləhətçisi, 1993 ilin avqust ayından həmin kombinatın baş direktoru vəzifələrində işləmişdir. Hazırda "Bakı Taxıl" Açıq Tipli Səhmdar Cəmiyyətinin sədridir.
Evlidir, 2 övladı var.

Born 1956 October 15 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1980. Head of the "Baku Grain" Joint-Stock society.
Married, has two children.



QULİYEV ELDAR ALLAHYAR OĞLU
Azərittifaq İdarə Heyətinin sədri

Guliyev Eldar Allahyar oglu
Chairman of the Administration of Azerittfag

1951 il iyulun 26-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1969—1973 illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil almışdır. 1974—1975 illərdə hərbi xidmətdə olmuşdur. 1975—1987 illərdə Azərbaycan Respublikası Ticarət nazirliyi sistemində, 1987 ildən Azərittifaq sistemində rəhbər vəzifələrdə çalışmışdır. 1987—1990 illərdə Bakı şəhər İstehlak Cəmiyyəti İdarə Heyətinin sədri, Bakı Sənaye Ticarəti İdarəsi baş direktorunun müavini və baş direktoru, 1990—1993 illərdə Azərittifaq İdarə Heyətinin sədr müavini vəzifələrində işləmişdir. 1993 ildən Azərittifaq İdarə Heyətinin sədridir.
Evlidir, 2 övladı var.

Born 26 July 1951 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1973. Chairman of the Administration of Azerittifag since 1993.
Married, has two children.

1946 il sentyabrın 11-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir. 1968—1986 illərdə "Xəzərdənizneft" Birliyi "Qum adası" NQÇİ-də operator, usta, mühəndis, texnoloji xidmətin növbə rəisi, 2 saylı neft və qazçıxarma sexi rəisinin müavini, mərkəzi mühəndis texnoloji xidmətinin rəisi, neft və qazçıxarma sexinin rəisi, NQÇİ-də rəis müavini, baş mühəndis, həmin idarənin rəisi vəzifələrində işləmişdir. 1994 ilin fevralından Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin baş direktorudur.
Evlidir, 3 övladı var.

Born 11 September 1946 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1968. Director of the Amalgamation of Oil and Gas-Extracting Production in the Sea, Azerbaijan State Oil Company since 1994.
Married, has three children.



QURBANOV RƏHMAN ƏLİSGƏNDƏR OĞLU
Azərbaycan Dövlət Neft Şirkəti Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin baş direktoru

Gurbanov Rahman Aliskender oglu
Director of the Amalgamation of Oil and Gas-Extracting Production in the Sea, Azerbaijan State Oil Company

1934 il dekabrın 19-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1957 ildə Moskva Elektrotexnika Rabitə İnstitutunda təhsilini davam etdirmişdir. Mühəndis-elektrikdir. Əmək fəaliyyətinə 1957 ildə Azərbaycan Elmlər Akademiyasının Fizika və Riyaziyyat İnstitutunda baş laborant kimi başlamışdır. 1970 ildən Fizika İnstitutunda baş elmi işçi, 1975 ildən Elmlər Akademiyasının "Xəzər" Elm Mərkəzinin direktor müavini, 1979 ildən Təbii Ehtiyatların Kosmik Tədqiqatı İnstitutunda direktor müavini, 1982 ildən Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyində baş direktorun elmi işlər üzrə müavini, 1986 ildən Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyi baş direktorunun I müavini, 1991 ildən baş direktoru işləmişdir. 1992 ilin fevral ayından Azərbaycan Milli Aerokosmik Agentliyinin baş direktorudur. Fizika-riyaziyyat elmləri doktoru (1984), professor (1987), Azərbaycanın Əməkdar elm xadimi (1991), Beynəlxalq Mühəndislər Akademiyasının akademikidir (1992).
1990 ildə Azərbaycan Dövlət mükafatına, 1979 ildə "Şərəf nişanı" ordeninə layiq görülmüşdür.
Evlidir, 3 övladı var.

Born 19 December 1934 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Moscow Electrotechnical Communication Institute in 1957. Director General of the Azerbaijan National Aerocosmic Agency since 1992.
Married, has three children.



MEHDİYEV ARİF ŞƏFAƏT OĞLU
Azərbaycan Milli Aerokosmik Agentliyinin baş direktoru

Mehdiyev Arif Shafaet oglu
Director General of the Azerbaijan National Aerocosmic Agency



MEHDİYEV İMRAN ƏZİM OĞLU
Azərbaycan Respublikası Satınalmalar Üzrə Dövlət Agentliyinin direktoru

Mehdiyev Imran Azim oglu
Director of the State Agency of the Azerbaijan Republic on Sales and Purchases

1936 ildə Azərbaycan Respublikası Naxçıvan MR-in Ordubad şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1958 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə 1958 ildə SSRİ Baş Yol Tikinti İdarəsinin 6 saylı Tikinti İdarəsində mühəndis vəzifəsilə başlamışdır. 1959 ildən burada böyük mühəndis, 1962 ildən Azərbaycan Dövlət Layihə İnstitutunda qrup rəhbəri, Azərbaycan SSR Nazirlər Sovetinin tikinti və kommunal təsərrüfatı şöbəsində böyük referent, 1971 ildən Bakı Mərmər Məmulatları Zavodunun direktoru, 1976 ildən Naxçıvan MSSR Nazirlər Soveti sədrinin birinci müavini, 1979 ildən Naxçıvan MSSR Nazirlər Sovetinin sədri, 1982 ildən Azərbaycan SSR Dövlət Qiymət Komitəsi sədrinin birinci müavini, 1983 ildən İsmayıllı Rayon PK-nın birinci katibi, 1990 ildən Azərbaycan KP MK-nın sosial-iqtisad şöbəsində məshətçi, 1991 ildən respublika Sənaye-Tikinti Materialları nazirinin birinci müavini vəzifələrində işləmişdir. 1998 ilin iyun ayından Satınalmalar Üzrə Dövlət Agentliyinin direktorudur.
Texniki elmlər namizədi (1967), iqtisad elmləri doktoru (1989), professordur. 90-dan artıq elmi əsərin, 3 monoqrafiyanın, 3 dərsliyin və ixtiranın müəllifidir.
Naxçıvan MR Ali Sovetinin (1977—1985) və Azərbaycan SSR Ali Sovetinin (1980—1990) deputatı olmuşdur. İki "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı" ordenləri və medalla, Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir.
Beynəlxalq Mühəndislər, Rusiya Maliyyə və İqtisadiyyat Akademiyalarının həqiqi üzvü, Azərbaycan Memarlar İttifaqının üzvüdür.
Evlidir, 3 övladı var.

Born 1936 in Ordubad, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1958. Director of the State Agency of the Azerbaijan Republic on Sales and Purchases since 1998.
Married, has three children.



MƏLİKOV ƏLİXAN SÜLEYMAN OĞLU
"Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətinin sədri

Melikov Alikhan Suleyman oglu
Chairman of the "Azerigaz" Close Joint-Stock Company

1951 il mayın 7-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1967 ildə Bakı şəhər 124 saylı Orta Məktəbini, 1973 ildə Azərbaycan Neft və Kimya İnstitutunun istehsal proseslərinin avtomatikası fakültəsini bitirmişdir. Mühəndisdir. 1973—1975 illərdə hərbi xidmətdə olmuşdur.
Əmək fəaliyyətinə 1975 ildə başlamışdır. 1975—1979 illərdə Bakı Aqreqat İstehsalat Birliyində mühəndis-konstruktor, texniki şöbənin rəisi, 1979—1992 illərdə Bakı şəhəri Əzizbəyov Rayon Qaz İstismar İdarəsində sahə rəisi, qəza dispetçer xidmətinin rəisi, 1992—1994 illərdə Bakı Şəhəri Əzizbəyov Rayon Qaz İstismar İdarəsinin rəisi, 1994—1996 illərdə "Azəriqaz" Dövlət Şirkətində baş mütəxəssis, 1996—1998 illərdə Bakı Şəhəri Suraxanı Rayon Qaz İstismar İdarəsinin rəisi, 1998—2000 illərdə Bakı şəhəri Əzizbəyov Rayon Qaz İstismar İdarəsinin rəisi vəzifələrində işləmişdir.
2000 ilin fevral ayından "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətinin sədridir.
Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir, 2 övladı var.

Born 7 May 1951 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1973. Chairman of the "Azerigaz" Close Joint-Stock Company since 2000.
Married, has two children.



MƏMMƏDOV AYDIN İSRAFİL OĞLU
Bakı Beynəlxalq Dəniz Limanının Baş direktoru, general-mayor

Memmedov Aydin Israfil oglu
Director General of the Baku International Seaport, Major-General

1939 il martın 22-də Azərbaycan Respublikasının Astara şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1956 ildə Bakı Dənizçilik Məktəbini, 1970 ildə Odessa Dəniz Donanması İnstitutunu, 1983 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir. 1956 ildən Xəzər Dəniz Gəmiçiliyinin "Qəhrəman Mehdi" gəmisində matros, 1960 ildən Bakı şəhəri 26-lar Rayon Komsomol Komitəsinin təlimatçısı, 1960 ildən Bakı Dənizçilik Məktəbi Komsomol Komitəsinin katibi, 1963 ildən Dəniz Gəmiçiliyi Komsomol Komitəsinin katibi, 1965 ildən Bakı Dənizçilik Məktəbi rəisinin Siyasi İşlər üzrə müavini, 1969 ildən Xəzər Dəniz Gəmiçiliyi Partiya Komitəsi katibinin müavini, 1971 ildən Xəzər Hövzə Dəniz və Çay Donanması İşçiləri Həmkarlar İttifaqı Komitəsinin sədri, 1978 ildən Xəzər Dəniz Gəmiçiliyi Partiya Komitəsinin katibi, 1980 ildən Azərbaycan KP MK nəqliyyat və rabitə şöbəsinin müdiri, 1987 ildən Azərbaycan SSR Daxili İşlər naziri, 1990 ildən Bakı Dəniz Limanının rəisi vəzifələrində işləmişdir. 1992 ildən Bakı Beynəlxalq Dəniz Limanının baş direktorudur.
Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri və medallara təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 22 March 1939 in Astara, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Odessa Navy Institute in 1970; Baku Higher Party School in 1983. Director General of the Baku International Seaport since 1992.
Married, has two children.



MƏMMƏDOV MƏMMƏD ƏHMƏD OĞLU
Azərbaycan Respublikası Dövlət Sığorta Şirkətinin prezidenti

Memmedov Memmed Ahmad oglu
Prezident of the State Insurance Company of the Azerbaijan Republic

1941 il mayın 5-də Azərbaycan Respublikasının Tovuz şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1960—1965 illərdə Azərbaycan Dövlət Universitetində təhsil almışdır.
1962 ildə Bakı Baş Tikinti İdarəsində fəhləliklə əmək fəaliyyətinə başlamışdır. 1964—1966 illərdə Bakı Şəhəri Binəqədi Rayon Əmanət Bankında təftişçi, 1966—1972 illərdə Binəqədi Rayon Əmanət Bankının müdiri, 1972—1985 illərdə Bakı Şəhər Əmanət Bankının rəisi, 1972—1985 illərdə Bakı Şəhər Əmanət Bankının rəisi, 1985—1993 illərdə Azərbaycan Respublikası Əmanət Bankının prezidenti vəzifələrində işləmişdir. 1993 ilin yanvar ayından Azərbaycan Respublikası Dövlət Sığorta Şirkətinin sədridir. Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir (1982). Azərbaycan Respublikasının Əməkdar iqtisadçısıdır (1991). Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir, 3 övladı var.

Born 5 May 1941 in Tovuz, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1965. Prezident of the State Insurance Company of the Azerbaijan Republic since 1993. Married, has three children.



MƏMMƏDOV MƏMMƏD ƏSGƏR OĞLU
Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin rəisi

Memmedov Memmed Asker oglu
Chief of the Baku Telephone Communication Production Union

1957 il mayın 9-da Azərbaycan Respublikası Naxçıvan MR Babək rayonunun Bulqan kəndində anadan olmuşdur. Azərbaycanlıdır.
1974 ildə Bulqan kənd Orta Məktəbini, 1979 ildə Azərbaycan Politexnik İnstitutunun elektrotexnika fakültəsini bitirmişdir. Mühəndisdir.
Əmək fəaliyyətinə 1979 ildə başlamış və Bakı Telefon Şəbəkəsi 61 və 62 ATS-lərində elektromexanik, mühəndis vəzifələrində işləmişdir. 1979—1987 illərdə 66 və 67 ATS-lərində böyük mühəndis, Bakı Telefon Rabitəsi İstehsalat Birliyində stansiya xidmətinin rəisi, 1987—1989 illərdə Yasamal Rayon Telefon Qovşağında baş mühəndis, 1989—1992 illərdə BTRİB-də baş mühəndis, elektrik şöbəsinin rəisi, təsərrüfat hesablı emalatxananın baş mühəndisi, 1992—1996 illərdə BTRİB-də baş mühəndis, rəis müavini, 1996—1997 illərdə Layihə Axtarış Kontorunun rəisi, 1997—1999 illərdə BTRİB-də baş mühəndis vəzifələrində çalışmışdır. 1999 ilin avqust ayından Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin rəisidir.
1998 ildən Azərbaycan Texniki Universitetinin dissertantıdır. Avtomatik elektrik rabitəsi sahəsində elmi-tədqiqat işi aparır. 9 elmi əsərin (2 kitab, 2 patent, 5 elmi məqalə), 50-dən çox səmərələşdirici təklifin müəllifidir. Səmərələşdirici təklifi əsasında hazırlanmış cihaz keçmiş SSRİ XTNS-in bürünc medalına layiq görülmüşdür.
Evlidir, 6 övladı var.

Born 1957 May 9 in Bulgan village, Babek district, Nakhchivan AR. Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1979. Chief of the Baku Telephone Communication Union since 1999.
Married, has six children.



MİRZƏYEV RAMİZ ŞƏMŞƏD OĞLU
"Azərneftyağ" İstehsalat Birliyinin baş direktoru

Mirzayev Ramiz Shamshad oglu
Director General of the "Azerneftyag" Production Union

1954 il oktyabrın 27-də Azərbaycan Respublikasının Tovuz şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1972 ildə Tovuz şəhər Orta Məktəbini, 1977 ildə Azərbaycan Politexnik İnstitutunun radiotexnika və radiorabitə fakültəsini, 1999 ildə Azərbaycan Dövlət Neft Akademiyasının kimya texnologiyası və biotexnologiya fakültəsini, 2000 ildə Azərbaycan Universitetinin hüquq fakültəsini bitirmişdir. Mühəndis, kimyaçı və hüquqşünasdır.
Əmək fəaliyyətinə 1977 ildə başlamış və üç il Azərbaycan Respublikasının Rabitə Nazirliyində müxtəlif vəzifələrdə çalışmışdır. 1980—1986 illərdə "Azqaznəqliyyat" İstehsalat Birliyində böyük mühəndis, şöbə rəisi, 1986—1988 illərdə Azərbaycan Respublikası Dövlət Qazlaşdırma Komitəsi "Azqaztəmirtikinti" Tresti İstehsalat Texnoloji Komplektləşdirmə İdarəsinin rəisi, 1988—1997 illərdə "Azəriqaz" Dövlət Şirkəti Maye Qaz Üzrə İstehsalat Birliyinin baş direktor müavini, baş direktoru vəzifələrində işləmişdir. 1997 ilin iyun ayından Azərbaycan Respublikası Dövlət Neft Şirkəti "Azərneftyağ" İstehsalat Birliyinin baş direktorudur.
"Qalıq neft məhsulları əsasında yol bitumunun alınması", "Nəqliyyat vasitələrinin qaz yanacağına keçirilməsi", "Hərəkətediçi yerləşdirmə metodu ilə qazın absorbtsion qurudulması prosesi" sahələrində elmi-tədqiqat işləri aparır. Mitsui end Ko LTD (Mitsui), Toyo İnjinerinq Korporeyşn (Toyo), Mobil Texnoloji Kompani (Mobil), Şevron, ABB Limmus Qlobal, Nişşo-İvai, Solvalyub, Edeleanu firmaları, Azərbaycan Neft-Kimya Prosesləri və "Azərneftkimyalayihə" institutları ilə birgə "Azərneftyağ" İstehsalat Birliyində sürtkü yağları texnologiyasının modernləşdirilməsi üzrə baş planın hazırlanıb həyata keçirilməsi, Avstriyanın "Pörner" firması ilə birgə Yeni Bitum Qurğusunun tikintisi işlərində fəaliyyət göstərir. "Azərneftyağ" İB beynəlxalq müsabiqələrdə qalib gələrək "Qızıl ulduz" (İsveçrə, 1999), "Platin" (İspaniya, 1999), "Platin ulduzu" (ABŞ, 2000) medallarına, "XIV Avropa mükafatı"na (Fransa, 2000) layiq görülmüşdür.
Beynəlxalq Ekoenerji Akademiyasının elmlər doktoru və ekologiya üzrə akademikidir. Azərbaycan "Bilik" Maarifçilik Cəmiyyəti Yusif Məmmədəliyev adına mükafatı və medalla təltif edilmişdir.
1992 ildən Yeni Azərbaycan Partiyasının üzvü, YAP Xətai Rayon Təşkilatının sədridir.
Evlidir, 2 övladı var.

Born 1954 October 27 in Tovuz district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1977, Azerbaijan State Oil Academy in 1999, Baku State University in 2000. Director General of the "Azerneftyag" Production Union, Azerbaijan State Oil Company since 1997.
Married, has two children.



MİRƏLƏMOV HÜSEYNBALA FAZİL OĞLU
Azərbaycan Qaz Emalı Zavodunun direktoru

Miralamov Huseynbala Fazil oglu
Director of the Azerbaijan Gas Processing Works

1947 il iyunun 25-də Azərbaycan Respublikası Lerik rayonunun Nuravud kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1970 ildə Azərbaycan Politexnik İnstitutunun mülki inşaat fakültəsini bitirmişdir. İnşaatçı-mühəndisdir.
Əmək fəaliyyətinə 1971 ildə başlamışdır. 1971—1972 illərdə Lənkəran Şəhər Qaz Tikinti Quraşdırma İdarəsində iş icraçısı, 1972—1974 illərdə baş mühəndis, 1974—1986 illərdə isə rəis işləmişdir. 1986 ildə o, Bakı şəhərinə dəvət edilmiş və Azərbaycan Qaz Təmir Tikinti Trestinin rəisi vəzifəsinə təyin olunmuşdur. 1988—1989 illərdə Maye Qaz İstehsalat Birliyinin rəisi, 1989—1992 illərdə Azərbaycan Dövlət Yanacaq Komitəsi sədrinin birinci müavini, 1992—1996 illərdə İnşaat Universitetinin laboratoriya müdiri, 1996—1998 illərdə "Bakqaz" İstehsalat Birliyi rəisinin müavini vəzifələrində çalışmışdır. 1998 ilin aprel ayından Azərbaycan Qaz Emalı Zavodunun direktorudur.
1992 ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. YAP-ın Azərbaycan Qaz Emalı Zavodudakı təşkilatına rəhbərlik edir.
Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir (1976). MDB ölkələri arasında keçirilən müsabiqədə "İlin direktoru" adına layiq görülmüşdür (1999).
Evlidir, 4 övladı var.

Born 25 June 1947 in Nuravud village, Lerik district, Azrbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1970. Director of the Azerbaijan Gas Processing Works since 1998.
Married, has four children.



NƏBİ XƏZRİ (BABAYEV NƏBİ ƏLƏKBƏR OĞLU)
Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti Rəyasət Heyətinin sədri, xalq şairi

Nabi Khazri (Babayev Nabi Alekber oglu)
Chairman of the Prezidium of Society of Friendship and Cultural Relations of Azerbaijan with Foreign Countries, Peoples Poet

1924 il dekabrın 10-da Azərbaycan Respublikası Abşeron rayonunun Xırdalan qəsəbəsində anadan olmuşdur. Azərbaycanlıdır. 1952 ildə M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda təhsil almışdır. 1940 illərdən yaradıcılıqla məşğuldur. "Çiçəklənən arzular" adlı ilk kitabı 1950 ildə nəşr edilmişdir. Respublikanın Əməkdar incəsənət xadimi (1979), SSRİ Dövlət mükafatı laureatı (1973), Azərbaycan SSR Dövlət mükafatı laureatı (1982), Ümumittifaq Lenin komsomolu mükafatı laureatıdır (1968). 1958—1965 illərdə Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin katibi, 1965—1971 illərdə Azərbaycan SSR Televiziya və Radio Verilişləri Komitəsi sədrinin müavini, 1971—1974 illərdə Azərbaycan SSR Mədəniyyət nazirinin müavini vəzifələrində çalışmışdır. 1974 ildən Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti Rəyasət Heyətinin sədridir. ASE Elmi redaksiya şurasının (1976), SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin (1981) üzvü, Azərbaycan SSR Ali Sovetinin (IX—X çağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

Born 1924 December 10 in Khyrdalan settlement, Absheron district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the M.Gorki World Institute of Literature in 1952. Chairman of the Presidium of Society of Frienship and Cultural Relations of Azerbaijan with Foreign Countries since 1974.



NOVRUZOV YUSİF İSMİXAN OĞLU
"Azəravtoyol" Dövlət Şirkətinin prezidenti

Novruzov Yusif Ismikhan oglu
Prezident of the "Azeravtoyol" State Company

1941 il dekabrın 1-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Zəngəzur mahalı Sisian rayonunun Ağüdü kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1972 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu, 1986 ildə SSRİ Nazirlər Soveti yanında Xalq Təsərrüfatı Akademiyasını bitirmişdir. İqtisad elmləri namizədidir (1989). 1958 ildə Bakı Tara Bazasında fəhləliklə əmək fəaliyyətinə başlamışdır. 1960—1978 illərdə "Azərkitab"da şöbə müdiri, 1978—1979 illərdə Bakı Kooperativ Texnikumunda müəllim, 1979—1981 illərdə "Azərkitab"ın direktoru, 1981 ildən Azərbaycan SSR Dövlət Üzümçülük Komitəsi operativ şöbəsinin, 1981—1984 illərdə Azərbaycan SSR Meyvə-Tərəvəz Təsərrüfatı nazirinin müavini, 1986—1989 illərdə Azərbaycan SSR Dövlət Aqrosənaye Meyvə-Tərəvəz və Kartof İstehsalı və Emalı Üzrə Baş İdarə rəisinin müavini, 1990—1992 illərdə Xızı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, 1992 ildən Azərbaycan Respublikası Prezidenti yanında Ali Nəzarət İnspeksiyası Aqrar-Sənaye Şöbəsinin inspektoru, 1992—1993 illərdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı və Ərzaq nazirinin müavini, 1993—1994 illərdə "Azəravtoyol" Dövlət Şirkətinin vitse-prezidenti vəzifələrində işləmişdir. 1994 ilin noyabr ayından "Azəravtoyol" Dövlət Şirkətinin prezidentidir.
Evlidir, 6 övladı var.

Born 1941 December 1 in Agudu village, Sisian district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1972, Academy of National Economy under the Soviet of Ministers of the USSR in 1986. President of the "Azeravtoyol" State Company since 1994.
Married, has six children.



NOVRUZOV VAHİD TAPDIQ OĞLU
Azərbaycan Respublikası Auditorlar Palatasının sədri

Novruzov Vahid Tapdyg oglu
Chairman of the Chamber of Auditors, Azerbaijan Republic

1950 il yanvarın 7-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Allahverdi rayonunun Böyük Ayrım kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Dövlət Universitetini və Bakı Asiya Universitetini bitirmişdir.
Əmək fəaliyyətinə 1971 ildə Abşeron RXMŞ-da filmoteka müdiri kimi başlamışdır. 1971 ildən Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda laborant, iqtisadçı, kiçik elmi işçi, aspirant, bölmə müdiri, şöbə müdiri, 1979 ildən Əhaliyə Məişət Xidməti Nazirliyinin Layihə-Konstruktor Texnoloji İnstitutunda elmi işlər üzrə direktor müavini, 1992 ildən Milli Məclis Katibliyində Mülki hüquq və iqtisadi qanunvericilik şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1996 ildən Respublika Auditorlar Palatasının sədridir. İqtisad elmləri doktoru (1990), Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvüdür (1994).
Evlidir, 2 övladı var.

Born 7 January 1950 in B.Ayrym village, Allahverdi district, Western Azerbaijan (now Armenia). Graduated from the Azerbaijan State University. Chairman of the Chamber of Auditors of the Azerbaijan Republic.
Married, has two children.



PAŞAYEV ATAXAN ƏVƏZ OĞLU
Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin rəisi

Pashayev Atakhan Avaz oglu
Chief of the Administration of Central Archives under the Cabinet of Ministers of the Azerbaijan Republic

1938 il mayın 1-də Azərbaycan Respublikası Naxçıvan MR Culfa rayonunun Başkənd kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1963 ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.
Əmək fəaliyyətinə 1962 il iyun ayının 1-də Azərbaycan Respublikası Mərkəzi Dövlət Arixivində böyük elmi işçi kimi başlamışdır. 1963—1965 illərdə Arxiv İdarəsinin baş metodisti, 1966—1982 illərdə Respublika Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru, 1982—1984 illərdə Azərbaycan Dövlət Politexnik İnstitutunun baş müəllimi işləmişdir. 1984 ildən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin rəisidir. Tarix elmləri namizədidir (1981). 170-dən artıq elmi məqalə, sənəd və kitab nəşr etdirmişdir. 1968 ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olmuşdur.
Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisidir (1981).
Evlidir, 2 övladı var.

Born 1 May 1938 in Bashkend village, Julfa district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1963. Chief of the Administration of Central Archies since 1984.
Married, has two children.



SALMANOV SÖHRAB MƏHƏMMƏD OĞLU
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Salmanov Sohrab Mahammad oglu
Vice-Prezident of the State Oil Company of the Azerbaijan Republic

1941 il dekabrın 31-də Azərbaycan Respublikası Qazax rayonunun Ağköynək kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1964 ildə Dəniz Donanması Mühəndislər İnstitutunun Bakı filialını bitirmişdir. Mühəndisdir.
Əmək fəaliyyətinə 1958 ildə Bakı Gəmi Təmiri Zavodunda fəhləliklə başlamışdır. 1962 ildən Neft Sənayesi Nazirliyi Gəmi Təmiri Zavodunda usta, sex rəisinin müavini, sex rəisi, plan-istehsalat şöbəsi rəisinin müavini, rəisi, baş mühəndis, 1970 ildən Gəmi Təmiri Zavodunun direktoru, 1980 ildən "Xəzərdənizneftqaz" İstehsalat Birliyi baş direktorunun müavini, 1989 ildən Bakı Şəhər İcraiyyə Komitəsi sədrinin müavini, Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini vəzifələrində çalışmışdır. 1992 ilin oktyabr ayından Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidentidir.
İki medal (1970, 1971) və Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanı (1975) ilə təltif edilmiş, "Azərbaycan Neft və Qaz Sənayesinin Əməkdar işçisi" fəxri adına (1989) layiq görülmüşdür. Bakı Şəhər Sovetinə deputat seçilmişdir.
Evlidir, 2 övladı var.

Born 31 December 1941 in Agkoynek village, Gazakh district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku Branch of the Odessa Marine Institute of Engineers in 1964. Vice-Prezident of the State Oil Company of the Azerbaijan Republic since 1992.
Married, has two children.



SEYİDOV ZAKİR CƏLAL OĞLU
"Azərneftyanacaq" İstehsalat Birliyinin baş direktoru

Seyidov Zakir Jalal oglu
Director General of the "Azerneftyanajag" Production Union

1954 il avqustun 16-da Gürcüstan Respublikası Marneuli rayonunun Qaçaqan kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1976 ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu (indiki Azərbaycan Dövlət Neft Akademiyası) bitirmişdir. Mühəndis-kimyaçıdır.
Əmək fəaliyyətinə 1976 ildə başlamış, 1979 ilin may ayına qədər Yeni Bakı Neftayırma Zavodunda (indiki "Azərneftyanacaq" İstehsalat Birliyi) texnoloji qurğunun operatoru, qazdan xilasetmə dəstəsi-bölmə komandirinin müavini, qurğu rəisi vəzifələrində çalışmışdır. Elmi fəaliyyəti nəzərə alınaraq 1979 ilin may ayından Ümumittifaq Elmi-Tədqiqat Qaz Layihəsi İnstitutuna işə qəbul edilmiş, 1983 ilin dekabr ayına qədər burada təbii qazın hazırlanması, emalı və nəql edilməsi məsələləri üzrə qrup rəhbəri işləmişdir. 1983 ilin dekabr ayında yenidən doğma zavoda qayıdaraq əmək fəaliyyəti və elmi axtarışlarını davam etdirmişdir. Azərbaycan EA Y.Məmmədəliyev adına Neft və Kimya Prosesləri İnstitutu Elmi Şurasının qərarı ilə ona texniki elmlər namizədi adı verilmişdir (1990). 1983—1988 illərdə Yeni Bakı Neftayırma Zavodunda baş mühəndisin müavini-istehsalat şöbəsinin rəisi, 1988—1991 illərdə keyfiyyət məsələləri üzrə baş direktorun müavini-texniki nəzarət şöbəsinin rəisi, 1991—1992 illərdə istehsalat işləri üzrə baş direktorun müavini, 1992—1994 illərdə baş mühəndis vəzifələrində çalışmışdır. 1994 ilin fevral ayından "Azərneftyanacaq" İstehsalat Birliyinin baş direktorudur.
Neft emalı sahəsində 5 müəlliflik şəhadətnaməsi, 10 ixtira, 50 səmərələşdirici təklif, 7 kitab və elmi məqalələrin müəllifidir. Beynəlxalq Ekoenergetika Akademiyasının doktorudur.
Beynəlxalq konfrans və seminarlarda elmi məruzələrlə çıxış etmişdir.
Evlidir, 3 övladı var.

Born 1954 August 16 in Gachagan village, Marneuli district, Georgian Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1976. Director General of the "Azerneftyanajag" Production Union since 1994.
Married, has three children.



SÜLEYMANOV ASLAN QURBAN OĞLU
"Azərsutikinti" Səhmdar Cəmiyyətinin sədri

Suleymanov Aslan Gurban oglu
Chairman of the "Azersutikinti" Stock Company

1939 il oktyabrın 26-da Azərbaycan Respublikası Xaçmaz rayonunun Qaradağlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1961 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu fərqlənmə diplomu ilə, 1983 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir.
Əmək fəaliyyətinə 1961 ildə Xaçmaz rayonunda başlamış, Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutu Qusarçay Zona Təcrübə Stansiyasında çalışmışdır. 1965 ildən Xaçmaz Rayon Komsomol Komitəsinin birinci katibi, 1970 ildən Xaçmaz Rayon İcraiyyə Komitəsi sədrinin müavini, Kənd Təsərrüfatı İdarəsinin rəisi, 1974 ildən Bağçılıq və Subtropik Bitkilər İnstitutunda elmi işçi, 1975—1976 illərdə Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda aspirant, 1976 ildən Xaçmaz Rayon Aqrar-Sənaye Birliyinin rəisi, 1977 ildən Xaçmaz Rayon XDS İcraiyyə Komitəsinin sədri, 1980 ildən Azərbaycan KP MK-da inspektor, 1980—1985 illərdə Qazax, 1985—1989 illərdə Neftçala, 1989—1990 illərdə Xaçmaz rayon Partiya Komitəsinin birinci katibi, 1990—1995 illərdə Xaçmaz Rayon Sovetinin sədri, 1995 ilin fevral ayından "Azərsutikinti" Dövlət Konserninin sədri vəzifələrində işləmişdir. 1999 ilin aprel ayından "Azərsutikinti" Səhmdar Cəmiyyətinin sədridir. "Qırmızı Əmək Bayrağı" ordeni ilə (1978) və bir medalla təltif edilmişdir. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir.
Evlidir, 2 övladı var.

Born 1939 October 26 in Garadagly village, Khachmaz district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1961. Chairman of the "Azersutikinti" Stock Company since 1995.
Married, has two children.



ŞAHMƏMMƏDOV ŞAMİL MƏMMƏD OĞLU
Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinin-AzərTAC-ın baş direktoru


Shahmemmedov Shamil Memmed oglu
Director General of the State Telegraph Agency under the Cabinet of Ministers, Azerbaijan Republic

1935 il avqustun 7-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1953—1959 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür (1960).
Əmək fəaliyyətinə "Bakı" axşam qəzetində ədəbi işçi kimi başlamışdır. 1962 ildən qəzetin şəhər xəbərləri və idman şöbəsinin müdiri, 1964 ildən "Bakı" qəzetinin məsul katibi, 1982 ildən "Bakı" qəzeti, 1986 ildən "Kommunist" qəzetinin redaktor müavini, 1987 ildən "Bakı" və "Baku" axşam qəzetlərinin redaktoru, 1990 ildən Azərinform (indiki AzərTAC) baş direktorunun müavini vəzifələrində işləmişdir. Hazırda AzərTAC-ın baş direktorudur. Jurnalistlər Birliyinin "Qızıl Qələm" (1981) mükafatı laureatıdır.
Evlidir, 3 övladı var.

Born 7 August 1935 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1959. Director General of the Azerbaijan State Telegraph Agency since 1990.
Married, has three children.

1925 il fevralın 27-də Azərbaycan Respublikası Qazax rayonunun Dağ Kəsəmən kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1951 ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir. 1943—1945 illərdə müharibə iştirakçısı olmuşdur.
Əmək fəaliyyətinə 1951 ildə Qroznı Yeni Neftayırma Zavodunda mühəndis kimi başlamış və 1956 ilədək həmin vəzifədə çalışmışdır. 1956 ildən Sumqayıt Sintetik Kauçuk Zavodunda sex rəisi, baş mühəndisin müavini, 1961 ildən Xalq təsərrüfatı Şurası kimya idarəsinin şöbə müdiri, 1963 ildən Azərbaycan KP MK kimya və neft sənayesi şöbəsi müdirinin müavini, 1963 ildən Sov.İKP Zaqafqaziya Bürosu üzrə inspektor, 1964 ildən Azərbaycan KP MK kimya və neft şöbəsi müdirinin müavini, 1965 ildən Azərbaycan SSR Nazirlər Soveti Kimya Sənayesi İdarəsinin rəisi, 1970 ildən Azərbaycan SSR Nazirlər Soveti İşlər İdarəsinin müdiri, 1978 ildən Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, 1985 ildən Azərbaycan SSR Rəyasət Heyətinin sədri, 1991 ildən "Nur" Xarici İqtisadi Assosiasiyasının prezidenti vəzifələrində işləmişdir.
1994 ildən Azərbaycan Respublikası Ticarət-Sənaye Palatasının prezidentidir.
Evlidir, 3 övladı var.

Born 27 Fevruary 1925 in Dag Kesemen village, Gazakh district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1951. Prezident of the Trade-Industry Chamber of the Azerbaijan Republic since 1994.
Married, has three children.




TATLIYEV SÜLEYMAN BAYRAM OĞLU
Azərbaycan Respublikası Ticarət-Sənaye Palatasının prezidenti

Tatliyev Suleyman Bayram oglu
Prezident of the Trade-Industry Chamber of the Azerbaijan Republic

1947 il aprelin 22-də Azərbaycan Respublikası Naxçıvan MR-in Ordubad şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1967—1973 illərdə Azərbaycan Dövlət Politexnik İnstitutunun mexanika fakültəsinin axşam şöbəsində təhsil almışdır.
Əmək fəaliyyətinə 1968 ildən Bakı Zərif Mahud Kombinatında fəhləliklə başlamışdır. 1969 ildən Bakı Sərnişinnəqliyyat İdarəsi sistemində fəhlə, nəzarətçi, dispetçer, 1975 ildən Bakı Minik Avtomobillərinə Texniki Xidmət Stansiyasında çilingər, usta, sahə ustası işləmişdir. Yerli Sənaye Nazirliyi sistemində mühəndis, Dövlət Yanacaq Komitəsi sədrinin birinci müavini vəzifələrində çalışmışdır.
1997 ilin sentyabrından "Azərnefttəchizat" Birliyinin Baş direktorudur.
Yeni Azərbaycan Partiyasının yaradıcılarından və təşkilatçılarından biridir.
Evlidir, 2 övladı var.

Born 22 April 1947 in Ordubad, Nakhchivan AR, Azerbaijanian Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1973. Director General of the "Azernefttejhizat" Amalgamation since 1997.
Married, has two children.



VAHABOV RİZVAN ƏKBƏR OĞLU
"Azərnefttəchizat" Birliyinin baş direktoru

Vahabov Rizvan Akber oglu
Director General of the "Azernefttejhizat" Amalgamation



VƏLİYEV AĞALAR İSRAFİL OĞLU
"Azəraqrartikinti" Açıq Tipli Səhmdar Cəmiyyətinin prezidenti

Veliyev Agalar Israfil oglu
Prezident of the "Azeragrartikinti" Open-End Stock Company

1957 il iyulun 23-də Azərbaycan Respublikasının Yevlax şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1976 ildə Mingəçevir Politexnik Texnikumunu, 1989 ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə 1976 ildə Yevlax Dəmir-Beton Məmulatları Zavodunda fəhləliklə başlamışdır. 1978—1991 illərdə Yevlax Dəmir-Beton Məmulatları Zavodunda texnik-laborant, laboratoriya mühəndisi, şöbə rəisi, baş mühəndis və direktor, 1991—1993 illərdə Yevlax Körpü Tikinti Kombinatının Baş direktoru, Yevlax 2 saylı Yol Təmir-Tikinti Trestinin rəisi vəzifələrində işləmişdir. 1996 ildən "Azəraqrartikinti" Dövlət Şirkətinin prezidenti, 1998 ildən isə "Azəraqrartikinti" Açıq Tipli Səhmdar Cəmiyyətinin prezidentidir. Lorsvari batan qrupların üzərində tikilən bina və qurğuların bünövlərinin uzunmüddətli möhkəmləndirilməsi problemi üzrə elmi-tədqiqat işi aparır. Həmin problemə həsr olunmuş elmi əsərləri ölkəmizdə və xaricdə çap olunmuşdur. Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir, 1 övladı var.

Born 23 July 1957 in Yevlakh, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Civil Engineering Institute in 1989. Prezident of the "Azeragrartikinti" Open-End Stock Company since 1996.
Married, has one child.



YUSİFZADƏ XOŞBƏXT BAĞI OĞLU
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Yusifzade Khoshbakht Bagy oglu
Vice-Prezident of the State Oil Company of the Azerbaijan Republic

1930 il yanvarın 14-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1952 ildə Azərbaycan Sənaye İnstitutunu bitirmişdir. Mühəndis-geoloqdur.
1952 ildən "Neft daşları" NQÇİ-də geoloq, baş geoloq, 1970 ildən Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyində baş direktorun müavini, eyni zamanda baş geoloq vəzifələrində işləmişdir. 1994 ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidentidir.
Geologiya-mineralogiya elmləri doktorudur (1987). 127 elmi əsərin, o cümlədən 8 monoqrafiyanın, 4 ixtiranın müəllifidir. İki "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri, Azərbaycan Respublikasının Dövlət mükafatları (1982, 1991), medallar və fəxri fərmanlarla təltif edilmiş, "SSRİ-nin fəxri neftçisi", "Yer təkinin fəxri kəşfiyyatçısı" adlarına layiq görülmüşdür. Azərbaycan Respublikasının Əməkdar mühəndisidir. Beynəlxalq Şərq Neft Akademiyasının akademiki və birinci vitse-prezidenti, Rusiya Beynəlxalq Mühəndislər Akademiyasının müxbir üzvüdür.
Evlidir, 2 övladı var.

Born 14 January 1930 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Industrial Institute in 1952. Vice-Prezident of the State Oil Company of the Azerbaijan Republic since 1994.
Married, has two children.



ZEYNALOV ƏHMƏD ƏBDÜLMANAF OĞLU
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Zeynalov Ahmad Abdulmanaf oglu
Vice-Prezident of the State Oil Company of the Azerbaijan Republic

1935 il aprelin 22-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1958 ildə Azərbaycan Politexnik İnstitutunun sənaye və mülki tikinti fakültəsini bitirmişdir. Mühəndisdir.
Əmək fəaliyyətinə 1958 ildə Dəmir-Beton Zavodunda fəhləliklə başlamışdır. 1959 ildən Dəniz Neft Tikintisi Trestinin müəssisələrində usta, sahə rəisi, tikinti idarəsinin rəisi, 1971 ildən həmin trestin baş mühəndisi, müdiri, 1980 ildən "Xəzərdənizneftsənaye" Birliyi baş direktorunun müavini, 1988 ildən "Xəzərdənizneftqaz" İstehsalat Birliyi baş direktorunun müavini vəzifələrində çalışmışdır. 1992 ilin oktaybr ayından Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidentidir.
"Şərəf nişanı" (1971), "Xalqlar dostluğu" (1980) ordenləri, bir medal və respublika Ali Sovetinin Fəxri fərmanları (1975, 1985) ilə təltif edilmişdir. "Qaz sənayesinin fəxri işçisi" (1982), Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır (1991).
Evlidir, 1 övladı var.

Born 22 April 1935 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1958. Vice-Prezident of the State Oil Company of the Azerbaijan Republic since 1992.
Married, has one child.

İCRA HAKİMİYYƏTLƏRİ



ABBASOV XEYRULLA ŞAHBAZ OĞLU
Naxçıvan MR Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı

Abbasov Kheyrulla Shahbaz oglu
Head of Executive Power of Shahbuz district, Nakhchivan AR.

1949 ildə Azərbaycanda Naxçıvan MR Şahbuz rayonunun Mahmudoba kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1967—1971 illərdə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunun filologiya fakultəsində təhsil almışdır.
1971 ildən "Qabaqcıl" qəzeti redaksiyasında ədəbi işçi, 1975 ildən şöbə müdiri, 1980 ildən Şahbuz rayon Partiya Komitəsində təlimatçı, 1985 ildən təşkilat şöbəsinin müdiri, 1987 ildən Şahbuz Rayon Partiya Komitəsinin ikinci katibi, 1988 ildən Şahbuz Rayon XDS İcraiyyə Komitəsinin sədri, 1989 ildən Şahbuz Rayon Partiya Komitəsinin I katibi, 1990 ildən Şahbuz Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri vəzifələrində işləmişdir. 1996 ilin iyun ayından Şahbuz Rayon İcra Hakimiyyətinin başçısıdır.
Evlidir, 3 övladı var.

Born 1949 in village Mahmudoba, Shahbuz district Nakhchivan AR. Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Y.Memmedaliyev Nakhchivan State Pedagogical Institute in 1971. Head of Executive Power of Shahbuz district since 1996.
Married, has three children.



ABUTALIBOV HACIBALA İBRAHİM OĞLU
Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Abutalybov Hajibala Ibrahim oglu
Head of Executive Power of Baku City

1944 il mayın 13-də Krasnovodsk şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1960—1965 illərdə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsində təhsil almışdır.
1965 ildən Ordubad Şəhər Orta Məktəbində müəllim, RXTŞ-də baş metodist, 1968 ildən Azərbaycan Elmlər Akademiyası Fizika İnstitutunda elmi işçi, 1989 ildən Azərbaycan EA Fizika İnstitutu "Yarımkeçiricilərin kvant elektronikası" laboratoriyasının müdiri, 1995 ildən Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı, 2000 ildən Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifələrində işləmişdir. 2001 ildən Bakı Şəhər İcra Hakimiyyətinin başçısıdır.
Fizika-riyaziyyat elmləri doktorudur (1977). 20-dən çox ixtiranın müəllifidir.
Evlidir, 2 övladı var.

Born 1944 May 13 in Krasnovodsk. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1965. Head of Executive Power of Baku City since 2001.
Married, has two children.



AĞAYEV ARİF EYYUB OĞLU
Samux Rayon İcra Hakimiyyətinin başçısı

Agayev Arif Eyyub oglu
Head, of the Executive Power of Samukh district

1947 il dekabrın 16-da Azarbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azarbaycanlıdır. 1974 ildə Fərqanə Politexnik İnstitutunu bitirmişdir.
1975 ildən Fərqanə şəhərində fəhlə, usta, iş icraçısı, sahə rəisi, 1978 ildən Şəmkir Su-Elektrik Stansiyası Tikinti Quraşdırma İdarəsində, 1980 ildən Mingəçevir DRES Tikinti İdarəsində, 1983 ildən Şəmkir SES Tikinti İdarəsində rəis, 1990 ildən "Gəncəmənziltikinti" Layihə Sənaye Tikinti Birliyinin rəisi vəzifələrində işləmişdir. 1995 ilin iyunundan Samux Rayon İcra Hakimiyyətinin başçısıdır.
Evlidir, 2 övladı var.

Born 16 December 1947 in Ganja, Azerbaijan Republic, Azerbaijanian. Graduated from the Fergana Polytechnical Institute in 1974, Uzbekistan . Head of the Executive Power of Samukh district since 1995.
Married, has two children.



AĞAYEV ƏBÜLFƏZ YUSİF OĞLU
Neftçala Rayon İcra Hakimiyyətinin başçısı

Agayev Abulfaz Yusif oglu
Head of Executive Power of Neftchala district

1957 il oktyabrın 18-də Azərbaycan Respublikası Neftçala rayonunun Xolqarabucaq kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1980 ildə Moskva Kənd Təsərrüfatı İstehsalı və Mühəndisləri İnstitutunu, 1990 ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir. İqtisadçı-mühəndis və politoloqdur.
Əmək fəaliyyətinə 1974 ildə Xolqarabucaq kəndindəki N.Nərimanov adına kolxozda təmirçi-çilingər kimi başlamışdır. 1980 ildən 151 saylı Neftçala Texniki-Peşə Məktəbində müəllim, kolxozda və rayon Aqrar-Sənaye Birliyində baş mühəndis, 1984 ildən Neftçala Rayon Komsomol Komitəsinin birinci katibi, 1987 ildən rayon İcraiyyə Komitəsi sədrinin birinci müavini, Aqrar-Sənaye Birliyinin rəisi, 1989 ildən rayon Aqrar-Sənaye Kombinatının baş direktoru, rayon İcra Hakimiyyəti başçısının müavini, Kənd Təsərrüfatı və Ərzaq İdarəsinin rəisi, 1995 ildən Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda baş elmi işçi. 2000 ildən Neftçala Rayon Bələdiyyəsinin sədri vəzifələrində işləmişdir. 2000 ilin iyul ayından Neftçala Rayon İcra Hakimiyyətinin başçısıdır.
1988 ildə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin Qızıl medalına layiq görülmüşdür.
İqtisad elmləri namizədidir (1996).
Evlidir, 1 övladı var.

Born 18 October 1957 in Kholgarabujag village, Neftchala district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Moscow Agricultural Institute in 1980. Head of Executive Power of Neftchala district since 2000.
Married, has one child.



ALLAHVERDİYEV ELMAN FƏRMAN OĞLU
Bərdə Rayon İcra Hakimiyyətinin başçısı

Allahverdiyev Elman Farman oglu
Head of the Executive Power of Barda district

1958 il martın 16-da Azərbaycan Respublikasının Tərtər rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1980 ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə Bərdə şəhərindəki 32 saylı Tikinti-Quraşdırma İdarəsində betonçu kimi başlamışdır. 1982 ildən Bərdə 1 saylı Su Tikinti İdarəsində usta, istehsalat-plan şöbəsində mühəndis, idarə rəisinin müavini, baş mühəndis, 1988 ildən "Başmeliorasiyasutikinti" idarəsində material texniki təchizat sahəsinin rəisi, 9 saylı Bərdə Dəmir-Beton Məmulatları Zavodunda direktor, 1994 ildən Tərtər Rayon İcra Hakimiyyətinin başçısı olmuşdur. 1996 ilin avqust ayından Bərdə Rayon İcra Hakimiyyətinin başçısıdır.
Evlidir, 3 övladı var.

Born 16 March 1958 in Terter district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan Civil Engineering Institute in 1980. Head of Executive Power of Barda district.
Married, has three children.



ASLANOV ASLAN ƏLİ OĞLU
Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı

Aslanov Aslan Ali oglu
Head of the Executive Power of Shamkir district

1961 il yanvarın 1-də Azərbaycan Respublikasının Şəmkir rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1978—1982 illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda təhsil almışdır.
1982 ildən Şəmkir rayonunun təsərrüfatlarında müxtəlif vəzifələrdə çalışmışdır. 1986 ildən Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda kiçik elmi işçi, elmi işçi, baş laborant, assistent, baş müəllim, dosent işləmişdir. 1993 ilin avqust ayından Şəmkir Rayon İcra Hakimiyyətinin başçısıdır.
Biologiya elmləri namizədidir. 50-yə qədər elmi məqaləsi nəşr olunmuşdur. Hacı Zeynalabdin Tağıyev mükafatı laureatıdır. 1992 ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. YAP Siyasi Şurasının üzvüdür. Gürcüstan Yazıçılar Birliyinin fəxri üzvüdür.
Evlidir, 3 övladı var.

Born 1 January 1961 in village III Beynelmilel Shamkir district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the S.Agamalyoglu Azerbaijan State Agricultural Institute in 1982. Head of Executive Power of Shamkir district since 1993.
Married, has three children.



BABAYEV EYVAZ İLYAS OĞLU
Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı

Babayev Eyvaz Ilyas oglu
Head of the Executive Power of Ganja City

1947 il iyunun 20-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1970 ildə İ.M.Qubkin adına Moskva Neft-Kimya və Qaz Sənayesi İnstitutunu bitirmişdir. Mühəndis-texnoloqdur. Texnika elmləri namizədidir (1988).
Əmək fəaliyyətinə 1971 ildə Gəncə Çini Qablar Zavodunda başlamışdır. 1971—1994 illərdə həmin zavodda mühəndis-texnoloq, şöbə rəisi, baş mühəndis, direktor, 1994—1996 illərdə Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini, 1996—2000 illərdə Gəncə Çini Qablar Zavodunun direktoru vəzifələrində işləmişdir. 2000 ilin iyul ayından Gəncə Şəhər İcra Hakimiyyətinin başçısıdır.
"Şərəf nişanı" ordeni (1986) və başqa mükafatlara layiq görülmüşdür.
Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir, 3 övladı var.

Born 1947 June 20 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the I.M.Gubkin Moscow Institute of Oil-Chemistry and Gas Industry in 1970. Head of Executive Power of Ganja City since 2000.
Married, has three children.



BABAYEV ƏLİ BƏDİR OĞLU
Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı

Babayev Ali Badir oglu
Head of the Executive Power of Bilasuvar district

1957 il iyulun 1-də Azərbaycan Respublikasının Biləsuvar şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1973—1978 illərdə Azərbaycan Dövlət Politexnik İnstitutunda təhsil almışdır. İxtisasca mühəndis-mexanikdir.
Əmək fəaliyyətinə Biləsuvar rayonundakı 19 saylı Səyyar Mexanikləşdirilmiş Dəstədə çilingər kimi başlamışdır. Sonra burada mühəndis, 1981 ildən rayon Komsomol Komitəsində şöbə müdiri, katib, rayon Partiya Komitəsində təlimatçı, "Türkmənistan" və S.Vurğun adına kolxozlarda sədr, 1990 ildən rayon İcra Hakimiyyəti başçısının müavini, "Şəfəq" kolxozunda sədr vəzifələrində işləmişdir. 1994 ilin iyun ayından rayon İcra Hakimiyyətinin başçısıdır.
Evlidir, 4 övladı var.

Born 1 July 1957 in Bilasuvar, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1978. Head of Executive Power of Bilasuvar district since 1990.
Married, has three children.

1951 ildə Azərbaycan Respublikasının Əli Bayramlı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu, 1993 ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə 1968 ildə 2 saylı TQİ-də fəhləliklə başlamışdır. 1978 ildən Yağ-Piy Kombinatında əmtəəşünas, 1979 ildən 8 saylı SMD-də emalatxana müdiri, 1982 ildən ATP-7-də avtomobil dəstəsinin rəisi, "Bakı" Kolxozu Partiya Komitəsinin katibi, 1983 ildən Nizami adına kolxozun sədri, 1989 ildən Sabirabad Rayon Aqrokombinatının baş direktoru, 1992 ildən Həşimxanlı Pambıq Qəbulu Məntəqəsinin müdiri, 1993 ildən "Təbriz" kolxozunun sədri, 1998 ildən Hacıqabul Rayon Aqrar-Sənaye Kombinatının baş direktoru, 1999 ildən rayon İcra Hakimiyyəti aparatında təlimatçı, İcra Hakimiyyəti başçısının müavini vəzifələrində işləmişdir. 2000 ilin dekabr ayından Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısıdır.
Evlidir, 2 övladı var.

Born 1951 Ali Bayramly, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1973. Head of Executive Power of Hajigabul district
Married, has two children.



BABAYEV FİRUDİN ƏLİ OĞLU
Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı

Babayev Firudin Ali oglu
Head of the Executive Power of Hajigabul district

1946 il dekabrın 28-də Azərbaycan Respublikası Dəvəçi rayonunun Pirəbədil kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə müəllim kimi başlamışdır. 1965 ildən Pirəbədil kənd orta məktəbində müəllim, 1970 ildən Azərbaycan LKGİ Dəvəçi Rayon Komitəsində katib, rayon Partiya Komitəsi siyasi maarif kabinetinin müdiri, rayon Partiya Komitəsinin katibi, 1990 ildən rayon XDS İcraiyyə Komitəsinin katibi, 1992 ildən rayon İcra Hakimiyyətində şöbə müdiri, Dəvəçi Rayon Uşaq Yaradıcılıq Mərkəzinin direktoru vəzifələrində işləmişdir. 1995 ilin avqustundan Dəvəçi Rayon İcra Hakimiyyətinin başçısıdır.
Ailəlidir, 2 övladı var.

Born 28 December 1946 in Pirabadil village, Devechi district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1971. Head of the Executive Power of Devechi district since 1995.
Married, has two children.



BABAYEVA SÜNDÜZ HACIMİRZƏ QIZI
Dəvəçi Rayon İcra Hakimiyyətinin başçısı

Babayeva Sunduz Hajymirza Gyzy
Head of the Executive Power of Devechi district



BAĞIROV HƏMİD FİRUDİN OĞLU
Tovuz Rayon İcra Hakimiyyətinin başçısı

BAGYROV HAMID FIRUDIN OGLU
Head of the Executive Power of Tovuz district

1949 il avqustun 25-də Azərbaycan Respublikası Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1970 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. İqtisadçıdır.
1970 ildən Tovuz Rayon Dövlət Bankında inspektor, kredit-plan şöbəsinin rəisi, Dövlət Bankı Tovuz Rayon şöbəsinin müvəkkili, 1975 ildən Dövlət Bankı Tovuz Rayon şöbəsinin müdiri, 1978 ildən Dövlət Bankı Şəmkir Rayon şöbəsinin müdiri, 1992 ildən Aqrar-Sənaye Bankı Tovuz Rayon şöbəsinin müdiri, 1998 ildən Tovuz Zona Bankının müdiri, 1999 ildən Azərbaycan Respublikası Maliyyə Nazirliyində idarə rəisi vəzifələrində işləmişdir. 1999 ilin iyun ayından Tovuz Rayon İcra Hakimiyyətinin başçısıdır.
İqtisad elmləri namizədir (1981). 25 elmi məqalənin müəllifidir.
Keçmiş SSRİ Dövlət Bankı əlaçısı, H.Z. Tağıyev mükafatı laureatıdır.
Evlidir, 2 övladı var.

Born 1949 August 25 in Duz Gyrygly village, Tovuz district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1970. Head of the Executive Power of Tovuz district since 1999.
Married, has two children.




BAĞIROV TOFİQ SAHİB OĞLU
Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı

Bagyrov Tofig Sahib oglu
Head of the Executive Power of Jalilabad district

1951 il yanvarın 10-da Azərbaycan Respublikasının Cəlilabad şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu , 1984 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir.
Əmək fəaliyyətinə Cəlilabad şəhər 1 saylı orta məktəbində müəllim kimi başlamışdır. 1971—1980 illərdə müəllim, direktor müavini, rayon xalq təhsili şöbəsində inspektor, 1980—1993 illərdə Cəlilabad Rayon Partiya Komitəsində təlimatçı, şöbə müdiri, rayon XDS İcraiyyə Komitəsi sədrinin müavini, sədri, rayon İcra Hakimiyyətinin başçısı, Azərbaycan Respublikası Nazirlər Kabinetində şöbə müdirinin müavini vəzifələrində işləmişdir. 1993 ilin avqust ayından Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısıdır. Azərbaycan Respublikasının xalq deputatı olmuşdur.

Born 10 January 1951 in Jalilabad, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1971; Baku Higher Party School in 1984. Head of the Executive Power of Jalilabad district since 1993.



BƏHMƏNOV NİZAMİ KEYKAVUS OĞLU
Şuşa Rayon İcra Hakimiyyətinin başçısı

Bahmanov Nizami Keykavus oglu
Head of the Executive Power of Shusha district

1948 il aprelin 4-də Azərbaycan Respublikasının Şuşa şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1970 ildə Azərbaycan Dövlət Politexnik İnstitutunu bitirmişdir. İxtisasca hidrotexnika mühəndisidir.
Əmək fəaliyyətinə 92 saylı Şuşa Tikinti İdarəsində fəhlə kimi başlamışdır. 1970 ildən fəhlə, usta, iş icraçısı, baş mühəndis, 1979 ildən Şuşa Təmir-Tikinti İdarəsinin rəisi, 1981 ildən 92 saylı Şuşa Tikinti İdarəsinin rəisi, 1989 ildən Yuxarı Qarabağ Layihə Sənaye-Tikinti Birliyinin müdiri vəzifələrində çalışmışdır. 1992 ilin aprel ayından Şuşa Rayon İcra Hakimiyyətinin başçısıdır.

Born 4 April 1948 in Shusha, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in1970. Head of the Executive Power of Shusha district since 1992.



CABBAROV FAXRƏDDİN HÜMBƏT OĞLU
Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı

Jabbarov Fakhraddin Humbat oglu
Head of the Executive Power of Dashkesan district

1953 ildə Azərbaycan Respublikası Daşkəsən rayonunun Dəstəfur kəndində anadan olmuşdur. Azərbaycanlıdır.
1973 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun əmtəəşünaslıq fakültəsini bitirmişdir. 1974—1994 illərdə Daşkəsən Şəhər Qarışıq Mallar Ticarəti İdarəsində şöbə müdiri, direktor müavini, Azərbaycan Filizsaflaşdırma Kombinatında iqtisadsı, Daşkəsən Rayon Auditor Mərkəzində iqtisadçı-ekspert, 1994—2000 illərdə Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının müavini vəzifələrində işləmişdir. 2000 ilin may ayından Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısıdır.
YAP Daşkəsən rayon təşkilatının sədridir. Partiyanın I qurultayında YAP Siyasi Şurasının üzvü seçilmişdir.
Evlidir, 2 övladı var.

Born 1953 in Dastafur village, Dashkesan district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1973. Head of the Executive Power of Dashkesan district since 2000.
Married, has two children.



CABBAROV MURADXAN MAHMUD OĞLU
Laçın Rayon İcra Hakimiyyətinin başçısı

Jabbarov Muradkhan Mahmud oglu
Head of the Executive Power of Lachyn district

1926 il mayın 5-də Azərbaycan Respublikası Laçın rayonunun Kərəviz kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1955—1959 illərdə Bakı Ali Partiya Məktəbində, 1961—1967 illərdə Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunda təhsil almışdır.
Əmək fəaliyyətinə 1944 ildə Kərəviz kəndində başlamışdır. 1950 ildən Azərbaycan LKGİ Laçın Rayon Komitəsinin şöbə müdiri, ikinci katibi, birinci katibi, 1959 ildən Laçın Rayon Partiya Komitəsinin ikinci katibi, Rayon XDS İK-ın sədri, 1962 ildən Azərbaycan KP Laçın və Zəngilan Rayon Partya Komitələrinin birinci katibi, 1988—1990 illərdə Laçın Şəhər XDS İK-ın sədri vəzifələrində işləmişdir. Hazırda Laçın Rayon İcra Hakimiyyətinin başçısıdır.
Kənd təsərrüfatına həsr edilmiş bir sıra elmi məqalələrin müəllifidir. 1963—1988 illərdə VI, VII, VIII, IX, X çağırış Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. Qırmızı Əmək Bayrağı, "Oktyabr inqilabı", "Xalqlar dostluğu" ordenləri və medallarla təltif edilmişdir.
Evlidir, 3 övladı var.

Born 5 May 1926 in Kereviz village, Lachyn district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku Higher Rarty School in 1959; Azerbaijan State Agricultural Institute in 1967. Head of the Executive Power of Lachyn district.
Married, has three children.



CƏBİYEV AYDIN MİRZƏ OĞLU
Astara Rayon İcra Hakimiyyətinin başçısı

Jebiyev Aydin Mirza oglu
Head of the Executive Power of Astara district

1950 il iyunun 1-də Azərbaycan Respublikası Astara rayonunun Hamuşam kəndində anadan olmuşdur. 1978 ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirmişdir. 1977 ildən Hamuşam Kənd Orta Məktəbində müəllim, 1982 ildən Rusiya Federasiyası Kaliningrad Vilayəti Quryev rayonundakı "Rusiya" kolxoz kökəltmə birliyinin rəisi, "Matrosov" kolxozunda istehsalat şöbəsinin rəisi, 1985 ildən Hamuşam Kənd Orta Məktəbində müəllim, 1990 ildən M.Cəbiyev adına sovxozun direktoru, 1992 ildən "Dinar" Kiçik Müəssisəsinin direktoru, 1993 ildən Şüvi Suptropik sovxozunun direktoru, 1997 ildən Dövlət Əmək Müfəttişliyinin rəisi, 1998 ildən Astara Rayon İcra Hakimiyyəti başçısının müavini, birinci müavini vəzifələrində işləmişdir. 2001 ilin aprel ayından Astara Rayon İcra Hakimiyyətinin başçısıdır.
Yeni Azərbaycan Partiyası Astara Rayon Təşkilatının sədridir (1993).
Evlidir, 4 övladı var.

Born 1950 June 1 in Hamusham village, Astara district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1978. Head of the Executive Power of Astara district since 2001.
Married, has four children.

1955 ildə Azərbaycan Respublikası Masallı rayonunun Pircana kəndində anadan olmuşdur. 1976 ildə Azərbaycan Pedaqoji İnstitutunun fizika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.
1976 ildən Masallı rayonunda müəllim, məktəb direktorunun müavini, məktəb direktoru, rayon Təhsil Şöbəsinin metodisti, inspektoru, rayon İcra Hakimiyyəti başçısının Masallı şəhəri üzrə nümayəndəsi, 1993 ildən rayon Təhsil Şöbəsinin müdiri vəzifələrində işləmişdir. Hazırda Masallı Rayon İcra Hakimiyyətinin başçısıdır.
Azərbaycan Uşaq Fondu Masallı Rayon Şöbəsi və Azərbaycan Ziyalılar Cəmiyyəti Masallı Rayon Şöbəsinin sədridir. Pedaqoji elmlər namizədidir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir (1976).
Evlidir, 3 övladı var.

Born 1955 in Pirjana village, Masally district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1976. Head of the Executive Power of Masally district at present.
Married, has three children.



ƏHƏDOV ŞİRƏLİ AĞƏLİ OĞLU
Masallı Rayon İcra Hakimiyyətinin başçısı

Ahadov Shirali Agali oglu
Head of the Executive Power of Masally district

1955 il iyunun 20-də Azərbaycan Respublikası Saatlı rayonunun Qaracalar kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1979 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. İxtisasca fizikdir.
Əmək fəaliyyətinə 1979 ildə Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutunda analitik kimi başlamışdır. Sonra həmin institutun aspiranturasında təhsil almışdır. 1982 ildən kiçik və baş elmi işçi, 1989 ildən Abşeron rayonundakı Məmmədli Südçülük-Tərəvəzçilik Aqrar-İstehsalat Birliyində baş aqronom, Aqrar-Sənaye Kombinatında aparıcı aqronom, 1992 ildən "Qaracalar" kiçik müəssisəsində direktor müavini, Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutunda elmi işçi vəzifələrində çalışmışdır. 1993 ilin avqustundan Saatlı Rayon İcra Hakimiyyətinin başçısıdır. Biologiya elmləri namizədidir (1987). 15 elmi əsərin müəllifidir.
Evlidir, 4 övladı var.

Born 20 June 1955 in Garajalar village, Saatly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1979. Head of the Executive Power of Saatly district since 1993.
Married, has four children.



ƏHMƏDOV GÜLHÜSEYN ƏLİƏHMƏD OĞLU
Saatlı Rayon İcra Hakimiyyətinin başçısı

Ahmadov Gulhuseyn Aliahmad oglu
Head of the Executive Power of Saatly district



ƏHMƏDOV XASAY MƏHİYƏDDİN OĞLU
Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı

Ahmadov Khasaj Mahiyaddin oglu
Head of the Executive Power of Beylagan district

1946 il mayın 25-də Azərbaycan Respublikası Cəbrayıl rayonunun Göyərçin Veysəlli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1972—1973 illərdə ordu sıralarında xidmət etmişdir.
1972 ildə Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini, 1991 ildə Azərbaycan Dövlət Sosial Politologiya İnstitutunu bitirmişdir. Alim-aqronom, politoloqdur. 1972 ildən Beyləqan Rayon 3 saylı Pambıqçılıq Sovxozunda aqronom-entimoloq, 1975—1984 illərdə baş aqronom, 1984—1987 illərdə direktor, 1987—1991 illərdə Beyləqan Rayon Partiya Komitəsinin katibi, 1991—1993 illərdə rayon "Aqrokombinat"ının baş direktoru, 1993—1995 illərdə "Mil" Üzümçülük Sovxozunun direktoru vəzifələrində işləmişdir. 1995 ilin avqust ayından Beyləqan Rayon İcra Hakimiyyətinin başçısıdır.
Respublikanın Əməkdar aqronomudur. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.
Evlidir, 5 övladı var.

Born 1946 May 25 in Goyarchin Veysalli village, Jabrail district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1972. Head of the Executive Power of Beylagan district since 1995.
Married, has five children.



ƏKBƏROV SAHİB İSMAYIL OĞLU
Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı

Akberov Sahib Ismayil oglu
Head of the Executive Power of Kelbejar district

1951 il iyul ayının 27-də Azərbaycan Respublikası Kəlbəcər rayonunun Otaqlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1978 ildə Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutunu, 1986 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir. İxtisasca inşaatçı-mühəndisdir.
Əmək fəaliyyətinə Kəlbəcər rayonundakı Kalinin adına kolxozda kolxozçu kimi başlamışdır. 1968 ildən Kalinin adına kolxozda sahə gözətçisi, fermada hesablayıcı işləmişdir. 1978 ildən Bərdə rayonundakı kolxozlararası tikinti idarəsində quraşdırıcı, usta, baş iqtisadçı, 4 saylı trestdə texniki şöbənin mühəndisi, 1980 ildən Kəlbəcər rayon XDS İK-də baş memar, RİK sədrinin müavini, rayon Partiya Komitəsində təlimatçı, şöbə müdiri, şöbə müdirinin müavini, rayon XDS İK-in sədri, 1991 ildən rayon İcra Hakimiyyətinin başçısı, 1992 ildən "Azərborukəmərləri" tikintisi trestində mühəndis, "Azəriqaz" Dövlət Şirkətində İşlər İdarəsinin rəisi vəzifələrində çalışmışdır. 1996 ilin mart ayından Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısıdır.
1991 ildə Azərbaycan Respublikasının Xalq deputatı seçilmişdir.
Evlidir, 2 övladı var.

Born 27 June 1951 in Otagly village, Kelbejar district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Civil Egineering Institute in 1978. Head of the Executive Power of Kelbejar district since 1996.
Married, has two children.

1959 il avqustun 10-da Azərbaycan Respublikası Naxçıvan MR-ın Sədərək rayonunda anadan olmuşdur. Azərbaycanlıdır.
1986 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun maliyyə-kredit fakültəsini bitirmişdir. İqtisadçıdır.
1986 ildən Şərur Rayon Bankında baş iqtisadçı, 1988 ildən Sədərək Rayon Çörək Zavodunun direktoru, 1991 ildən Sədərək Rayon İstehlak Cəmiyyətinin sədri, 1998 ildən Sədərək Rayon Vergi İdarəsinin rəisi vəzifələrində işləmişdir. 1999 ilin noyabr ayından Sədərək Rayon İcra Hakimiyyətinin başçısıdır.
Evlidir, 4 övladı var.

Born 10 August 1959 in Sadarak district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1986. Head of the Executive Power of Sadarak district since 1999.
Married, has four children.



ƏLİYEV AFTANDİL HƏSƏN OĞLU
Naxçıvan MR Sədərək Rayon İcra Hakimiyyətinin başçısı

Aliyev Aftandil Hasan oglu
Head of the Executive Power of Sadarak district

1953 il iyunun 17-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1976—1977 illərdə ordu sıralarında xidmət etmişdir. 1976 ildə Azərbaycan Politexnik İnstitutunu, 1987 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir. Mühəndis-mexanikdir.
1970—1975 illərdə Abşeron Rayonu 835 saylı Tikinti İdarəsində, "Azərittifaq"ın Bakı Avtobazasında, "Təcili yardım" Avtobazasında, "Sovxozşərabtikinti" Trestində müxtəlif sahələrdə çalışmışdır. 1975—1976 illərdə "Sovxozşərabtikinti" trestində sahə mexaniki, mexanik, 1977—1981 illərdə Şamaxı şəhər Avtomobil Məktəbində müəllim, məktəb rəisinin müavini, 1981—1989 illərdə Şamaxı Rayon Partiya Komitəsində təlimatçı, sənaye-nəqliyyat şöbəsinin müdiri, 1989—1992 illərdə Şamaxı Rayon Maddi-Texniki Təchizat və Mexanikləşdirmə İstehsalat Birliyinin Baş direktoru, 1993—2000 illərdə "Şamaxıtəchizat" ATSC İdarə Heyətinin sədri vəzifələrində işləmişdir. 2000 ilin avqust ayından Şamaxı Rayon İcra Hakimiyyətinin başçısıdır.
1982—1987 illərdə Şamaxı Rayon Sovetinin deputatı olmuşdur.
1992 ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir,3 övladı var.

Born 1953 June 17 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1976. Head of the Executive Power of Shamakhy district since 2000.
Married, has three children.



ƏLİYEV AKİF BAXIŞ OĞLU
Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı

Aliyev Akif Bakhysh oglu
Head of the Executive Power of Shamakhy district



ƏLİYEV BABA ƏLİŞRƏF OĞLU
Naxçıvan MR Babək Rayon İcra Hakimiyyətinin başçısı

Aliyev Baba Allashraf oglu
Head of the Executive Power of Babek district

1951 il noyabrın 8-də Azərbaycan Respublikası İmişli rayonunun Rəsullu kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1968—1973 illərdə Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunda təhsil almışdır. 1974—1980 illərdə Babək rayon Tingçilik sovxozunun baş aqronomu, 1980—1983 illərdə direktoru, 1983—1987 illərdə Babək Rayon Aqrar-Sənaye Birliyinin sədri, 1987—1988 illərdə Naxçıvan Respublikası Dövlət Aqrar-Sənaye Komitəsi sədrinin müavini, 1988—1989 illərdə Babək Rayon XDS İcraiyyə Komitəsinin sədri, 1989—1991 illərdə SSRİ Xalq deputatı M.İbrahimovun köməkçisi, 1991—1994 illərdə Babək Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi, 1994—1996 illərdə Naxçıvan MR Nazirlər Kabinetində baş mütəxəssis, 1996—1998 illərdə Naxçıvan MR Kənd Təsərrüfatı və Ərzaq nazirinin müavini vəzifələrində işləmişdir. 1998 ilin aprel ayından Babək Rayon İcra Hakimiyyətinin başçısıdır.
Evlidir, 2 övladı var.

Born 8 November 1951 in Rasully village, Imishli district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1973. Head of the Executive Power of Babek district since 1998.
Married, has two children.



ƏLİYEV ƏLİBABA NƏCƏF OĞLU
Bakı Şəhəri Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı

Aliyev Alibaba Najaf oglu
Head of the Executive Power of Sabunchu district, Baku city

1960 il noyabrın 21-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1978—1980 illərdə ordu sıralarında xidmət etmişdir.
1986 ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir. Mühəndis-mexanikdir.
1978—1995 illərdə Bakı Şəhər Baş Yaşıllaşdırma İstehsalat İdarəsində mühəndis-mexanik, baş mühəndis, rəis müavini, 1995—1999 illərdə Bakı Şəhəri Əzizbəyov Rayon İcra Hakimiyyəti başçısının birinci müavini vəzifələrində işləmişdir. 1999 ilin avqust ayından Bakı Şəhəri Sabunçu Rayon İcra Hakimiyyətinin başçısıdır.
Evlidir, 2 övladı var.

Born 1960 November 21 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Civil Egineering Institute in 1986. Head of the Executive Power of Sabunchu district, Baku city since 1999.
Married, has two children.



ƏLİYEV YAQUB CANƏHMƏD OĞLU
Bakı Şəhəri Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı

Aliyev Yagub Janahmad oglu
Head of the Executive Power of Garadag district, Baku city

1961 ildə Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1978—1982 illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil almışdır.
Əmək fəaliyyətinə 1982 ildə Qaradağ rayonu 222 saylı orta məktəbdə başlamışdır. 1984—1986 illərdə 223 saylı orta məktəbdə müəllim, 1986—1992 illərdə rayon Komsomol Komitəsinin ikinci katibi, 1992—1995 illərdə 190 saylı Texniki-Peşə Məktəbində direktor, 1995 ildə Qaradağ Rayon İcra Hakimiyyəti başçısının müavini vəzifələrində çalışmış. 1995—1997 illərdə rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra etmişdir. 1997 ildən Qaradağ Rayon İcra Hakimiyyətinin başçısıdır. YAP-ın üzvüdür.
Evlidir, 3 övladı var.

Born 1961 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1982. Head of the Executive Power of Garadag district, Baku city since 1997.
Married, has three children.



ƏMİROV İKRAM MİRZAĞA OĞLU
Qusar Rayon İcra Hakimiyyətinin başçısı

Amirov Ikram Mirzaga oglu
Head of the Executive Power of Gusar district

1944 il avqustun 8-də Azərbaycan Respublikası Qusar rayonunun Nəcəfkənd kəndində anadan olmuşdur. 1973 ildə Azərbaycan Dövlət Politexnik İnstitutunu bitirmişdir.
1967 ildən Azərbaycan Neft və Kimya Sənayesi Nazirliyinin normativ tədqiqat stansiyasında texnik, böyük texnik və böyük mühəndis, 1973 ildən Bakı Baş Tikinti İdarəsində baş mexanik, Azərbaycan Respublikası Rabitə Nazirliyi avtomobil nəqliyyatı müəssisəsində baş mühəndis, direktor, 1987 ildən Qusar Rayon İxtisaslaşdırılmış Avtomobil Müəssisəsində direktor, rayon İcra Hakimiyyəti başçısının birinci müavini, avtomobil müəssisəsində direktor vəzifələrində işləmişdir. 1993 ilin avqustundan Qusar Rayon İcra Hakimiyyətinin başçısıdır.
Evlidir, 2 övladı var.

Born 8 August 1944 in Najafkend village, Gusar district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1973. Head of the Executive Power of Gusar district since 1993.
Married, has two children.



ƏZİZOV ELDAR ƏZİZ OĞLU
Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin başçısı

Azizov Eldar Aziz oglu
Head of the Executive Power of Nizami district, Baku city

1957 il iyunun 28-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.
1979 ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.
1979 ildən Bakı şəhəri 3 saylı Texniki-Peşə Məktəbində komsomol komitəsinin katibi, 1980 ildən respublika Komsomol Məktəbində metodist, 1981 ildən Azərbaycan LKGİ MK-da müxtəlif vəzifələrdə işləmişdir. 1984 ildən Bakı şəhəri indiki Səbail Rayon Komsomol Komitəsinin birinci katibi, 1987 ildən Bakı Şəhər Komsomol Komitəsinin birinci katibi, 1989 ildən Azərbaycan LKGİ MK-nın katibi, 1998 ildən MSK-da şöbə müdiri, 1999 ildən BŞİH Xarici Əlaqələr və İnvestisiya Proqramları Departamenti sədrinin birinci müavini, 2000 ildən Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini vəzifələrində çalışmışdır. 2000-ci ilin iyun ayından Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin başçısıdır.
Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçilmişdir (1990), "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 1957 June 28 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1979. Head of the Executive Power of Nizami district, Baku city since 2000.
Married, has two children.



HACIYEV FÜZULİ MİRZƏ OĞLU
Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı


Hajiyev Fuzuli Mirza oglu
Head of the Executive Power of Siyazan district

1956 il aprelin 4-də Azərbaycan Respublikasının Siyəzən şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Siyəzən şəhər 2 saylı orta məktəbini, 1977 ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirmişdir. Tarix müəllimidir.
Əmək fəaliyyətinə müəllim kimi başlamışdır. 1977—1992 illərdə Dəvəçi rayonunun Rəhimli kəndində, Siyəzən şəhər 3 saylı orta məktəbində müəllim işləmişdir. 1992 ildə Dəvəçi Rayon İcra Hakimiyyəti başçısının müavini, Siyəzən Rayon XDS İcraiyyə Komitəsinin sədri vəzifələrində işləmişdir. 1995 ilin avqustundan Siyəzən Rayon İcra Hakimiyyətinin başçısıdır.
Tarix elmləri namizədidir.
Evlidir, 3 övladı var.

Born 4 April 1956 in Siyazan, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the N.Tusi Azerbaijan State Pedagogical Institute in 1977. Head of the Executive Power of Siyazan district since 1995.
Married, has three children

1959 il fevralın 15-də Azərbaycan Respublikası Xocavənd rayonunun Muğanlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1976—1981 illərdə Azərbaycan Politexnik İnstitutunda təhsil almışdır.
Əmək fəaliyyətinə təyinatla göndərildiyi Bakı Radio Zavodunda başlamışdır. Sonra yenidən 1983 ildə doğma Muğanlı kəndinə qayıtmış, beş il kolxozda işləmişdir. 1988 ildə Qarabağ münaqişəsi başlanan gündən erməni millətçilərinə qarşı mübarizə aparmaq üçün müdafiə dəstəsi təşkil edərək ona başçılıq etmişdir. 1990 ildə Muğanlı kənd Sovetinin sədri vəzifəsinə seçilmişdir. 1991 ildə Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə Hadrut və Martuni rayonları birləşdirilərək Xocavənd rayonu yaradılmışdır. 1992 ilin iyulunda Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmuşdur.
Evlidir, 3 övladı var.

Born 15 Fevruary 1959 in Muganly village, Khojavand district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1981. Head of the Executive Power of Khojavand district since 1992.
Married, has three children.



HÜSEYNOV EYVAZ MÖVSÜM OĞLU
Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı

Huseynov Eyvaz Movsum oglu
Head of the Executive Power of Khojavand district

1942 il iyulun 1-də Azərbaycan Respublikası Naxçıvan MR Şərur rayonunun Havuş kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir. Mühəndisdir.
Əmək fəaliyyətinə 1962 ildə Zaqafqaziya Dəmiryolu Tikinti-Quraşdırma Trestinin 803 saylı Körpü Tikinti İdarəsində fəhləliklə başlamışdır. 1963 ildən Neftsənaye İdarəsində operator köməkçisi, 1969 ildən həmin idarənin Tikinti-Quraşdırma İdarəsində iş icraçısı işləmiş, 1974 ildən Bakı Baş Tikinti İdarəsinin 1 saylı Evtikmə Kombinatında, Bakı Şəhər İcraiyyə Komitəsinin "Xüsusitəmirtikinti" Trestində müxtəlif vəzifələrdə çalışmışdır. 1994—1999 illərdə Bakı şəhəri Səbail Rayon İcra Hakimiyyəti başçısının birinci müavini işləmişdir. 1999 ilin avqust ayından Bakı Şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin başçısıdır.
Evlidir, 3 övladı var.

Born 1 July 1942 in Havush village, Sharur district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Civil Engineering Institute. Head of the Executive Power of Binagadi district, Baku since 1999.
Married, has three children.



HÜSEYNOV HÜSEYN BƏŞİR OĞLU
Bakı Şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı

Huseynov Huseyn Bashir oglu
Head of the Executive Power of Binagadi district, Baku ,



XANCANOV BƏYLƏR MİSİR OĞLU
Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı

Khanjanov Beylar Misir oglu
Head of the Executive Power of Sabirabad district

1952 ildə Azərbaycan Respublikası Sabirabad rayonunun Həşimxanlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1972—1974 illərdə ordu sıralarında xidmət etmişdir. 1988 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.
1975 ildən Lenin adına kolxozda briqadir, 1987 ildən XXVI partiya qurultayı adına, İ.Qayıbov adına kolxozlarda sədr, 1995—1999 illərdə rayon İcra Hakimiyyəti başçısının müavini, Kənd Təsərrüfatı və Ərzaq İdarəsinin rəisi vəzifələrində işləmişdir. 2000 ilin iyul ayından Sabirabad Rayon İcra Hakimiyyətinin başçısıdır.
Evlidir, 5 övladı var.

Born 1952 in Hashimknanly village, Sabirabad district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1988. Head of the Executive Power of Sabirabad district since 2000.
Married, has five children.



İBRAHİMOV MEHMAN CƏFƏR OĞLU
Quba Rayon İcra Hakimiyyətinin başçısı

Ibrahimov Mehman Jafar oglu
Head of the Executive Power of Guba district

1954 il martın 16-da Azərbaycan Respublikasının Quba şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1976 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir.
1971—1974 illərdə Quba Şəhər Mənzil-İstismar İdarəsində təlimatçı, Sovxoz-texnikumda laborant, rayon DİŞ yanında mühafizə bölməsinin dispetçeri, respublika Mərkəzi Dövlət Arxivi Quba Rayon Filialında elmi işçi, 1975—1980 illərdə Quba Rayon Aqrar-Sənaye Birliyində iqtisadçı, böyük iqtisadçı, 1980—1981 illərdə Quba Rayon Partiya Komitəsində təlimatçı, 1981—1982 illərdə rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi, 1982—1985 illərdə Quba Rayon Partiya Komitəsində Kənd Təsərrüfatı şöbəsinin müdiri, 1985—1990 illərdə raykomun katibi, ikinci katibi, 1990—1999 illərdə Sovxoz-zavodun direktoru, Yerli Aqrar-İslahat Komissiyasının sədri vəzifələrində işləmişdir. 1999 ilin iyul ayından Quba Rayon İcra Hakimiyyətinin başçısıdır.
Evlidir, 4 övladı var.

Born 1954 16 March in Guba, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1976. Head of the Executive Power of the Guba district since 1999.
Married, has four children.



İMANOV TOFİQ SUFAN OĞLU
Zərdab Rayon İcra Hakimiyyətinin başçısı

Imanov Tofig Sufan oglu
Head of the Executive Power of Zardab district

1945 il dekabrın 20-də Azərbaycan Respublikası Zərdab rayonunun Dəliquşçu kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1974 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə Zərdab rayonundakı "Bakı fəhləsi" kolxozunda kolxozçu kimi başlamışdır. 1968—1981 illərdə tarlaçılıq briqadiri, sahə aqronomu, baş aqronom, rayon bitki mühafizə stansiyasında böyük aqronom, 1981—1987 illərdə "Bakı fəhləsi" kolxozunun sədri, 1987—1995 illərdə Rayon Kənd Kimya Birliyinin sədri, sovxoz direktoru vəzifələrində işləmişdir. 1995 ilin may ayından Zərdab Rayon İcra Hakimiyyətinin başçısıdır.
"Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir, 3 övladı var.

Born 20 December 1945 in Deligushchu village, Zardab district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1974. Head of the Executive Power of Zardab district since 1995.
Married, has three children.



İSLAMOV GÜLAĞA BAYRAM OĞLU
Bakı Şəhəri Əzizbəyov Rayon İcra Hakimiyyətinin başçısı

Islamov Gulaga Bayram oglu
Head of the Executive Power of Azizbeyov district, Baku city

1948 il dekabrın 19-da Azərbaycan Respublikası Bakı şəhərinin Şüvəlan qəsəbəsində anadan olmuşdur. Azərbaycanlıdır. 1965 ildə Bakıda 156 saylı orta məktəbi, 1990 ildə Poltava Kooperativ İnstitutunun Bakı filialını bitirmişdir. İxtisasca əmtəəşünasdır.
Əmək fəaliyyətinə Azərbaycan Respublikası Kurortlar İdarəsi Avtomobil Nəqliyyatı Birliyində böyük mexanik kimi başlamışdır. 1967 ildən böyük mexanik, çilingər, mexanik, 1977 ildən Bakı Şəhər Kooperativ Ticarəti İdarəsində çeşidləyici, qəbul məntəqəsinin müdiri, anbardar, Estoniyada "Flores" kooperativində baş əmtəəşünas, Şüvəlan gülçülük sovxozunda şöbə müdiri, "Şüvəlan" İstehsal-Ticarət Assosiasiyasında 1 saylı sahənin rəisi, "Qərənfil" fermer təsərrüfatının müdiri vəzifələrində işləmişdir. 1995 ilin yanvarından Bakı Şəhəri Əzizbəyov Rayon İcra Hakimiyyətinin başçısıdır.
Evlidir, 3 övladı var.

Born 19 December 1948 in Shuvalan settlement, Baku city, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku Branch of Poltava Cooperative Institute in 1990. Head of the Executive Power of Azizbeyov district, Baku city since 1995.
Married, has three children.



İSAQOV MALİK XIZIR OĞLU
Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı

Isagov Malik Khyzyr oglu
Head of the Executive Power of Gubadly district

1953 il sentyabrın 26-da Azərbaycan Respublikası Qubadlı rayonunun Çərəli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1974—1976 illərdə ordu sıralarında xidmət etmişdir. 1970 ildə Hal Orta Məktəbini, 1979 ildə Azərbaycan Neft və Kimya İnstitutunun sənaye müəssisələri, şəhər və kənd təsərrüfatının elektrik təchizatı fakültəsini bitirmişdir. Mühəndisdir. Əmək fəaliyyətinə 1970 ildə Sumqayıt Elektrik Dəstləşdirmə Zavodunda başlamış, elektrik çilingəri peşəsindən direktor vəzifəsinədək yüksəlmişdir. 1976—1984 illərdə həmin zavodda təhlükəsizlik texnikası üzrə mühəndis, mühəndis-konstruktor, mühəndis-texnoloq, baş mühəndis, 1984—1998 illərdə direktor vəzifələrində çalışmışdır. 1998 ilin noyabr ayından Sumqayıt Elektrik Dəstləşdirmə Açıq Tipli Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri vəzifələrində işləmişdir. 2001 ilin sentyabr ayından Qubadlı Rayon İcra hakimiyyətinin başçısıdır.
İki çağırış Sumqayıt Şəhər Sovetinə deputat seçilmişdir.
Evlidir, 2 övladı var.

Born 1953 September 26 in Chereli village, Gubadly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1979. Head of the Executive Power of Gubadly district.
Married, has two children.



KAZIMOV ZÜLFÜQAR MUSA OĞLU
Bakı Şəhəri Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı

Kazymov Zilfugar Musa oglu
Head of the Executive Power of Narimanov district, Baku city

1950 il sentyabrın 26-da Qərbi Azərbaycanın Zəngəzur mahalı (indiki Ermənistan) Qafan rayonunun Oxtar kəndində anadan olmuşdur. Azərbaycanlıdır.
1965 ildə Oxtar Kənd Səkkizillik Məktəbini, 1967 ildə 10 saylı Bakı Şəhər Texniki Peşə Məktəbini, 1968 ildə 13 saylı Bakı Şəhər Fəhlə Gənclər Orta Məktəbini bitirmişdir. 1970—1972 illərdə ordu sıralarında xidmət etmişdir. 1969—1979 illərdə Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsində təhsil almışdır. Mühəndis-texnoloqdur.
1967—1969 illərdə Respublika Sənaye Tikintisi Nazirliyi 4 saylı Trestinin 42 saylı Tikinti İdarəsində, 1969—1970 illərdə Bakı Elektrik Maşınqayırma Zavodunda, Bakı Toxuculuq Kombinatında, 1972—1973 illərdə indiki Səttarxan adına Maşınqayırma Zavodunda fəhlə, 1973—1985 illərdə Səttarxan adına Maşınqayırma Zavodunda mühəndis-konstruktor, 1985—1987 illərdə həmin zavodda Partiya Komitəsinin katibi, 1987—1988 illərdə direktor, 1988—1989 illərdə "Azəravtomobiltəmir" İstehsalat Birliyində baş direktorun müavini, 1989—1996 illərdə "Azərelektroişıq" İstehsalat Birliyində baş direktorun müavini, 1996—2000 illərdə "Şüa" İstehsalat-Kommersiya Mərkəzinin baş direktoru vəzifələrində işləmişdir. 2000 ilin fevral ayından Bakı Şəhəri Nərimanov Rayon İcra Hakimiyyətinin başçısıdır.
1978 ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmiş, 1985 ildə Bakı şəhər Xalq Deputatları Sovetinə deputat seçilmişdir. 1993 ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.
İkinci "Dan qara" kəmər ustası, aykidoçudur. Respublika "Şotokan karate-do" Federasiyasının vitse-prezidentidir.
Evlidir, 2 övladı var.

Born 1950 September 26 in Okhtar village, Zangazur region, West Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1979. Head of the Executive Power of Narimanov district, Baku city since 2000.
Married, has two children.



QARABAĞLI MƏHƏBBƏT İSMAYIL OĞLU
Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı

Garabagly Mahabbat Ismayil oglu
Head of the Executive Power of Mingechevir city

1941 il mayın 5-də Gürcüstan Respublikası Bolnisi rayonunun Kəpənəkçi kəndində anadan olmuşdur. Azərbaycanlıdır.
1966 ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsini bitirmişdir.
Əmək fəaliyyətinə 1959 ildə başlamış və iki il Kəpənəkçi Kənd Səkkizillik Məktəbində müəllim, 1966—1970 illərdə Mingəçevir şəhər 11 saylı Orta Məktəbinin müəllimi, 1970—1976 illərdə 7 saylı səkkizillik məktəbin direktoru, 1976—1977 illərdə 14 saylı Şəhər Orta Məktəbinin direktoru, 1977—1982 illərdə Mingəçevir Şəhər Xalq Maarifi Şöbəsinin müdiri, 1982—1991 illərdə Mingəçevir Şəhər XDS İcraiyyə Komitəsi sədrinin müavini və sədr əvəzi, 1991—1996 illərdə şəhər Sovetinin sədri vəzifələrində çalışmışdır.
1999 ilin iyun ayından Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısıdır. 1976-1996 illərdə Mingəçevir Şəhər Sovetinin deputatı olmuşdur.
"Şərəf nişanı" ordeni (1976), "Rəşadətli əməyə görə" (1970), "Əməkdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir, SSRİ Maarif Nazirliyi və Azərbaycan SSR Maarif Nazirliyinin "Qabaqcıl Maarif xadimi" adına layiq görülmüşdür.
Xalq təhsili sahəsindəki nailiyyətlərinə görə rəhbərlik etdiyi məktəblərə Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin Keçici Qırmızı Bayrağı (1979), SSRİ Maarif Nazirliyi və Sahə Həmkarlar İttifaqının Keçici Qırmızı Bayrağı verilmişdir (1980).
Evlidir, 3 övladı var.

Born 1941 May 5 in Kepenekchi village, Bolnisi district, the Republic of Georgia. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1966. Head of the Executive Power of Mingechevir city since 1999.
Married, has three children.



QƏHRƏMANOVA SƏDAQƏT MƏMMƏDYAR QIZI
Əli Bayramlı Şəhər İcra Hakimiyyətinin başçısı

Gahramanova Sadagat Memmedyar Gyzy
Head of the Executive Power of Ali Bayramly town

1949 il martın 1-də Azərbaycan Respublikasının Şəmkir şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1966 ildə Əli Bayramlı şəhər 2 saylı orta məktəbini, 1970 ildə Bakı Neft Texnikumunun Əli Bayramlı filialını, 1977 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir.
Əmək fəaliyyətinə 1966 ildə şəhər 1 saylı orta məktəbində dəstə rəhbəri kimi başlamışdır. 1967 ildən şəhər partiya və icraiyyə komitələrində məsul vəzifələrdə işləmişdir. 1978 ildən Azərbaycan KP Əli Bayramlı Şəhər Komitəsinin katibi, şəhər Xalq Nəzarəti Komitəsinin sədri, şəhər XDS İcraiyyə Komitəsinin sədri olmuşdur. 1995 ilin sentyabrından Əli Bayramlı Şəhər İcra Hakimiyyətinin başçısıdır.
Ailəlidir, 4 övladı var.

Born 1 March 1949 in Shemkir, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku Higher Rarty School in 1977. Head of Executive Power of Ali Bayramly town since 1995.
Married, has four children.



QULİYEV TAHİR MƏHƏRRƏM OĞLU
Bakı Şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı

Guliyev Tahir Maharram oglu
Head of the Executive Power of Nasimi district, Baku city

1947 il martın 14-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Sisian rayonunun Ağudi kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Orta təhsilini Sisian rayonunda, ali təhsilini 1963—1974 illərdə Bakı şəhərində almışdır.
Əmək fəaliyyətinə 1963 ildən Bakı şəhərində fəhlə kimi başlamışdır. 1967 ildən Bakı Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsi Mənzil İstismarı İdarəsinin 4 saylı MİS-də texniki nəzarətçi. Nərimanov MİS-də mühəndis, 37 saylı MİS-də mühəndis, MİS-də texniki nəzarətçi, texniki-idarə qrupunun mühəndisi, baş mühəndis. 1977 ildən Nəsimi rayon kommunal təsərrüfatı şöbəsinin rəisi. təşkilat şöbəsinin müdiri, 1983 ildən RİK sədrinin müavini, şöbə müdiri, mühəndis, Bakı şəhər XDS İK sədrinin köməkçisi, 1993 ildən Nəsimi Rayon İcra Hakimiyyəti aparatının rəhbəri vəzifələrində işləmişdir. 1993 ilin noyabrından Nəsimi Rayon İcra Hakimiyyətinin başçısıdır.
Evlidir, 4 övladı var.

Born 14 March 1947 in Agudi village, Sisyan district, Armenia. Azerbaijanian. Graduated from the Institute in 1974. Head of Executive Power of Nasimi district, Baku city since 1993.
Married, has four children.



QULİYEV VİDADİ ALLAHVERDİ OĞLU
İmişli Rayon İcra Hakimiyyətinin başçısı

Guliyev Vidadi Allahverdi oglu
Head of the Executive Power of Imishli district

1958 il noyabrın 14-də Azərbaycan Respublikasının İmişli rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1975 ildə İmişli Şəhər 2 saylı Orta Məktəbini, 1977 ildə Bakı Maliyyə-Kredit Texnikumunu (fərqlənmə diplomu ilə), 1984 ildə Voronej K.D.Qlinka adına Kənd Təsərrüfatı İnstitutunun yer quruluşu fakültəsini bitirmişdir.
Əmək fəaliyyətinə təyinatla göndərildiyi Azərbaycan Yer Quruluşu Layihə İnstitutunda mühəndis vəzifəsindən başlamış, həmin institutun direktoru vəzifəsinədək yüksəlmişdir. 2000 ilin dekabr ayından İmişli Rayon İcra Hakimiyyətinin başçısıdır.
Kənd təsərrüfatı elmləri namizədidir. Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir, 2 övladı var.

Born 1958 November 14 in Imishli district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the K.D.Glinka Agricultural Institute in 1984, Voronezh. Head of the Executive Power of Imishli district since 2000.
Married, has two children.



MEHDİYEV İBRAHİM ƏSGƏR OĞLU
Bakı Şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçısı

Mehdiyev Ibrahim Asker oglu
Head of the Executive Power of Khatai district, Baku city

1946 il aprelin 1-də Azərbaycan Respublikasının Ağdaş rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1970—1971 illərdə ordu sıralarında xidmət etmişdir. 1963 ildə Yevlax Dəmiryol Orta Məktəbini, 1969 ildə Azərbaycan Neft və Kimya İnstitutunun neft-mexanika fakültəsini bitirmişdir.
1963 ildə "Azərelektroişıq" Zavodunda çilingər kimi əmək fəaliyyətinə başlamış, 1970 ilə qədər burada mühəndis-texnoloq, sex rəisi, şöbə rəisinin müavini, baş mexanik vəzifələrində çalışmışdır. 1971—1972 illərdə "Elektromaş" Elmi-Tədqiqat İnstitutunda baş elmi işçi, 1972—1982 illərdə "Azərelektroişıq" İstehsalat Birliyində sex rəisi, baş mühəndis, 1982—1983 illərdə Azərbaycan EA Fizika İnstitutunun "Kristal" Zavodunda istehsalat rəisi, 1983—2000 illərdə respublika Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik Bərpa Mərkəzinin direktoru vəzifələrində işləmişdir. 2000 ilin iyun ayından Bakı Şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçısıdır.
"Şərəf nişanı" ordeni ilə təltif edilmişdir (1974).
YAP İdarə Heyətinin üzvü (1993), YAP Xətai rayon təşkilatının sədr müavinidir (1995).
Evlidir, 2 övladı var.

Born 1946 April 1 in Agdash district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1969. Head of the Executive Power of Khatai district, Baku city since 2000.
Married, has two children.



MEHDİYEV NATİQ TAĞI OĞLU
Bakı Şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı

Mehdiyev Natig Tagy oglu
Head of the Executive Power of Surakhany district, Baku city

1956 il noyabrın 1-də Azərbaycan Respublikası Naxçıvan MR Şərur rayonunun Yengicə kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir.
1973—1974 illərdə Şərur Rayon Çörək Zavodunda fəhlə işləmişdir. 1979 ildən Kuybışev Hidrotikinti Trestində usta, 1981 ildən "Bakıbaştikinti" İdarəsinin 3 saylı Evtikmə Kombinatında mühəndis, usta, azad həmkarlar ittifaqı komitəsinin sədri, partiya komitəsinin katibi, baş inşaatçı, Sənayeləşdirilmiş Evtikmə İstehsalat Birliyində partiya komitəsinin katibi, baş direktorun müavini, 1995 ildən Suraxanı Rayon Mənzil Təsərrüfatı İdarəsinin rəisi, 1999 ildən Suraxanı Rayon İcra Hakimiyyəti başçısının müavini vəzifələrində işləmişdir. 2000 ilin aprel ayından Suraxanı Rayon İcra Hakimiyyətinin başçısıdır.

1933 il avqustun 2-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1956 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. Xarici ölkələrdə diplomatik vəzifələrdə çalışmışdır. Moskva şəhərində Sovet Dostluq Cəmiyyətləri və Xarici Ölkələrlə Mədəni Əlaqələr Birliyi Yaxın və Orta Şərq ölkələri şöbəsinin müdiri işləmişdir. 1993 ilin noyabr ayından Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığında Fövqəladə və Səlahiyyətli səfiridir. Filologiya elmləri namizədidir.
Evlidir, 2 övladı var.

Born 1933 August 2 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1956. Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Saudi Arabian Kingdom since 1993.
Married, has two children.



BORİS QRİQORYEVİÇ ALEKSENKO
Ukrayna Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Boris Grigoryevich Aleksenko
Ambassador Extraordinary and Plenipotentiary of the Ukrainian Republic in the Azerbaijan Republic

1941 ildə Ukrayna Respublikasının Lebedin şəhərində anadan olmuşdur. 1961 ildə Sumi Maşınqayırma Texnikumunu bitirmişdir. 1961 ildən Bakı şəhəri Kirov adına Maşınqayırma Zavodunda usta, mühəndis-texnoloq, partiya komitəsinin katibi, 1973 ildən Bakı şəhəri Lenin (indiki Sabunçu) Rayon Xalq Nəzarəti Komitəsinin sədri, 1978 ildən Azərbaycan KP MK-da məsləhətçi, 1981 ildən Yerli Sənaye və Kommunal-Məişət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1983 ildən Azərbaycan KP MK-da şöbə müdirinin müavini, 1986 ildən Azərbaycan SSR Məişət Xidməti naziri, 1989 ildən Azərbaycan SSR Nazirlər Sovetində İşlər İdarəsi müdirinin müavini, 1992 ildən Ukrayna Nazirlər Sovetində baş mütəxəssis vəzifələrində işləmişdir. Hazırda Ukrayna Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 2 övladı var.

Born 1941 in Lebedin city, Ukrainian Republic. Graduated from the Sumi Machine-Building Technical Secondary School in 1961. Ambassador Extraordinary and Plenipotentiary of the Ukrainian Republic in the Azerbaijan Republic since 1998.
Married, has two children.



ÇJAN QOTSYAN
Çin Xalq Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Chzhan Gotsyan
Ambassador Extraordinary and Plenipotentiary of the Chinese Peoples Republic in the Azerbaijan Republic

1940 ildə Quandin əyalətində anadan olmuşdur. 1963 ildən XİN-də referent, 1975 ildən XİN-in əməkdaşı, 1982 ildən ÇXR-in Laos Xalq Demokratik Respublikasındakı Səfirliyində III katib, II katib, 1984 ildən XİN-in Konsulluq Departamentində II katib, şöbə müdirinin müavini, I katib, 1988 ildən ÇXR-in Torontoda konsulu, 1990 ildən ÇXR-in Los-Anjelesdə vitse-konsulu, 1994 ildən XİN-in Şərqi Avropa və Mərkəzi Asiya Ölkələri Departamentində müşavir vəzifələrində işləmişdir. Hazırda ÇXR-in Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 1 övladı var.

Born 1940 in Guandin region. Ambassador Extraordinary and Plenipotentiary of the Chinese Peoples Republic in the Azerbaijan Republic at present.
Married, has one child.



DİNKAR XULLAR
Hindistan Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Dinkar Khullar
Ambassador Extraordinary and Plenipotentiary of the Indian Republic in the Azerbaijan Republic

1954 ildə anadan olmuşdur. 1980 ildən Hindistan Respublikasının SSRİ-dəki Səfirliyində III katib, 1982 ildən XİN-də katib müavini, 1985 ildən Hindistan Respublikasının İtaliyadakı Səfirliyində I katib, 1992 ildən Baş nazirin Kabinəsində xüsusi məsələlər üzrə idarə başçısı, 1995 ildən Hindistan Respublikasının Seuldakı Səfirliyində müşavir vəzifələrində işləmişdir. Hazırda Hindistan Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 1 övladı var.

Born 1954. Ambassador Extraordinary and Plenipotentiary of the Indian Republic in the Azerbaijan Republic at present.
Married, has one child.



ENDRÜ TAKER
Böyük Britaniya və Şimali İrlandiya Krallığının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Endrew Thacher
Ambassador Extraordinary and Plenipotentiary of the Union of Great Britain and Northern Ireland in the Azerbaijan Republic

1955 ildə anadan olmuşdur. 1978 ildən Britaniya Dövlət Xidmətində tərcüməçi, 1982 ildən Böyük Britaniyanın Tanzaniyadakı Səfirliyində II katib, 1985 ildən Nazirlər Kabinetində Baş nazir Katibliyinin əməkdaşı, 1987 ildən Böyük Britaniyanın SSRİ-dəki Səfirliyində I katib, 1993 ildən Almaniya XİN-in əməkdaşı, 1994 ildən Böyük Britaniyanın Almaniya Səfirliyində əməkdaş, 1997 ildən Böyük Britaniyanın Genuyadakı (Nayrobi) Ali Komissarlığında Missiya başçısının müavini, BMT-nin Ətraf mühit proqramı üzrə nümayəndəsinin müavini vəzifələrində işləmişdir. Hazırda Böyük Britaniya və Şimali İrlandiya Krallığının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir.

Born 1955. Ambassador Extraordinary and Plenipotentiary of the Union of Great Britain and Northern Ireland in the Azerbaijan Republic at present.
Married.



ƏFƏNDİYEV MİRHƏMZƏ NAZİM OĞLU
Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli səfiri

Afandiyev Mirhamza Nazim oglu
Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Belgian Kingdom

1950 il noyabrın 15-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetini bitirmişdir. 1992 ildən Azərbaycan Respublikası Milli Məclisi Xarici İşlər Komissiyasının üzvü olmuşdur. Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 2 övladı var.

Born 1950 November 15 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Medical Institute. Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Belgian Kingdom since 1995.
Married, has two children.

1950 ildə Ərdəbildə anadan olmuşdur. Siyasi elmlər namizədidir. 1981 ildən İran İslam Respublikasının Azərbaycan Respublikasının Bakı şəhərində baş konsulu, 1986 ildən Tehran Ostan Komitəsinin sədri, 1990 ildən XİN Protokol baş direktorunun müavini, 1993 ildən İran İslam Respublikasının Hindistan Respublikasının Heydərabad şəhərində baş konsulu, 1996 ildən İslam Şurası Məclisinin nümayəndsi vəzifələrində çalışmışdır. Hazırda İran İslam Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 4 övladı var.

Born 1950 in Ardabil. Graduated of Politics. Ambassador Extraordinary and Plenipotentiary of the Iran Islamic Republic in the Azerbaijan Republic at present.
Married, has four children.



ƏHƏD QƏZAYİ
İran İslam Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Ahad Gazayi
Ambassador Extraordinary and Plenipotentiary of the Iran Islamic Republic in the Azerbaijan Republic

1955 ildə Xəmis-Müşyət şəhərində anadan olmuşdur. Ər-Riyəd Universitetini və Diplomatik Araşdırmalar İnstitutunu bitirmişdir. 1979 ildən XİN-in attaşesi, 1982 ildən Səudiyyə Ərəbistanı Krallığı BMT-dəki (Cenevrə) Nümayəndəliyinin əməkdaşı, 1990 ildən XİN-in əməkdaşı, 1992 ildən Səudiyyə Ərəbistanı Krallığının Rusiya Səfirliyində əməkdaşı, 2000 ildən XİN-in Beynəlxalq təşkilatlar və konfranslar idarəsinin əməkdaşı vəzifələrində işləmişdir. Hazırda Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 4 övladı var.

Born 1955. Graduated from the Ar-Riyad University and the Institute of Diplomatic Researches. Ambassador Extraordinary and Plenipotentiary of the Saudi Arabian Kingdom in the Azerbaijan Republic at present.
Married, has four children.



ƏLİ HƏSƏN ƏHMƏD CƏFFƏR
Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Ali Hasan Ahmad Jaffar
Ambassador Extraordinary and Plenipotentiary of the Saudia Arabian Kingdom in the Azerbaijan Republic



ƏLİYEV MƏMMƏD NOVRUZ OĞLU
Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Aliyev Mammad Novruz oglu
Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Republic of Turkey

1942 il sentyabrın 18-də Azərbaycan Respublikasının Tovuz rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1964 ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini bitirmişdir. 1992 ilin avqust ayından Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. Fizika-riyaziyyat elmləri doktorudur.
Evlidir, 3 övladı var.

Born 18 September 1942 in Tovuz district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1964. Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Republic of Turkey since 1992.
Married, has three children.



ƏZİMBƏYOV AYDIN ƏLİBƏY OĞLU
Azərbaycan Respublikasının Özbəkistan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Azimbeyov Aydin Alibey oglu
Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Uzbek Republic

1932 il dekabrın 10-da Azərbaycan Respublikası Naxçıvan MR-in Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1957 ildə Daşkənd Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. 1957 ildən Avtobazada mühəndis-mexanik, direktor, Avtomobil Trestinin müdiri, Sırdərya Vilayət Partiya Komitəsində şöbə müdiri, katib, Özbəkistan Respublikasının Avtomobil Nəqliyyatı naziri, Özbəkistan Respublikası Nazirlər Kabinetində şöbə müdiri vəzifələrində işləmişdir. 1996 ildən Azərbaycan Respublikasının Özbəkistan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 3 övladı var.

Born 10 December 1932 in Nakhchivan, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Dashkend Agricultural Institute in 1957. Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Uzbek Republic since 1996.
Married, has three children.



HACIYEV HACAN QULU OĞLU
Azərbaycan Respublikasının Gürcüstan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Hajiyev Hajan Gulu oglu
Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Republic of Georgia

1946 il martın 19-da Gürcüstan Respublikası Saqareqo rayonunun Yor-Muğanlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1969 ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir. 1969 ildən "Qaradağneft" NQÇİ-də operator, mexanik, sahə rəisi, 1971 ildən Azərbaycan Elmi-Tədqiqat Neft və Layihə İnstitutunda böyük mühəndis, 1979 ildən Azərbaycan Neft və Kimya İnstitutunda böyük mühəndis, laboratoriya müdiri, dosent, 1993 ildən Azərbaycan Dövlət Neft Şirkətində aparıcı mühəndis vəzifələrində işləmişdir. 1996 ildən Azərbaycan Respublikasının Gürcüstan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. Texnika elmləri namizədidir.
Evlidir, 2 övladı var.

Born 19 March 1946 in Muganly village, Sagarego district, Georgia. Azerbaijanian. Graduated from the M.Azizbeyov Azerbaijan State Institute of Oil and Chemistry in 1969. Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Republic of Georgia since 1996.
Married, has two children.



HACIYEV HƏSƏN İBRAHİM OĞLU
Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəsinin müavini

Hajiyev Hasan Ibrahim oglu
Vice-Permanent Representative of the Nakhchivan Autonomous Republic in Baku

1949 il yanvarın 11-də Azərbaycan Respublikası Naxçıvan MR-in Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunu, sonra Bakı Ali Partiya Məktəbini bitirmişdir.
Əmək fəaliyyətinə 1971 ildən Şərur rayonunda müəllimliklə başlamışdır. 1976 ildən Naxçıvan MR Nazirlər Sovetində baş müfəttiş, referent, sədr köməkçisi, işlər müdirinin müavini, 1984 ildən Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi birinci katibinin köməkçisi, 1987 ildən Vilayət Partiya Komitəsində inzibati, ticarət və maliyyə orqanları şöbəsinin müdiri, ideologiya şöbəsi müdirinin müavini, 1989 ildən Azərbaycan Elmlər Akademiyası Naxçıvan filialı Xalqlar dostluğu muzeyinin direktoru, 1990 ildən Naxçıvan şəhər Partiya Komitəsi ümumi şöbəsinin müdiri, 1991 ildən "Novruz" assosiasiyasının prezidenti vəzifələrində çalışmışdır.
1994 ilin fevralından Naxçıvan MR-in Bakı şəhərində Daimi nümayəndəsinin müavinidir.
Evlidir, 2 övladı var.

Born 11 January 1949 in Nakhchivan, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the M.F.Akhundov Azerbaijan State Pedagogical Institute of Foreign Languages in 1971. Vice-Permanent Representative of the Nakhchivan Autonomous Republic in Baku since 1994.
Married, has two children.



HƏSƏNOV ABBASƏLİ KƏRƏM OĞLU
Azərbaycan Respublikasının İran İslam Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Hasanov Abbasali Kerem oglu
Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Iran Islamic Republic

1953 il noyabrın 9-da Azərbaycan Respublikasının Gədəbəy rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1980 ildə ADU-nun şərqşünaslıq fakültəsini bitirmişdir. 1983 ildən Azərbaycan Neft və Kimya İnstitutunda beynəlxalq əlaqələr üzrə məsul işçi, 1985 ildən XİN-də əməkdaş, İran İslam Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyində tərcüməçi, tədris və mədəniyyət mərkəzində müəllim, 1995 ildən XİN-in İslam Konfransı Təşkilatı İdarəsində I katib, şöbə rəisi vəzifələrində işləmişdir. 1998 ildən Azərbaycan Respublikasının İran İslam Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 2 övladı var.

Born 9 November 1953 in Gedebey district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Universty in 1980. Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Iran Islamic Republic since 1998.
Married, has two children.



HƏSƏNOV ELDAR HÜMBƏT OĞLU
Azərbaycan Respublikasının Rumıniya Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Hasanov Eldar Humbat oglu
Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Rumanian Republic

1955 il oktyabrın 10-da Azərbaycan Respublikası Kəlbəcər rayonunun Laçın kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1977 ildə Azərbaycan Dövlət Politexnik İnstitutunu, 1983 ildə SSRİ DİN Milis Akademiyasının Rostov filialını bitirmişdir. 1977 ildən daxili işlər orqanlarında cinayət-axtarış üzrə əməliyyat müvəkkili, Bakı şəhəri Nizami rayonu Dİİ, Bakı şəhər Dİİ cinayət-axtarış şöbəsinin, Gəncə şəhər Dİİ və Azərbaycanda İnterpolun MMB-nun rəisi, Daxili İşlər nazirinin birinci müavini, 1993 ildən Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini, 1995 ildən Azərbaycan Respublikasının Baş prokuroru vəzifələrində işləmişdir. 2 dərəcə Dövlət ədliyyə müşaviridir. 2001 ildən Azərbaycan Respublikasının Rumıniya Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 3 övladı var.

Born 10 October 1955 in Lachyn village, Kelbejar district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1977; Rostov branch of the Militia Academy of Ministry of Internal Affairs of the USSR in 1983. Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Rumanian Republic since 2001.
Married, has three children.



HÜSEYNOVA ELEONORA MƏCİD QIZI
Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Huseynova Eleonora Mejid gyzy
Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the French Republic

1947 il iyulun 25-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. 1965—1970 illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun fransız dili fakültəsini bitirmişdir. 1994 ilin iyul ayından Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. Filologiya elmləri namizədidir
Ailəlidir, 1 övladı var.

Born 25 July 1947 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the M.F.Akhundov Azerbaijan State Pedagogical Institute of Foreign Languages in 1970. Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the French Republic since 1994.
Married, has one child.



XEYRƏDDİN QOCA (QOCAYEV XEYRƏDDİN SAYƏDDİN OĞLU)
Azərbaycan Respublikasının Türkiyə Respublikasının İstanbul şəhərində baş konsulu

Kheyraddin Goja (Gojayev Kheyraddin Sayaddin olgu)
Consul General of the Azerbaijan Republic in Istanbul city, Republic of Turkey

1950 il yanvarın 29-da Azərbaycan Respublikasının Ağdaş rayonunda anadan olmuşdur. 1971 ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirmişdir. 1974 ildən "Politexnik" qəzetində redaktor müavini, 1978 ildən Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ştatdankənar müxbir, 1987 ilin martından "Dan ulduzu" qəzetinin baş redaktoru, 1991 ildən "Mədəniyyət" qəzetində müxbir, 1992 ildən "Açıq söz" qəzeti redaktorunun müavini, "Mozalan" qəzetində redaktor müavini, 1993 ildən "Yeni Azərbaycan" qəzetinin baş redaktoru vəzifələrində işləmişdir. 1997 ildən Azərbaycan Respublikasının Türkiyə Respublikasının İstanbul şəhərində baş konsuludur. 1995 ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. YAP-ın üzvüdür (1992).
Evlidir, 3 övladı var.

Born 29 January 1950 in Agdash district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1971. Consul General of the Azerbaijan Republic in Istanbul city, Republic of Turkey since 1997.
Married, has three children.



QALİB ƏBDÜ HÜSEYN ƏL-TƏMİMİ
İraq Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Galib Abdu Huseyn Al-Tamimi
Ambassador Extraordinary and Plenipotentiary of the Irag Republic in the Azerbaijan Republic

1951 ildə Bağdad şəhərində anadan olmuşdur. Ədəbiyyat və Terminologiya üzrə elmlər doktorudur. 1986 ildən XİN-də SSRİ şöbəsinin müdiri, 1988 ildən İraq Respublikasının SSRİ-dəki Səfirliyində birinci katib, müşavir, 1993 ildən XİN-də MDB şöbəsinin müşaviri, müdiri, səlahiyyətli nazir, üçüncü siyasi departament rəisinin müavini, 1998 ildən XİN-in səfiri, üçüncü siyasi departament rəisi vəzifələrində işləmişdir. Hazırda İraq Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 5 övladı var.

Born 1951 in Bagdad. Doctor of Literature and Terminology. Ambassador Extraordinary and Plenipotentiary of the Irag Republic in the Azerbaijan Republic at present.
Married, has five children.



QƏDRİ ECVET TEZCAN
Türkiyə Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Gedri Ejvet Tezjan
Ambassador Extraordinary and Plenipotentiary of the Republic of Turkey in the Azerbaijan Republic

1949 ildə İstanbul şəhərində anadan olmuşdur. İqtisadçıdır. 1973 ildən Türkiyə Respublikası XİN-in Konsulluq İdarəsində üçüncü katibliyə namizəd, 1975 ildən ikinci katib, 1976 ildən Türkiyə Respublikasının Polşa Respublikasındakı Səfirliyində ikinci və birinci katib, 1980 ildən Türkiyə Respublikası XİN-in Konsulluq İdarəsində şöbə müdiri, 1983 ildən Türkiyə Respublikasının Macarıstan Respublikasındakı Səfirliyində birinci katib, müşavir, 1987 ildən Türkiyə Respublikası XİN-də idarə müdiri, 1989 ildən Türkiyə Respublikasının AFR-in Hamburq şəhərində Baş konsulu, 1993 ildən Türkiyə Respublikası XİN-də idarə müdiri, baş müdir köməkçisi vəzifələrində işləmişdir. Hazırda Türkiyə Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 2 övladı var.

Born 1949 in Istanbul, Republic of Turkey. Economist. Ambassador Extraordinary and Plenipotentiary of the Republic of Turkey in the Azerbaijan Republic at present.
Married, has two children.

1949 ildə anadan olmuşdur. 1971 ildə Qahirə Universitetini bitirmişdir. Mərakeş və Braziliya respublikalarında diplomatik vəzifələrdə işləmişdir. Hazırda Misir Ərəb Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.

Born 1949. Craduated from the Cairo University. Ambassador Extraordinary and Plenipotentiary of the Egypt Republic in the Azerbaijan Republic at present.



QİHAN Əmin Məhəmməd Əli
Misir Ərəb Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Gihan Emin Mahammad Ali
Ambassador Extraordinary and Plenipotentiary of the Egypt Republic in the Azerbaijan Republic

1949 il aprelin 28-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini, 1987 ildə SSRİ XİN-in Diplomatiya Akademiyasını bitirmişdir. Tarix elmləri namizədidir. 1973 ildən MƏR-də tərcüməçi, MƏR-dəki SSRİ Səfirliyində 1-ci dərəcəli tərcüməçi, 1975 ildən Azərbaycan SSR XİN-in İnformasiya və Mətbuat şöbəsində II katib, I katib, şöbə müdiri, 1977 ildən SSRİ-nin Yəmən Respubilkasındakı Səfirliyində attaşe, III katib, 1983 ildən Azərbaycan SSR XİN-in İnformasiya və Mətbuat şöbəsində I katib, Konsulluq Şöbəsində I katib, 1987 ildən SSRİ-nin Yəmən Respublkasındakı Səfirliyində II katib, I katib, müşavir, şöbə müdiri, 1993 ildən Respublika XİN-də İdarə rəisi vəzifələrində işləmişdir. 2001 ilin fevral ayından Azərbaycan Respublikasının Avropa Şurası yanında Daimi nümayəndəsidir.

Born 28 April 1949 in Baku, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University; Academy of Diplomacy of the Ministry of Foreign Affairs of the USSR in 1987. Permanent Representative of the Azerbaijan Republic attached to the Soviet of Europe since 2001.



MEHDİYEV AQŞİN ŞƏFAƏT OĞLU
Azərbaycan Respublikasının Avropa Şurası yanında Daimi nümayəndəsi

Mehdiyev Agshin Shefaet oglu
Permanent Representative of the Azerbaijan Republic attached to the Soviet of Europe



MERKURİOS KARAFOTİAS
Yunanıstan Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Mercurios Karafotias
Ambassador Extraordinary and Plenipotentiary of the Greek Republic in the Azerbaijan Republic

1951 ildə Afina şəhərində anadan olmuşdur. Afina Universitetini bitirmişdir. 1977 ildən Yunanıstan XİN-in əməkdaşı, 1979 ildən üçüncü katib, 1980 ildən BMT-nin Cenevrədəki Daimi Nümayəndəliyində ikinci katib, birinci katib, 1986 ildən Yunanıstan Respublikasının Pakistan İslam Respublikasındakı Səfirliyində müvəqqəti işlər vəkili, müşavir, ikinci müşavir, 1991 ildən Yunanıstan Xİ nazirinin birinci müşaviri, BMT şöbəsinin rəisi, 1992 ildən Xİ naziri müavininin diplomatik ofisinin rəisi, XİN-də ATƏT İdarəsi rəisinin müavini, 1993 ildən Yunanıstanın Yuqoslaviyadakı xüsusi missiyasının başçısı, Yunanıstanın Almaniyada (Ştutqard) baş konsulu, 1997 ildən XİN-də idarə rəisi, səlahiyyətli müşavir, 1999 ildən Yunanıstan Respublikası Prezidenti Diplomatik kabinetinin rəisi vəzifələrində işləmişdir. Hazırda Yunanıstan Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 2 övladı var.

Born 1951 in Athens, Greek Republic. Graduated from the University of Athens. Ambassador Extraordinary and Plenipotentiary of the Greek Republic in the Azerbaijan Republic at present.
Married, has two children.



MƏMMƏDOV ARİF ZAHİD OĞLU
Azərbaycan Respublikasının Avropa Birliyi Yanında Nümayəndəliyinin başçısı

Memmedov Arif Zahid oglu
Head of the Representative of the Azerbaijan Republic attached to the Union of Europe

1964 il sentyabrın 22-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1988 ildə Moskva Hərbi Tərcüməçilər İnstitutunun şərqşünaslıq fakültəsini bitirmişdir. 1988 ildən Həbəşistanda Sovet Hərbi Missiyasının baş tərcüməçisi, 1991 ildən Bakı Şəhər Sovetində təlimatçı, 1993 ildən respublika XİN-in Dövlət Protokol İdarəsində ikinci katib, ABŞ və Kanada İdarəsində ikinci katib, 1995 ildən Azərbaycan Respublikasının Belçika Krallığındakı Səfirliyində ikinci katib, birinci katib, müşavir vəzifələrində işləmişdir. 2000 ilin iyun ayından Azərbaycan Respublikasının Avropa Birliyi Yanında Nümayəndəliyinin başçısıdır.
Evlidir, 2 övladı var.

Born 22 September 1964 in Ganja, Azerbaijan Republic. Graduated from the Moscow Institute of Military Translators in 1988. Head of the Representative of the Azerbaijan Republic attached to the Union of Europe since 2000.
Married, has two children.

1951 ildə Türkmən şəhərində anadan olmuşdur. Türkmənistan Dövlət Pedaqoji İnstitutunda və Akademiyanın aspiranturasında təhsil almışdır. 1974 ildən komsomol və partiya orqanlarında, 1990 ildən partiya və hökumət idarələrində fəaliyyət göstərmişdir. 1993 ildən XİN-in Avropa və Amerika İdarəsində I katib, müşavir, 1994 ildən Xarici İşlər nazirinin müavini, 1995 ildən Xarici İşlər nazirinin birinci müavini, 1996 ildən Türkmənistan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Krallığında səfiri vəzifələrində işləmişdir. Hazırda Türkmənistan Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 2 övladı var.

Born 1951 in Turkmen city, Turkmen Republic. Graduated from the Turkmen State Pedagogical Institute. Ambassador Extraordinary and Plenipotentiary of the Turkmen Republic in the Azerbaijan Republic at present.
Married, has two children.



MURAD ÇARIYEV
Türkmənistan Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Murad Chariyev
Ambassador Extraordinary and Plenipotentiary of the Turkmen Republic in the Azerbaijan Republic

1934 ildə Liviyanın Tarabulus şəhərində anadan olmuşdur. 1952 ildən maarif sahəsində çalışmış, 1957 ildən Liviya Teleradiosunun diktoru işləmişdir. 1980 ildən maarif sahəsində, BMT proqramı üzrə fəaliyyət göstərmiş, Somali "BBC" radiosunda diktor, Liviyanın Qayana Respublikasında səfiri, 1985 ildən XİN Mərkəzi Aparatında şöbə müdiri, müşavir vəzifələrində işləmişdir. Hazırda Liviya Ərəb Cəmahiriyyəsinin Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.

Born 1934 in Tarabulus, Libya. Ambassador Extraordinary and Plenipotentiary of the Libyan Republic in the Azerbaijan Republic at present.



NASER MƏHƏMMƏD ƏBDÜ ƏL-SƏMİİ
Böyük Sosialist Xalq Liviya Ərəb Cəmahiriyyəsinin Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Naser Muhammed Abdu Al-Samii
Ambassador Extraordinary and Plenipotentiary of the Libyan Peoples Republic in the Azerbaijan Republic



NİKOLAY TİMOFEYEVİÇ RYABOV
Rusiya Federasiyasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Nikolay Timofeyevich Ryabov
Ambassador Extraordinary and Plenipotentiary of the Russian Federation in the Azerbaijan Republic

1946 ildə Rostov vilayətinin Salske şəhərində anadan olmuşdur. Novoçerkask Hərbi Məktəbini (1968) və Rostov Universitetini (1979) bitirmişdir. 1979 ildən müəllim, 1989 ildən millət vəkili, 1990 ildən RSFSR Ali Soveti Respublika Şurasının sədri, Ali Sovet sədrinin müavini, 1993 ildən Rusiya Federasiyası Mərkəzi Seçki Komissiyasının sədri, 1990 ildən Rusiya Federasiyasının Çexiya Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri vəzifələrində işləmişdir. Hazırda Rusiya Federasiyasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 1 övladı var.

Born 1946 in Salske city, Rostov region, Russian Federation. Graduated from the Novocherkask Military School in 1968; Rostov University in 1979. Ambassador Extraordinary and Plenipotentiary of the Russian Federation in the Azerbaijan Republic at present.
Married, has one child.




OLAV BERSTAD
Norveç Krallığının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Olav Berstad
Ambassador Extraordinary and Plenipotentiary of the Norvegian Kingdom in the Azerbaijan Republic

1953 ildə anadan olmuşdur. 1976 ildə Oslo Universitetini bitirmişdir. 1979 ildən Norveç Krallığının SSRİ-dəki Səfirliyində təhlükəsizlik üzrə yardımçı, 1980 ildən XİN-in əməkdaşı, 1982 ildən Norveç Krallığının Türkiyə Respublikasındakı Səfirliyində attaşe-katib, 1985 ildən Norveç Krallığının ABŞ-dakı Konsulluğunda konsul, 1987 ildən XİN-in mərkəzi aparatında məsul əməkdaş, 1990 ildən Norveç Krallığının ABŞ-dakı Səfirliyində katib, 1993 ildən Norveç Krallığının Rusiya Federasiyasındakı Səfirliyində müşavir, 1996 ildən XİN-in mərkəzi aparatında baş direktorun yardımçısı vəzifələrində işləmişdir. Hazırda Norveç Krallığının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiridir.

Born 1953. Graduated from the Oslo University in 1976. Ambassador Extraordinary and Plenipotentiary of the Norvegian Kingdom in the Azerbaijan Republic at present.



PAŞAYEV HAFİZ MİR CƏLAL OĞLU
Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli səfiri

Pashayev Hafiz Mir Calal oglu
Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the USA

1941 il mayın 2-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1958—1963 illərdə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsində təhsil almışdır. 1963 ildən Azərbaycan EA Fizika İnstitutunda laborant, kiçik elmi işçi, baş elmi işçi, 1979 ildən laboratoriya müdiri, BDU-nun müəllimi vəzifələrində işləmişdir. 1993 ilin fevral ayından Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli səfiridir. Fizika-riyaziyyat elmləri doktoru, professordur.
Evlidir, 2 övladı var.

Born 2 May 1941 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1963. Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the United States of America since 1992.
Married, has two children.



RƏŞİD TURAROVİÇ İBRAYEV
Qazaxıstan Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Rashid Turarovich Ibrayev
Ambassador Extraordinary and Plenipotentiary of the Kazakh Republic in the Azerbaijan Republic

1948 ildə anadan olmuşdur. 1970 ildə Daşkənd Politexnik İnstitutunu, 1989 ildə Moskva İctimai Elmlər Akademiyasını bitirmişdir. 1970 ildən Hidrogeologiya Ekspedisiyasında mühəndis-mexanik, 1971 ildən "Qızıl-Tu" Şirkətində mühəndis- konstruktor, 1972 ildən Qazaxıstan LKGİ MK-da şöbə müdirinin müavini, 1976 ildən Çimkənd Vilayət Komsomol Komitəsinin I katibi, 1978 ildən Türkestan Şəhər Partiya Komitəsinin I katibi, 1980 ildən Çimkənd Şəhər İcraiyyə Komitəsinin sədri, 1989 ildən Çimkənd Vilayət Partiya Komitəsində müfəttiş, 1991 ildən Çimkənd Vilayət İcraiyyə Komitəsi sədrinin müavini, 1992 ildən "Qazfarmbioprom" Konserninin 1-ci vitse-prezidenti, Çimkənd Vilayət Xalq Deputatları Şurasının sədri, 1994 ildən Qazaxıstan Respublikası Ali Sovetinin üzvü, 1996 ildən Qazaxıstan Respublikasının Hindistanda Fövqəladə və Səlahiyyətli səfiri vəzifələrində işləmişdir. Hazırda Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiridir. Tarix elmləri namizədidir.
Evlidir, 2 övladı var.

Born 1948. Graduated from the Dashkend Polytechnical Insttute in 1970; Academy of Social Sciences in 1989, Moscow. Ambassador Extraordinary and Plenipotentiary of the Kazakh Republic in the Azerbaijan Republic at present.
Married, has two children.



RİZAYEV RAMİZ HƏSƏNQULU OĞLU
Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiri

Rizayev Ramiz Hasangulu oglu
Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Russian Federation

1939 il noyabrın 2-də Azərbaycan Respublikası Naxçıvan MR-in Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1962 ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir.
1962 ildən Neft-Kimya Prosesləri İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, 1973 ildən laboratoriya müdiri, 1985 ildən institutun direktoru vəzifələrində işləmişdir. Hazırda Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiridir. Kimya elmləri doktoru (1974), professor (1977), Azərbaycan Respublikası EA-nın müxbir üzvüdür (1983).
Evlidir, 2 övladı var.

Born 2 November 1939 in Nakhchivan, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Universty in 1962. Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Russian Federation.
Married, has two children.



ROSS L.VİLSON
Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri


Ross L. Vilson
Ambassador Extraordinary and Plenipotentiary of the United States in the Azerbaijan Republic

1955 ildə Mineapolis şəhərində anadan olmuşdur. 1977 ildə Minnesota Universitetini bitirmiş, 1979 ildə Kolumbiya Universitetində magistr dərəcəsini almışdır. 1979 ildən Dövlət Departamentinin əməkdaşı, 1980 ildən ABŞ-ın SSRİ-dəki Səfirliyinin əməkdaşı, 1982 ildən Dövlət Departamentinin əməkdaşı, 1985 ildən ABŞ-ın Çexoslovakiyadakı Səfirliyinin əməkdaşı, 1987 ildən ABŞ-ın SSRİ-dəki Səfirliyinin əməkdaşı, 1992 ildən Dövlət Departamenti Konsulluq İdarəsində xüsusi köməkçi, İcra İdarəsi katibinin müavini, 1995 ildən ABŞ-ın Avstraliyada baş konsulu, 1997 ildən Yeni Müstəqil Dövlətlər üzrə Xüsusi Tapşırıqlar Üçün səfirin köməkçisi vəzifələrində işləmişdir. Hazırda ABŞ-ın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 2 övladı var.

Born 1955 in Minneapolis, USA. Graduated from the University of Minnesota in 1977; University of Columbia in 1979. Ambassador Extraordinary and Plenipotentiary of the USA in the Azerbaijan Republic at present.
Married, has two children.

1940 il martın 14-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1958—1963 illərdə M.F.Axundov adına Dövlət Xarici Dillər İnstitutunun alman dili şöbəsində təhsil almışdır. 1962 ildən "İnturist"də İşlər İdarəsi müdirinin müavini, 1970 ildən Azərbaycan KP MK-nın Xarici əlaqələr şöbəsində təlimatçı, 1974 ildən ADR-in Leypsiq şəhərində SSRİ konsulluğunda vitse-konsul, 1980 ildən Azərbaycan KP MK-da təlimatçı, 1982 ildən ADR-in Rostok şəhərində konsul, Azərbaycan Respublikasının Xarici İşlər naziri vəzifələrində işləmişdir. Hazırda Azərbaycan Respublikasının AFR-də Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 2 övladı var.

Born 14 March 1940 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Foreign Language in 1963. Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the German Federal Republic.
Married, has two children.



SADIQOV HÜSEYNAĞA MUSA OĞLU
Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Sadygov Huseynaga Musa oglu
Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the German Federal Republic

1956 il noyabrın 2-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Bakıdakı 27 saylı orta məktəbi bitirdikdən sonra 1973—1978 illərdə Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunun ingilis dili fakültəsində təhsil almışdır. Tələbəlik illərində tərcüməçilik etmişdir. 1978 ildən Quba şəhərindəki 3 saylı orta məktəbdə ingilis dili müəllimi olmuşdur. Ordu sıralarında xidmət etmiş, tərxis edilərdən sonra, 1980 ildən Quba şəhəri 1 saylı səkkizillik məktəbində ingilis dili müəllimi işləmişdir. 1981 ildən ADPXD İnstitutunda laborant, 1982 ildən orada aspirant, 1987 ildən müəllim, sonra baş müəllim işləmişdir. Filologiya elmləri namizədidir (1986). 10-dan artıq elmi məqaləsi çap edilmişdir. İngiltərədə (1988) işgüzar səfərdə olmuşdur. 1995 il aprelin 9-dan Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri, eyni zamanda Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında Azərbaycan Respublikasının daimi nümayəndəsidir.
Evlidir, 1 övladı var.

Born 2 November 1956 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute of Foreign Languages in 1978. Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Republic of Austria since 1995.
Married, has one child.



SADIQOV VAQİF İSMAYIL OĞLU
Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında Azərbaycan Respublikasının daimi nümayəndəsi

Sadygov Vagif Ismayil oglu
Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Republic of Austria



SƏLİMOV ELDAR NADİR OĞLU
Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində Fövqəladə və Səlahiyyətli səfiri

Salimov Eldar Nadir oglu
Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the United Arabian Emirates

1967 il aprelin 8-də Gürcüstan Respublikasının Tbilisi şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1990 ildə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir. 1990 ildən Azərbaycan Xarici Ticarət Assosiasiyasında ekspert, 1992 ildən XİN-in Beynəlxalq İqtisadi Əlaqələr İdarəsində II katib, 1994 ildən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı Səfirliyində II katib, 1996 ildən XİN-in Beynəlxalq İqtisadi Əlaqələr İdarəsində II katib, 1999 ildən ATƏT-in Kosovadakı Müşahidə Missiyasında müşahidəçi, XİN-in idarəsində II katib, I katib, şöbə rəisi vəzifələrində işləmişdir. 2001 ilin fevral ayından Azərbaycan Respublikasının BƏƏ-də Fövqəladə və Səlahiyyətli səfiridir.

Born 8 April 1967 in Tbilisi, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1990. Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the United Arabian Emirates since 2001.



STANİSLAV STAVYARSKİ
Polşa Respublikasının Azərbaycan Respublikasında Müvəqqəti İşlər vəkili

Stanislav Stavyarski
Charge dAffaires and Interim of the Polish Republic in the Azerbaijan Republic

1933 il martın 26-da anadan olmuşdur. Beynəlxalq hüquq və tarix ixtisası üzrə ali təhsil almışdır. Xarici İşlər Nazirliyində və Polşanın xaricdəki nümayəndəliklərində müxtəlif sahələrdə, o cümlədən departament direktoru və Monqolustan, Əlcəzair respublikalarında səfir vəzifələrində işləmişdir. 1998 ilin sentyabr ayından Polşa Respublikasının Azərbaycan Respublikasında Müvəqqəti İşlər vəkilidr.
Evlidir.

Born 1933 March 26.. Spesialist on International law and history. Charge dAffaires and Interim of the Polish Republic in the Azerbaijan Republic since 1998.
Married.

1943 ildə anadan olmuşdur. 1965 ildə Kuza Universitetinin tarix fakültəsini bitirmişdir. 1965 ildən "Efori Sud" Orta Məktəbində müəllim, 1966 ildən A.D.Xenoral adına Tarix və Arxeologiya İnstitutunda elmi işçi, 1977 ildən Dövlət Arxivləri Baş İdarəsində baş arxiv işçisi, 1984 ildən "N.İorda" Tarix İnstitutunda baş elmi işçi, 1990 ildən Milli Birlik Müvəqqəti Şurasının üzvü, 1990 ildən Rumıniya Parlamentinin üzvü, eyni zamanda "Ovidius" Universitetində professor köməkçisi vəzifələrində işləmişdir. Hazırda Rumıniya Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 1 övladı var.

Born 1943. Graduated from the Kuza University in 1965. Ambassador Extraordinary and Plenipotentiary of the Rumanian Republic in the Azerbaijan Republic at present.
Married, has one child.



TASİM CEMİL
Rumıniya Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Tasim Cemil
Ambassador Extraordinary and Plenipotentiary of the Rumanian Republic in the Azerbaijan Republic

1939 ildə Osaka şəhərində anadan olmuşdur. 1963 ildə Kioto Universitetini bitirmişdir. 1963 ildən XİN-in əməkdaşı, 1981 ildən Yaponiyanın ABŞ-dakı Səfirliyində I katib, 1985 ildən Yaponiyanın Türkiyə Respublikasındakı Səfirliyində I katib, 1988 ildən Yaponiyanın Toronto şəhərində (Kanada) konsulu, 1990 ildən XİN-in Şimali Amerika İdarəsində regional əlaqələndiricisi, 1993 ildən XİN-in Avropa və Okeaniya İdarəsi Rusiya şöbəsi rəisinin müavini, həmin idarənin MDB şöbəsinin rəisi, 1995 ildən Yaponiyanın Vladivostok şəhərində (Rusiya) baş konsulu vəzifələrində işləmişdir. Hazırda Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 4 övladı var.

Born 1939 in Osaka. Graduated from the Kioto University in 1963. Ambassador Extraordinary and Plenipotentiary of the Japan in the Azerbaijan Republic at present.
Married, has four children.



TETSUYA HİROSE
Yaponiyanın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Tetsuya Hirose
Ambassador Extraordinary and Plenipotentiary of the Japan in the Azerbaijan Republic



VƏKİLOV İSRAFİL HACI OĞLU
Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Vekilov Israfil Hajy oglu
Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Arab Republic of Egypt

1949 il mayın 18-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Moskva Şərq Dilləri İnstitutunu bitirmişdir. Müxtəlif diplomatik vəzifələrdə çalışmışdır. 1993 ilin noyabr ayından Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. O, eyni zamanda Suriya Ərəb Respublikası və Livan Respublikasında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiridir.
Evlidir, 2 övladı var.

Born 18 May 1949 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Moscow Institute of East Languages in 1973. Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic in the Arab Republic of Egypt since 1993.
Married, has two children.



ZEYNALOV HƏSƏN SULTAN OĞLU
Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəsi

Zeynalov Hasan Sultan oglu
Permanent Representative of the Nakhchivan Autonomous Republic in Baku

1951 il yanvarın 1-də Azərbaycan Respublikası Naxçıvan MR Şərur rayonunun Yengicə kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Neft və Kimya İnstitutunu, 1976 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə 1967 ildə Bakı şəhərində Azərbaycan Dəmir Yolu İdarəsində fəhləliklə başlamışdır. Həmin ildən Bakı Şəhər XDS İK Texniki İnventarlaşdırma Bürosunda texnik, baş mühəndis, 1983 ildən Səbail Rayon Kommunal Təsərrüfatı Şöbəsinin müdiri, 1986 ildən Texniki İnventarlaşdırma Bürosunda sahə rəisi vəzifələrində işləmişdir. 1992 ilin martından Naxçıvan MR-in Bakı şəhərində Daimi nümayəndəsidir. I çağırış Naxçıvan MR Ali Məclisinə deputat seçilmişdir.
Evlidir, 3 övladı var.

Born 1 January 1951 in Yengija village, Sharur district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1975. Permanent Representative of the Nakhchivan Autonomous Republic in Baku since 1992.
Married, has three children.

1954 ildə anadan olmuşdur. 1976 ildə Gürcüstan Politexnik İnstitutunu bitirmişdir. Texnika elmləri doktorudur. 1982 ildən Gürcüstan Politexnik İnstitutunda baş elmi işçi, bölmə müdiri, 1983 ildən Gürcüstan Texniki Universitetində dosent, dekan, kafedra müdiri vəzifələrində işləmişdir. 1995 ildən Gürcüstan Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir.
Gürcüstan Dövlət mükafatı laureatıdır (1990).
Evlidir, 2 övladı var.

Born 1954 in Georgia. Graduated from Georgian Polytechnical Institute. Ambassador Extraordinary and Plenipotentiary of the Georgian Republic in the Azerbaijan Republic at present.
Married, has two children.



ZURAB AKAKİYEVİÇ QUMBERİDZE
Gürcüstan Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri

Zurab Akakiyevich Gumberidze
Ambassador Extraordinary and Plenipotentiary of the Georgian Republic in the Azerbaijan Republic

ELM VƏ TƏHSİL MÜƏSSİSƏLƏRİ



ABBASOV İSMAYIL TEYMUR OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü

Abbasov Ismayil Teymur oglu
Correspordinq Member of the Azerbaijan National Akademy of Sciences.

1922 il avqustun 21-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1939—1943 illərdə N.Nərimanov adına ATİ-nin müalicə-profilaktika fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1943—1946 illərdə ordu sıralarında alay həkimi kimi başlamışdır. 1946—1950 illərdə ATİ-nin fakültətiv terapiya kafedrasında ordinator, 1950—1968 illərdə Azərbaycan Onkoloji İnstitutunda Terapevtik şöbənin müdiri, 1968—1971 illərdə ATİ Qospital Terapiya kafedrasının professoru, 1971 ildən isə Azərbaycan Elmi-Tədqiqat Radiologiya-Rentgenologiya Elmi-Tədqiqat İnstitutu Terapevtik şöbəsinin rəhbəri işləmişdir. Tibb elmləri doktorudur (1966). Həzm orqanları xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikası istiqamətində tədqiqat aparmışdır. 15 monoqrafiya, 270 elmi məqalənin müəllifidir. Onlardan 40-ı ABŞ, Yaponiya və Kanadada çap olunub. 1962—1988 illərdə Çexoslovakiya, Yunanıstan, Fransa, Macarıstan, İsveçrə, ABŞ, Kanada ölkələrində elmi ezamiyyətdə olmuşdur. Azərbaycan Dövlət mükafatı laureatıdır (1988).
Azərbaycan Ali Sovetinin Fəxri fərmanı, İkinci dünya müharibəsində iştirakına görə 9 orden və medalla təltif edilmişdir. Azərbaycanın Əməkdar elm xadimidir.

Born 21 auqust 1922 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the N.Narimanov Azerbaijan State Medical Institute in 1943. Head of the Department of Therapeutics, the Scientific—Research Institute of Gastroentrology, the Ministry of Health of the Azerbaijan Republic.



ABDULLAYEV ELŞAD İSLAM OĞLU
Azərbaycan Beynəlxalq Universitetinin rektoru

Abdullayev Elshad Islam oglu
Rektor of the Azerbaijan International University

1954 il sentyabrın 25-də Azərbaycan Respublikasının Kürdəmir rayonunda anadan olmuşdur. Azərbaycanlıdır.1979 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1979—1980 illərdə ADU-nun hüquq fakültəsində müəllim, 1980—1981 illərdə Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunda elmi işçi kimi fəaliyyət göstərmişdir. 1981—1984 illərdə SSRİ EA-nın Dövlət və Hüquq İnstitutunda məqsədli aspiranturanı bitirmişdir. 1985—1990 illərdə Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunda elmi işçi, 1990 ildən ADU-nun müəllimi vəzifələrində çalışmışdır. 1994 ildən "Dövlət və hüquq" jurnalının təsisçisi və baş redaktoru, 1995 ildən M.Ə.Rəsulzadə adına BDU-nun hüquq fakültəsinin dosenti,1998 ildən professorudur. Hüquq elmləri doktorudur. 63 elmi nəşrin müəllifi, beynəlxalq elmi konfransların iştirakçısıdır. 1997 ildən Azərbaycan Beynəlxalq Universitetinin təsisçisi və rektorudur. Azərbaycan Jurnalistlər Birliyinin "Azərbaycan Bayrağı" və "Vətən" diplomlarına layiq görülmüşdür.

Born 25 September 1954 in Kurdemir district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1979. Rector of the Azerbaijan International University since 1997.



ABBASOV MİDHƏT TEYMUR OĞLU
Azərbaycan Milli EA Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunun direktoru, Azərbaycan MEA-nın həqiqi üzvü

Abbasov Midhet Teymur oglu
Member of the Azerbaijan National Academy of Sciences, Director of the Institute of Deep Oil-Gas-Field Problems, Azerbaijan National Akademy of Sciences

1926 il iyulun 31-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1949 ildə Azərbaycan Sənaye İnstitutunun neft-mədən fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1949 ildə "Azərneft" Birliyinin "Qaradağneft" trestində başlamışdır. 1951 ildən Azərbaycan EA-nın neft ekspedisiyasında kiçik elmi işçi, böyük elmi işçi, laboratoriya müdiri, elmi işlər üzrə rəis müavini, Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma İnstitutunun yeraltı Hidrodinamika laboratoriyasının rəisi vəzifələrində işləmişdir.
1960 ildən Azərbaycan EA Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda laboratoriya rəhbəri, elmi işlər üzrə direktor müavini vəzifələrində işləmişdir. 1971 ildən həmin institutun direktorudur. 1976 ildən Yer haqqında Elmlər Bölməsinin akademik katibi, 1990 ildən Azərbaycan Respublikası EA-nın vitse-prezidenti olmuşdur. Texnika elmləri doktoru (1962), professordur (1965). 43 elmi ixtiranın, 500-ə qədər elmi əsərin, o cümlədən 13 monoqrafiyanın müəllifidir. SSRİ EA-nın neft və qaz yataqlarının işlənməsi problemləri üzrə elmi şurasının sədri, SSRİ EA Yer haqqında Elmlər üzrə Əlaqələndirmə Şurasının, SSRİ elm və texnika üzrə Dövlət komitəsi neft və qaz problemləri üzrə elmi şurasının üzvü, SSRİ Neft-Qaz Nazirliyi texniki şuralarının büro üzvü, SSRİ Nazirlər Soveti yanında istilik-enerji kompleksi üzrə büronun elmi-texniki şurasının, SSRİ Lenin və Dövlət Mükafatları üzrə Komitənin dağ elmləri şöbəsinin üzvü, SSRİ Neft Sənayesi Nazirliyində SSRİ EA-nın daimi nümayəndəsi olmuşdur. Uzun müddət Dövlət Plan Komitəsi, Dövlət Elm və Texnika Komitəsi və SSRİ NS yanında neft və qaz yataqlarının işlənməsinin nəzəri və praktiki məsələlərinin, Neft-Qazçıxarmanın inkişafı problemlərinin ekspertizası üzrə dövlət komissiyalarının işinə rəhbərlik etmişdir. Azərbaycan Respublikası Prezident Şurasının üzvü (1991), Azərbaycan Respublikasının Dövlət katibi (1991—1992), SSRİ Xalq deputatı, iki çağırış Bakı şəhər Sovetinin deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. Azərbaycanın Əməkdar elm xadimi, respublika Dövlət mükafatı, Akademik İ.M.Qubkin adına mükafat laureatıdır.
Evlidir, 2 övladı var.

Born 31 July 1926 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Industrial Institute. Director of the İnstitute of Deep Oil-Gas-Field Problems, Azerbaijan National Akademy of Sciences.
Married, has two children.

1950 il dekabrın 4-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. Əmək fəaliyyətinə 1976 ildə Azərbaycan Elmlər Akademiyasında başlamışdır. Yüzə qədər məqalə və altı kitabın müəllifidir. Filologiya elmləri doktoru, professordur. Bakı Slavyan Universitetinin rektoru, Azərbaycan Respublikası Mədəniyyət Fondunun sədridir. Yazıçılar Birliyi İdarə Heyətinin üzvüdür.

Born 4 December 1950 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1973. Chairman of the Cultural Fund of the Azerbaijan Republic. Rector of the Baku Slavonian University at present.



ABDULLAYEV KAMAL MEHDİ OĞLU
Bakı Slavyan Universitetinin rektoru

Abdullayev Kamal Mehdi oglu
Rector of the Baku Slavonian University.

1937 il noyabrın 24-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.1955—1960 illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda, 1960—1966 illərdə isə Azərbaycan Dövlət Politexnik İnstitutunda təhsil almışdır. Əmək fəaliyyətinə "Neftçi" idman cəmiyyətində məşqçi kimi başlamışdır. 1964 ildən fəxri idman ustası adı, 1970 ildə texnika elmləri namizədi elmi dərəcəsi almışdır. 1970—1983 illərdə Lipetsk Politexnik İnstitutunda, 1983—1987 illərdə isə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda kafedra müdiri olmuşdur. 1987 ildən Azərbaycan Dövlət Bədən Tərbiyəsi Akademiyasının rektorudur.
85 elmi məqalə və bir monoqrafiyanın müəllifidir.
Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir (1957).
Evlidir, 2 övladı var.

Born 24 November 1937 in Bulbule settlement, Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of the Physical Culture in 1966. Rector of the Azerbaijan State Institute of the Physical Culture since 1987
Married, has two children.



ABİYEV AĞACAN QULAM OĞLU
Azərbaycan Dövlət Bədən Tərbiyəsi Akademiyasının rektoru

Abiyev Agajan Gulam oglu
Rector of the Azerbaijan State Institute of the Physical Culture



AĞAYEV BƏHLUL İSFƏNDİYAR OĞLU
Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru

Agayev Bahlul Isfandiyar oglu
Rector of the Azerbaijan State Pedagogical University

1937 il oktyabrın 28-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Qafan rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1963 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. 1963—1970 illərdə Sabirabad və Saatlı rayonlarında müəllim, 1970—1991 illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda laborant, assistent, baş müəllim, dosent, 1991 ildən həmin institutda professor və kafedra müdiri, 1994—1996 illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində tədris işləri üzrə prorektor, 1996 ildən həmin universitetin rektor əvəzi vəzifələrində işləmişdir. 1997 ilin iyun ayından Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorudur. 55-dən çox elmi əsərin, o cümlədən bir monoqrafiyanın, 4 kitabçanın və 5 dərs vəsaitinin müəllifidir.
Evlidir, 3 övladı var.

Born 28 October 1937 in Gafan district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1963. Rector of the Azerbaijan State Pedagogical University since 1997
Married, has three children.



AĞAYEV BÖYÜKKİŞİ AĞA OĞLU
M.Topçubaşov adına Kliniki Təbabət İnstitutunun direktoru, Azərbaycan Milli EA-nın həqiqi üzvü

Agayev Boyukkishi Aga oglu
Director of the Scientific Research Institute of Gastroenterology, The ministry of the Health of the Azerbaijan Republic, Member of the Azerbaijan National Academy of Sciences

1928 il sentyabrın 10-da Azərbaycan Respublikasının Sabirabad rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1944—1949 illərdə Azərbaycan Tibb İnstitutunda təhsil almışdır. 1949 ildən Sabirabad Rayon Xəstəxanasında həkim işləmiş, 1954—1957 illərdə Moskva Tibb İnstitutunun aspirantı olmuşdur. 1958—1960 illərdə Həştərxan Tibb İnstitutunun Cərrahiyyə kafedrasının assistenti, 1960—1967 illərdə Azərbaycan Elmi-Tədqiqat Onkologiya İnstitutunun baş elmi işçisi, Cərrahiyyə şöbəsinin müdiri, 1967 ildən Azərbaycan Səhiyyə Nazirliyi Elm şöbəsinin rəisi, Tibb İnstitutu Cərrahiyyə kafedrasının professoru, 1973 ildən Azərbaycan Tibb Universiteti Cərrahi xəstəliklər kafedrasının müdiri, 1988 ildən Elmi-Tədqiqat Qastroenterologiya İnstitutunun direktoru vəzifələrində işləmişdir. Hazırda M.Topçubaşov adına Kliniki Təbabət İnstitutunun direktorudur. Qarın həzm sistemi (qastroenterologiya), onkologiya, ümumi cərrahiyyə istiqamətində tədqiqat aparmışdır. 5 monoqrafiya, dərslik və 200 elmi məqalənin müəllifidir. 1990—1995 illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. Əməkdar elm xadimidir.

Born 10 September 1928 in Sabirabad district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan Medical Institute in 1949. Director of the Scientific Research Institute of Gastroenterology of the Ministry of Health of the Azerbaijan Republic since 1988.



AĞAYEV TELMAN MƏMMƏDƏLİ OĞLU
Azərbaycan MEA-nın müxbir üzvü, A.İ.Qarayev adına Fiziologiya İnstitutunun direktoru

Agayev Telman Memmedali oglu
Director, A.I.Garayev Institute of Physiology, Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1935 ildə Qərbi Azərbaycanda (indiki Ermənistan) Sisian rayonunun Vaqudi kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1959 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun zootexnika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.
1960 ildən Naxçıvan MR Nazirlər Sovetində təlimatçı, referent, 1963 ildən MR-in Kənd Təsərrüfatı Nazirliyində heyvandarlıq şöbəsinin müdiri, 1967 ildən Azərbaycan EA-nın fiziologiya bölməsində kiçik elmi işçi, 1973 ildən Fiziologiya İnstitutunda baş elmi işçi, 1975 ildən laboratoriya rəhbəri, 1993 ildən institutun elmi işlər üzrə direktor müavini vəzifələrində işləmişdir. 1999 ildən həmin institutun direktorudur.
1969 ildə namizədlik, 1983 ildə doktorluq dissertasiyalarını müdafiə etmiş, 1989 ildə professor elmi adını almışdır. Azərbaycan Milli EA-nın müxbir üzvüdür. 205 elmi məqalə və monoqrafiyanın müəllifidir. Respublika Biokimya və Molekulyar Biologiya Cəmiyyəti İdarə Heyətinin üzvü, Fiziologiya Cəmiyyətinin vitse-prezidentidir. Yeni Azərbaycan Partiyasının üzvüdür.
Evlidir, 4 övladı var.

Born 1935 in Vagudi village, Sisian district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1959. Director, A.I.Garayev Institute of Physiology, Corresponding Member of the Azerbaijan National Academy of Sciences since 1999.
Married, has four children.



ALXAZOV TOFİQ HƏSƏN OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü

Alkhazov Tofig Hasan oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1932 il sentyabrın 27-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1950 ildən M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun kimya-texnologiya fakültəsində təhsil almışdır.
Əmək fəaliyyətinə Yeni Bakı Neft Emalı Zavodunda operator kimi başlamışdır. 1955 ildən operator, baş operator işləmişdir. 1957 ildən M.Əzizbəyov adına NKİ-də aspirant olmuşdur. 1960 ildən Fiziki kimya kafedrasının assistenti, Elmi-Tədqiqat şöbəsində bölmə rəhbəri, dosent, 1970 ildən institutun elmi işlər üzrə prorektoru, 1970 ildən Fiziki kimya kafedrasının müdiri vəzifələrində işləmişdir. Hazırda Bakı Dövlət Universitetində çalışır. 4 monoqrafiyanın, 3 dərsliyin, 7 dərs vəsaitinin, 400-dən çox elmi məqalənin, 100-dən çox müəlliflik şəhadətnaməsinin, 6 patentin müəllifidir.
Azərbaycan Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir.

Born 27 September 1932 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the M.Azizbeyov Azerbaijan Industrial Institute in 1950. Head of the Chair of Physical Chemistry since 1970.



ALLAHVERDİYEV CƏLAL EYVAZ OĞLU
Bakı Dövlət Universiteti Əməliyyatlar tədqiqi və riyazi modelləşdirmə kafedrasının müdiri, Azərbaycan Milli EA-nın həqiqi üzvü

Allahverdiyev Jalal Eyvaz oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1929 il sentyabrın 17-də Azərbaycan Respublikasının Şuşa şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1946—1951 illərdə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsində təhsil almışdır. 1953 ildən universitetdə müəllim, baş müəllim və dosent, 1960 ildən Azərbaycan EA Hesablama Mərkəzində laboratoriya rəhbəri, elmi işlər üzrə direktor müavini, 1965 ildən Kibernetika İnstitutunda laboratoriya müdiri və direktor müavini, direktor, 1988 ildən ADU-nun elmi işlər üzrə prorektoru vəzifələrində işləmişdir. 1994 ildən BDU Əməliyyatlar tədqiqi və riyazi modelləşdirmə kafedrasının müdiridir. Fizika-riyaziyyat elmləri doktoru (1968), professor (1969), Azərbaycan EA-nın həqiqi üzvü (1972), Azərbaycanın Əməkdar elm xadimidir (1982). 71 elmi əsərin müəllifidir.
Azərbaycan Dövlət mükafatı laureatıdır (1972).

Born 17 September 1929 in Shusha, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1951. Head of the Chair of Processes Study and Mathematic Modelling, Faculty of Applied Mathematics and Cybernatics, Azerbaijan State University since 1994.



ARZUMANLI VAQİF MİNAD OĞLU
Azərbaycan MEA Milli Münasibətlər İnstitutunun direktoru

Arzumanly Vagif Minad oglu
Director of the Institute of National Relations, Azerbaijan Academy of Sciences

1947 il martın 5-də Azərbaycan Respublikası Quba rayonunun Söhüb kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1964—1969 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1969 ildən Xudat şəhərindəki 2 saylı orta məktəbdə dil-ədəbiyyat, tarix və alman dili müəllimi kimi başlamışdır. 1970—1972 illərdə əvvəl Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun, sonra M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu və Litva EA Litva Dili və Ədəbiyyatı İnstitutunun aspiranturasında təhsil almışdır. 1973—1980 illərdə Nizami adına Ədəbiyyat İnstitutunda elmi işçi, böyük elmi işçi, 1989—1990 illərdə Azərbaycan KP MK-da milli məsələlər üzrə məsləhətçi vəzifələrində işləmişdir. 1992 ildən Azərbaycan EA Milli Münasibətlər İnstitutunun direktorudur. Filologiya elmləri doktoru (1984), professor (1992), Azərbaycan Yazıçılar Birliyinin üzvü (1979), "Beynəlxalq Ekoinformasiya Akademiyası"nın həqiqi üzvü (1996), politoloq, siyasi icmalçıdır. "Elturan" ("Milli məsələlər") jurnalının baş redaktorudur (1992). 1974 ildən BDU-nun müəllimidir.
500-ə qədər məqalənin, kitab və monoqrafiyaların müəllifidir. Litva və Belorusiya Respublikaları Ali Sovetlərinin Fəxri fərmanları ilə (1976, 1990) təltif edilmişdir.
Evlidir, 4 övladı var.

Born 5 March 1947 in village Sohub, Guba district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1969. Director of the Institute of the National Relations of the Azerbaijan Academy of Sciences since 1992.
Married, has four children.

1938 il sentyabrın 2-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1955—1960 illərdə ADU-nun geologiya-coğrafiya fakültəsində təhsil almışdır.
1961 ildən BDU-da müəllim, dosent, professor vəzifələrində işləmiş, 1973—1981 illərdə geologiya-coğrafiya fakültəsinin dekanı olmuşdur. 1986 ildən geologiya fakültəsi Faydalı qazıntılar kafedrasının müdiridir. Geologiya-minerologiya elmləri doktoru (1975), professor (1976), Azərbaycan EA-nın müxbir üzvüdür (1989).
Azərbaycan Dövlət mükafatı laureatıdır (1978).

Born 2 September 1938 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1960. Head of the Department of Minerals, Baku State University since 1986.



BABAZADƏ VASİF MƏMMƏDAĞA OĞLU
BDU Faydalı qazıntılar kafedrasının müdiri, Azərbaycan Milli EA-nın müxbir üzvü

Babazade Vasif Memmedaga oglu
Head of the Department of Minerals, Baku State University

1947 il dekabrın 27-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1969 ildə Azərbaycan Dövlət Konservatoriyasını, 1971 ildə Moskva Dövlət Konservatoriyasının aspiranturasını bitirmişdir.
Əmək fəaliyyətinə 1971 ildə Azərbaycan Dövlət Konservatoriyasında başlamışdır. Əvvəlcə müəllim, sonra baş müəllim, dosent, professor və rektor vəzifələrində işləmişdir. 1991 ildən Bakı Musiqi Akademiyasının rektorudur. 1972 ildə Əməkdar artist, 1978 ildə Xalq artisti və 1991 ildə SSRİ Xalq artisti fəxri adlarına layiq görülmüşdür. Azərbaycan Dövlət mükafatı laureatıdır (1985).
Evlidir, 1 övladı var.

Born 27 December 1947 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Conservatoire in 1969. Rector of the Baku Music Academy since 1991.



BƏDƏLBƏYLİ FƏRHAD ŞƏMSİ OĞLU
Azərbaycan Musiqi Xadimləri İttifaqının sədri, Bakı Musiqi Akademiyasının rektoru

Badalbeyli Farhad Shamsi oglu
Chairman of the Union of Music Workers of the Azerbaijan Republic, Rector of the Baku Music Academy



BUDAQOV BUDAQ ƏBDÜLƏLİ OĞLU
Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, Azərbaycan Milli EA-nın həqiqi üzvü, H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun direktoru

Budagov Budag Abdulali oglu
Member of the Azerbaijan National Academy of Sciences

1928 il fevralın 23-də Qərbi Azərbaycanda (idiki Ermənistan) Zəngibasar rayonunun Çobankərə kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1947—1951 illərdə Azərbaycan Pedaqoji İnstitutunun coğrafiya fakültəsində təhsil almışdır.
Əmək fəaliyyətinə 1951 ildə Azərbaycan EA Coğrafiya İnstitutunda kiçik elmi işçi kimi başlamışdır. 1958 ildən baş elmi işçi, 1967 ildən "Landşaftşünaslıq-fiziki coğrafiya" şöbəsinin rəhbəri, eyni zamanda elmi işlər üzrə direktor müavin vəzifələrində işləmişdir. 1988 ildən Azərbaycan EA H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun direktorudur. Coğrafiya elmləri doktoru (1968), professor (1969), Azərbaycan EA-nın akademiki (1989), respublika Coğrafiya Cəmiyyətinin prezidentidir (1990).
600-dən çox elmi əsərin, monoqrafiya və dərsliklərin müəllifidir.
1997 ildən Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədridir.
Azərbaycan Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir (1988).

Born 23 February 1928 in Chobankere village, Zengibasar district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1951. Director of the H.A.Aliyev Institute of Geografy, Azerbaijan National Academy of Sciences since 1988.
Married, has three children.



BÜNYADOV TEYMUR ƏMİRASLAN OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü

Bunyadov Teymur Amiraslan oglu
Corresponding Member of the Azerbaijan Academy of Sciences

1928 il yanvarın 20-də Azərbaycan Respublikası Ağstafa rayonunun Muğanlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1946—1951 illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1951 ildə Azərbaycan EA Tarix İnstitutunda kiçik elmi işçi kimi başlamışdır. 1951—1955 illərdə SSRİ EA Maddi Mədəniyyət İnstitutunda aspirant olmuşdur. 1955—1957 illərdə Azərbaycan EA Tarix İnstitutunda kiçik elmi işçi, baş elmi işçi vəzifələrində çalışmışdır. 1967 ildən indiyədək Tarix İnstitutunun tarix və etnoqrafiya şöbəsinin müdiridir. Tarix elmləri doktoru (1968), professor (1970), Azərbaycan Milli EA-nın həqiqi üzvüdür (2001). 100-dən çox elmi məqalənin, monoqrafiya və kitabın müəllifidir.
Evlidir, 2 övladı var.

Born 20 January 1928 in Muganli village, Agstafa district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1951. Head of a department at the Institute of Archeology and Ethnography Academy of Sciences since 1994.
Married, has two children.

1957 il avqustun 17-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Göyçə mahalı Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1980 ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Həmin ildən Kurqan şəhərində cərrah işləmiş, 1984 ildə Q.A.İlizarov adına Bərpaedici Travmatologiya və Ortopediya Elmi Mərkəzinin əyani aspiranturasına qəbul olunmuşdur. 1989 ildə "Axondropiaziyalı xəstələrin baldırlarının eyni vaxtda uzadılması boyun artırılmasının birinci etapı kimi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1990 ildən Azərbaycan Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda elmi işçi, baş elmi işçi, elmi katib vəzifələrində çalışmışdır. 1999 ildən həmin institutun direktorudur. Tibb elmləri doktorudur (1999). 60 elmi əsərin, 2 ixtiranın və bir neçə səmərələşdirici təklifin müəllifidir.
Azərbaycan Respublikasının Əməkdar həkimidir (2000).
Evlidir, 2 övladı var.

Born 1957 August 17 in Dashkend village, Basarkechar district, Goyja region, West Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Medical Institute in 1980. Director of the Azerbaijan Scientific—Research Institute for Traumatology and Orthopaedy since 1999.
Married, has two children.



CANBAXIŞOV QƏLƏNDƏR SURXAY OĞLU
Azərbaycan Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun direktoru

Janbakhyshov Galandar Surkhay oglu
Director of the Azerbaijan Scientific-Research Institute for Traumatology and Orthopaedy

Neft-Qaz geologiyası sistemlərinin petrofiziki və geoloji məlumatlar əsasında modelləşdirilməsi və proqnozlaşdırılmasının elmi əsaslarının və üsullarının inkişafında xidmətləri vardır. Çoxölçülü analizin üsulları əsasında quyuların kompleks geofiziki tədqiqinin prinsipcə yeni interpretasiya üsullarını təklif etmişdir. 107 elmi əsərin, o cümlədən 5 monoqrafiyanın müəllifidir. Geologiya-mineralogiya elmləri doktoru, İ.M.Qubkin adına mükafat laureatıdır.

Corresponding Member of the Azerbaijan National Academy of Sciences. Doctor of geology and mineralogy.



CƏFƏROV İSGƏNDƏR SADIX OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü

Jafarov Iskender Sadykh oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences



CAVADZADƏ MİRMƏMMƏD CAVAD OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru

Javadzade Mirmemmed Javad oglu
Member of the Azerbaijan National Academy of Sciences

1927 il mayın 18-də Azərbaycan Respublikasının Lənkəran şəhərində anadan olmuşdur. 1943—1948 illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində təhsil almışdır.
1948 ildən Astara rayon xəstəxanasının baş həkimi, cərrahiyyə şöbəsinin müdiri, 1950 ildən Lənkəran rayonlararası xəstəxanasının cərrahı işləmişdir. 1951—1954 illərdə N.İ.Piroqov adına II Moskva Tibb İnstitutunun fakültə cərrahlığı klinikasının aspirantı olmuş və namizədlik dissertasiyası müdafiə etmişdir. 1954 ildən Krım Tibb İnstitutunda urologiya üzrə assistent, dosent, 1957 ildən N.İ.Piroqov adına II Moskva Tibb İnstitutunun urologiya kafedrasının assistenti işləmişdir. 1963 ildən Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun urologiya və operativ nefrologiya kafedrasının müdiri, 1966 ildən Respublika Kliniki Uroloji Xəstəxanasının rəhbəri, 1975 ildən Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektorudur. Tibb elmləri doktoru (1962), professordur (1964). SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü (1971), Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvüdür (1980). "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. 10 monoqrafiya, 4 dərs vəsaiti, 50 metodiki vəsait, 15 müəlliflik şəhadətnaməsi, 40 səmərələşdirici təklifi, 150-yə qədər məqalə və elmi əsərləri vardır. Azərbaycan Ayıqlıq və Sağlamlıq Cəmiyyətinin sədri (1985), Azərbaycan Uroloqlar Cəmiyyətinin sədri, Çexoslovakiyanın Purkinye adına Tibb Cəmiyyətinin fəxri üzvü (1972), Bolqarıstan Urologiya Cəmiyyətinin fəxri üzvü (1986), Orta Şərq ölkələrinin Transplantoloqları Cəmiyyətinin üzvü (1994), Avropa Uroloqlar Assosiasiyasının üzvüdür. SSRİ və Azərbaycan SSR Dövlət mükafatı laureatıdır (1974). Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı (1977), Lenin, "Oktyabr inqilabı", "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir. SSRİ XTNS-nin qızıl, gümüş və bürünc medallarına layiq görülmüşdür. Azərbaycan SSR Ali Sovetinin deputatı (IX — XII çağırış) seçilmişdir.
Evlidir, 2 övladı var.

Born 1927 May 18 in Lenkeran, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Medical Institute in 1948. Rector of the A.Aliyev Azerbaijan Advanced Training Institute for Doctors since 1975.
Married, has two children.

Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının rektorudur. Azərbaycan Aqrokimya məktəbinin yaradıcılarından biri kimi tanınır. Kənd Təsərrüfatı elmləri doktoru, professordur. Torpaqların münbitliyinin tənzimlənməsi üsulları, müxtəlif tipli gübrələrin kənd təsərrüfatı bitkilərinin məhsuldarlığına təsiri, Azərbaycan torpaqlarının rekultivasiyasının nəzəri əsasları onun tədqiqat sahəsidir. 180-dən artıq elmi əsərin, 8 monoqrafiya və dərsliyin müəllifidir.

Rector of the Agricultural Academy. Corresponding Member of the Azerbaijan National Academy of Sciences.



CƏFƏROV MƏMMƏDTAĞI İBRAHİM OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, Kənd Təsərrüfatı Akademiyasının rektoru

Jafarov Memmedtagy Ibrahim oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1915 il dekabrın 30-da Azərbaycan Respublikası Hacıqabul rayonunun Rənçbər kəndində anadan olmuşdur. Azərbaycanlıdır. ADU-nun kimya fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1939 ildə ADU-da assistent kimi başlamışdır. 1945 ildən Azərbaycan EA Kimya İnstitutunda dosent, laboratoriya müdiri vəzifələrində çalışmışdır. 1950—1957 illərdə Moskva şəhərində doktorantura keçmiş, eyni zamanda akademik S.P.Korolyovla bərabər raket yanacağı almaq üzərində işləmişdir. İlk dəfə onun kəşf etdiyi neft və neft-kimya karbohidrogenlərindən iki növ (Naftil 1 B və disil) səmərəli raket yanacağı öyrənilərək istehsalatda tətbiq olunmuşdur. 1959 ildən indiyədək Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda Kinetika və kataliz laboratoriyasının müdiridir.
265-dən artıq elmi məqaləsi çap olunmuş və müəlliflik şəhadətnaməsi almışdır. 6 medal və Fəxri fərmanla (1985) təltif edilmişdir.

Born 1915 December 30 in Renjber village, Kalinino district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State University. Head of the Laboratory of Kinetics and Catalysis, Y.H.Memmedaliyev Institute of Oil-Chemistry Processes since 1959.



DADAŞOV BİLAL ATƏŞ OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu Kinetika və kataliz laboratoriyasının müdiri

Dadashov Bilal Atash oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences




DAŞDƏMİROV ƏFRAND FİRUDİN OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü

Dashdamirov Afrand Firudin oglu
Member of the Azerbaijan National Academy of Sciences

1942 il martın 12-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1959—1964 illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1964 ildə Azərbaycan EA Tarix İnstitutunda baş laborant kimi başlamışdır. 1965—1969 illərdə Moskvada SSRİ EA Fəlsəfə İnstitutunun aspirantı olmuşdur. 1968—1970 illərdə Azərbaycan EA H.Hüseynov adına Fəlsəfə və Hüquq İnstitutunda kiçik elmi işçi, 1970—1979 illərdə Bakı Ali Partiya Məktəbində dosent, professor, 1979—1981 illərdə "Azərbaycan kommunisti" jurnalının baş redaktoru, 1981 ildən Azərbaycan KP MK-da şöbə müdiri, MK katibi vəzifələrində işləmişdir. 1991 ildən Azərbaycan EA İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda baş elmi işçidir. Fəlsəfə elmləri doktoru (1977), professor (1978), Azərbaycan EA-nın akademiki (1989), Azərbaycan Alimlər İttifaqının üzvüdür (1991). 150-yə yaxın elmi məqalə və kitabların müəllifidir.
Azərbaycan Respublikası Ali Sovetinin (X—XI çağırış) deputatı seçilmişdir. Qırmızı Əmək Bayrağı ordenləri (1980, 1985) və Vavilov adına mükafatla (1991) təltif edilmişdir.

Born 1942 March 12 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1964. Senior Scientific Worker, Institute for Sociopolitical Studies and Information, Azerbaijan National Academy of Sciences since 1991.



DƏMİRLİ MAİL ABBASƏLİ OĞLU
"Təfəkkür" Universitetinin rektoru

Damirli Mail Abbasali oglu
Rector of the "Tafakkur" University

1946 il oktyabrın 20-də Azərbaycan Respublikasının Şəmkir rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1976 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir.
Əmək fəaliyyətinə 1969 ildə Səttarxan adına zavodda fəhləliklə başlamışdır. 1976—1980 illərdə Azərbaycan Jurnalistlər Birliyində işləmişdir. 1980—1989 illərdə "Müxbir", "Açıq söz" jurnallarında redaktor vəzifələrində çalışmışdır. 1990 ildən "Açıq söz" jurnalının qəzetə çevrilməsi ilə əlaqədar olaraq həmin qəzetə baş redaktor təyin edilmişdir. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür (1976).
Evlidir, 2 övladı var.

Born 20 October 1946 in Shemkir district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1976. Rector of the "Tafakkur" University since 1990.
Married, has two children.

1938 il yanvarın 15-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1954—1959 illərdə Azərbaycan Neft və Kimya İnstitutunun kimya-texnologiya fakültəsində təhsil almışdır.
Əmək fəaliyyətinə 1959 ildə Azərbaycan EA Neft-Kimya Prosesləri İnstitutunda kiçik elmi işçi kimi başlamışdır. 1960—1963 illərdə Moskvada P.Q.Karpov adına Fiziki Kimya İnstitutunun aspirantura-sında oxumuş, 1963 ildən Azərbaycan Neft-Kimya Prosesləri İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, şöbə müdiri, laboratoriya müdiri işləmişdir. 1987 ildən Azərbaycan Milli EA-nın müxbir üzvü, Polimer Materialları İnstitutunun direktorudur. Kimya elmləri doktoru (1982), professordur (1986).
200-dən artıq elmi iş və ixtiranın müəllifidir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Born 1938 January 15 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1959. Director of the Institute of Polymer Materials, Azerbaijan National Academy of Sciences since 1987.



ƏFƏNDİYEV AYAZ ADİL OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, Polimer Materialları İnstitutunun direktoru

Efendiyev Ayaz Adil oglu
Director of the Institute of Polymer Materials, Azerbaijan National Academy of Sciences

1928 il oktyabrın 30-da Azərbaycan Respublikasının Qazax şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1945—1950 illərdə Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbində, 1950—1955 illərdə isə Leninqrad Rəssamlıq Akademiyasında təhsil almışdır.
Əmək fəaliyyətinə 1955—1964 illərdə R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində şöbə müdiri kimi başlamışdır.1964 ildən Azərbaycan EA Memarlıq və İncəsənət İnstitutunda kiçik və baş elmi işçi, 1983 ildən Dekorativ-tətbiqi sənətlər şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1996 ildən həmin institutun direktorudur. Azərbaycan dekorativ tətbiqi sənətlər tarixi istiqamətində tədqiqat aparmışdır. Sənətşünaslıq doktoru (1972), professor (1993), Azərbaycan Milli EA-nın həqiqi üzvü (2001), Azərbaycan Gözəl Sənətlər Akademiyasının akademiki (1993), Azərbaycan Rəssamlar Birliyinin üzvüdür (1957). 150-dən artıq elmi məqalənin, 30 kitabın müəllifidir.
Evlidir, 1 övladı var.

Born 1928 October 30 in Gazakh, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Leningrad Academy of Arts in 1955. Head of the Department of Decorative Applied Arts, Institute of Architecture and Arts, Azerbaijan National Academy of Sciences since 1983.



ƏFƏNDİYEV RASİM SƏMƏD OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, Memarlıq və İncəsənət İnstitutunun direktoru

Efendiyev Rasim Samad oglu
Member of the Azerbaijan National Academy of Sciences



ƏFƏNDİYEV TİMURÇİN İLYAS OĞLU
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru

Efendiyev Timurchin Ilyas oglu
Rector of the Azerbaijan State University of Culture and Art

1945 il iyulun 17-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1963—1968 illərdə Azərbaycan Dövlət Universitetində təhsil almışdır.
Əmək fəaliyyətinə 1968 ildə Azərbaycan Elmlər Akademiyasında başlamışdır. 1968—1986 illərdə elmi işçi, elmi katib, dosent, dekan vəzifələlrində işləmişdir. 1987 ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektorudur. Ədəbiyyat nəzəriyyəsi-teatr tarixi istiqamətində tədqiqat aparmışdır. Filologiya elmləri doktoru, professordur (1989), Yazıçılar Birliyinin (1975), Teatr Xadimləri İttifaqının (1984) üzvüdür. "H.Cavidin ideyalar aləmi" (1985), "Rus teatr tarixi" (1989), "Rus dramaturqlarının pyesləri Azərbaycan səhnəsində" (1989) adlı monoqrafiyaların və bir çox elmi əsərlərin müəllifidir.
Evlidir, 3 övladı var.

Born 1945 July 17 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1968. Rector of the Azerbaijan State University of Culture and Art since 1987.
Married, has three children.



ƏHMƏDOV HÜSEYN MUSTAFA OĞLU
Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının akademiki, Azərbaycan Dövlət Pedaqoji Universiteti Ümumi pedaqogika kafedrasının müdiri

Ahmadov Huseyn Mustafa oglu
Member of the International Pedagogical Academy of Sciences

1926 il iyulun 17-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Göyçə mahalının Toxluca kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1951 ildə Gəncə Pedaqoji İnstitutunun tarix fakültəsini bitirmişdir. Pedaqoji elmlər doktorudur. 1955 ildən Azərbaycan Pedaqoji İnstitutunun aspirantı, assistenti, baş müəllimi, dosenti və professorudur. 1977 ildən ADPU Ümumi pedaqogika kafedrasının müdiridir. 1993 ildən APİ-də pedaqoji elmlər üzrə namizədlik dissertasiyalarının müdafiəsi üzrə ixtisaslaşdırılmış şuranın sədridir. Qabaqcıl maarif xadimi (1973), SSRİ maarif əlaçısı (1977), Azərbaycanın Əməkdar ali məktəb işçisi (1981), keçmiş SSRİ PEA-nın müxbir üzvü (1990), Beynəlxalq PEA-nın akademikidir (1993). 180-ə qədər elmi əsərin, 200-dən çox məqalənin, monoqrafiya və kitabların müəllifidir.
Beynəlxalq EA-nın qərarı ilə Y.A.Komenski adına Böyük Qızıl medalla təltif edilmişdir.
Evlidir, 4 övladı var.

Born 1926 July 17 in Tokhluja village, Goycha region, Western Azerbaijan. Azerbaijanian. Graduated from the Ganja State Pedagogical Institute in 1951. Head of the Department of General Pedagogics, Azerbaijan State Pedagogical University since 1977.
Married, has four children.



ƏLƏKBƏROV URXAN KAZIM OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, Genetika və Seleksiya İnstitutunun direktoru

Alekberov Urkhan Kazym oglu
Member of the Azerbaijan National Academy of Sciences

1943 il aprelin 28-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. 1965 ildə ADU-nun biologiya fakültəsini bitirmişdir. 1968 ildən EA Botanika institutunda elmi işçi, elmi katib, direktor müavini və direktor işləmişdir. 1988 ildən Azərbaycan EA Genetika və Seleksiya İnstitutunun direktorudur. Biologiya elmləri doktoru, professordur. Elmi tədqiqatları xarici mühitin çirklənməsi və ekstremal amillərin təsiri nəticəsində genetik aparatın strukturu və funksiyalarının pozulması proseslərinin proqnozu və profilaktikasına həsr edilmişdir. Alimin rəhbərliyi ilə genetik aparatın davamlılığını tənzimetmə sahəsində, o cümlədən antimutagen-antikan-serogen bioloji-aktiv maddələrin aşkar edilməsinin tədqiqi və tətbiqi sahəsində bir sıra elmi konsepsiyalar yaradılmışdır. 200 elmi əsəri və 4 monoqrafiyası Azərbaycanda, ABŞ, İngiltərə, Rusiya, Yaponiya, İtaliya, Kanada və digər xarici ölkələrdə nəşr olunmuşdur. Azərbaycan ekoloji genetika elmi məktəbinin yaradıcılarındandır.
Evlidir, 2 övladı var.

Born 28 April 1943 in Baku, Azerbaijan Republic. Director of the Institute of Genetics and Selection of the Azerbaijan Academy of Sciences. Doctor of biology, professor.
Married, has two children.



ƏLƏSGƏROV AĞASƏLİM KƏRİM OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, İqtisadiyyat İnstitutu Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri

Aleskerov Agasalim Kerim oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1928 il mayın 22-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1946—1950 illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun iqtisadiyyat fakültəsində təhsil almışdır.
1950—1952 illərdə iqtisadçı, baş iqtisadçı, 1952—1953 illərdə Bakı Şəhər İnventar Bürosunun rəisi işləmişdir. 1953—1954 illərdə Moskvada Siyasi İqtisad Müəllimləri Məktəbində təhsil almışdır. 1954 ildə Bakı Plan Komitəsi mənzil-kommunal şöbəsində, 1954—1955 illərdə əsaslı tikinti şöbəsində rəis vəzifələrində çalışmışdır. 1955—1958 illərdə SSRİ EA İqtisadiyyat İnstitutunun aspirantı olmuşdur. 1958 ildən orada kiçik elmi işçi, elmi katib, Siyasi iqtisadiyyatın ümumi problemləri şöbəsinin müdiri, 1974 ildən Azərbaycan XTİ-də elmi işlər üzrə prorektor, 1978 ildən Azərbaycan EA-nın İqtisadiyyat İnstitutunda şöbə müdiri, direktor müavini, direktor vəzifələrində işləmişdir. Hazırda həmin institutda şöbə müdiridir. 167 elmi əsərin, monoqrafiya və kitabların müəllifidir. İqtisad elmləri doktoru, professordur.
Evlidir, 1 övladı var.

Born 22 May 1928 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1950. Head of department, Institute of Economy, Azerbaijan Academy of Sciences.
Married, has one child.



ƏLİYEV AĞADADAŞ MAHMUD OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, M.Nağıyev adına Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutunun elmi işlər üzrə direktor müavini, Katalitik proseslərin riyazi modelləşdirilməsi laboratoriyasının müdiri

Aliyev Agadadash Mahmud oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1940 il oktyabrın 16-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1958—1963 illərdə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun mexanika fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə Sumqayıt P/Q 240 müəssisəsində maşinist kimi başlamışdır. 1963—1964 illərdə maşinist, mühəndis, mexanik, 1964—1965 illərdə Bakı Şin zavodunda mexanik işləmişdir. 1965—1968 illərdə Azərbaycan NKİ-nin aspirantı olmuşdur. 1967—1994 illərdə Azərbaycan EA M.Nağıyev adına KTNPİ-də böyük mühəndis, kiçik elmi işçi, böyük elmi işçi, elmi katib, şöbə müdiri, Katalitik proseslərin riyazi modelləşdirilməsi laboratoriyasının müdiri vəzifələrində çalışmışdır. 1994 ildən institutun elmi işlər üzrə direktor müavini və laboratoriya müdiridir. Kimya texnologiyasının proses və aparatları sahəsində tədqiqat aparmışdır. Texnika elmləri doktoru, professordur.
Evlidir, 3 övladı var.

Born 16 October 1940 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1963. Deputy director of the Institute of Theoretical Problems of Chemical Tecnology, Azerbaijan Academy of Sciences since 1994. Married, has three children.



ƏLİYEV İQRAR HƏBİB OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, Tarix İnstitutunun direktoru

Aliyev Igrar Habib oglu
Member of the Azerbaijan National Academy of Sciences

1924 il martın 14-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. 1940—1945 illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır. 1945 ildən universitetdə müəllim, 1947 ildən Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda dosent, sonra qədim dünya və orta əsrlər tarixi kafedrasında müdir işləmişdir. Eyni zamanda 1945 ildən Azərbaycan EA Tarix İnstitutunda elmi işçi, 1957 ildən orada Azərbaycanın qədim tarixi şöbəsinin rəhbəri olmuşdur. 1978 ildən Azərbaycan EA Tarix İnstitutunun direktorudur. 130-dan çox elmi əsərin, o cümlədən 7 monoqrafiyanın müəllifidir. Azərbaycan Milli EA-nın həqiqi üzvüdür (2001). Tarix elmləri doktoru, professordur. Əməkdar elm xadimidir.

Born 14 March 1924 in Baku, Azerbaijan Republic. Graduated from the Baku State University in 1945. Director of the Institute of History, Azerbaijan National Academy of Sciences Since 1978.

1946 il martın 30-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır 1963—1968 illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun stomatologiya fakültəsində təhsil almışdır.
Əmək fəaliyyətinə1961 ildə 27 saylı şəhər aptekində optika ustası kimi başlamışdır. 1968 ildən Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu Onkologiya kafedrasının baş laborantı, assistenti, elmi əməkdaşı, böyük elmi əməkdaşı, 1978 ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Rentgenologiya, Radiologiya və Onkologiya Elmi-Tədqiqat İnstitutu II cərrahiyyə şöbəsinin müdiri, elmi işlər üzrə direktor müavini vəzifələrində işləmişdir. 1990 ilin aprel ayından Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin direktoru, 1994 ildən Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Onkologiya kafedrasının müdiridir. Respublika Səhiyyə Nazirliyinin baş onkoloqudur. Milli EA-nın həqiqi üzvüdür (2001).
1973 ildə Bakı şəhərində tibb elmləri namizədi, 1978 ildə Moskva şəhərində SSRİ Tibb Elmləri Akademiyasında tibb elmləri doktoru elmi dərəcələrini almışdır. 10 monoqrafiyanın, o cümlədən 1 dərsliyin, 206 elmi əsərin, 4 ixtiranın müəllifidir. SSRİ Tibb Elmləri Akademiyasının N.İ.Petrov adına və akademik Y.Məmmədəliyev adına mükafatlar, "Səhiyyə əlaçısı" Döş nişanı ilə təltif edilmişdir. London Universiteti və İngiltərə Xammer Smit Kral Universitetinin Fəxri professoru, Nyu-York Elmlər Akademiyasının, Rusiya Tibb və Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, MDB dövlətlərinin Onkoloq və Avropa Tibbi Onkologiya Cəmiyyətinin üzvü, Respublika Səhiyyə Nazirliyi MOM Dissertasiya Müdafiəsi üzrə İxtisaslaşdırılmış Elmi Şuranın və Attestasiya Komissiyasının sədri, Azərbaycan Respublikası Elmi Tibbi Onkoloqlar Cəmiyyətinin sədri, Rusiya Federasiyası Elmi Tibbi Onkoloqlar Cəmiyyətinin üzvü, "Dünya həkimləri nüvə müharibəsinin əleyhinədir" Beynəlxalq təşkilatı Azərbaycan bölməsinin sədridir.
Evlidir, 2 övladı var.

Born 30 March 1946 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Medical Institute in 1968. Director of the National Scientific Centre of Oncology, Ministry of Health of the Azerbaijan Republic since 1990. Married, has two children.



ƏLİYEV CƏMİL ƏZİZ OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, Milli Onkologiya Elmi Mərkəzinin direktoru, Rusiya Tibb və Təbiət Elmləri Akademiyalarının, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü

Aliyev Jamil Aziz oglu
Director of the National Scientific Centre of Oncology, Ministry of Health of the Azerbaijan Republic



ƏLİYEV MAQSUD İSFƏNDİYAR OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, H.Abdullayev adına Fizika İnstitutu Yarımkeçiricilərin köçürmə hadisəsi şöbəsinin müdiri

Aliyev Magsud Isfendiyar oglu
Member of the Azerbaijan National Academy of Sciences

1924 il avqustun 27-də Gürcüstan Respublikasının Tbilisi şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1950 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir.
Əmək fəaliyyətinə 1950 ildə Azərbaycan Politexnik İnstitutunda baş müəllim kimi başlamışdır. 1954 ildən M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunda baş müəllim və dosent vəzifələrində işləmişdir. 1961 ildən indiyədək Azərbaycan MEA Fizika İnstitutunda Yarımkeçiricilərin köçürmə hadisəsi şöbəsinin müdiridir. Fizika-riyaziyyat elmləri doktoru (1966), professor (1967), Azərbaycan EA-nın həqiqi üzvü, akademik (1980), Azərbaycanın Əməkdar elm xadimi (1989), Azərbaycan Alimlər İttifaqının üzvüdür. 300-ə qədər elmi məqalənin, 20 ixtiranın müəllifidir. Rusiya EA Rəyasət Heyəti "Yarımkeçiricilər fizikası və kimyası kompleks problemi üzrə" və "Yarımkeçiricilər materialşünaslığı fiziki kimyasının əsasları" elmi şuralarının üzvüdür.
II dərəcəli Vətən Müharibəsi (1985), "Xalqlar Dostluğu" (1986) ordenləri, "Fədakar əməyə görə" (1970), "1941—1945 illərdə Böyük Vətən müharibəsində qələbənin 30 illiyi" (1975), "Böyük Vətən müharibəsində qələbənin 40 illiyi" (1985), "Yusif Məmmədəliyev" (1994) medalları, Azərbaycan Ali Sovetinin Fəxri Fərmanı (1984) ilə təltif edilmişdir.

Born 27 August 1924 in Tbilisi, Georgia. Azerbaijanian. Graduated from the Baku State Institute in 1950. Head of department, Institute of Physics, Azerbaijan National Academy of Sciences since 1961.



ƏLİYEV RAFİQ ƏZİZ OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, Neft Akademiyası Avtomatlaşdırılmış İdarəetmə sistemləri kafedrasının müdiri

Aliyev Rafig Aziz oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1942 il martın 10-da Azərbaycan Respublikası Ağdam rayonunun Novruzlu kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1958—1963 illərdə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun istehsalat proseslərinin avtomatlaşdırılması fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1963 ildə Sumqayıt Neft-Kimya Avtomatları İnstitutunda texnik kimi başlamışdır. 1963—1990 illərdə orada texnik, mühəndis, şöbə müdiri, retkor və Azərbaycan KP MK-da şöbə müdiri vəzifələrində işləmişdir. 1990 ildən Azərbaycan Neft Akademiyasında Avtomatlaşdırılmış idarəetmə sistemləri kafedrasının müdiridir. Texnika elmləri doktoru (1975), professor (1976), Azərbaycan EA-nın müxbir üzvü (1989), Azərbaycan Alimlər İttifaqının sədridir (1993). Əsərləri xarici ölkələrdə çap olunmuşdur. 25-dən artıq monoqrafiyanın, dərsliyin, elmi-kütləvi kitabın və 250 elmi məqalənin müəllifidir. Təbriz Universitetinin professorudur. SSRİ Dövlət mükafatı laureatıdır (1983).

Born 10 March 1942 in Novruzlu village, Agdam district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1963. Head of Department of Automatized Management Systems, Azerbaijan State Oil Academy since 1990.



ƏLİYEV TELMAN ABBAS OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, Kibernetika İnstitutunun direktoru

Aliyev Telman Abbas oglu
Member of the Azerbaijan National Academy of Sciences, Director of the Institute of Cybernetics

1935 ildə Azərbaycan Respublikasının Goranboy rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1958 ildən EA-nın Kibernetika İnstitutunda müxtəlif vəzifələrdə çalışmışdır. Hazırda həmin institutun direktorudur. Elmlər doktoru (1977), professor (1985), Milli EA-nın həqiqi üzvüdür (2001). 271 elmi əsərin, o cümlədən 7 monoqrafiya və 54 ixtiranın müəllifidir. Ümumittifaq İnformatika və Hesablama Texnikası Cəmiyyəti bürosunun, SSRİ Təhsil Nazriliyi İnformatika Üzrə Ekspert Şurasının üzvü olmuşdur. 1991 ildə Keldış adına medalla və 1997 ildə Beynəlxalq Kembric Tərcümeyi hal Mərkəzinin "Qızıl Ulduz" medalına layiq görülmüşdür. 1994 ildə YUNESKO-nun informatika üzrə ekspertləri sırasına daxil edilmişdir.

Born 1935 in Goranboy district, Azerbaijan Republic. Azerbaijanian. Director of the Institute of Cybernetics at present.



ƏLİZADƏ AKİF AĞAMEHDİ OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, Geologiya İnstitutunun direktoru

Alizade Akif Agamehdi oglu
Member of the Azerbaijan National Academy of Sciences

1934 il fevralın 25-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1951—1956 illərdə Azərbaycan Sənaye İnstitutunun Geoloji-kəşfiyyat fakültəsində təhsil almışdır.
Əmək fəaliyyətinə 1956 ildə "Suraxanıneft" idarəsində quyuların tədqiqi üzrə texnik kimi başlamışdır. 1957 ildə EA Geologiya İnstitutuna baş laborant qəbul edilib direktor vəzifəsinədək (1976) yüksəlmişdir. Geologiya-mineralogiya elmləri doktoru, Əməkdar elm xadimi (1991), Beynəlxalq İnformasiya sistemi koordinasiya şurasının (İnfoterra) üzvüdür. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır (1991). "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 25 February 1934 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Industrial Institute in 1956. Director of the Institute of Geology, Azerbaijan Academy of Sciences since 1976.
Married, has two children.



ƏMİRASLANOV ƏHLİMAN TAPDIQ OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, Azərbaycan Tibb Universitetinin rektoru

Amiraslanov Ahliman Tapdyg oglu
Rector of the Azerbaijan Medical University

1947 il noyabrın 17-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Göyçə mahalı Basarkeçər rayonunun Zod kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Əmək fəaliyyətinə 1970 ildə Bakı Onkoloji Xəstəxanasında tibb qardaşı kimi başlamışdır. 1971 ildən ordinator, şöbə müdiri işləmiş, 1974—1977 illərdə SSRİ TEA Ümumittifaq Onkoloji Elmi Mərkəzinin aspirantı olmuşdur. 1977 ildən orada kiçik elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi vəzifələrində çalışmışdır. 1992 ildən Azərbaycan Tibb Universitetinin rektoru, 2001-ci ildən Milli EA-nın həqiqi üzvüdür. Tibb elmləri doktoru (1984), professordur (1988). İran—Azərbaycan Dostluq Cəmiyyətinin sədridir. Ümumdünya Ortoped-Travmatoloq və Onkoloqlar Assosiasiyasının (1985), Avropa Bərpa Cərrahlığı Assosiasiyasının (1986) həqiqi üzvü, Yunanıstan (1985), Çexoslovakiya (1991), Macarıstan (1990) ölkələrinin ortoped-onkoloqlar cəmiyyətlərinin fəxri üzvü, Rusiya TEA və Polşa TEA-nın həqiq üzvü seçilmişdir. SSRİ Dövlət mükafatı (1986), N.N.Petrov adına mükafatın laureatıdır (1985). Amerika Bioqrafiya İnstitutunun "Qızıl Statuya" mükafatına (1998), Polşa TEA-nın Albert Şvaytzer adına Böyük Qızıl medalına layiq görülmüşdür (1999). Türkiyə—Azərbaycan rektorlar şurasının həmsədridir (1995). 30 nəfər elmlər doktoru və elmlər namizədinin elmi rəhbəri olmuşdur. Əməkdar elm xadimidir (1991). 250 elmi əsərin, 12 monoqrafiyanın, 10 dərslik və dərs vəsaitinin, 15 ixtira və səmərələşdirici təklifin müəllifidir. 1990 ildə Azərbaycan Ali Sovetinin deputatı seçilmişdir.
Evlidir, 2 övladı var.



FƏRZƏLİYEV VAQİF MƏCİD OĞLU
Azərbaycan Milli EA Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutunun direktoru

Farzaliyev Vagif Mejid oglu
Director of the Institute of Additive Chemistry named after A.M.Guliyev, Azerbaijan National Academy of Sciences

Born 17 November 1947 in Zod village, Basarkechar district, Goyja region, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Medical Institute in 1971. Rector of the Azerbaijan Medical University since 1992.
Married, has two children.

1939 il dekabrın 19-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1958—1963 illərdə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsində təhsil almışdır.
Əmək fəaliyyətinə 1963 ildə Azərbaycan EA Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda mühəndis kimi başlamış, 1963—1966 illərdə Azərbaycan EA Aşqarlar Kimyası İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. Sonra AKİ-də kiçik elmi işçi, laboratoriya müdirinin müavini, laboratoriya müdiri, şöbə müdiri və elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmışdır. 1988 ildən Aşqarlar Kimyası İnstitutunun direktorudur. Kimya elmləri doktoru (1986), professordur (1987). YUNESKO-nun elmi məsləhətçisidir. 262 əsərin müəllifidir. 44 müəlliflik şəhadətnaməsi almışdır.
"Əmək igidliyinə görə" və "Əmək veteranı" medalları ilə təltif edilmişdir.
Evlidir, 1 övladı var.

Born 1939 December 19 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1963. Director of the Institute of Additive Chemistry, Azerbaijan National Academy of Sciences since 1988.
Married, has one child.

1928 il dekabrın 24-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1953 ildə Politexnik İnstitutunun memarlıq fakültəsini bitirmişdir. 1952 ildən Memarlıq Bərpa Emalatxanasında memar, 1956 ildən Memarlıq və İncəsənət İnstitutunda memar, kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri, direktor vəzifələrində çalışmışdır. 1993 ildən Memarlıq tarixi və nəzəriyyəsi şöbəsinin müdiridir. Memarlıq doktorudur. Azərbaycanın Əməkdar memarı, Dövlət mükafatı laureatı, İKOMOS-un həqiqi üzvü, Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvüdür. Xarici dillərdə çap olunmuş 70-ə yaxın məqalə, bir neçə monoqrafiyanın müəllifidir.
Evlidir, 3 övladı var.



FƏTULLAYEV ŞAMİL SEYFULLA OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, Memarlıq və İncəsənət İnstitutu Memarlıq tarixi və nəzəriyyəsi şöbəsinin müdiri

Fatullayev Shamil Seyfulla oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

Born 24 December 1928 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1953. Head of the Department of History and Theory of Architecture, Institute of Architecture and Art, Azerbaijan National Academy of Sciences since 1993.
Married, has three children.

1937 il dekabrın 8-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1955—1960 illərdə ADU-nun mexanika-riyaziyyat fakültəsində təhsil almışdır. 1960 ildən Azərbaycan EA Riyaziyyat və Mexanika İnstitutunda kiçik elmi işçi, elmi işçi, elmi katib, baş elmi işçi, şöbə müdiri əvəzi işləmişdir. Sinqulyar inteqral operatorlar və yaxınlaşma nəzəriyyələri, harmonik analiz sahəsində tədqiqat aparmışdır. Fizika-riyaziyyat elmləri doktoru (1982), professor (1985), Azərbaycan Milli EA-nın həqiqi üzvüdür (2001). MEA-nın fizika-riyaziyyat və texniki elmlər bölməsinin akademik katibidir. Onlarca monoqrafiya və məqalənin müəllifidir "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir (1981).



HACIYEV AKİF CƏFƏR OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, Riyaziyyat və Mexanika İnstitutu Riyazi analiz şöbəsinin müdiri

Hajiyev Akif Jafar oglu
Member of the Azerbaijan National Academy of Sciences

Born 1937 December 8 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1960.
Corresponding Member of the Azerbaijan Academy of Sciences since 2001.



HACIYEV SABİR ABDULMANAF OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, Bakı Dövlət Universiteti Maddə quruluşu kafedrasının professoru

Hajiyev Sabir Abdulmanaf oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1930 il sentyabrın 23-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Sisian rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1951—1956 illərdə ADU-nun fizika-riyaziyyat fakültəsində təhsil almışdır. Fizika-riyaziyyat elmləri doktoru (1974), professor (1975), Azərbaycan EA-nın müxbir üzvü (1983), Əməkdar elm xadimidir (1992).
Əmək fəaliyyətinə 1956 ildə Azərbaycan Dövlət Universitetində müəllim kimi başlamışdır. 1956—1972 illərdə müəllim, baş müəllim və dosent vəzifələrində çalışmışdır. 1972—1992 illərdə Maddə quruluşu kafedrasının müdiri, eyni zamanda 1978—1988 illərdə fizika fakültəsinin dekanı işləmişdir. 1992 ildən Maddə quruluşu kafedrasının professorudur. Sahələrin kvant nəzəriyyəsi, elementar zərrəciklər istiqamətində tədqiqat aparmışdır. "Nüvə fizikasından praktikum" (1985), "Atom fizikasına giriş" (1986), "Atom fizikası" kursu (2001), kitablarının, 110 elmi məqalənin müəllifidir.

Born 1930 September 23 in Sisian district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1956. Professor, Structure of Matter Department, Baku State University since 1992.



HACIYEV VAHİD CALAL OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, Botanika İnstitutunun direktoru


Hajiyev Vahid Jalal oglu
Member of the Azerbaijan National Academy of Sciences

1928 il fevralın 14-də Azərbaycan Respublikasının Şuşa şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1943—1947 illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun tarlaçılıq fakültəsində təhsil almışdır. 1949—1952 illərdə Ümumittifaq EA Botanika İnstitutunun aspirantı olmuşdur. 1952 ildən Azərbaycan EA Botanika İnstitutunda baş elmi işçi, 1957 ildən institutun elmi işlər üzrə direktor müavini, geobotanika şöbəsinin müdiri, 1972 ildən Yemçilik, Çəmənçilik və Otlaqlar İnstitutunun direktoru, Botanika İnstitutu geobotanika şöbəsinin müdiri, 1978 ildən Botanika İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmışdır. 1988 ildən həmin institutun direktoru və geobotanika şöbəsiin müdiridir. Biologiya elmləri doktoru (1966), professor (1970), Azərbaycan EA-nın həqiqi üzvüdür (1989).
12 monoqrafiyanın, 7 müəlliflik şəhadətnaməsinin, Azərbaycan bitkiçiliyinə aid onlarla xəritənin və 200-dən çox elmi məqalənin müəllifidir. "Şərəf nişanı" ordeni (1981) və 4 medalla, YUNESKO-nun "İnsan və biosfera" proqramı üzrə Sovet komitəsinin fəxri fərmanı (1985), SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanları ilə (1987, 1988) təltif edilmişdir. XX əsrin 2000 görkəmli alimi sırasına daxil edilmişdir.
Evlidir, 2 övladı var.

Born 1928 February 14 in Shusha, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Agricultural Institute in 1947. Director of the Institute of Botany, Azerbaijan National Academy of Sciences since 1988.
Married, has two children.

1935 il dekabrın 7-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1952—1957 illərdə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsində təhsil almışdır. Fizika-riyaziyyat elmləri doktoru (1973), professor (1975), Azərbaycan EA-nın müxbir üzvüdür (1980).
Əmək fəaliyyətinə Azərbaycan EA Fizika İnstitutunda başlayıb. 1961—1963 illərdə kiçik elmi işçi, 1963—1968 illərdə böyük elmi işçi, 1968—1993 illərdə laboratoriya müdiri işləmişdir. Yarımkeçiricilər fizikası istiqamətində tədqiqat aparmışdır. Bir sıra elmi əsərlərin müəllifidir.

Born 1935 December 7 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1957. Acting Director of the Institute of Physics, Azerbaijan Academy of Sciences since 1933.




HAŞIMZADƏ FİRUDİN MƏMMƏDƏLİ OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü

Hashimzade Firudin Memmedali oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1945 il oktyabrın 12-də Azərbaycan Respublikası Naxçıvan MR-in Şərur rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1968 ildə ADU-nun şərqşünaslıq fakültəsini, 1982 ildə Daşkənd İslam Universitetini bitirmişdir. 1966—1967 illərdə Yəmən Ərəb Respublikasında tərcüməçi işləmişdir. Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, Bakı İslam Universitetinin rektorudur. Respublikada ilk dəfə olaraq ilahiyyat elmləri üzrə alimlik dərəcəsi almışdır. Din tarixi və İslam fəlsəfəsinə dair "İman və elm", "Adəmdən Xatəmə", "Haqqa doğru", "İslam mədəniyyətində elm" kitablarının və elmi məqalələrin müəllifidir. 1985 ildən Amerika Birləşmiş Ştatlarının fəxri vətəndaşıdır. "Simurğ" Beynəlxalq Mədəniyyət Assosiasiyasının vitse-prezidentidir.
Evlidir, 2 övladı var.

Born 1945 October 12 in Sharur district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1968; Dashkend Islam University in 1982. Rector of the Baku Islam University.
Married, has two children.



HƏSƏNLİ HACI SABİR HÜSEYN OĞLU
Bakı İslam Universitetinin rektoru

Hasanly Hajy Sabir Huseyn oglu
Rector of the Baku Islam University



HİDAYƏTOV ƏLİHÜSEYN ALIŞAN OĞLU
Azərbaycan Tibb Universiteti Daxili xəstəliklər kafedrasının müdiri, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş qastroenteroloqu

Hidayatov Althuseyn Alyshan oglu
Head of the Chair of Internal Diseases, Azerbaijan State Medical University, Chief Gastroenterologist of the Ministry of Health of the Azerbaijan

1947 il yanvarın 1-də Azərbaycan Respublikası Lerik rayonunun Kəlvəz kəndində anadan olmuşdur. 1970 ildə Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.
1970—1972 illərdə hərbi hissədə alay tibbi xidmət rəisi vəzifəsində çalışmış, 1972—1974 illərdə kliniki ordinaturada təhsil almışdır. 1977 ildə Moskvada "Xroniki pankreatitli xəstələrdə qaraciyərin funksional vəziyyəti və bəzi ferment dəyişiklikləri" mövzusunda namizədlik, 1990 ildə Moskva Tibb Akademiyasında "Xroniki pankreatit, hormonların patogenezdə və müalicədə rolu" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 140-dan çox elmi əsərin müəllifidir. Bunların əksəriyyəti xarici ölkələrdə çap edilmişdir.
1991 ildən Azərbaycan Tibb Universiteti Daxili xəstəliklər kafedrasının müdiri, respublika Səhiyyə Nazirliyinin baş qastroenteroloqudur. Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsində biologiya və tibb problemləri şurasının sədridir.
Evlidir, 3 övladı var.

Born 1947 January 1 in Kelvez village, Lerik district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Medical Institute in 1970. Head of the Chair of Internal Diseases, Azerbaijan State Medical University since 1991.
Married, has three children.



HÜSEYNLİ NAZİM ZİYAD OĞLU
Ali Diplomatiya Kollecinin təsisçisi və rektoru

Huseynly Nazim Ziyad oglu
Founder and Rector of the Higher College of Diplomacy

1956 il aprelin 30-da Azərbaycan Respublikası Gədəbəy rayonunun Düzrəsullu kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1981 ildə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirmişdir. 1981—1984 illərdə ADU-da laborant, baş riyaziyyatçı, 1984—1985 illərdə "Azərittifaq"da şöbə müdirinin müavini, 1985—1986 illərdə Sənaye Tikinti Bankı Respublika Kontorunda qrup rəhbəri, şöbə müdiri, 1987—1992 illərdə APİ-nin fəlsəfə kafedrasında baş laborant, müəllim, baş müəllim, dosent vəzifələrində işləmişdir. 1992 ilin may ayından Ali Diplomatiya Kollecinin rektorudur. Fəlsəfə elmləri namizədidir. 1996 ildə Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. "Diplomat" nəşriyyatı, "Dünyaya baxış", "Azərbaycan diplomatiyası" jurnalları, "Gələcək" və "İdrak" qəzetlərinin təsisçisidir. 100-dən artıq elmi məqalənin, metodiki proqramların və monoqrafiyanın müəllifidir.
Evlidir, 4 övladı var.

Born 1956 April 30 in Duzrasullu village, Gedabey district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1981. Rector of the Higher College of Diplomacy since 1992.
Married, has four children.



HÜSEYNOV NAZİM MÜSEYİB OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü

Huseynov Nazim Museyib oglu
Corresponding Member of the Azerbaijan Academy of Sciences

1929 il noyabrın 16-da Azərbaycan Respublikasının Tovuz şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1969 ildən Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda Karbohidrogenlərin qaz fazasında oksidləşməsi texnologiyası laboratoriyasının müdiri, eyni zamanda orada elmi işlər üzrə direktor müavini olmuşdur. 1982 ildən Qaz İnstitutunun direktorudur. Texniki elmlər doktoru (1975), professordur. Əsas elmi işləri heterogen kataliz sahəsindədir. Onun rəhbərliyi ilə bir sıra texnoloji proses (etilen oksid və allil-xloridin alınması) işlənib hazırlanaraq sənayeyə tətbiq edilmişdir. Etilen oksidin alınması üçün yüksək effektli proses yaradılmış və bu prosesə xarici ölkələrdən 30-dan artıq patent alınmışdır. 235-dən çox elmi əsərin müəllifidir. BMT-nin daimi eksperti kimi bir sıra xarici ölkələrdə olmuşdur.

Born 1929 November 16 in Tovuz, Azerbaijan Republic Azerbaijanian. Director of the Institute of Gas since 1982.



XƏLİLOV ELÇİN NÜSRƏT OĞLU
"İnterqo-tyetis" Beynəlxalq Elmi-Texniki Kompleksin prezidenti

Khalilov Elchin Nusrat oglu
The president of International Scientific and Technical Complex "Intergo-Tethys"

1959 il aprelin 26-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. 1976—1981 illərdə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda təhsil almış, Azərbaycan Dövlət Xarici Dillər İnstitutu nəzdində ikiillik ərəb dili kursunu bitirmişdir. 1981 ildən Elmi-Tədqiqat Geofizika İnstitutunun cənub şöbəsində mühəndis, böyük mühəndis, elmi işçi, böyük elmi işçi, baş mühəndis, 1987 ildən laboratoriya müdiri işləmişdir. 1989 ilin sentyabrından "İnterqotyetis" Beynəlxalq Elmi-Texniki Kompleksin prezidentidir. Beynəlxalq Elmlər Akademiyasının nəzdində zəlzələlərin proqnozu və öyrənilməsi üzrə elmi-tədqiqat institutunun direktorudur (2001). 100-dən artıq elmi əsərin, 2 monoqrafiya, 10 ixtira, 1 elmi kəşfin müəllifidir. Elmlər doktorudur (1990). Azərbaycan Gənclər İttifaqının fəxri mükafatını almışdır (1984). Azərbaycan Komsomolu mükafatı laureatıdır (1984). Bakı Sovetinin deputatı seçilmişdir (1991).
Evlidir, 2 övladı var.

Born 1959 April 26 in Baku, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Insitute of Oil and Chemistry in 1981. President of the International Scientific and Technical Complex "Intergo-Tethys" since 1989.
Married, has two children.



İSAXANLI HAMLET ABDULLA OĞLU
"Xəzər" Universitetinin təsisçisi və rektoru

Isakhanli Hamlet Abdulla oglu
Founder and Rector of the "Khazar" University

1948 il martın 1-də Gürcüstan Respublikası Qardabani rayonunun Kosalı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1965—1970 illərdə Azərbaycan Dövlət Universitetində təhsil almışdır.
1970 ildən Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda baş laborant, kiçik elmi işçi, baş elmi işçi, aparıcı elmi işçi, tədqiqatçılar qrupunun rəhbəri olmuşdur. Fizika-riyaziyyat elmləri doktoru (1983), professordur (1983). 1987 ildən Azərbaycan İqtisad İnstitutunda kafedra müdiri, 1991 ildən Türkiyə, İstanbul, Mərmərə Universitetlərinin professoru olmuşdur. 1992 ildən "Xəzər" Universitetinin təsisçisi və rektorudur. 1993 ildən "Xəzər" Teleşirkətinin prezidenti və 1995 ildən "Xəzər-görüş" qəzetinin baş redaktorudur. 60 elmi əsərin müəllifidir.
Yusif Məmmədəliyev mükafatı laureatıdır (1994).
Evlidir, 4 övladı var.

Born 1948 March 1 in Kosali village, Gardabani district, Georgia. Azerbaijanian. Graduated from the Ganja State Pedagogical Institute in 1951. Head of the Department of General Pedagogics, Azerbaijan State Pedagogical University since 1977.
Married, has four children.



İSMAYILOV MAHMUD ƏLİABBAS OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, A.A.Bakıxanov adına Tarix İnstitutunda elmi işlər üzrə direktor müavini

Ismayilov Mahmud Aliabbas oglu
Corresponding Member of the Azerbaijan National Academy of Science

1920 il sentyabrın 1-də Azərbaycan Respublikasının Şəki şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1937—1941 illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır. Tarix elmləri doktoru (1961), professor (1963), Azərbaycan EA-nın müxbir üzvü (1983), Azərbaycanın Əməkdar elm xadimi (1990), Yazıçılar Birliyinin üzvüdür (1989).
Əmək fəaliyyətinə 1939 ildə "Azərnəşr"də korrektor kimi başlamışdır. 1941—1942 illərdə Qusar rayonunda müəllim işləmiş, 1942—1945 illərdə müharibədə iştirak etmişdir. 1946 ildən Azərbaycan EA Tarix İnstitutunda çalışır. 1946—1949 illərdə aspirant olmuş, 1949—1954 illərdə laborant, kiçik elmi işçi, şöbə müdiri vəzifələrində çalışmışdır. 1954 ildən Tarix İnstitutunda elmi işlər üzrə direktor müavinidir. Azərbaycanın sosial-iqtisadi tarixi istiqamətində tədqiqat aparmışdır. "XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatında kapitalizm" (1964), "XX əsrin əvvəlində Bakı sənayesi" (1976), "İmperializm dövründə Azərbaycanın ictimai-iqtisadi quruluşu (1982) kimi monoqrafiyaların, 300-ə yaxın elmi məqalənin, 7 tarixi romanın müəllifidir. Orden və üç medalla təltif edilmişdir.
Evlidir, 1 övladı var.

Born 1920 September 1 in Sheki, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1941. Director Deputy on the Scientific Affairs at the Institute of History of the Azerbaijan Academy of Sciences since 1954.



KƏRİMOV CAHANGİR ƏLİABBAS OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü

Kerimov Jahangir Aliabbas oglu
Member of the Azerbaijan National Academy of Sciences

1923 il iyulun 18-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. İkinci dünya müharibəsinin iştirakçısıdır. Ümumittifaq Qiyabi Hüquq İnstitutunun Bakı filialını bitirdikdən sonra, 1951 ildən Leninqrad Hüquqşünaslıq İnstitutunun, Leninqrad Universiteti dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müdiri, 1967 ildən Almaniya Dövlət və Hüquq EA-nın və Berlin universitetinin professoru, 1959 ildən Leninqrad Universitetinin kafedra müdiri, prorektoru, 1969 ildən Sov.İKP MK yanında Marksizm-Leninizm İnstitutunda baş elmi işçi, 1971 ildən İctimai Elmlər Akademiyasının dövlət və hüquq nəzəriyyəsi kafedrasının müdiri işləmişdir. Beynəlxalq Hüquq və Sosial Fəlsəfə Cəmiyyətinin vitse-prezidenti, SSRİ EA fəlsəfə və hüquq bölməsi bürosunun üzvü, Sovet Siyasi Elmlər Cəmiyyətinin vitse-prezidenti olmuşdur. SSRİ EA-nın müxbir üzvü, Serbiya İncəsənət və Elmlər Akademiyası, Finlandiya Ədəbiyyat və Elmlər Akademiyası, Çernoqoriya Elmlər Akademiyası, Beynəlxalq İnformasiya Prosesləri və Texnologiyası Akademiyasının üzvüdür. Əsərləri xarici dillərə tərcümə olunmuşdur. Hüquq elmləri doktoru (1962), professor (1962), Dövlət mükafatı laureatıdır (1980). "Xalqlar dostluğu", "Şərəf nişanı", keçmiş ADR-in "Vətən qarşısında xidmətlərinə görə" ordenləri, habelə bir sıra xarici ölkələrin medalları ilə təltif edilmişdir.

Born 1923 July 18 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku branch of the All-Union Correspondence Institute of Law. Corresponding Member of the Russian Federation Academy of Sciences Member of the Azerbaijan National Academy of Sciences.



KƏRİMOV KƏRİM MƏMMƏDXAN OĞLU
Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyinin baş direktoru

Kerimov Kerim Memmedkhan oglu
Director of the Production Union of Geophysics and Engineering Geology

1933 il iyunun 5-də Azərbaycan Respublikasının Ağdam şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1957 ildə Azərbaycan Sənaye İnstitutunu bitirmişdir.
1957—1960 illərdə komsomol təşkilatlarında müxtəlif vəzifələrdə çalışmışdır. 1960 ildən respublika EA-nın Dərin Neft-Qaz Yataqları Problemləri İnstitutunda baş mühəndis, 1965 ildən Elmi-Tədqiqat Geofizika İnstitutunda baş elmi işçi, bölmə müdiri, laboratoriya müdiri, şöbə müdiri, 1992 ildən Baş Geofizika İdarəsinin rəisi vəzifələrində işləmişdir. 1994 ildən Dövlət Neft Şirkəti Geofizika və Mühəndis Geologiyası İB-nin baş direktorudur.
Geologiya-mineralogiya elmləri doktoru (1975), professor (1990), Əməkdar elm və texnika xadimidir (1991). Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü, vitse-prezidentidir. Avropa Geofizika və Mühəndis Geologiyası Cəmiyyətinin həqiqi üzvü, "Azərbaycan geofizikası yenilikləri" jurnalının baş redaktorudur. 420 elmi əsərin, o cümlədən 4 monoqrafiya, 8 ixtiranın müəllifidir.
Evlidir, 2 övladı var.

Born 1933 June 5 in Agdam, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Industrial Institute in 1957. Director of the Production Union of Geophysics and Engineering Geology, Azerbaijan State Oil Company since 1994.
Married, has two children.



KÖÇƏRLİ FİRUDİN QASIM OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü

Kocharli Firuddin Gasym ogly
Member of the Azerbaijan National Academy of Stiences

1920 il dekabrın 28-də Azərbaycan Respublikası Gədəbəy rayonunun İsalı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1945—1950 illərdə Azərbaycan Dövlət Universitetində təhsil almışdır. 1950—1953 illərdə M.V.Lomonosov adına MDU-nun aspirantı olmuşdur.
Əmək fəaliyyətinə doğma kəndində başlamış, 1939—1945 illərdə yeddiillik məktəbdə müəllim işləmişdir. 1953—1958 illərdə BDU-nun dosenti, 1958—1967 illərdə Azərbaycan EA fəlsəfə bölməsinin rəhbəri, 1967—1984 illərdə Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutunda direktor, 1984 ildən şöbə müdiri vəzifələrində çalışmışdır. Bir sıra elmi monoqrafiyaların və 200-dək məqalənin müəllifidir. Fəlsəfə elmləri doktoru (1966), professor (1967), Azərbaycan EA-nın həqiqi üzvü (1976), Əməkdar elm xadimidir (1989). 1941—1945 illərdə İkinci dünya müharibəsi dövründə "Fədakar əməyə görə" (1948), "1941—1945 illərdə Böyük Vətən müharibəsində qələbənin 40 illiyi" (1985), "Yusif Məmmədəliyev" (1991) medalları və Azərbaycan Ali Sovetinin Fəxri fərmanı ilə (1980) təltif edilmişdir.

Born 1920 December 28 in Isali village, Gedebey district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1950. Member of the Azerbaijan National Academy of Sciences.




KÖÇƏRLİ TOFİQ QASIM OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü

Kocharly Tofig Gasym ogly
Member of the Azerbaijan National Academy of Sciences

1929 il fevralın 11-də Azərbaycan Respublikası Gədəbəy rayonunun İsalı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1945—1950 illərdə Bakı Dövlət Universitetində təhsil almışdır. 1952 ildən Ağdam Müəllimlər İnstitutunda Marksizm-Leninizm əsasları kafedrasının müdiri, H.B.Zərdabi adına Gəncə Pedaqoji İnstitutunda baş müəllim, 1957 ildən Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunda baş elmi işçi, 1965 ildən Bakı Ali Partiya Məktəbində kafedra müdiri, 1972 ildən Bakı Ali Partiya Məktəbinin rektoru olmuşdur. Tarix elmləri doktoru (1965), professor, əməkdar elm xadimidir. Azərbaycan xalqının milli azadlıq hərəkatına, Azərbaycanın sənayeləşdirilməsinə, Qarabağ probleminin tarixinə dair bir sıra elmi əsərlərin müəllifidir. Azərbaycan SSR Ali Sovetinin (X çağırış) deputatı olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

Born 1929 February 11 in Isali village, Gedebey district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1950. Member of the Azerbaijan National Academy of Sciences.



QACAR ÇİNGİZ ÜVEYS OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü

Gajar Chingiz Uveys ogly
Member of the Azerbaijan Academy of Sciences

1929 il iyulun 6-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. MEA Fizika İnstitutunda "Mikrodalğa spektroskopiyası", "Tətbiqi spektroskopiya" laboratoriyalarına rəhbərlik etmişdir.
Bir sıra biratomlu spirtlər və onların törəmələrinin spektrinin öyrənilməsi sahəsində tədqiqat aparmışdır. İnfraqırmızı sahədə optik əlaqə sistemlərinin parametrlərini tədqiq etmək üçün fiziki metodların işlənməsi və yaradılması sahəsində elmi istiqamətin yaradıcısıdır. Onun rəhbərliyi altında hazırlanmış bir sıra cihazlar XTNS-nin medallarına və S.İ.Vavilov mükafatına layiq görülmüşdür. Fizika-riyaziyyat elmləri doktoru (1974), professor, Əməkdar elm xadimi (1982), Dövlət mükafatı laureatıdır (1982). Azərbaycan Milli EA-nın həqiqi üzvüdür (2001).

Born 6 July 1929 in Baku, Azerbaijan Republic. Azerbaijanian.



QARAYEV SİYAVUŞ FƏRHAD OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, Dövlət Neft Akademiyasının rektoru

Garayev Siyavush Farhad oglu
Rector of the Azerbaijan State Oil Academy

1942 il aprelin 30-da Azərbaycan Respublikasının Samux rayonunda anadan olmuşdur. 1959—1964 illərdə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsində təhsil almışdır.
1964 ildən Azərbaycan EA-nın Neft-Kimya Prosesləri İnstitutunda kiçik elmi işçi, 1967 ildən Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda aspirant olmuşdur. Burada "Tərkibində xlor olan asetilen spirtləri və onların törəmələri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1970 ildən həmin institutda kiçik elmi işçi, baş elmi işçi, kimya bölməsinin rəhbəri, üzvi kimya kafedrasının dosenti, elmi işlər üzrə prorektor müavini, 1982 ildən Azərbaycan Dövlət Neft Akademiyasında üzvi kimya kafedrasının müdiri, 1988 ildən kimya-texnologiya fakültəsinin dekanı vəzifələrində işləmişdir. Azərbaycan Milli EA-nın müxbir üzvü, Dövlət Neft Akademiyasının rektorudur. 400-ə qədər elmi əsərin, 65 ixtira patentinin müəllifidir. Fəxri kimyaçı adına layiq görülmüş (1991), Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir (1995).
Evlidir, 1 övladı var.

Born 30 April 1942 in Samukh district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1964. Rector of the Azerbaijan State Oil Academy since 1997.
Married, has one child.



QARAYEV YAŞAR VAHİD OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru

Garayev Yashar Vahid oglu
Director of the Nizami Institute of Literature, Azerbaijan National Academy of Sciences

1936 il martın 5-də Azərbaycan Respublikasının Şəki şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1953—1958 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır.
1959 ildə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda laborant, kiçik elmi işçi, böyük elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini vəzifələrində işləmişdir. 1987 ildən həmin institutun direktorudur. Filologiya elmləri doktoru (1980), professor (1982), Azərbaycan Milli EA-nın müxbir üzvüdür (2001). Azərbaycanın Əməkdar elm xadimi (1982), Azərbaycan Yazıçılar Birliyinin üzvüdür (1963).
18 kitab və kitabçanın, 300-ə qədər elmi məqalənin müəllifidir. Azərbaycan Dövlət mükafatı laureatıdır (1980).
Evlidir, 2 övladı var.

Born 5 March 1936 in Sheki, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1958. Director of the Nizami Institute of Literature, Azerbaijan Academy of Sciences since 1987.
Married, has two children.



QASIMOV ƏBDÜL HÜSEYNƏLİ OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, MEA Zoologiya İnstitutu hidrobiologiya laboratoriyasının müdiri

Gasymov Abdul Huseynali oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1929 il martın 5-də Azərbaycan Respublikasının Lənkəran rayonunun Kənarmeşə kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1946—1950 illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun təbiət və kimya fakültəsində təhsil almışdır.
1950—1954 illərdə SSRİ EA Zoologiya İnstitutunun aspirantı olmuşdur. Əmək fəaliyyətinə 1954 ildə Azərbaycan EA Zoologiya İnstitutunun hidrobiologiya laboratoriyasında kiçik elmi işçi kimi başlamış, 1956—1961 illərdə baş elmi işçi vəzifəsində işləmişdir. 1961 ildən həmin laboratoriyanın müdiri, 1974 ildən Xəzər Bioloji Stansiyasının direktorudur. Biologiya elmləri doktoru (1963), professor (1969), Azərbaycan EA-nın müxbir üzvü (1980), Əməkdar elm xadimi (1990), "Biosfer" problemləri üzrə elmi şuranın sədri (1989), Azərbaycan Dövlət Elm və Texnika Komitəsi ekologiya problemləri üzrə elmi şurasının sədridir.
300-ə yaxın elmi əsərin, monoqrafiya və dərsliklərin müəllifidir. Bir sıra medal, diplom və fəxri fərmanlarla təltif edilmişdir.

Born 5 March 1929 in Kenarmesha village, Lenkaran district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1950. Head of the Laboratory of Hydrobiology of the Institute of Zoology, Azerbaijan Academy of Sciences since 1961; Director of the Caspian Biological Station since 1974.

1932 il noyabrın 21-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Zəngibasar rayonunun Zəngilər kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1956 ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun sanitar-gigiyena fakültəsini bitirmişdir. 1956—1966 illərdə Tacikistan SSR-in Moskva rayonunda sanitar-epidemioloji stansiyanın baş həkimi, səhiyyə şöbəsinin müdiri və mərkəzi xəstəxananın baş həkimi, 1966 ildən Nərimanov adına ATİ-nin Ümumi gigiyena kafedrasında müəllim-assistent, 1970 ildən Bakı Şəhər Baş Dövlət Sanitar həkimi, 1980 ildən Respublika Klinik Xəstəxanasının baş həkimi, 1994 ildən Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini, Respublika Baş Dövlət Sanitar həkimi vəzifələrində işləmişdir. 1997 ilin aprelindən Respublika Səhiyyə Nazirliyi Taun Əleyhinə Stansiyanın direktorudur. Tibb elmləri doktoru, professordur. 70 əsərin, 6 kitabın, o cümlədən 3 monoqrafiyanın müəllifidir. "Xalqlar dostluğu", "Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı", ordenləri, 8 medal, o cümlədən "Yusif Məmmədəliyev" medalı və "Hacı Zeynalabdin Tağıyev" fəxri diplomu ilə təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 21 November 1932 in Zangylan village, Zangybasar district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Medical Institute in 1956. Director of the Station against Plague, Ministry of Health Azerbaijan Republic since 1997.
Married, has two children.



QASIMOV MAQSUD SƏFƏR OĞLU
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Taun Əleyhinə Stansiyanın direktoru

Gasymov Magsud Safar oglu
Director of the Station against the Plague, Ministry of Health, Azerbaijan Republic


1939 ildə Azərbaycan Respublikası Şamaxı rayonunun Nərimankənd kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1989 ildən Azərbaycan Xalq Təhsili nazirinin birinci müavini, 1990 ildən M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin rektoru vəzifələrində işləmişdir. Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat kafedrasının müdiridir. Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. 70-dən çox elmi əsərin, bir neçə monoqrafiyanın müəllifidir.

Born 1939 in Narimankend village, Shamakhy district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University. Head of the Departament of Applied Mathematics, Baku State University at present.



QASIMOV MİRABBAS GÖYCƏ OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, BDU Tətbiqi riyaziyyat kafedrasının müdiri

Gasymov Mirabbas Goyja oglu
Member of the Azerbaijan Academy of Sciences



QASIMOV RAFİQ YUNİSƏLİ OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, Fiziologiya İnstitutu Ekoloji fiziologiya laboratoriyasının müdiri

Gasymov Rafig Yunisali oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1931 il iyunun 26-da Qərbi Azərbaycanda (indiki Ermənistan) İrəvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1949—1954 illərdə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsində təhsil almışdır. 1954—1957 illərdə akademik Pavlov adına Leninqrad Fiziologiya İnstitutunun aspirantı olmuşdur.
Əmək fəaliyyətinə 1957 ildə Leninqrad Fiziologiya İnstitutunda elmi işçi kimi başlamışdır.1960 ildən Neftçalada Kür Eksperimental Nərə Balığı Zavodunda, 1965 ildən Azərbaycan Elmi-Tədqiqat Balıqçılıq İnstitutunda laboratoriya müdiri işləmişdir. 1974 ildən Azərbaycan EA Fiziologiya İnstitutu Ekoloji fiziologiya laboratoriyasının müdiridir. Biologiya elmləri doktoru (1970), professor (1972), Azərbaycan MEA-nın müxbir üzvüdür (1983). 200-ə qədər elmi məqalənin, monoqrafiya və dərsliklərin müəllifidir.
Azərbaycan Dövlət mükafatı (1994) və Leypsiq yarmarkasının böyük qızıl medalı (1986) ilə təltif edilmişdir.

Born 26 June 1931 in Yerevan, Armenia. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1954. Head of the Laboratory of Ecology, Institute of Phisiology, Azerbaijan National Academy of Sciences since 1974.



QASIMZADƏ ELBAY ƏNVƏR OĞLU
Şərq Ölkələri Memarlıq Akademiyasının həqiqi üzvü

Gasymzade Elbay Enver oglu
The Member of Architectural Academy of the East Countries

1948 il dekabrın 26-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1971 ildə başlamış və 1989 ilə qədər Cənub Dövlət Aqrolayihə İnstitutunda memar, qrup rəhbəri, şöbə rəisi, baş mühəndisin müavini, direktor müavini, eyni zamanda baş memar, 1989 ildən Bakı Şəhəri Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi, Bakı şəhərinin baş memarı vəzifələrində işləmişdir. Azərbaycanın Əməkdar memarı, Şərq Ölkələri Memarlıq Akademiyasının həqiqi üzvü, vitse-prezidenti, Azərbaycan Memarlar İttifaqının vitse-prezidentidir. 70-dən artıq əsərin, o cümlədən Şəkidə M.F.Axundovun, Fəxri Xiyabanda akademik Z.Əliyevanın və akademik M.Hüseynovun abidələri, Bakıda Rusiya Səfirliyi və "Park-rezidens" yaşayış kompleksləri, Şəhidlər Xiyabanında "Əbədi məşəl" türbəsi, "Bakı. Tarixin səhifələri" (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin anadan olmasının 75 illiyi münasibətilə) kitabı, "Əbədi məşəl" fotoalbomu, Bakının Nizami rayonunda "Heydər bağı", Tbilisi prospektində "Azad olunmuş enerji" abidəsi (gürcüstanlı G.Çaparidze ilə birgə) və bir çox layihələrin müəllifidir. Moskva, Kiyev, Barselona, Minsk və Bakı şəhərlərində keçirilən beynəlxalq müsabiqələrdə "İlin ən yaxşı memarlıq əsəri" mükafatına layiq görülmüşdür. "Şöhrət" ordeni ilə təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 26 December 1948 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1971. Chief of the Central Administration of Architecture and Town-Building of Baku City, Chief Architect of Baku City since 1989. The Member of Architectural Academy of the East Countries at present. Married, has two children.

1923 il dekabrın 14-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Qarakilsə mahalının Gözəldərə kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1957 ildə M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunu bitirmişdir. 1957—1970 illərdə Laçın və Masallı rayonlarında müəllimlik etmişdir. Hazırda Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutu Defektologiya və psixologiya şöbəsinin müdiri, Bakı Dövlət Universiteti Psixologiya kafedrasının professorudur.
1970 ildə Moskva Elmi Tədqiqat Defektologiya İnstitutunda "Anormal uşaqların inkişaf tarixi" mövzusunda namizədlik dissertasiyası, 1992 ildə Bakıda xüsusi pedaqogika və psixologiya sahəsində ilk dəfə olaraq doktorluq dissertasiyası müdafiə etmişdir. Xüsusi məktəblər üçün çoxlu proqram, metodik vəsait, monoqrafiya və dərsliklərin müəllifidir. Azərbaycan Respublikası və Rusiyanın "Qabaqcıl Maarif xadimi" fəxri adlarına layiq görülmüşdür.
Evlidir, 3 övladı var.

Born 14 December 1923 in Gozaldere village, Garakilsa region, West Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the M.F.Akhundov Azerbaijan State Institute of Russian Language and Literature in 1957. Head of the Department of Psychology and Defectology, Azerbaijan Scientific—Research Institute of Pedagogical Sciences.
Married, has three children.



QASIMOV SƏMƏD ƏLİ OĞLU
Azərbaycan ETPEİ Psixologiya və defektologiya şöbəsinin rəhbəri

Gasymov Samed Ali oglu
Head of the Department of Psychology and Defectology, Azerbaijan Scientific-Research Institute of Pedagogical Sciences

1929 il oktyabrın 22-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1952 ildə Azərbaycan Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirmişdir.
1952 ildən Azərbaycan Dövlət Universitetində müəllim, baş müəllim, dosent vəzifələrində işləmişdir. Fəlsəfə elmləri doktoru, professor (1966), Azərbaycan EA-nın həqiqi üzvü (1989), Əməkdar elm xadimidir (1981). 1966 ildən BDU-nun təbiət elmləri üzrə fəlsəfə kafedrasının müdiridir.
230-dan artıq elmi əsərin, monoqrafiya və dərsliklərin müəllifidir. 1971—1977 illərdə Bakı Şəhər Sovetinin, 1990—1995 illərdə Respublika Ali Sovetinin deputatı seçilmişdir. Azərbaycan Ali Sovetinin Fəxri fərmanları (1958, 1965), Beynəlxalq Xeyriyyə Fondunun mükafatı (1994) və medallarla təltif edilmişdir.

Born 22 October 1929 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1952. Head of the Department of Phylosophy, Baku State University since 1966.



QASIMZADƏ FUAD FEYZULLA OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, Bakı Dövlət Universiteti Fəlsəfə kafedrasının müdiri,

Gasymzade Fuad Feyzulla oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences



QƏNDİLOV SEYFƏDDİN TAĞI OĞLU
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru

Gandilov Seyfaddin Tagy oglu
Rector of the State Managment Academy under the Prezident of Azerbaijan Republic

1930 ildə Azərbaycan Respublikasının Tərtər rayonunda anadan olmuşdur. 1953 ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.
1953—1956 illərdə universitetin aspirantı olmuş, 1958 ildə namizədlik, 1967 ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1969 ildən professordur. 1966 ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda, BDU-da və digər institutlarda kafedra müdiri işləmişdir. 1999 ilin fevral ayından Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorudur.
Elmi tədqiqatının əsas istiqaməti beynəlxalq həyat və xarici siyasət məsələləri ilə bağlı problemlərin işlənilməsidir. 100-ə qədər elmi əsərin, 9 monoqrafiya və dərsliklərin müəllifidir. Onun rəhbərliyi ilə "Siyasi tarix" dərsliyi (1989), "Ali məktəblərdə humanitar elmlərin tədrisi və tədqiqinin təkmilləşdirilməsi konsepsiyası" (1995), "Humanitar elmlər üzrə ali təhsilin istiqamət və ixtisaslarına dair dövlət standartları"nın sənədləri işlənilib hazırlanmışdır.
Bakı Dövlət Universiteti Elmi Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası İxtisaslaşdırılmış Elmi Şurasının sədridir.
"Əməkdar elm xadimi" və "Əməkdar təbliğatçı" fəxri adlarına layiq görülmüşdür.

Born 1930 in Tartar district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1953. Rector of the State Managment Academy under the Prezident of Azerbaijan Republic since1999.



QULİYEV ARİF MEHDİ OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü

Guliyev Arif Mehdi oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1933 il dekabrın 15-də Azərbaycan Respublikası Füzuli rayonunun Gecəgözlü kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1952—1957 illərdə Azərbaycan Dövlət Sənaye İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. Əmək fəaliyyətinə 1957 ildən Azərbaycan EA Neft Ekspedisiyasında baş laborant, kiçik elmi işçi, 1958 ildən ETİ-də kiçik elmi işçi, böyük mühəndis, 1960 ildən Azərbaycan EA DNQPİ-də böyük mühəndis, kiçik elmi işçi, laboratoriya rəhbəri, 1977 ildən APU-da kafedra müdiri olmuşdur. Azərbaycan MEA Dərin Neft-Qaz Yataqları Problemləri İnstitutunun "Neftqazçıxarmanın inkişafını proqnozlaşdırma" şöbəsinin müdiri, texnika elmləri doktoru (1974), professor (1977), Azərbaycan MEA-nın müxbir üzvü (1989), "Quruçay" Xeyriyyə Cəmiyyyətinin sədridir (1991). Neft və qaz yataqlarının işlənməsinin problemlərinə dair 7 ixtira və patentin, ümumiyyətlə, 170-dən çox elmi əsərin, o cümlədən 11 monoqrafiyanın müəllifidir. "Əmək rəşadəti" (1970) medalı, akademik Qubkin adına mükafatla (1985) təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 15 December 1933 in Gejagozlu village, Fuzuli district. Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Industrial Institute in 1957. Head of the Department of Forecasting of Development of Oil-Gas-Extracting, Institute of Deep Oil-Gas-Field Problems, Azerbaijan National Academy of Sciences since 1974.

1927 il dekabrın 16-da Azərbaycan Respublikasının Şuşa şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1949 ildə M.V.Lomonosov adına MDU-nun tarix fakültəsini bitirmişdir. 1949—1952 illərdə MDU-nun aspiranturasında Elmi-Tədqiqatla məşğul olmuş və vaxtından əvvəl namizədlik dissertasiyası müdafiə etmişdir. 1952 ildən ADU-nun müəllimidir.
1953 ildən Azərbaycanda Partiya Tarixi İnstitutunda böyük elmi işçi, 1958 ildən elmi işlər üzrə direktor müavini, 1972 ildən Azərbaycan EA Tarix İnstitutunun direktoru vəzifələrində çalışmışdır. 1975—1988 illərdə Azərbaycan Sovet Ensiklopediyasının Baş redaktoru, eyni zamanda 1990 ilə kimi Azərbaycan EA-nın vitse-prezidenti, 1989 ildən Azərbaycan Dövlət Universitetinin rektoru, 1990—1997 illərdə Azərbaycan EA-nın A.Bakıxanov adına Tarix İnstitutunda baş elmi işçi işləmişdir. MEA Rəyasət Heyətinin üzvüdür.
300-ə qədər kitab, monoqrafiya, elmi məqalə, o cümlədən ensiklopedik məqalələrin müəllifidir. Tarix elmləri doktoru (1971), professor (1973), Azərbaycan EA-nın həqiqi üzvü (1980), Əməkdar elm xadimi (1982), Azərbaycan Alimlər Birliyinin (1994), Respublika Ağsaqqallar Şurası Rəyasət Heyətinin (1997) üzvüdür.
Azərbaycan Respublikası Ali Sovetinin (X, XI çağırış) deputatı seçilmişdir. Azərbaycan Dövlət mükafatı laureatıdır (1974). "Şöhrət" ordeni və medallarla təltif edilmişdir.
Evlidir, 3 övladı var.



QULİYEV CƏMİL BAHADUR OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü

Guliyev Jamil Bahadur oglu
Member of the Azerbaijan National Academy of Sciences

Born 1927 December 16 in Shusha, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the M.V.Lomonosov Moscow State University in 1949. Member of the Azerbaijan National Academy of Sciences.
Married, has three children

1926 il dekabrın 28-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Fizika-riyaziyyat elmləri doktoru (1976), Əməkdar elm xadimi (1981), Türkiyə Fizika Cəmiyyətinin medalı laureatıdır. 1959 ildən 1981 ilə qədər Fizika İnstitutunun direktor müavini vəzifəsində işləmişdir. 1981 ildən EA-nın vitse-prezidenti, 1992 ildən Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsidir. Nüvə fizikasının, zəif və elektromaqnit qarşılıqlı təsirlərin, müasir sahə və hissəciklər fizikasının aktual problemləri ilə məşğul olur və bu sahələrdə mühüm nəticələr əldə etmişdir. Azərbaycan MEA-da nüvə fizikası inkişafının əsasları onun rəhbərliyi və iştirakı ilə yaranmışdır. Respublikada və xaricdə çap olunmuş 80-dən çox elmi əsərin müəllifidir.

Born 1926 December 28 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Vice—prezident of the Azerbaijan Academy of Sciences since 1981.



QULİYEV NƏRİMAN AĞAQULU OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, Fizika İnstitutu Nüvə tədqiqatları şöbəsinin müdiri

Guliyev Nariman Agagulu oglu
Member of the Azerbaijan National Academy of Sciences



QURBANOV AFAT MƏHƏMMƏD OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, Azərbaycan Pedaqoji Universiteti Azərbaycan dilçiliyi kafedrasının müdiri

Gurbanov Afat Mahammad oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1929 il yanvarın 10-da Qərbi Azərbaycanda (indiki Ermənistan) Kalinino rayonunun Qızıl Şəfəq kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1944 ildə İlməzli kənd orta məktəbini, 1949 ildə Tbilisi 2 illik Müəllimlər İnstitutunu bitirmişdir. 1949—1951 illərdə APİ-nin filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə Qızıl Şəfəq kəndində orta məktəb müəllimi kimi başlamışdır. 1951 ildən Gürcüstan Respublikası Hamamlı Kənd Orta Məktəbində direktor, 1955 ildən A.S.Puşkin adına Tbilisi Pedaqoji İnstitutunda müəllim, 1968 ildən Azərbaycan Dövlət Pedaqoji İnstitutunda filologiya fakültəsinin dekanı, 1981 ildən APİ-nin rektoru vəzifələrində işləmişdir.
1979 ildən həmin institutun Azərbaycan dilçiliyi kafedrasının müdiridir. Filologiya elmləri doktoru (1968), professor (1970), Azərbaycan Milli EA-nın müxbir üzvü (1989), Azərbaycanın Əməkdar elm xadimidir (1981).
Ümumi dilçilik, türk dilçiliyi, müasir Azərbaycan dili və onomastika sahəsində tədqiqat aparmışdır. "Müasir Azərbaycan ədəbi dili" (1985), "Azərbaycan ədəbi dilinin onomalogiyası" (1988), "Ümumi dilçilik" 2 hissədə (1989, 1993), "Türkoloji dilçilik" (1993), "Azərbaycanlı adları" (1993), "Dünyanın dil ailələri" (1994) kimi 40-dan artıq kitabın, 300-ə qədər elmi məqalənin müəllifidir.
1988—1993 illərdə Yunanıstan, Birləşmiş Ərəb Əmirlikləri, Misir, Almaniya və İran ölkələrində elmi ezamiyyətdə olmuşdur.
Azərbaycan Dövlət mükafatı laureatıdır (1991). Bir neçə Fəxri fərmanla təltif edilmişdir.
1990 ildə Azərbaycan Respublikası Ali Sovetinin Xalq deputatı seçilmişdir. Azərbaycan Milli Yaradıcılıq Akademiyası, Beynəlxalq Pedaqogika Elmləri Akademiyasının akademikidir. Ana Vətən Partiyasının üzvüdür.
Evlidir, 5 övladı var.

Born 1929 January 10 in Gyzyl Shafag village, Kalinino district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1951. Head of the Department of Azerbaijan Linguistics, Azerbaijan State Pedagogical University since 1979.
Married, has five children.



QURBANOV RAMİZ SEYFULLA OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, Azərbaycan Dövlət Neft Akademiyası Nəzəri mexanika kafedrasının müdiri

Gurbanov Ramiz Seyfulla oglu
Member of the Azerbaijan Academy of Sciences

1934 il oktyabrın 30-da Azərbaycan Respublikasının Salyan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1951—1956 illərdə Azərbaycan Sənaye İnstitutunun neft-mədən fakültəsində təhsil almışdır.
Əmək fəaliyyətinə 1956 ildə Bakıdakı Bibi-Heybət NQÇİ-nin 1-ci mədənində neftçıxarma əməliyyatçısı kimi başlamışdır. 1956—1961 illərdə neftçıxarma üzrə usta köməkçisi, usta, böyük mühəndis, 1961—1989 illərdə Azərbaycan Dövlət Neft Akademiyası Nəzəri mexanika kafedrasında assistent, baş müəllim, dosent, kafedra müdiri, prorektor, 1989—1990 illərdə Azərbaycan Texniki Universitetinin rektoru vəzifələrində işləmişdir. 1991 ildən Azərbaycan Dövlət Neft Akademiyası Nəzəri mexanika kafedrasının müdiridir. Texnika elmləri doktoru (1968), professor (1970), Azərbaycan EA-nın müxbir üzvü (1989), Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü (1994), Azərbaycan Alimlər İttifaqının üzvüdür (1994).
160-dan çox elmi məqalənin və kitabların müəllifidir. Azərbaycan Dövlət mükafatı laureatıdır (1986). XTNS-nin gümüş medalları ilə təltif edilmişdir (1972, 1987). Azərbaycanın Fəxri neftçisidir (1990).

Born 1934 October 30 in Salyan, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Industrial Institute in 1956. Head of the Department of Theoretical Mechanics, Azerbaijan State Oil Academy since 1991.



MƏHƏRRƏMOV ABEL MƏMMƏDƏLİ OĞLU
Bakı Dövlət Universitetinin rektoru

Maharramov Abel Memmedali oglu
Rector of the Baku State University

1950 il yanvarın 5-də Azərbaycan Respublikasının Ağdam rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir.
1971 ildən Ümumittifaq "Olefinlər" İnstitutunda operator, mühəndis, 1976 ildən BDU-da böyük elmi işçi, universitet tədris hissəsinin müdiri, Üzvi kimya kafedrasında baş müəllim, dosent, 1984 ildən kimya fakültəsində dekan müavini, 1993 ildən kimya fakültəsinin dekanı vəzifələrində çalışmışdır. 1999 ilin yanvar ayından BDU-nun rektorudur.
Kimya elmləri doktoru, professordur (1991). Nyu-York Elmlər Akademiyasının həqiqi üzvüdür (1998). Azərbaycan Neft Akademiyası Namizədlik və Doktorluq Müdafiə Şurasının üzvü, Azərbaycan Respublikası Təhsil Nazirliyi Kimya Üzrə Respublika Olimpiadasına Hazırlıq Mərkəzinin rəhbəri (1996), Vahid Elmi Metodik Şuranın və Dövlət Elm və Texnika Komitəsi Yanında Elm və Elmi Pedaqoji Kadrların Hazırlığı Sahəsində Problemlər Şurasının üzvüdür.
3 monoqrafiya, 5 dərslik və dərs vəsaitinin, 150-yə qədər elmi məqalənin, o cümlədən 20-dən çox şəhadətnamənin müəllifidir.

Born 5 January 1950 in Agdam district,Azerbaijan Republic. Azerbaijanian.Graduated from the Azerbaijan State University in 1971. Rector of the Baku State University since 1999.




MƏLİKOVA MƏSUMƏ FAZİL QIZI
Azərbaycan Milli EA-nın müxbir üzvü

Melikova Masuma Fazil gyzy
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1929 il noyabrın 22-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan omuşdur. Azərbaycalıdır. 1942—1952 illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır.
BDU-nun Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müdiri, hüquq elmləri doktoru (1973), professor (1974), Azərbaycan EA-nın müxbir üzvü (1989), Azərbaycanın Əməkdar hüquqşünası (1969), Azərbaycan AAK-ın iqtisadiyyat, fəlsəfə və hüquq üzrə Ekspert Şurasının sədri, Azərbaycan Hüquqşünaslar Cəmiyyəti İdarə Heyətinin üzvüdür (1989). 1953—1956 illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində aspirant olmuşdur. 1956—1968 illərdə BDU Dövlət hüququ kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır. 1968 ildən Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müdiridir.
Azərbaycan maarifçiliyində siyasi və hüquqi ideologiya tarixinin dövrləşməsini, ən qədim zamanlardan Azərbaycanda maarifçilik ideyalarının yaranıb təşəkkül tapmasını dəlillərlə əsaslandırmışdır. İlk dəfə qədim Azərbaycan tarixi abidəsi olan "Avesta"dakı hüquqi və siyasi ideyaları araşdırmış, dövlət formaları və qanunlar haqqında elmi təhlil vermişdir.
"M.F.Axundovun ictimai-siyasi görüşləri" (1958), "XIX əsrdə — XX əsrin əvvəllərində Azərbaycanın siyasi-hüquqi təlimlər tarixi" (1972, çoxcildlik "Siyasi və hüquqi nəzəriyyələr tarixi" (müştərək, 1985, 1986, 1989), "Nizami Gəncəvi və Azərbaycan maarifçiliyi" (1992), "Dövlət və hüquq nəzəriyyəsi" (1988), "Azərbaycanda ən qədim zamanlardan 1917 ilədək dövlət hüququnun tarixi" kimi monoqrafiya, dərslik və çoxlu elmi məqalənin müəllifidir.
"Şərəf nişanı" ordeni ilə (1976) təltif edilmişdir.

Born 1929 November 22 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1952. Head of the Department of State and Law theory and its history since 1968.



MƏMMƏDOV ƏLİŞRƏF VEYSƏL OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü, Coğrafiya İnstitutu Palecoğrafiya şöbəsinin müdiri

Memmedov Alashraf Veysal oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences.

1931 il noyabrın 1-də Azərbaycan Respublikası Qax rayonunun İlisu kəndində anadan olmuşdur. Azərbaycanlıdır.
1948—1953 illərdə ADU-nun geoloji-coğrafiya fakültəsində təhsil almışdır. Geologiya-mineralogiya elmləri doktoru (1971), professor (1988), Azərbaycan Milli EA-nın müxbir üzvü (1989), Azərbaycan Kəndli Partiyasının üzvüdür (1992).
Əmək fəaliyyətinə 1953 ildə Azərbaycan EA Geologiya İnstitutunda kiçik elmi işçi kimi başlamış, 1953—1956 illərdə həmin institutun aspirantı olmuşdur. 1956—1958 illərdə Azərbaycan EA Neft Ekspedisiyasının elmi işçisi, 1958—1971 illərdə Geologiya İnstitutunun böyük elmi işçisi vəzifələrində işləmişdir. 1971 ildən Azərbaycan EA Coğrafiya İnstitutu Paleocoğrafiya şöbəsinin müdiridir. "Qərbi Azərbaycanın geologiyası və neftlilik-qazlılığı" (1960), "Orta Kür çökəkliyinin geoloji quruluşu" (1973), "Neft-qazlılıqla əlaqədar Orta Kür çökəkliyinin geoloji inkişaf tarixi və paleocoğrafiyası" (1977), "Azərbaycanın dördüncü dövr çöküntülərinin geologiyası" (1978), "Erkən və Orta Pleystosendə Azərbaycanın paleocoğrafiyası" (1988) kimi monoqrafiya və çoxlu elmi məqalənin müəllifidir. Azərbaycan Dövlət mükafatı (1978) və H.Z.Tağıyev adına mükafatın (1994) laureatıdır.

Born 1 November 1931 in Ilisu village, Gakh district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1953. Head of the Department of Palaeogeography, Institute of Geography, Azerbaijan Academy of Sciences since 1971. Married, has one child.



MƏMMƏDYAROV MƏHƏRRƏM ƏLİ OĞLU
Azərbaycan Milli EA-nın həqiqi üzvü, Mikrobiologiya İnstitutunun direktoru

Memmedyarov Maharram Ali oglu
Director of the Institute of Microbiology, Azerbaijan Republic, Member of the Azerbaijan Academy of Sciences

1924 il oktyabrın 17-də Azərbaycan Respublikası Naxçıvan MR-in Culfa şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1945—1949 illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil almışdır. Leninqrad Kimya Texnologiya İnstitutunun aspiranturasını qurtarmışdır (1949—1953). Kimya elmləri doktoru (1970), professor (1972), Azərbaycan EA-nın həqiqi üzvüdür (2001).
1954—1955 illərdə Azərbaycan EA Kimya İnstitutunda elmi katib, 1955—1959 illərdə SSRİ EA N.D.Zelinski adına Üzvi Kimya İnstitutunda baş elmi işçi, 1959 ildən Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda baş elm işçi, 1969 ildən laboratoriya müdiri, 1973 ildən Naxçıvan Elmi Mərkəzinin direktoru, 1981 ildən Azərbaycan EA Mikrobiologiya bölməsinin direktoru vəzifələrində işləmişdir. 1994 ildən Mikrobiologiya İnstitutunun direktorudur.
Üzvi kimya sintezi, neft kimyası, biotexnologiya istiqamətində tədqiqat aparmışdır. 200-dən artıq elmi məqalənin müəllifidir. Keçmiş SSRİ EA Rəyasət Heyəti yanında "İncə üzvi kimya texnologiyası" adlı Elmi Şuranın üzvü olmuşdur. Azərbaycan Dövlət mükafatı laureatıdır (1981).

Born 1924 October 17 in Julfa, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1949.Director of the Institute of Microbiology, Azerbaijan Academy of Sciences since 1994. Corresponding Member of the Azerbaijan Academy of Sciences since 1989



MİRƏHMƏDOV ƏZİZ MİRFEYZULLA OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü

Mirahmadov Aziz Mirfeyzulla oglu
Corresponding Member of the Azerbaijan National Academy of Sciences

1920 ildə Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. 1938—1941 illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsil almışdır.
1943 ildən Azərbaycan Dövlət Universitetində baş müəllim, 1949 ildən Azərnəşrdə böyük redaktor, 1959 ildən Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində direktor, 1960 ildən Azərbaycan KP MK-da şöbə müdirinin birinci müavini, Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda laborant, kiçik elmi işçi, baş elmi işçi, 1964 ildən mətnşünaslıq şöbəsinin müdiri, 1980—1985 illərdə isə İnstitutun direktoru vəzifələrində işləmişdir. Filologiya elmləri doktoru (1973), professordur. Azərbaycan MEA-nın müxbir üzvü, Respublika Milli Yaradıcılıq Akademiyasının akademiki, Əməkdar elm xadimidir.
"Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları problemi" üzrə Respublika Əlaqələndirmə Şurasının sədri, Terminologiya komitəsi ədəbiyyat qrupunun rəhbəri, Azərbaycan EA Ədəbiyyat, Dil və İncəsənət bölməsinin akademik katibinin müavini olmuşdur. Monoqrafik əsərlərin, dərsliklərin və kitabların müəllifidir. Medallar və Azərbaycan Ali Sovetinin Fəxri fərmanı ilə təltif olunmuşdur.
Evlidir, 1 övladı var.

Born 1920 in Baku, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1941. Corresponding Member of the Azerbaijan Academy of Sciences.
Married, has one child.



MUXTAROV ABDULLA İBRAHİM OĞLU
Azərbaycan Milli EA-nın müxbir üzvü

Mukhtarov Abdulla Ibrahim oglu
Corresponding Member of the Azerbaijan Academy of Sciences

1962 il yanvarın 13-də Azərbaycan Respublikası Masallı rayonunun Bədələn kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1991 ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1991 ildən "7 gün" qəzetində müxbirliklə başlamışdır. 1992 ildə "El qəzeti"ndə redaktor, "Mozalan" qəzetində məsul katib vəzifələrində çalışmışdır. 1993 ildən "İnsan hüquqları" qəzetinin baş redaktorudur.
Evlidir, 1 övladı var.

Born 1962 January 13 in Bedalan village, Masally district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1991. Editor-in-chief of the newspaper "Insan huguglary" since 1993.
Married, has one child.

1969 il fevralın 15-də Azərbaycan Respublikası Qazax rayonunun Daş Salahlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1988—1993 illərdə Bakı Dövlət Universitetinin tarix-şərqşünaslıq fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1991 ildə "Yeddi gün" qəzetində müxbirliklə başlamışdır. 1992 ildən "Müxalifət" qəzetində müxbir, 1993 ildən "Mühakimə" qəzetində redaktor işləmişdir. 1995 ilin aprelindən "Şərq" ictimai-siyasi qəzetinin təsisçisi və baş redaktorudur. 1988—1990 illərdə Azərbaycan Jurnalistlər Birliyi nəzdindəki Jurnalist Sənətkarlığı İnstitutunda təhsilini davam etdirmişdir. 1982 ildən dövri mətbuatda məqalələri, şer və hekayələri dərc olunmuşdur. KİV Həmkarlar Komitəsinin təsis etdiyi "Yelmar-Dirçəliş" mükafatı laureatıdır.
Evlidir, 1 övladı var.

Born 1969 February 15 in Dash Salahly village, Gazakh district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku State University in 1993. Editor-in-chief of the newspaper "Sharg" since 1995.
Married, has one child.




AKİF AŞIRLI (VƏLİYEV AKİF ƏBDÜLƏZİM OĞLU)
"Şərq" qəzetinin baş redaktoru

Akif Ashurly (Veliyev Akif Abdulazim oglu)
Editor-in-Chief of the newspaper "Sharg"

1969 il yanvarın 29-da Qərbi Azərbaycanda (indiki Ermənistan) Meğri rayonunun Nüvədi kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1989—1994 illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1984 ildə "Yeni Azərbaycan" qəzetində müxbirliklə başlamış, 1995 ildə ictimai-siyasi şöbənin redaktoru təyin olunmuşdur. 1996 ildən "Yeni Azərbaycan" qəzetinin baş redaktorudur.

Born 1969 January 29 in Nuvadi village, Mehri district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku State University in 1994. Editor-in-chief of the newspaper "Yeni Azerbaijan" since 1996.



ALQIŞ HƏSƏNOĞLU (MUSAYEV ALQIŞ HƏSƏN OĞLU)
"Yeni Azərbaycan" qəzetinin baş redaktoru

Algysh Hasanoglu (Musayev Algysh Hasan oglu)
Editor-in-Chief of the newspaper "Yeni Azerbaijan"



AXUNDOV BƏHRUZ HƏSƏN OĞLU
"Təhsil" nəşriyyatının direktoru

Akhundov Bahruz Hasan oglu
Director of the publishing house "Tehsil"

1954 il fevralın 2-də Azərbaycan Respublikasının Ağdam şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1977 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. 1973—1980 illərdə Ağdam Rayon Komsomol Komitəsinin məsul işçisi, raykomun ikinci katibi, 1980—1984 illərdə Bakı şəhərindəki "Yeni kitab" mətbəəsində və "Kommunist" nəşriyyatında müxtəlif vəzifələrdə çalışmış, 1985—1992 illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi mətbəəsinin direktoru olmuşdur. 1992 ilin dekabr ayından "Təhsil" nəşriyyatının direktorudur. 100-ə qədər məqalə və publisistik yazıların, şer və hekayələrin müəllifidir.
Evlidir, 3 övladı var.

Born 2 February 1954 in Agdam, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1977. Director of the publishing house "Tehsil" since 1992.
Married, has three children.



AXUNDOVA ELMİRA HÜSEYN QIZI
"Literaturnaya qazeta"nın və "Svoboda" radiostansiyasının Azərbaycan üzrə xüsusi müxbiri

Akhundova Elmira Huseyn gyzy
Own correspondent of the newspapers "Literaturnaya Gazeta" and Radio station "Svoboda" on Azerbaijan

1953 il mayın 26-da Moskva vilayətinin Ramens rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1976 ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1983 ildən Yazıçılar Birliyinin üzvüdür. 1984 ildən filologiya elmləri namizədidir. 1977 ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor, 1980 ildən Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi, 1988 ildən EA Nizami adına Ədəbiyyat İnstitutunda böyük elmi işçi, 1991—1996 illərdə Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin katibi olmuşdur. Bir çox bədii, elmi və tərcümə əsərlərinin müəllifidir. "Həsən bəy Zərdabi" mükafatı laureatıdır (1994).
Ailəlidir, 2 övladı var.

Born 26 May 1953 in Ramens district, Moscow region. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1976. Own correspondent of the newspapers "Literaturnaya Gazeta" and "Svoboda" (USA) on Azerbaijan.
Married, has two children.

1952 il oktyabrın 28-də Azərbaycan Respublikası Laçın rayonunun Molla Əhmədli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1970—1975 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. 1976 ildən Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, elmi katib, bölmə müdiri, 1992 ildə Azərbaycan Prezidenti Aparatında şöbə müdirinin müavini, "Elm" və "Tarix" qəzetlərinin baş redaktoru işləmişdir. Hazırda "Sabah" nəşriyyatının, "Elm" Redaksiya-Nəşriyyat və Poliqrafiya mərkəzinin direktorudur. Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri namizədidir (1981). İki monoqrafik əsərin, 100-dən artıq ədəbi-tənqidi və publisistik məqalənin müəllifidir.
Evlidir, 2 övladı var.

Born 28 October 1952 in village Molla Ahmadli, Lachyn district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1975. Editor-in-Chief of the newspaper "Elm" since 1993. At present director of the Publishing-Editorial Poligraphical Centre "Elm"
Married, has two children.



ALIŞANOV ŞİRİNDİL HƏSƏN OĞLU
"Elm" Redaksiya-Nəşriyyat və Poliqrafiya Mərkəzinin direktoru

Alyshanov Shirindil Hasan oglu
Director of the Publishing-Editorial and Poligrafical Centre "Elm"

1959 il iyunun 9-da Azərbaycan Respublikasının Qazax şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1976—1981 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə təyinatla göndərildiyi Biləsuvar rayonunda müəllimliklə başlamışdır. 1984 ildən Bakı Təhsil Kombinatında təlimatçı, 1992 ildən "Azərbaycanın səsi" qəzeti redaksiyasında şöbə müdiri işləmişdir. Hazırda həmin qəzetin baş redaktorudur. Eyni zamanda Azərbaycan Dövlət İnşaat Mühəndisləri Universitetinin xaricilər üçün dil kafedrasında Azərbaycan dili müəllimi vəzifəsində çalışır. Filologiya elmləri namizədidir. Xaricilər üçün "Azərbaycan dili" dərsliyinin müəllifidir.
Ailəlidir, 1 övladı var.

Born 1959 June 9 in Gazakh, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1981. Editor-in-chief of the newspaper "Azerbaijanyn sesi" since 1992.
Married, has one child.



ALLAHVERDİYEVA ŞƏHRƏBANI MÜSTƏCƏB QIZI
"Azərbaycanın səsi" qəzetinin baş redaktoru

Allahverdiyeva Shahrabanu Mustajab gyzy
Editor-in-chief of the newspaper "Azerbaijanyn sesi"



ASİF MƏRZİLİ (MƏMMƏDOV ASİF MİLLƏT OĞLU)
"Təzadlar" qəzetinin baş redaktoru

Asif Marzili (Memmedov Asif Millet oglu)
Editor-in-Chief of the newspaper "Tazadlar"

1960 il yanvarın 9-da Azərbaycan Respublikası Ağdam rayonunun Mərzili kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1988 ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirmiş, 1983 ildə Jurnalist Sənətkarlığı İnstitutunda təhsil almışdır. Əmək fəaliyyətinə 1978 ildə Bakı "Azərneftkimyazavodtəmir" trestinin 6 nömrəli TTİ-də çilingər kimi başlamışdır. 1984—1988 illərdə orada iqtisadçı, sonra mühəndis vəzifələrində çalışmışdır. 1988—1989 illərdə həmin trestin "Böyük kimya uğrunda" çoxtirajlı qəzetinin redaktoru olmuşdur. 1990—1993 illərdə "Respublika", "Həyat", "Ədalət" qəzetlərində işləmişdir. 1993 ildən "Təzadlar" qəzetinin baş redaktorudur.
Evlidir, 2 övladı var.

Born 1960 January 9 in Marzili village, Agdam district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1988. Editor-in-chief of the newspaper "Tazadlar" since 1993.
Married, has two children.



ASLANOV ASLAN ƏHMƏD OĞLU
Azərbaycan Dövlət Teleqraf Agentliyi baş direktorunun birinci müavini

Aslanov Aslan Ahmad oglu
First deputy-Director of the Telegraph Agency of the Azerbaijan Republic

1951 il avqustun 18-də Cəbrayıl rayounun Papı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1975 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Həmin ildən Ağcabədi, Zərdab, İmişli rayon qəzetlərində əməkdaşlıq etmiş, 1990 ildən "Xalq qəzeti"nin müxbiri işləmişdir. 1992 ildən Azərbaycan Dövlət Teleqraf Agentliyində müxbir, baş direktorun müavini, Azərbaycan dilində İnformasiya Baş Redaksiyasının baş redaktoru vəzifələrində çalışmışdır. 1997 ilin sentyabr ayından Azərbaycan Dövlət Teleqraf Agentliyi — AzərTAC baş direktorunun birinci müavinidir.
"Əməkdar mədəniyyət işçisi" (2000), "Həsən bəy Zərdabi" (1993), "Qızıl qələm" (1995) və "Vətən" (2001) mükafatlarına layiq görülmüşdür.
Evlidir, 1 övladı var.

Born 1951, August 18 in Papy village, Jabrail district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1975. First deputy-Director of the Telegraph Agency of the Azerbaijan Republic.
Married has one children.

1937 il aprelin 1-də Azərbaycan Respublikası Cəlilabad rayonunun Sabirabad kəndində anadan olmuşdur. 1954—1959 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. 1960 ildən "Ədəbiyyat və incəsənət" qəzetində ədəbi işçi, tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri, baş redaktorun müavini, məsul katib vəzifələrində işləmişdir. "Ədəbiyyat qəzeti"nin baş redaktorudur. 1994 ilin mayından "Məhəmməd Füzuli" Beynəlxalq Ədəbi Əlaqələr Fondunun sədri seçilmişdir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür (1967). Dövri mətbuatda şerləri, tərcümələri, ədəbi-tənqidi və elmi məqalələri ilə müntəzəm çıxış etmişdir. 7 kitabın müəllifidir. "Füzuli və folklor" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1972).
Evlidir, 6 övladı var.

Born 1937 April 1 in Sabirabad village, Jalilabad district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1959. Editor-in-chief of the newspaper "Edebiyyat ve Injesenet"
Married, has six children.



AYAZ VƏFALI (CƏFƏROV AYAZ RZA OĞLU)
"Ədəbiyyat qəzeti"nin baş redaktoru, "Məhəmməd Füzuli" Beynəlxalq Ədəbi Əlaqələr Fondunun sədri

Ayaz Vefaly (Jafarov Ayaz Rza oglu)
Editor-in-Chief of the newspaper "Edebiyyat ve Injesenet"

1944 il aprelin 26-da Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Azərbaycanlıdır. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1966 ildən Bakı Sənaye Texnikumunda müəllim kimi başlamışdır. 1974 ildən "Bakı metropoliteni" çoxtirajlı qəzetində müxbir işləmişdir. 1975 ildən həmin qəzetin redaktorudur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür (1980).
Ailəlidir, 1 övladı var.

Born 1944 April 26 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University. Editor of the newspaper "Baku metropoliteni" since 1975.
Married, has one child.



BABAZADƏ ƏDİLƏ BALARZA QIZI
"Bakı metropoliteni" qəzetinin redaktoru

Babazade Adila Balarza gyzy
Editor of the newspaper "Baku metropoliteni"



BAĞIROV MEHMAN ƏJDƏR OĞLU
"Azərbaycan gəncləri" qəzetinin baş redaktoru

Bagyrov Mehman Azhdar oglu
Editor-in-Chief of the newspaper "Azerbaijan ganjlari"

1972 il oktyabr ayının 1-də Azərbaycan Respublikası Tovuz rayonunun Dəlləkli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Futurologiya İnstitutunun jurnalistika fakültəsini bitirmişdir. 1994 ildən "Azərbaycan gəncləri" qəzeti baş redaktorunun köməkçisi, həmin qəzetin müxbiri, 1995 ildən "Ədalət" qəzetinin müxbiri vəzifələrində işləmişdir. 1996 ilin may ayından "Azərbaycan gəncləri" qəzetinin baş redaktorudur.

Born 1972 October 1 in Dallakli village, Tovuz district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Institute of Futurology. Editor-in-chief of the newspaper "Azerbaijan ganjlari" since 1996.



CƏFƏROV İBRAHİM ƏLİ OĞLU
"Qanun keşiyində" qəzetinin baş redaktoru

Jafarov Ibrahim Ali oglu
Editor-in-Chief of the newspaper "Ganun keshiyinde"

1955 il iyunun 1-də Azərbaycan Respublikasının Zəngilan rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1988 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu, 2000 ildə "Futuroloq" İnstitutunu bitirmişdir. 1977 ildən Zəngilan rayonu Mərkəzi Əmanət kassasında təftişçi-müfəttiş, 1982 ildən Bakıda Texniki Təminat və Mexanikləşdirmə müəssisəsində baş iqtisadçı, 1990 ildən rayon Dövlət Vergi Müfəttişliyində şöbə rəisi, 1993 ildən "Paklıq" ictimai-siyasi hüquq qəzetində baş redaktorun müavini, "İnsan hüquqları" və "Qanun naminə" qəzetlərində xüsusi müxbir vəzifələrində çalışmışdır. 1995 ildən "Qanun keşiyində" ictimai-siyasi hüquq qəzetinin baş redaktorudur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.
Evlidir, 3 övladı var.

Born 1955 June 1 in Zangilan district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1988. Editor-in-chief of the newspaper "Ganun keshiyinde" since 1995.
Married, has three children.

1933 il sentyabrın 5-də Azərbaycan Respublikasının Göyçay rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1952—1957 illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır. 1957 ildən Sumqayıt şəhər XDS İcraiyyə Komitəsində təlimatçı, 1959 ildən Mətbuatda Dövlət Sirlərini Mühafizə Edən Baş İdarənin Sumqayıt şəhəri üzrə senzoru, 1961 ildən Sumqayıtda çıxan "Sosialist Sumqayıtı" qəzetində şöbə müdiri, 1967 ildən "Kimyaçı" qəzetinin, 1971 ildən "Yeni həyat" qəzetinin, 1975 ildən "Müxbir" jurnalının redaktoru olmuşdur. 1987 ilin avqust ayından "İnşaatçı" qəzetinin redaktorudur. Azərbaycan Jurnalistlər Birliyinin üzvü və katibidir. "Qızıl qələm" mükafatına layiq görülmüşdür. Əməkdar jurnalistdir.
Evlidir, 2 övladı var.

Born 1933 September 5 in Goycay district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1955. Editor-in-chief of the newspaper "Inshaatchy" since 1987.
Married, has two children.



CƏFƏROV OQTAY MƏHƏMMƏD OĞLU
"İnşaatçı" qəzetinin baş redaktoru

Jafarov Ogtay Mahammad oglu
Editor-in-Chief of the newspaper "Inshaatchy"

1961 il iyulun 16-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1987 ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1983 ildən Baş Arxivlər İdarəsi Mərkəzi Dövlət Səsyazmaları Arxivində arxiv işçisi, baş arxiv işçisi, 1989 ildən "Qayğı" Cəmiyyəti Binəqədi Rayon Təşkilatının məsul katibi, 1990 ildən Binəqədi Rayon İcraiyyə Komitəsində azyaşlıların işləri üzrə məsul katib, təlimatçı, 1992 ildən Binəqədi Rayon İcra Hakimiyyətində şöbə müdiri vəzifələrində işləmişdir. 1999 ildən "Günün səsi" qəzetinin baş redaktorudur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.
Evlidir.

Born 1961 July 16 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1987. Editor-in-chief of the newspaper "Gunun Sesi" since 1999.
Married.



CƏFƏROV ZÖHRAB ŞAHVERDİ OĞLU
"Günün səsi" qəzetinin baş redaktoru

Jafarov Zohrab Shahverdi oglu
Editor-in-Chief of the newspaper "Gunun Sesi"



ÇİNGİZ TOFİQOĞLU (İSMAYILOV ÇİNGİZ TOFİQ OĞLU)
"Qarabağ" qəzetinin baş redaktoru

Chingiz Tofigoglu (Ismayilov Chingiz Tofig oglu)
Editor-in-Chief of the newspaper "Garabag"

1954 il iyunun 7-də Azərbaycan Respublikasının Ağdam şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1971—1976 illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır. 1977 ildən Xocavənd rayonunda müəllim, məktəb direktoru, rayon partiya komitəsinin təlimatçısı, 1984 ildən Azərbaycan KP DQ Vilayət Komitəsində təlimatçı, şöbə müdirinin müavini, 1988 ildən Azərinformun (Azərtac) Dağlıq Qarabağ vilayəti üzrə xüsusi müxbiri vəzifələrində işləmişdir. 1990 ildən "Qarabağ" qəzetinin baş redaktorudur. Xocalı soyqırımına həsr edilmiş "Qarabağda talan var" kitabının müəllifidir. "Qızıl qələm" və Məhəmməd Əsədov mükafatları laureatıdır.
Evlidir, 2 övladı var.

Born 1954 June 7 in Agdam, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1976. Editor-in-chief of the newspaper "Garabag" since 1990.
Married, has two children.



EMİNBƏYLİ EMİN MƏDƏD OĞLU
"7 gün" qəzetinin baş redaktoru

Eminbeyli Emin Madad oglu
Editor-in-Chief of the newspaper "7 Gun"

1955 il dekabrın 16-da Azərbaycan Respublikasının Ağdam şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1982 ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1974 ildə Ağdam rayon İcraiyyə Komitəsində sıravi işçilikdən başlamışdır. 1976 ildə Bakı şəhərinə köçmüşdür. 1981—1985 illərdə Bakı radiozavodunda, 1985—1990 illərdə isə "Bakı" qəzetində müxbir işləmişdir. 1991 ildən "7 gün" qəzetinin baş redaktorudur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür (1981).
Evlidir, 2 övladı var.

Born 1955 December 16 in Agdam, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1982. Editor-in-chief of the newspaper "7 Gun" since 1991.
Married, has two children.

1955 il dekabrın 11-də Gürcüstan Respublikası Bolnisi rayonunun Saraclı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1972—1977 illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1977 ildə "Yazıçı" nəşriyyatında buraxıcı-mühəndis kimi başlamışdır. 1982 ildən Azərbaycan Dövlət Mətbuat Komitəsində redaktor, şöbə müdiri, idarə rəisinin müavini vəzifələrində işləmişdir. 1986—1988 illərdə Bakı Ali Partiya Məktəbində təhsilini davam etdirmişdir. 1988 ildən "Elm" nəşriyyatının baş redaktoru olmuşdur. 1991 ildən isə həmin nəşriyyatın direktorudur. Elmi, publisistik məqalələrin müəllifi, dörd kitabın tərcüməçisidir.
Evlidir, 2 övladı var.

Born 11 December 1955 in Sarajly village, Bolnisi district, Georgia. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1977. Director of the Publishing house "Elm" since 1988.
Married, has two children.



ƏHMƏDOV FİKRƏT SÜLEYMAN OĞLU
"Elm" nəşriyyatının direktoru

Ahmadov Fikret Suleyman oglu
Director of the publishing house "Elm"

1949 il iyunun 1-də Azərbaycan Respublikası Qəbələ rayonunun Sileyli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1972 ildə ADU-nun filologiya fakültəsini bitirmişdir. 1980 ildən "Təşviqatçı", "Dialoq", "Azərbaycan kommunisti" və "Dirçəliş" jurnallarında şöbə müdiri, 1996 ildən "Xalq qəzeti", "Yeni Azərbaycan" qəzetlərində ədəbi işçi, şöbə müdiri, redaktor müavini vəzifələrində işləmişdir. 1998 ildən "Dünyaya pəncərə" qəzetinin baş redaktorudur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. 7 kitabın müəllifidir.
Evlidir, 3 övladı var.

Born 1949 June 1 in Sileyli village, Gabala district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1972. Editor-in-chief of the newspaper "Dunyaya Penjara" since 1998.
Married, has three children.



ƏHMƏDOV QALİB ƏHMƏDXAN OĞLU
"Dünyaya pəncərə" qəzetinin baş redaktoru

Ahmadov Galib Ahmadkhan oglu
Editor-in-chief of the newspaper "Dunyaya Penjara"



ƏHMƏDOV TEYMUR ƏKBƏR OĞLU
"Respublika" qəzetinin baş redaktoru

Ahmadov Teymur Akbar oglu
Editor-in-Chief of the newspaper "Respublika"

1930 il dekabrın 25-də Azərbaycan Respublikasının Şəmkir şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1949—1954 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. 1954 ildən "Sovet Ermənistanı" qəzeti redaksiyasında ədəbi işçi, məsul katibin müavini olmuşdur. 1961—1964 illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. 1965 ildən "Azərbaycan" jurnalının tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri, 1968 ildən Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçi, "Vətən səsi", "Vətən həsrəti", "Hikmət", "Yeni fikir" qəzetlərinin baş redaktoru olmuşdur. 1992 ildən "Elturan" ("Milli məsələlər") jurnalının məsul redaktoru işləmişdir. 1968 ildən Azərbaycan EA "Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları problemi" üzrə respublika Əlaqələndirmə Şurasının elmi katibi, 1988 ildən həmin institutda aparıcı elmi işçi, 1996 ildən Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, eyni zamanda 1992 ildən Azərbaycan EA Milli Münasibətlər İnstitutunda şöbə müdiridir. 1996 ilin yanvar ayından "Respublika" qəzetinin baş redaktorudur. Filologiya elmləri doktoru (1988), professordur (1993). Azərbaycan Jurnalistlər Birliyinin (1957) və Azərbaycan Yazıçılar Birliyinin (1973) üzvüdür. 18 kitabın, 300-dən artıq ədəbi və publisistik məqalənin müəllifidir. Azərbaycan Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir (1982). Yusif Məmmədəliyev adına mükafatın laureatıdır (1996).

Born 25 December 1930 in Shamkir, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1954. Editor-in-Chief of the newspaper "Respublika" since 1996.




ƏKRƏM ƏYLİSLİ (NAİBOV ƏKRƏM NƏCƏF OĞLU)
"Yazıçı" nəşriyyatının direktoru

Akram Aylisli (Naibov Akram Najaf oglu)
Director of the publishing house "Yazychy"

1937 il dekabrın 6-da Azərbaycan Respublikası Naxçıvan MR Ordubad rayonunun Əylis kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində, M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almışdır. 1965 ildən Azərnəşrdə redaktor, 1968 ildən "Gənclik" nəşriyyatının baş redaktoru, 1970 ildən "Mozalan" satirik kinojurnalının baş redaktoru. 1974 ildən Kinematoqrafiya Komitəsinin baş redaktoru, 1978 ildən "Azərbaycan" jurnalının baş redaktoru, eyni zamanda Azərbaycan Yazıçılar İttifaqının katibi olmuşdur. 1992 ildən "Yazıçı" nəşriyyatının direktorudur. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür (1967). Nəsr və dram əsərləri xarici ölkələrdə nəşr olunmuşdur. Bədii tərcümələri və orijinal nəsr əsərləri kütləvi tirajla buraxılmışdır. Azərbaycanın Əməkdar incəsənət xadimidir (1987). M.F.Axundov adına ədəbi mükafat laureatıdır (1991). "Şərəf nişanı", "Şöhrət" ordenləri və medallarla təltif edilmişdir. Azəbaycanın Xalq yazıçısıdır (1998). Polşanın Poznan şəhərinin fəxri vətəndaşıdır (1975).
Evlidir, 2 övladı var.

Born 6 December 1937 in Aylisli village, Ordubad district, Nakhchivan AR, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University; M.Gorki Institute of Literature in Moscow. Director of the publishing house "Yazychy" since 1992.
Married, has two children.



ƏLƏKBƏRLİ ƏZİZ YUSİF OĞLU
"Ağrıdağ" nəşriyyatının direktoru, "Ağrıdağ" qəzetinin baş redaktoru

Alekberli Aziz Yusif oglu
Editor-in-Chief of the newspaper "Agrydag"

1960 il oktyabrın 5-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Vedi rayonunun Qaralar kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1984 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. Filoloqdur. 1984—1987 illərdə Qax rayonunun Qum kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləmişdir. 1988 ildən Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisidir. Filologiya elmləri namizədidir. 1991 ildən eyni zamanda "Vətən səsi", "Sərbəst düşüncə" və "Ana Vətən" qəzetlərində müxbir, şöbə müdiri, məsul katib, redaktor vəzifələrində çalışmış, "Ana Vətən" qəzetinin baş redaktoru olmuşdur. 1997 ildən "Ağrıdağ" nəşriyyatının və eyniadlı qəzetin baş redaktorudur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Çoxlu ədəbi-bədii, tənqidi, elmi-nəzəri və publisistik məqalələrin, 4 kitabın müəllifidir.

Born 1960 October 5 in Garalar village, Vedi district, Western Azerbaijan, (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1984. Editor-in-Chief of the newspaper "Agrydag" since 1997.



ƏLİBƏYLİ CƏMİL ADİL OĞLU
"Elm və həyat" nəşriyyatının direktoru

Alibeyli Jemil Adil oglu
Director, publishing house "Elm ve Hayat"

1927 il dekabrın 5-də Azərbaycan Respublikası Füzuli rayonunun Dədəli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Yazıçılar Birliyinin (1962) və Azərbaycan Jurnalistlər Birliyinin (1958) üzvü, respublikanın Əməkdar mədəniyyət işçisidir (1976). 1949 ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1949 ildə "Azərbaycan gəncləri" qəzetində müxbirliklə başlamışdır. 1954—1970 illərdə "Azərbaycan gəncləri", "Azərbaycan bədən tərbiyəsi", "Azərbaycan qadını" qəzet və jurnallarında çalışmışdır. 1970—1974 illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədr müavini, 1974—1984 illərdə "Azərbaycanfilm" kinostudiyasının direktoru, 1984—1988 illərdə Azərnəşrin baş redaktoru, 1988—1992 illərdə "Kommunist" qəzetinin redaktoru, "Yazıçı" nəşriyyatının baş redaktoru, 1994 ildən "Vahid" qəzetinin baş redaktoru vəzifələrində işləmişdir. Hazırda "Elm və həyat" nəşriyyatının direktorudur. Bir çox bədii kitabın müəllifidir.
Evlidir, 3 övladı var.

Born 5 December 1927 in Dedeli village, Fuzuli district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1940. Director of the Publishing house "Elm ve Hayat" since 1990.
Married, has three children.



ƏLİYEV ARİF ASLAN OĞLU
"Yeni nəsil" Azərbaycan Jurnalistlər Birliyinin sədri

Aliyev Arif Aslan oglu
Chairman of the "Yeni Nesil" Azerbaijan Journalists Union

1960 ildə Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1978—1983 illərdə Moskva Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır. 1983 ildən "Azərinform"un müxbiri, 1986 ildən "Molodyoj Azerbaydjana" qəzetində şöbə müdiri, "Bakinski raboçi" qəzetində baş müxbir, 1989 ildən "Xazar" jurnalının baş redaktoru, "Azadlıq" qəzetinin redaktor muavini, "Turan" məlumat-nəşriyyat müəssisəsinin rəhbəri, "Svoboda" qəzetinin redaktoru, 1992 ildən Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi işləmişdir. 1994 ildə AXC sədrinin ictimai əlaqələr üzrə müavini, AXC Analitik İnformasiya Mərkəzinin rəhbəri təyin edilmişdir. 1995 ilin mayında "Yeni nəsil" Azərbaycan Jurnalistlər Birliyinin sədri seçilmişdir.
Evlidir, 2 övladı var.

Born 1960 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Moscov State University in 1983. Chairman of the "Yeni Nesil" Azerbaijan Journalists Union since 1995.
Married, has two children.



ƏLİYEV ELDAR YUSİF OĞLU
"Savalan" qəzetinin baş redaktoru

Aliyev Eldar Yusif oglu
Editor-in-Chief of the newspaper "Savalan"

1966 ildə Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1990 ildən Xətai Rayon Bədən Tərbiyəsi və İdman Komitəsində təlimatçı, rayon Gənclər İttifaqı sədrinin müavini, 1999 ildən Azərbaycan Gənclər İttifaqı sədrinin müavini vəzifələrində işləmişdir. 2000 ildən "Savalan" qəzetinin baş redaktorudur. Dama üzrə idman ustasıdır (1994).
Evlidir, 2 övladı var.

Born 1966 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Editor-in-chief of the newspaper "Savalan" since 2000.
Married, has two children.

1943 il aprelin 3-də Azərbaycan Respublikası Salyan rayonunun Sarvan kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1962—1967 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində, 1975—1977 illərdə Bakı Ali Partiya Məktəbində təhsil almışdır. Əmək fəaliyyətinə 1967 ildə Azərbaycan Dövlət Mətbuat Komitəsində redaktor kimi başlamışdır. Sonra burada böyük redaktor, aparıcı redaktor olmuşdur. 1977 ildən Azərbaycan Dövlət Nəşriyyatı direktorunun müavini işləmişdir. 1990 ildən "Gənclik" nəşriyyatının direktorudur.
Evlidir, 2 övladı var.

Born 3 April 1943 in Sarvan village, Salyan district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1967. Director of the Publishing house "Ganjlik" since 1990.
Married, has two children.



ƏLİYEV ƏLİCAN TARIQULU OĞLU
"Gənclik" nəşriyyatının direktoru

Aliyev Alijan Tarygulu oglu
Director of the publishing house "Ganjlik"

1939 il iyulun 26-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1963 ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1962 ildə Azərbaycan Politexnik İnstitutunun "Politexnik" qəzetində məsul katiblikdən başlamışdır. 1965—1969 illərdə, əvvəlcə "Açıq söz" (Ucar rayonu) qəzetində redaktor müavini, sonralar isə Ağcabədi rayonundakı "Sürət" qəzetində redaktor olmuşdur. 1969—1971 illərdə Bakı Ali Partiya Məktəbində təhsil almışdır. 1971 ildən "Kənd həyatı" jurnalında şöbə müdiri, 1985 ildən isə "Elm" nəşriyyatında redaktor işləmişdir. 1991 ildən "Say" qəzetinin təsisçisi və baş redaktorudur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür (1972).
Evlidir, 2 övladı var.

Born 1939 July 26 in Baku, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1963. Founder and editor-in-chief of the newspaper "Say" since 1991.
Married, has two children.



ƏLİYEV HACI RAFİQ ƏLİQULU OĞLU
"Say" qəzetinin baş redaktoru

Aliyev Haji Rafig Aligulu oglu
Editor-in-chief of the newspaper "Say"



ƏLİYEV MEHMAN YADULLA OĞLU
"Turan" İnformasiya Agentliyinin direktoru

Aliyev Mehman Yadulla oglu
Director of the Information Agency "Turan"

1957 il oktyabrın 26-da Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Azərbaycanlıdır. 1988 ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. 1988 ildən "Molodyoj Azerbaydjana" qəzetində müxbir, 1989 ildən "Azərinform"un müxbiri, 1990 ildən "Xəzər" jurnalının məsul katibi, eyni zamanda "Turan" Agentliyinin direktoru olmuş, 1993 ilin mart-iyulunda Azərbaycan Respublikası Prezidentinin mətbuat katibinin müavini vəzifəsində çalışmışdır. 1993 ilin iyulundan "Turan" İnformasiya Agentliyinin direktorudur.

Born 26 October 1957 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1985. Director of the Information Agency "Turan" since 1993.



ƏLİYEV MÜŞTƏBA İSMAYIL OĞLU
"Əlillər" qəzetinin baş redaktoru

Aliyev Mushtaba Ismayil oglu
Editor-in-Chief of the newspaper "Eliller"

1954 il fevralın 4-də Azərbaycan Respublikası Ağdam rayonunun Papravənd kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1977 ildə ADU-nun jurnalistika fakültəsini bitirmişdir. Həmin ildən "Azərbaycan məktəbi" jurnalında böyük redaktor, 1978 ildən "Sovet kəndi" qəzetində müxbir, bölgə müxbiri, 1995 ildən "Ədalət" qəzetində bölgə müxbiri vəzifələrində işləmişdir. 1997 ildən "Əlillər" qəzetinin baş redaktorudur.
Evlidir, 3 övladı var.

Born 1954 February 4 in Papravand village, Agdam district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1977. Editor-in-Chief of the newspaper "Eliller" since 1997.
Married, has three children.



ƏLİYEV SAHİB İSGƏNDƏR OĞLU
"Açıq dünya" jurnalının baş redaktoru

Aliyev Sahib Isgender oglu
Editor-in-Chief of the journal "Achyg Dunya"

1938 il yanvarın 10-da Azərbaycan Respublikası Yardımlı rayonunun Bilnə kəndində anadan olmuşdur. 1963 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. 1963 ildən Yardımlı Qəsəbə Orta Məktəbində müəllim, rayon Komsomol Komitəsinin ikinci katibi, birinci katibi, 1966 ildən "Zirvə" rayon qəzetinin redaktoru, 1997 ildən "Siyasət" nəşriyyatının direktoru vəzifələrində işləmişdir. 2001 ilin fevral ayından "Açıq dünya" jurnalının baş redaktorudur. 6 şer kitabının müəllifidir. Əməkdar jurnalist fəxri adına (1990), "Qızıl qələm" mükafatına (1994) və üç medala layiq görülmüşdür.
Evlidir, 3 övladı var.

Born 1938 January 10 in Bilna village, Yardimly district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1963. Editor-in-chief of the journal "Achyg Dunya" since 2001.
Married, has three children.



ƏLİYEVA SEVDA ABASƏLİ QIZI
"Maarif" nəşriyyatının direktoru

Aliyeva Sevda Abasali gyzy
Director of the publishing house "Maarif"

1955 il iyunun 7-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1979 ildə APİ-nin tarix fakültəsini bitirmişdir. 1979 ildən "Maarif" nəşriyyatında kiçik redaktor, redaktor, redaksiya müdiri, istehsalat şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1997 ildən "Maarif" nəşriyyatının direktorudur.

Born 7 June 1955 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1979. Director of the publishing house "Maarif".



ƏSGƏROVA GÜLBAHAR ZƏKƏRİYYƏ QIZI
"Real" Müstəqil İnformasiya Agentliyinin direktoru

Askerova Gulbahar Zekariyya gyzy
Director of the "Real" Independent Information Agency

1959 il fevralın 16-da Azərbaycan Respublikası Qax rayonunun İlisu kəndində anadan olmuşdur. 1976—1981 illərdə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1981 ildən Kosmik Tədqiqatlar İnstitutunun ümumi konstruktor bürosunda baş laborant kimi başlamışdır. 1984 ildən Bakı şəhəri 264 saylı orta məktəbdə fizika müəllimi işləyir. Eyni zamanda 1993 ilin dekabrından "Real" Müstəqil İnformasiya Agentliyinin direktorudur. Ailəlidir, 2 övladı var.

Born 16 February 1959 in Ilisu village, Gakh district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1981. Director of the "Real" Independent Information Agency since 1993. Married, has two children.



ƏSGƏROVA NAZİLƏ HÜSEYN QIZI
"Naxçıvan" qəzetinin baş redaktoru

Asgerova Nazila Huseyn gyzy
Editor-in-chief of the newspaper "Nakhchivan"

1955 ildə Azərbaycan Respublikası Naxçıvan MR-in Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1986 ildə Azərbaycan Texnologiya İnstitutunu bitirmişdir. Tikiş fabrikində sex rəisi, xalçaçılıq kombinatında direktor müavini, "Daşqın" Assosiasiyasının prezidenti vəzifələrində işləmişdir. 2000 ildən "Naxçıvan" qəzetinin təsisçisi və baş redaktorudur. "Xan qızı Natəvan" mükafatı laureatıdır.

Born 1955 in Nakhchivan city, Nakhchivan AR Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan Technological Institute in 1986. Editor-in-Chief of the newspaper "Nakhchivan" since 2000.

1953 il noyabrın 26-da Azərbaycan Respublikası Qazax rayonunun Köçvəlli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1970—1974 illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsində təhsil almışdır. 1978 ildən ADU-nun elmi kitabxanasında baş kitabxanaçı, "Gənclik" jurnalında korrektor, "Azərbaycan" qəzetində müxbir, baş müxbir, "Azad Azərbaycan" qəzetində müxbirlər şöbəsinin müdiri, Gəncə—Qazax bölgəsi üzrə müxbir, "Müxalifət" qəzetində müxbir, "Respublika" qəzetində müxbir, 1994 ildən "Dəli Kür" qəzetinin baş redaktoru işləmişdir. Hazırda "Xatun" jurnalının baş redaktorudur. Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvüdür.
4 şer, 10 publisistik kitabın və 4 monoqrafiyanın müəllifidir. Filologiya elmləri namizədidir. "Həzi Aslanov", "Xan qızı Natəvan" və "Araz" ali ədəbi mükafatlarına layiq görülmüşdür.
Ailəlidir, 2 övladı var.

Born 26 November 1953 in Kochvelli village, Gazakh district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1974. Editor-in-Chief of the journal "Khatun". Married, has two children.



FƏRİDƏ LƏMAN (MUSTAFAYEVA FƏRİDƏ KAMİL QIZI)
"Xatun" jurnalının baş redaktoru

Farida Leman (Mustafayeva Farida Kamil gyzy)
Editor-in-Chief of the journal "Khatun"

1940 il avqustun 28-də Azərbaycan Respublikası Masallı rayonunun Qodman kəndində anadan olmuşdur. 1969 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. 1963 ildən Sumqayıt Şəhər 1 saylı Tikinti Trestində komsomol komitəsinin katibi, 1966 ildən 35 saylı Texniki Peşə Məktəbində usta, müəllim, 7 saylı Texniki Peşə Məktəbində direktor müavini, 1970 ildən "Ədəbiyyat və incəsənət" qəzetində ədəbi işçi, xüsusi müxbir, 1981 ildən "Bakı" və "Baku" qəzetlərində şöbə müdiri, 1991 ildən "Ülfət" qəzetinin xüsusi müxbiri, 1992 ildən "168 saat" qəzetinin redaktoru, "Dünyaya pəncərə" qəzetinin təcisçisi və redaktoru vəzifələrində işləmişdir. 1995 ildən "Sumqayıt" nəşriyyatının direktorudur. Azərbaycan Yazıçılar Birliyi və Jurnalistlər Birliyinin üzvüdür. 14 kitabın müəllifidir.
Evlidir, 5 övladı var.

Born 1940 August 28 in Godman village, Masally district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1969. Director of the "Sumgait" publishing house since 1995. Married, has five children.



HACI AĞƏDDİN MƏNSURZADƏ (MƏNSURZADƏ AĞƏDDİN MƏNSUR OĞLU)
"Sumqayıt" nəşriyyatının direktoru

Haji Agaddin Mansurzade (Mansurzade Agaddin Mansur oglu)
Director of the "Sumgait"publishing house



HACI ƏLİ CƏFƏR (CƏFƏROV HACI ƏLİAĞA QAFAR OĞLU)
"Çıraq" nəşriyyatının təsisçisi və direktoru

Haji Ali Jafar (Jafarov Haji Aliaga Gafar oglu)
Founder and Director of the "Chyrag" Publishing House

1954 il mayın 16-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Sumqayıt Politexnik Texnikumunu, 1983 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. 1975 ildən Sumqayıt Superfosfat zavodunda bənna, usta, böyük mühəndis, komsomol komitəsinin katibi, 1982 ildən "Azərkitab" Kitab Ticarəti Birliyində mağaza direktoru, Sumqayıt şöbəsinin direktoru, idarənin plan şöbəsinin rəisi vəzifələrində işləmişdir. Hazırda Azərbaycan EA "Akademkitab" mağazasının müdiridir. Tarix elmləri namizədidir (1993). 100-ə qədər elmi və publisistik məqalənin müəllifidir. Üçcildlik "Azərbaycan dilinin izahlı lüğəti"nin naşiri və tərtibçilərindən biridir. Qarabağ müharibəsi veteranıdır.
Evlidir, 3 övladı var.

Born 16 May 1954 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1983. Manager of the shop "Akademkitab", Azerbaijan National Academy of Sciences at present.
Married, has three children.



HEYDƏROV HƏŞİM HƏSƏN OĞLU
"Sahil" qəzetinin baş redaktoru


Heydarov Hashim Hasan oglu
Editor-in-Chief of the newspaper "Sahil"

1958 il aprelin 17-də Azərbaycan Respublikası Ağdam rayonunun Qərvənd kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1981—1986 illərdə Azərbaycan Dövlət Universitetində təhsil almışdır. Əmək fəaliyyətinə "Azərelektroterm" İstehsalat Birliyində başlamış, burada çilingər, briqadir işləmişdir. 1990 ildən "Sahil" qəzetinin baş redaktorudur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.
Evlidir.

Born 17 April 1958 in Garvand village, Agdam district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1986. Editor-in-Chief of the newspaper "Sahil" since 1990.
Married.

1952 il yanvarın 10-da Azərbaycan Respublikasının Ağcabədi rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. Əmək fəaliyyətinə 1973 ildə Qərbi Azərbaycanda (indiki Ermənistan) Zəngibasar rayonunun Zəngilər orta məktəbində pioner baş dəstə rəhbəri kimi başlamışdır. Bakıda pioner və komsomol işçisi kimi müxtəlif sahələrdə çalışmışdır. 1981—1985 illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsinin kütləvi tamaşalar rejissorluğu şöbəsində təhsilini davam etdirmişdir. 1985—1988 illərdə C.Cabbarlı adına İrəvan Azərbaycan Dövlət Dram Teatrında aktyor, 1994 ildən "20 Yanvar" qəzeti redaksiyasında baş redaktor müavini işləmişdir. Hazırda həmin qəzetin redaktorudur.

Born 10 January 1952 in Agjabedi district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Art Institute in 1985. Editor-in-Chief of the newspaper "20 January" since 1994.



HƏBİBOV VAQİF KƏRİM OĞLU (VAQİF MUĞUMLU)
"20 Yanvar" qəzetinin baş redaktoru

Habibov Vagif Kerim oglu (Vagif Mugumlu)
Editor-in-Chief of the newspaper "20 January"

1938 il fevralın 11-də Azərbaycan Respublikası Naxçıvan MR-in Ordubad şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunu bitirmişdir (1962). Bir müddət təhsil aldığı orta məktəbdə dərs demişdir (1962—1965). Sonra Sumqayıt Kimya Zavodunun çoxtirajlı "Kimyaçı", yerli şəhər radiostansiyasında və Azərbaycan teleradiosunda, habelə "Sovetskaya kultura" qəzetində əməkdaşlıq etmişdir (1965—1967). 1967 ildən Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyası dil və ədəbiyyat şöbəsində elmi redaktor (1967—1969), böyük elmi redaktor (1969—1979), dil bölməsinin qrup rəhbəri (1979—1989), 1989 ildən respublika Xatirə Kitabı Redaksiyasında işçi qrupunun məsul katibi olmuşdur. Hərbi-vətənpərvərlik mövzusunda publisist yazıları respublika və keçmiş SSRİ Jurnalistlər İttifaqının keçirdiyi müsabiqələrdə ikinci, üçüncü dərəcəli diplomlara layiq görülmüşdür. 1997 ildən Azərbaycan Respublikası "Xatirə" nəşriyyatının baş direktoru, eyniadlı kitabın baş redaktorudur. Çoxlu oçerk, məqalə, ssenari müəllifidir. Sənədli filmi ("İbrahim Əbilov"), "Mozalan" satirik kinojurnalında Ordubad abidələrindən bəhs edən ssenarisi ("Ulu daşların fəryadı"), habelə rus dilindən dublyaj-tərcümələri var. Hekayə, povest, satirik şerlər də yazır. Bədii tərcümələri də var. Sirius Girodan, İvan Rasputindən, Yuri Bondarevdən, Sergey Baruzdindən, V.Xoxlaçovdan və başqalarından tərcümələr etmişdir. Əmək veteranıdır. Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanlarına və döş nişanlarına layiq görülmüşdür.
Bir övladı var.

Born 11 February 1938 in Ordubad, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute of Foreign Languages in 1962. Director General of the publishing house "Khatira" since 1997.
Married, has one child.



HƏSƏNƏLİYEV NƏRİMAN CƏBRAYIL OĞLU
Azərbaycan Respublikası "Xatirə" nəşriyyatının baş direktoru

Hasanaliyev Nariman Jabrayil oglu
Director General of the publishing house "Khatira", Azerbaijan Republic



HƏSƏNOVA (EYVAZOVA) MƏDİNƏ EYLAQ QIZI
"Vışka" qəzetinin baş redaktoru

Hasanova (Eyvazova) Medine Eylag gyzy
Editor-in-chief of the newspaper "Vyshka"

1947 il noyabrın 4-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1966—1971 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1972 ildən Sabirabad rayonu Zal-Qarağac Kənd Səkkizillik məktəbində müəllim, 1974 ildən "Vışka" qəzetində müxbir, baş müxbir, şöbə müdiri işləmişdir. 1995 ilin avqust ayından "Vışka" qəzetinin baş redaktorudur. Dövri mətbuatda xeyli oçerk, yumoristik hekayə, şer və məqalələri dərc olunmuşdur. "Qızıl qələm" mükafatı laureatıdır. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir.
Ailəlidir, 3 övladı var.

Born 1947 November 4 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1971. Editor-in-chief of the newspaper "Vyshka" since 1995.
Married, has three children.



HÜMBƏTƏLİYEV ƏZİZAĞA ADIŞİRİN OĞLU
"Mühit" qəzetinin baş redaktoru

Humbataliyev Azizaga Adyshirin oglu
Editor-in-Chief of the newspaper "Muhit"

1960 il mayın 17-də Azərbaycan Respublikasının Qubadlı rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. Beynəlxalq Pedaqoji Akademiyasının jurnalistika fakültəsini bitirmişdir. "Bakı", "Azərbaycan müəllimi" və başqa qəzetlərlə əməkdaşlıq etmişdir. "Mühit" qəzetinin baş redaktorudur. "Yaşamaq istəyirsənsə" kitabının və çoxlu məqalələrin müəllifidir. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.
Evlidir.

Born 1960 May 17 in Gubadly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the International Pedagogical Academy. Editor-in-chief of the newspaper "Muhit".
Married.

1941 il iyunun 30-da Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1972 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1958 ildə "Azərbaycan" nəşriyyatında fəhləliklə başlamışdır. 1966—1982 illərdə "Bakı" və "Baku" qəzetlərində müxbir, şöbə müdiri, məsul katib vəzifələrində çalışmışdır. 1990 ildən "Bakı" və "Baku" qəzetlərinin baş redaktorudur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür (1983). Azərbaycanın Əməkdar jurnalistidir (1988). "Qızıl Qələm" və "Həsən bəy Zərdabi" mükafatlarına layiq görülmüşdür.
Evlidir, 2 övladı var.

Born 30 June 1941 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1972. Editor-in-Chief of the newspaper "Baky" and "Baku" since 1990.
Married, has two children.



HÜSEYNOV AĞAHÜSEYN ABBASƏLİ OĞLU
"Bakı" və "Baku" qəzetlərinin baş redaktoru

Huseynov Agahuseyn Abbasali oglu
Editor-in-Chief of the newspaper "Baky" and "Baku"

1964 il fevralın 26-da Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1988 ildə ADTİ-nin müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1989 ildən 13 saylı BŞX-də sahə həkimi işləmişdir. 1992 ildən ADHTİ-nin II terapiya kafedrasının assistentidir. Tibb elmləri namizədidir. 1998 ildən "Borçalı" qəzeti və "Borçalı" jurnalının baş redaktorudur. 5 kitabın, 40 elmi tezis və məqalənin, ixtira və səmərələşdirici təklifin müəllifidir. Həvəskar rəssamdır. Ümumdünya Kardioloqlar Assosiasiyası və Beynəlxalq Qadınlar Həmrəyliyi Asossiasiyasının üzvüdür. "Qızıl qələm", "H.B.Zərdabi", "Məhsəti Gəncəvi", "Abdulla Şaiq", "Nəriman Nərimanov", "Vətən" mükafatları laureatıdır. Azərbaycan Yazıçılar Birliyi, Azərbaycan Jurnalistlər Birliyi və Yeni Nəsil Jurnalistlər Birliyinin üzvüdür.
Ailəlidir, 1 övladı var.

Born 1964 February 26 Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Medical Institute in 1988. Editor-in-Chief of the newspaper "Borchaly" and journal "Borchaly" since 1998.
Married, has one child.



HÜSEYNOVA AZADƏ ABBAS QIZI
"Borçalı" qəzeti və "Borçalı" jurnalının baş redaktoru

Huseynova Azade Abbas gyzy
Editor-in-Chief of the newspaper "Borchaly" and journal "Borchaly"



HÜSEYNOVA ÜLKƏR İBRAHİM QIZI
"Elm və həyat" jurnalının baş redaktoru

Huseynova Ulker Ibrahim gyzy
Editor-in-Chief of the journal "Elm ve hayat"

1937 il aprelin 24-də Azərbaycan Respublikasının Şəki şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1955—1960 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır. 1966 ildən "Elm və həyat" jurnalında şöbə müdiri işləmişdir. 1995 ildən həmin jurnalın baş redaktorudur. 100-dən çox elmi, publisistik məqalə və tərcümələri çap olunmuşdur.
Ailəlidir, 2 övladı var.

Born 1937 April 27 in Sheki, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1960. Editor-in-chief of the journal "Elm ve hayat" since 1995.
Married, has two children.



XANKİŞİYEV ƏLİ MƏMİŞ OĞLU
"Vətən" qəzetinin baş redaktoru

Khankishiyev Ali Memish oglu
Editor-in-Chief of the newspaper "Vatan"

1934 ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Qaralar kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. 1960 ildən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyində baş mütəxəssis, idarə və şöbə rəisi, 1988 ildən Zəngilan Rayon Kənd Təsərrüfatı İdarəsi rəisinin müavini, 1992 ildən Qubadlı Rayon Kənd Təsərrüfatı İdarəsində baş mütəxəssis vəzifələrində işləmişdir. Hazırda "Vətən" qəzetinin baş redaktorudur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. 100-dən çox elmi məqalənin, 3 bədii kitabın müəllifidir.
Evlidir.

Born 1934 in Garalar village, Gubadly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute. Editor-in-chief of the newspaper "Vatan" at present.
Married.



XASPOLADOV CAVİD CAVAD OĞLU
"Mübariz keşikdə" qəzetinin redaktoru

Khaspoladov Javid Javad oglu
Editor of the newspaper "Mubariz keshikde"

1959 il oktyabrın 5-də Azərbaycan Respublikasının Göyçay rayonunda anadan olmuşdur. 1978—1983 illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır. 1983 ildən "Sovet kəndi" qəzetində müxbir, 1990 ildən "Həyat" qəzetində müxbir, 1991 ildən "Xalq qəzeti"ndə şöbə müdiri, 1992 ildən "Azərbaycan" qəzetində baş redaktor müavini, 1993 ildən "Respublika" qəzetində redaktor müavini, redaktor əvəzi işləmişdir. 1995 ilin noyabr ayından Respublika Daxili İşlər Nazirliyinin orqanı "Mübariz keşikdə" qəzetinin redaktorudur. Polis kapitanıdır. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. "Qızıl qələm" mükafatına və "Kamil sənətkar" diplomuna layiq görülmüşdür. Kütləvi İnformasiya Vasitələri Həmkarlar İttifaqının 1994 ildə keçirdiyi "Azərbaycanın iqtisadi yüksəlişi uğrunda" yaradıcılıq müsabiqəsinin qalibidir.
Evlidir, 2 övladı var.

Born 1959 October 5 in Goychay district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1983. Editor of the newspaper "Mubariz keshikde" since 1995.
Married, has two children.



İBRAHİMOV NAZİM SADIQ OĞLU
"Azərbaycan" nəşriyyatının baş direktoru

Ibrahimov Nazim Sadyg oglu
Director General of the publishing house "Azerbaijan"

1935 il fevralın 1-də Azərbaycan Respublikasının Quba rayonunda anadan olmuşdur. 1952—1957 illərdə Azərbaycan Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsində təhsil almışdır. Azərbaycan SSR Nazirlər Sovetinin Geologiya İdarəsində texnik-operator, geoloq, baş geoloq, geoloji dəstənin rəisi vəzifələrində çalışmışdır. 1971 ildən Bakının Yasamal Rayon Partiya Komitəsinin birinci katibi, 1980 ildən Azərbaycan Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsinin sədri, 1991—1992 illərdə "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru vəzifələrində işləmişdir. Geologiya-mineralogiya elmləri namizədidir (1968). 1992 ilin noyabrından Azərbaycan Respublikası Prezidenti Aparatı İşlər İdarəsi yanında "Azərbaycan" nəşriyyatının baş direktorudur. Bir sıra kitabların müəllifi və tərtibçisidir. Dəfələrlə Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmişdir.
Evlidir, 2 övladı var.

Born 1 February 1935 in Guba district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1957. Director General of the publishing house "Azerbaijan" since 1992.
Married, has two children.



İMAMQULİYEV İLHAM NOVRUZ OĞLU
Gəncə şəhər mətbəəsinin direktoru

Imamguliyev Ilham Novruz oglu
Director of the Printig House of Ganja city

1945 ildə Azərbaycan Respublikasının Ağstafa şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1963 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. 1969 ildə Aşqabad Şəhər Poliqrafiya Kombinatında əmək fəaliyyətinə başlamış, 1970 ildən Gəncə Şəhər Mətbəəsində müxtəlif vəzifələrdə işləmişdir. 1973 ildən Gəncə Şəhər Mətbəəsinin direktorudur.
Evlidir, 3 övladı var.

Born 1945 in Agstafa, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1963. Director of the Publishing House of Ganja city since 1973.
Married, has three children.



İSABƏYLİ QƏŞƏM İSA OĞLU
"Şirvanəşr"in təsisçisi və direktoru


Isabeyli Gasham Isa oglu
Founder and Director of "Shirvanneshr"

1948 il avqustun 14-də Azərbaycan Respublikası Kürdəmir rayonunun Xəlsə kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1972 ildə Azərbaycan Dövlət Universitetinin coğrafiya fakültəsini bitirmişdir. Azərbaycan Yazıçılar Birliyinin (1986) və Azərbaycan Jurnalistlər Birliyinin (1982) üzvüdür. 1982 ildən "Yazıçı" nəşriyyatında redaktor, 1984 ildən "İşıq" nəşriyyatında şöbə müdiri, 1992 ildən "Şur" nəşriyyatının direktoru işləmişdir. Hazırda "Şirvannəşr"in direktorudur. Bir çox bədii kitabların müəllifidir. "İlin ən yaxşı uşaq kitabı" (1989) və "Maarif-60" mükafatlarına layiq görülmüşdür.
Evlidir, 3 övladı var.

Born 14 August 1948 in Khalsa village, Kurdemir district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1972. Founder and Director of "Shirvanneshr".
Married, has three children.

1937 il fevralın 15-də Azərbaycan Respublikasının Şamaxı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1962 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə 1962 ildə Şamaxı rayonunun Çuxuryurd kəndindəki kolxozda baş zootexnikликdən başlamış, 1963 ildən "Yeni Şirvan" qəzetində, 1965 ildən "Kənd həyatı" jurnalında işləmişdir. 1974—1990 illərdə illik "Kənd əməkçisinin təqvimi" jurnalının məsul katibi olmuşdur. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür (1981). 1992 ildən "Tək səbir" qəzetinin baş redaktorudur. Bir çox bədii-publisistik kitabların müəllifidir.
Evlidir, 5 övladı var.

Born 1937 February 15 in Shamakhy, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Agricultural Institute in 1962. Editor-in-chief of the newspaper "Tek sebir" since 1992.
Married, has five children.



İSGƏNDƏR ETİBAR (İSGƏNDƏROV İSGƏNDƏR ETİBAR OĞLU)
"Tək səbir" qəzetinin baş redaktoru

Iskender Etibar (Iskenderov Iskender Etibar oglu)
Editor-in-chief of the newspaper "Tek sebir"


1955 il noyabrın 18-də Azərbaycan Respublikası Masallı rayonunun Babaser kəndində anadan olmuşdur. 1977—1980 illərdə ADU-nun filologiya fakültəsində, 1980—1983 illərdə Moskva Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır. 1983 ildə "Azərinform"da müxbir, xüsusi müxbir, şöbə müdiri, məsul buraxıcı, baş redaktorun müavini, 1994—1995 illərdə "Naxçıvan" qəzeti baş redaktorunun 1-ci müavini, 1995 ildən "Mozalan" qəzetinin baş redaktoru vəzifələrində işləmişdir. 1996 ilin avqust ayından "Alternativ" qəzetinin təsisçisi və baş redaktorudur.
Evlidir, 1 övladı var.

Born 1955 November 18 in Babaser village, Masally district, Azerbaijan Republic. Graduated from the Moscow State University in 1983. Editor-in-chief of the newspaper "Alternativ" since 1996.
Married, has one child.



KƏRİMOV MİKAYIL KƏRİM OĞLU
"Alternativ" qəzetinin baş redaktoru

Kerimov Mikayil Kerim oglu
Editor-in-chief of the newspaper "Alternativ"



QAFARLI RAMAZAN ORUC OĞLU
"Ərən" qəzetinin təsisçisi

Gafarly Ramazan Oruj oglu
Founder of the newspaper "Eren"

1951 il iyunun 17-də Azərbaycan Respublikasının Şəki şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1974 ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirmişdir. Həmin ildən universitetdə komsomol komitəsinin katibi, həmkarlar ittifaqı komitəsinin sədri, Bakı şəhər 204 saylı Orta Məktəbin müəllimi vəzifələrində işləmişdir. Hazırda Pedaqoji Universitetin dosentidir. Filologiya elmləri namizədidir. 4 monoqrafiya, 2 dərs vəsaiti və 100-dən çox elmi-publisistik məqalənin müəllifidir. "Ərən" qəzetinin təsisçisidir.

Born 17 June 1951 in Shaki city, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1974. Founder of the newspaper "Eren".



QASIMOV POLAD MÜSEYİB OĞLU
"Kirpi" jurnalının baş redaktoru

Gasymov Polad Museyib oglu
Editor-in-chief of the journal "Kirpi"

1942 il fevralın 11-də Azərbaycan Respublikası Gədəbəy rayonunun Ataxal kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini və Bakı Ali Partiya Məktəbini bitirmişdir. 1965 ildən "Abşeron" qəzetində müxbir, 1967 ildən "Azərbaycan pioneri", 1969 ildən "Kommunist" qəzetlərində, 1970 ildən "Abşeron" qəzetində redaktor müavini və redaktor, 1983 ildən "Kirpi" jurnalında müxbir, məsul katib vəzifələrində çalışmışdır. 1995 ilin oktyabr ayından "Kirpi" jurnalının baş redaktorudur. Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1965), Ə.Haqverdiyev adına satira ustası mükafatı laureatıdır (1995).
Evlidir, 3 övladı var.

Born 11 February 1942 in Atakhal village, Gedebey district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1965. Editor-in-chief of the journal "Kirpi" since 1995.
Married, has three children.

1935 il avqustun 25-də Azərbaycan Respublikası Ağdaş rayonunun Kotanarx kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Əmək fəaliyyətinə 1957 ildə Bakı Yeraltı Tikinti İdarəsində betonçu kimi başlamışdır. 1959—1964 illərdə M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almışdır. İlk şerlər kitabı — "Qağayı" (1963) bu dövrdə çap olunmuşdur. 1959 ildən "Azərbaycan gəncləri" qəzeti redaksiyasında ədəbi işçi, 1970 ildən Azərbaycan Yazıçılar İttifaqında Afrika—Asiya yazıçıları ilə mədəni əlaqələr işi üzrə məsul katib, 1987 ildən "Azərbaycan" jurnalında şöbə müdiri olmuşdur. 1987 ildən "Qobustan" incəsənət toplusunun baş redaktoru vəzifəsində çalışır. 1991 ildən Azərbaycan Yazıçılar Birliyinin katibidir. 35-ə yaxın şer kitabı nəşr edilmişdir. Azərbaycan komsomolu mükafatı (1968), "Literaturnaya qazeta"nın mükafatı laureatıdır (1987). Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur (1995).
Evlidir, 4 övladı var.

Born 25 August 1935 in Kotanarkh village, Agdash district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the M.Gorki Institute of Literature in 1964, Moscow. Editor-in-Chief of the journal "Gobustan" since 1987.
Married, has four children.



FİKRƏT QOCA (QOCAYEV FİKRƏT GÖYÜŞ OĞLU)
"Qobustan" jurnalının baş redaktoru, xalq şairi

Fikret Goja (Gojayev Fikret Goyush oglu)
Editor-in-Chief of the journal "Gobustan", Peoples Poet

1957 il yanvarın 22-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Kalinino rayonunun Evlu kəndində anadan olmuşdur. 1977—1992 illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır. İrəvan şəhərində "Sovet Ermənistanı" qəzeti redaksiyasında baş müxbir, "Azərbaycanfilm" kinostudiyasında redaktor, 1990 ildən "Aydınlıq" qəzetində şöbə müdiri, baş redaktor müavini vəzifələrində işləmişdir. 1995 ilin oktyabrından "Xalq qəzeti"nin baş redaktorudur. H.Z.Tağıyev adına mükafat və "Qızıl qələm" mükafatı laureatıdır.
Evlidir, 3 övladı var.

Born 22 January 1957 in Evlu village, Kalinino district, Western Azerbaijan, (now Armenia). Graduated from the Azerbaijan State University in 1992. Editor-in-Chief of the newspaper "Khalg Gazeti" since 1995.
Married, has three children.



MAHAL İSMAYILOĞLU (SADIQOV MAHAL İSMAYIL OĞLU)
"Xalq qəzeti"nin baş redaktoru

Mahal Ismayiloglu (Sadygov Mahal Ismayil oglu)
Editor-in-Chief of the newspaper "Khalg Gazeti"



MAHMUDOV ELÇİN BİLAL OĞLU
"Demokratiya" qəzetinin baş redaktoru

Mahmudov Elchin Bilal oglu
Editor-in-chief of the newspaper "Demokratiya"

1957 il sentyabrın 14-də Azərbaycan Respublikasının Tərtər rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Dövlət Pedaqoji İnstitutunda və Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil almışdır. Əmək fəaliyyətinə təyinatla göndərildiyi İsmayıllı rayonunda müəllimliklə başlamışdır. İsmayıllı rayon komsomol komitəsində şöbə müdiri, Qaradağ rayon XDS-nin plan komissiyasında baş iqtisadçı olmuşdur. 1987 ildən "Azərittifaq"da təlimatçı, kadrlar idarəsinin rəisi, tədris müəssisələri və sosial məsələlər idarəsinin rəisi olmuş, "Azərittifaq" İdarə Heyətinin üzvü seçilmişdir. Hazırda "Azərittifaq" şurasının üzvü, İstehsalat-Kommersiya Departamentinin rəisidir. 1993 ildən "Demokratiya" qəzetinin təsisçisi və baş redaktorudur.
Evlidir, 3 övladı var.

Born 1957 in Terter, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedogogical Institute, Azerbaijan State Institute of National Economy. Editor-in-chief of the newspaper "Demokratiya" since 1993.
Married, has three children.



MEHDİYEV MEHDİ MÜKƏRRƏM OĞLU
"Kino" qəzetinin baş redaktoru

Mehdiyev Mehdi Mukarram oglu
Editor-in-chief of the newspaper "Kino"

1952 il aprelin 15-də Azərbaycan Respublikası Qubadlı rayonunun Dondarlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1975 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. Əmək fəaliyyətinə 1975 ildə "Yeni filmlər" jurnalında müxbirlikdən başlamışdır. 1979—1982 illərdə ADU-nun aspiranturasında təhsilini davam etdirmişdir. 1982—1991 illərdə "Yeni filmlər" jurnalı və "Kino yenilikləri" qəzetində, 1991—1992 illərdə isə "Körpü" qəzetində məsul katib vəzifələrində çalışmışdır. 1991 ildən "Kino" qəzetinin baş redaktorudur. Bir çox elmi və publisistik məqalələrin müəllifidir. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür (1989).
Evlidir, 3 övladı var.

Born 1952 April 15 in Dondarly village, Gubadly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1975. Editor-in-chief of the newspaper "Kino" since 1991.
Married, has three children.



MEHRƏLİYEV ELÇİN ƏLİ OĞLU
"Maarifçi" qəzetinin təsisçisi və baş redaktoru

Mehraliyev Elchin Ali oglu
Founder and editor-in-chief of the newspaper "Maarifchi"

1952 il mayın 18-də Azərbaycan Respublikası Ağdam rayonunun Güllücə kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1969 ildə Güllücə kənd orta məktəbini bitirəndən sonra üzümçülük sovxozunda fəhləliklə əmək fəaliyyətinə başlamışdır. 1976 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini, 1987 ildə Bakı Ali Partiya məktəbini bitirmişdir. 1976 ildən "Azərbaycan gəncləri" qəzetində müxbir, şöbə müdiri və redaktor müavini, 1991 ildən Azərbaycan Respublikası Prezidenti Aparatında, 1994 ildən Azərbaycan Respublikasının Milli Məclisində müxtəlif vəzifələrdə işləmişdir. 1995 ilin yanvarında "Maarifçi" qəzetini təsis etmişdir. Azərbaycan Jurnalistlər Birliyi və Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Filologiya elmləri namizədidir. 6 kitabın və çoxlu elmi, publisistik əsərlərin müəllifidir. "Qızıl qələm", "Nailiyyət", "Açıq söz" mükafatları laureatıdır.
Evlidir, 3 övladı var.

Born 1952 May 18 in Agdam district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1975. Founder and editor-in-chief of the newspaper "Maarifchi" since 1995.
Married, has three children.



MƏHƏMMƏD BAHARLI (ƏHMƏDOV MƏHƏMMƏD ƏHMƏD OĞLU)
"Azərbaycan müəllimi" qəzetinin baş redaktoru

Mahammad Baharly (Ahmadov Mahammad Ahmad oglu)
Editor-in-chief of the newspaper "Azerbaijan Muallimi"

1948 il martın 12-də Azərbaycan Respublikası Zəngilan rayonunun Baharlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1969 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1969 ildən "Azərbaycan gəncləri" qəzetində müxbirlikdən başlamışdır. 1971 ildən "Azərbaycan məktəbi" jurnalında şöbə müdiri, məsul katib, 1988 ildən "Gənclik" və "Molodyoj" jurnallarının məsul katibi, 1992 ildən, "Təhsil" qəzetinin redaktoru işləmişdir. 1993 ilin fevral ayından "Azərbaycan müəllimi" qəzetinin baş redaktorudur. 4 kitabın müəllifidir. 1992 ildə "Qabaqcıl maarif xadimi" Döş nişanı ilə təltif olunmuşdur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.
Evlidir, 3 övladı var.

Born 12 March 1948 in Baharly village, Zangilan district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1969. Editor-in-chief of the newspaper "Azerbaijan Muallimi" since 1993.
Married, has three children.




MƏZAHİR SƏHƏR (SÜLEYMANZADƏ MƏZAHİR BƏYBALA OĞLU)
"Səhər" qəzetinin baş redaktoru

Mazahir Sahar (Suleymanzade Mazahir Beybala oglu)
Editor-in-chief of the newspaper "Sahar"

1952 il dekabrın 22-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1979 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür (1983). Əmək fəaliyyətinə 1979 ildə Şamaxı rayon mədəniyyət şöbəsində başlamış, S.Ə.Şirvani adına tarix-diyarşünaslıq muzeyinin direktoru olmuşdur. 1979 ildən "İdman" — "Sport" qəzetlərin də müxbir, 1980—1990 illərdə "Kommunist" qəzetində müxbir, məsul katib, redaktor müavini vəzifələrində çalışmışdır. 1991 ildən "Səhər" qəzetinin baş redaktorudur. "Qızıl qələm" mükafatına (1985), Azərbaycan Ali Sovetinin Fəxri Fərmanına (1989), "Araz" ali ədəbi mükafatına (1994) layiq görülmüşdür.
Evlidir, 1 övladı var.

Born 1952 December 22 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1979. Editor-in-chief of the newspaper "Sahar" since 1991.
Married, has one child.




MƏMMƏD ARAZ (İBRAHİMOV MƏMMƏD İNFİL OĞLU)
"Azərbaycan təbiəti" jurnalının baş redaktoru, xalq şairi

Memmed Araz (Ibrahimov Memmed Infil oglu)
Editor-in-Chief of the journal "Azerbaijan Tebieti", Peoples Poet

1935 il oktyabrın 14-də Azərbaycan Respublikası Naxçıvan MR Şahbuz rayonunun Nurs kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1954 ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun coğrafiya fakültəsini bitirmişdir. Azərbaycanın Xalq şairi (1991), Əməkdar mədəniyyət işçisi (1979), Əməkdar incəsənət xadimi (1984), Azərbaycan Yazıçılar Birliyinin üzvüdür (1951). Əmək fəaliyyətinə 1955 ildə Nurs kəndində müəllimliklə başlamışdır. 1957—1959 illərdə Nazirlər Soveti Yanında Mətbuatda Dövlət Sirlərini Mühafizə Edən Baş İdarədə işləmişdir. 1959—1961 illərdə Moskva Ədəbiyyat İnstitutunda təhsilini davam etdirmişdir. 1963—1969 illərdə Azərnəşrdə redaksiya müdiri, baş redaktor müavini, 1970—1973 illərdə isə "Ədəbiyyat və incəsənət" qəzetində redaktor müavini vəzifələrində çalışmışdır. 1974 ildən "Azərbaycan təbiəti" jurnalının baş redaktorudur. 25 şer kitabının müəllifidir. Əsərləri xarici ölkələrdə nəşr olunmuşdur. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif edilmişdir (1995).
Evlidir, 2 övladı var.

Born 14 October 1933 in Nurs village, Shahbuz district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedogogical Institute in 1954. Editor-in-Chief of the journal "Azerbaijan Tebieti" since 1974.
Married, has two children.



MƏMMƏD ASLAN (ASLANOV MƏMMƏD MUXTAR OĞLU)
"Ekran-efir" qəzetinin baş redaktoru

Memmed Aslan Aslanov Memmed Mukhtar oglu
Editor-in-Chief of the newspaper "Ekran-efir"

1939 il martın 20-də Azərbaycan Respublikası Kəlbəcər rayonunun Laçın kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1957—1962 illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə təyinatla göndərildiyi Kəlbəcər rayonunun Yanşaq, İstisu kənd məktəblərində müəllimliklə başlamışdır. "Yenilik" rayon qəzetinin məsul katibi olmuşdur. 1970 ildən "Ulduz", "Azərbaycan təbiəti" jurnallarında, "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" qəzetlərində, "Yazıçı" nəşriyyatında işləmişdir. Bu dövrdə mətbuatda şerləri, tərcümələri və publisistik yazıları çap olunmuşdur. 12-dən çox kitabın müəllifidir. 1992 ilin oktyabrından "Ekran-efir" qəzetinin baş redaktorudur.

Born 20 March 1939 in village Lachyn, Kelbejer district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedogogical Institute in 1962. Editor-in-Chief of the newspaper "Ekran-efir" since 1992.



MƏMMƏDLİ İLHAM MÜSEYİB OĞLU
"Azərbaycan XXI əsr" qəzetinin baş redaktoru

Memmedli Ilham Museyib oglu
Editor-in-chief of the newspaper "Azerbaijan XXI Esr"

1963 il fevralın 9-da Azərbaycan Respublikası Kəlbəcər rayonunun Bəzirxana kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1990 ildə BDU-nun jurnalistika fakültəsini bitirmişdir. "İşıq" nəşriyyatında kiçik redaktor, "Həqiqət" qəzetində şöbə müdiri, "Azərbaycan aqrar elmi" jurnalında şöbə redaktoru, "Həyat" qəzetində baş müxbir, "Respublika" qəzetində müxbir, "Hər gün" qəzetində redaktor vəzifələrində işləmişdir. 1999 ildən "Azərbaycan XXI əsr" qəzetinin baş redaktorudur.
Evlidir, 2 övladı var.

Born 1963 February 9 in Bazirkhana village, Kelbejer district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku State University in 1990. Editor-in-chief of the newspaper "Azerbaijan XXI Esr" since 1999.
Married, has two children.



MƏMMƏD NAZİMOĞLU (MƏMMƏDOV MƏMMƏD NAZİM OĞLU)
"Ulus" qəzetinin baş redaktoru

Memmed Nazimoglu (Memmedov Memmed Nazim oglu)
Editor-in-chief of the newspaper "Ulus"

1959 il sentyabrın 28-də Azərbaycan Respublikası Ağdaş rayonunun Yuxarı Nemətabad kəndində anadan olmuşdur. 1976 ildə kənd orta məktəbini bitirmişdir. 1978—1983 illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır. 1983 ildən Bakı Elektrik Məişət Cihazları İstehsalat Birliyinin "Nümunəvi temp uğrunda" qəzetində müxbir, 1989 ildən "Qafqaz" Reklam İnformasiya Agentliyində məsul katib, 1990 ildən "Aydınlıq" qəzetində müxbir, şöbə müdiri, baş redaktor müavini, baş redaktor, 1993 ildən "Xalq qəzeti" baş redaktorunun birinci müavini, "Mentalitet qəzetinin baş redaktoru vəzifələrində işləmişdir. 2001 ildən "Ulus" qəzetinin baş redaktorudur.
Dövri mətbuatda publisistik və ədəbi-tənqidi məqalələrlə müntəzəm çıxış edir.
Evlidir, 3 övladı var.

Born 1959 September 28 in Yukhary Nematabad village, Ağdash district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1983. Editor-in-chief of the newspaper "Ulus".
Married, has three children.



MƏNSUR FƏXRİ (VƏKİLOV MƏNSUR FƏXRİ OĞLU)
"Literaturnıy Azerbaydjan" jurnalının baş redaktoru

Vekilov Mansur Fakhri oglu (Mansur Fakhri)
Editor-in-chief of the journal "Literaturniy Azerbaydzhan"

1939 il sentyabrın 7-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1956—1961 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. 1961 ildən "Molodyoj Azerbaydjana" qəzetində ədəbi işçi, 1963 ildən "Literaturnıy Azerbaydjan" jurnalında ədəbi işçi, məsul katib, baş redaktorun müavini işləmişdir. 1991 ildən həmin jurnalın baş redaktorudur. 1968—1969 illərdə Moskvada Ali ssenari kurslarında təhsilini davam etdirmişdir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Şer, ədəbi-tənqidi, publisist yazıları və Azərbaycan ədəbiyyatından rus dilinə tərcümələri nəşr olunmuşdur. 6 kitabın müəllifidir. 1986 ildə "Şərəf nişanı" ordeni, 1981 ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 1939 September 7 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1961. Editor-in-chief of the journal "Literaturniy Azerbaidzhan" since 1991.
Married, has two children.

1941 il avqustun 15-də Azərbaycan Respublikası Ağsu rayonunun Pirhəsənli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1966 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini, 1971 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir. Ağsu rayon "Birlik" qəzetində ədəbi işçi, şöbə müdiri, 1971 ildə Ağsu Rayon Partiya Komitəsində təlimatçı, 1973 ildən "Birlik" qəzetinin redaktoru, 1992 ildən Şirvan İnformasiya Mərkəzinin direktoru, 1995 ildən "Yer" qəzetinin baş redaktoru vəzifələrində işləmişdir. "Azərtayms" qəzetinin təsisçisi və baş redaktorudur. 1964 ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. "Qızıl qələm" və Həsənbəy Zərdabi mükafatları laureatıdır. 12 kitabın müəllifidir.
Evlidir, 1 övladı var.

Born 15 August 1941 in Pirhasanli village, Agsu district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1966. Editor-in-Chief of the newspaper "Azertayms" at present.
Married, has one child.



MİRZƏLİYEV CANALI XANALI OĞLU
"Azərtayms" qəzetinin baş redaktoru

Mirzaliyev Janaly Khanaly oglu
Editor-in-Chief of the newspaper "Azertayms"

1950 il aprelin 25-də Azərbaycan Respublikası Gədəbəy rayonunun Ataxal kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1974 ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1974 ildən "Gənclik" nəşriyyatında redaktor, böyük redaktor vəzifələrində işləmişdir. 2000 ilin avqust ayından "Şur" nəşriyyatının direktorudur. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 7 şer kitabının, tərcümə əsərləri və məqalələrin müəllifidir.
Evlidir, 4 övladı var.

Born 1950 April 25 in Atakhal village, Gedebey district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1974. Director of the "Shur" Publishing House since 2000.
Married, has four children.



MUSA ƏLƏKBƏRLİ (ƏLƏKBƏROV MUSA MƏLİK OĞLU)
"Şur" nəşriyyatının direktoru

Musa Alekberli (Alekberov Musa Melik oglu)
Director, "Shur" Publishing House



MUSTAFAYEV ƏMİRBƏY GÜLBALA OĞLU
"Azərbaycan" qəzetinin baş redaktoru

Mustafayev Amirbay Gulbala oglu
Editor-in-chief of the newspaper "Azerbaijan"

1936 il martın 12-də Azərbaycan Respublikasının Qusar rayonunda anadan olmuşdur. Ləzgidir. 1958 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür (1964). 1958 ildən "Azərbaycan pioneri" qəzetində ədəbi işçi, şöbə müdiri, məsul katib, baş redaktor müavini, 1971 ildən "Azərbaycan" jurnalında şöbə müdiri, 1979 ildən Azərnəşrdə redaksiya müdiri işləmişdir. 1993 ildən "Azərbaycan" qəzetinin baş redaktorudur. 20-dən çox bədii kitabın müəllifidir. "Tərəqqi" medalı ilə təltif edilmişdir (1997).
Evlidir, 2 övladı var.

Born 12 March 1936 in Gusar district, Azerbaijan Republic. Lezghin. Graduated from the Azerbaijan State University in 1958. Editor-in-Chief of the newspaper "Azerbaijan" since 1993.
Married, has two children.



MUSTAFAZADƏ AZƏR ABDULLA OĞLU
Azərbaycan Dövlət Nəşriyyatının direktoru

Mustafazade Azer Abdulla oglu
Director of the Azerbaijan State Publishing House

1939 il martın 27-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. 1964 ildə M.Qorki adına Ədəbiyyat İnstitutunun tərcümə şöbəsini bitirmişdir. 1964 ildən "Literaturnıy Azerbaydjan" jurnalında ədəbi işçi, şö"bə müdiri, məsul katib, 1968 ildən "Literaturnaya qazeta"nın Azərbaycan Respublikası üzrə xüsusi müxbiri, 1972 ildən SSRİ Yazıçılar İttifaqında məsləhətçi, 1983 ildən Azərbaycan Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi sədrinin müavini, 1988 ildən Azərbaycan KP MK mədəniyyət şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 1990 ildən Azərbaycan Dövlət Nəşriyyatının direktorudur. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür (1969). RSFSR Əməkdar mədəniyyət işçisidir (1982). Azərbaycan Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir (1989).
Evlidir, 3 övladı var.

Born 27 March 1939 in Baku, Azerbaijan Republic. Graduated from the M.Gorki Institute of Literature in 1964, Moscow. Director of the Azerbaijan State Publishing House since 1990.
Married, has three children.

1970 il yanvarın 22-də Gürcüstan Respublikası Borçalı mahalının Darvaz kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1990 ildə Tbilisi Dövlət Universitetinin jurnalistika şöbəsini, 1992 ildə Azərbaycan Pedaqoji Universitetinin filologiya fakültəsini bitirmişdir. 1992 ildən "Ziya" qəzetində müxbir, məsul katib, "Azad Azərbaycan" və "Təhsil" qəzetlərinin baş redaktoru vəzifələrində çalışmışdır. 1996 ildən respublika "Təhsil" Mərkəzinin, "Borçalı" nəşriyyatının baş direktoru, "Şərqin səsi" qəzetinin baş redaktorudur. 30 kitabın, 500-dən çox məqalənin müəllifidir. "Abdulla Şaiq", "Nəriman Nərimanov" və "Ömər Faiq" mükafatlarına layiq görülmüşdür.

Born 1970 January 22 in Darbaz village, Bolnisi district, Georgian Republic. Azerbaijanian. Graduated from the Tbilisi State University in 1990. Director General of the "Borchaly" Publishing House, editor-in-chief of the newspaper "Shargin Sesi" since 1996.



MÜŞFİQ BORÇALI (ÇOBANLI MÜŞFİQ MƏDƏD OĞLU)
"Borçalı" nəşriyyatının baş direktoru, "Şərqin səsi" qəzetinin baş redaktoru

Mushfig Borchaly (Chobanly Mushfig Madad oglu)
Director General of the "Borchaly" Publishing House, editor-in-chief of the newspaper "Shargin Sesi"

1945 il avqustun 26-da Azərbaycan Respublikası Laçın rayonunun Bülövlük kəndində anadan olmuşdur. Bauman adına Moskva Fizika-Texnika Universitetini bitirmişdir. 1960—1979 illərdə Yasamal rayonunun 176 və 80 saylı orta məktəblərində və texniki universitetdə müəllimlik etmişdir. 1970 ildən Azərbaycan EA-nın Neft-Qaz Problemləri İnstitutunun fizika-kimya laboratoriyasında mühəndis, böyük mühəndis, kiçik elmi işçi, baş elmi işçi, Azərbaycan Respublikası Nazirlər Kabineti Fövqəladə hallar şöbəsinin müdiri, Elmi-Tədqiqat Hidrometeorologiya İnstitutu direktorunun birinci müavini vəzifələrində işləmişdir. 1994 ildən "Hüquq" qəzetinin baş redaktorudur. Texnika elmləri namizədidir (1982). 100-ə qədər elmi əsərin, üç ixtiranın müəllifidir.
Evlidir, 4 övladı var.

Born 1945 Bulovluk village, Lachyn district, Azerbaijan Republic. Craduated from the Bauman Moscow Physical -Technical University. Editor-in-chief of the newspaper "Hugug" since 1994.
Married, has four children.



NƏBİBƏYLİ (CƏLİLOV) ZİYADXAN İSRAFİL OĞLU
"Hüquq" qəzetinin baş redaktoru

Nabibeyli (Jalilov) Ziyadkhan Israfil oglu
Editor-in-Chief of the newspaper "Hugug"



RAFİQ YUSİFOĞLU (ƏLİYEV RAFİQ YUSİF OĞLU)
"Göyərçin" jurnalının baş redaktoru

Rafig Yusifoglu (Aliyev Rafig Yusif oglu)
Editor-in-Chief of the journal "Goyarchin"

1950 il yanvarın 2-də Azərbaycan Respublikası Qubadlı rayonunun Çardaxlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1970 ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmişdir. 1970—1985 illərdə Sumqayıt şəhərində təhsil sistemində fəaliyyət göstərmişdir. 1985—1996 illərdə "Göyərçin" jurnalı redaksiyasında şöbə müdiri, məsul katib, 1996—1997 illərdə Azərbaycan Dövlət Televiziyasının Xəbərlər baş redaksiyasında elm, mədəniyyət və incəsənət şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 1997 ilin may ayından "Göyərçin" jurnalının baş redaktorudur. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür (1986). Filologiya elmləri namizədidir (1984). 11 şer, nəsr, elmi və publisistik kitabın müəllifidir. Azərbaycan Yazıçılar İttifaqı, Mətbuat Komitəsi və Gənclər İttifaqının mükafatına layiq görülmüşdür (1989).

Born 2 January 1950 in Chardakhly village, Gubadly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedogogical Institute in 1970. Editor-in-chief of the journal "Goyarchin" since 1997.



RƏSULOV FİRUDİN YUSİF OĞLU
"Həyat" qəzetinin baş redaktoru

Rasulov Firudin Yusif oglu
Editor-in-chief of the newspaper "Hayat"

1938 il martın 25-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Zəngibasar rayonunun Zəngilər kəndində anadan olmuşdur. 1959—1965 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır. 1962 ildən "Abşeron" qəzetində korrektor, ədəbi işçi, şöbə müdiri, məsul katib, 1969 ildən "Kommunist" qəzetində məsul katibin müavini, ədəbi işçi, müxbir, baş müxbir, şöbə müdiri, bölgə müxbiri, 1992 ildən "Həyat" qəzetində siyasət şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1995 ildən "Həyat" qəzetinin baş redaktorudur.
Evlidir, 2 övladı var.

Born 1938 March 25 in Zangilar village, Zangibasar district, Western Azerbaijan (now Armenia). Graduated from the Azerbaijan State University in 1965. Editor-in-chief of the newspaper "Hayat" since 1995.
Married, has two children.



RƏŞAD MƏCİD (MƏCİDOV RƏŞAD MÜSEYİB OĞLU)
"525-ci qəzet"in təsisçisi və baş redaktoru

Rashad Mejid (Mejidov Rashad Museyib oglu)
Founder and editor-in-chief of the newspaper "525-ji Gazet"

1964 il avqustun 21-də Azərbaycan Respublikasının Ağcabədi rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1988 ildə BDU-nun jurnalistika fakültəsini bitirmişdir. 1985 ildən "Elm və həyat" jurnalında korrektor, ədəbi işçi, 1990 ildən "Ədalət" qəzetində şöbə müdiri, 1990—1991 illərdə Bədii Tərcümə Mərkəzinin sədr müavini, 1992 ildən "Azərbaycan" qəzeti baş redaktorunun müavini, "Azərmətbuatyayımı" İB-nin sədri, 1994 ildən "Xəzər" jurnalı redaktorunun müavini vəzifələrində işləmişdir. 1995 ildən "525-ci qəzet"in baş redaktorudur. Azərbaycan Yazıçılar Birliyinin üzvü, Bakı Mətbuat Klubunun təsisçilərindən biridir. "Hələ ki vaxt var" şerlər kitabının müəllifidir.

Born 21 August 1964 in Agjabedi district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku State University in 1988. Editor-in-Chief of the newspaper "525-ji Gazet" since 1995.



RZAYEV ASƏF TELMAN OĞLU
"Açıq fikir" qəzetinin baş redaktoru

Rzayev Asaf Telman oglu
Editor-in-chief of the newspaper "Achyg fikir"

1979 il yanvarın 25-də Azərbaycan Respublikası Qubadlı rayonunun Mahruzlu kəndində anadan olmuşdur. 1999 ildə Azərbaycan İnşaat Mühəndisləri Universitetini bitirmişdir. Həmin ildən qəzet və jurnal redaksiyalarında müxtəlif vəzifələrdə işləmişdir. 2001 ildən "Açıq fikir" qəzetinin baş redaktorudur.

Born 25 January 1979 in village Mahruslu, Gubadly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan Civil Engineering University in 1999. Editor-in chief of the newspaper "Achyg fikir" since 2001.



SADIQOV OQTAY AĞASADIQ OĞLU
"Şərq-Qərb" nəşriyyatının direktoru

Sadygov Ogtay Agasadyg oglu
Director of the publishing house "Sharg-Garb"

1954 il oktyabrın 17-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. 1978 ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir. 1975—1977 illərdə İranın İsfahan şəhərindəki metallurgiya kombinatında tərcüməçi, 1981—1985 illərdə Respublika Dövlət Teleradio Komitəsinin İran üçün verilişlər baş redaksiyasında kiçik redaktor, böyük redaktor, baş redaktor əvəzi, 1985—1990 illərdə respublika Nazirlər Sovetində referent, böyük referent, Azərbaycan KP MK ideologiya şöbəsində təlimatçı vəzifələrində çalışmışdır. 1990 ildən "Şərq-Qərb" nəşriyyatının direktorudur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. SSRİ Ali Sovetinin Fəxri fərmanı və Əfqanıstandakı xidməti illərində 5 döyüş medalı ilə təltif olunmuşdur.
Evlidir, 2 övladı var.

Born 17 October 1954 in Baku, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1978. Director of the publishing house "Sharg-Garb" since 1990.
Married, has two children.



SƏMƏDZADƏ ARİF QULAM OĞLU
"Azərblanknəşr"in direktoru

Samadzade Arif Gulam oglu
Director of "Azerblankneshr"

1940 ildə Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1967—1972 illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır. 1969—1974 illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Baş Arxiv İdarəsində kiçik elmi işçi, baş elmi işçi, 1974 ildən Elmi-Tədqiqat Dəniz Neft Layihə İnstitutunda şöbə rəisi, 1987 ildən SSRİ Maarif Nazirliyində bölmə müdirinin müavini, 1988—1989 illərdə "Azərkitab" Kitab Bazası direktorunun müavini vəzifələrində çalışmışdır. 1993 ildən "Azərblanknəşr"in direktorudur. Fəlsəfə elmləri namizədidir.
Evlidir, 2 övladı var.

Born 1940 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1972. Director of "Azerblankneshr" since 1993.
Married, has two children.

1935 il mayın 5-də Gürcüstan Respublikası Marneuli rayonunun Kürdlər kəndində anadan olmuşdur. 1955—1960 illərdə A.S.Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsində təhsil almışdır. 1962 ildən Marneuli Rayon Komsomol Komitəsinin birinci katibi, 1972 ildən rayon Partiya Komitəsində təlimatçı, şöbə müdiri, və katib vəzifələrində çalışmışdır. 1972 ilin oktyabr ayından "Gürcüstan" qəzetinin redaktorudur. Gürcüstan azərbaycanlılarının "Birlik" Mədəni-Xeyriyyə Cəmiyyətinin prezidentidir. Gürcüstanın Əməkdar mədəniyyət işçisidir. Marneuli Rayon Sovetinin və Gürcüstan Ali Sovetinin deputatı olmuşdur (1980—1985). "Şərəf nişanı" ordeninə, 4 medala, Gürcüstan Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanlarına, SSRİ XTNS-nin mükafatına layiq görülmüşdür.

Born 1935 May 5 in Kurdlar village, Marneuli district, Georgia. Graduated from the Tbilisi State Pedogogical Institute in 1960. Editor of the newspaper "Gurjustan" since 1972.



SÜLEYMANOV SÜLEYMAN MƏHƏMMƏD OĞLU
"Gürcüstan" qəzetinin redaktoru

Suleymanov Suleyman Mahammad oglu
Editor of the newspaper "Gurjustan"

1929 ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Ağcakənd kəndində anadan olmuşdur. Kürddür. 1948—1950 illərdə Ağdam ikiillik Dövlət Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsində təhsil almışdır. 1950 ildən Ağcakənddə müəllim, 1953 ildən Kəlbəcər rayon Komsomol Komitəsinin birinci katibi işləmişdir.1955—1959 illərdə Bakı Ali Partiya Məktəbində təhsil almışdır. 1960 ildən Kəlbəcər rayon qəzetinin redaktoru, 1962 ildən qəsəbə orta məktəbinin direktoru, 1964 ildən Kəlbəcər Rayon İcraiyyə Komitəsinin sədri, 1968 ildən Kəlbəcər Xalq Maarif Şöbəsinin müdiri, 1981 ildən Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin direktoru olmuşdur. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Filologiya elmləri namizədidir. 6 bədii kitabın müəllifidir.
Evlidir, 5 övladı var.

Born 1929 in Agjakend village, Kelbejer district, Azerbaijan Republic. Kurd. Graduated from the Baku Higher Party School in 1959. Editor-in-chief of the newspaper "Denche kurd".
Married, has five children.



ŞAMİL ƏSGƏR DƏLİDAĞ (ƏSGƏROV ŞAMİL SƏLİM OĞLU)
"Dənçe kürd" ("Kürdün səsi") qəzetinin baş redaktoru

Shamil Asker Delidag (Askerov Shamil Salim oglu)
Editor-in-chief of the newspaper "Denche kurd" ("Voice of kurd")




TAHİR TAİSOĞLU (MƏMMƏDOV TAHİR TAİS OĞLU)
"Aktual" qəzetinin baş redaktoru

Tahir Taisoglu (Memmedov Tahir Tais oglu)
Editor-in-chief of the newspaper "Aktual"

1950 ildə Azərbaycan Respublikasının Şamaxı rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1986 ildə Moskva Dünya Ədəbiyyatı İnstitutunu bitirmişdir. Həmin ildən Azərbaycan radiosunda fəaliyyət göstərmişdir. 1986 ildən "Kənd həyatı" jurnalında elmi redaktor, "Həyat" qəzetində baş müxbir, "Azərbaycan" qəzetində müxbir işləmişdir. 1996 ildən "Aktual" qəzetinin baş redaktorudur. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür (1981). 8 kitabın müəllifidir.
Evlidir, 3 övladı var.

Born 1950 in Shamakhy district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Moscow World Institute of Literature in 1986. Editor-in-chief of the newspaper "Aktual" since 1996.
Married, has three children.



TAHİRLİ GÜNDÜZ MƏMMƏDSƏLİM OĞLU
"Azadlıq" qəzetinin baş redaktoru

Tahirli Gunduz Mammedselim oglu
Editor-in-chief of the newspaper "Azadlyg"

1970 il oktyabrın 26-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1992 ildə BDU-nun jurnalistika fakültəsini bitirmişdir. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür (1990). Əmək fəaliyyətinə 1990 ildən "Azadlıq" qəzetində başlamışdır. Müxbir, informasiya, siyasət şöbələrinin müdiri olmuşdur. 1994 ildən həmin qəzetin redaktorudur.

Born 26 October 1970 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the M.A.Resulzade Baku State University in 1992. Editor-in-chief of the newspaper "Azadlyg" since 1994.



TALEH HƏMİD (BABAYEV TALEH HƏMİD OĞLU)
"Müstəqil qəzet"in təsisçisi və baş redaktoru

Taleh Hamid (Babayev Taleh Hamid oglu)
Founder and Editor-in-Chief of the newspaper "Mustagil Gazet"

1952 il iyunun 19-da Azərbaycan Respublikası Şəmkir rayonunun Dəllər-Cəyir kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1975—1980 illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır. 1980 ildən "Ulduz" jurnalında ədəbi işçi, 1989 ildən "Yeni fikir" qəzetində baş redaktor olmuşdur. 1992 ildən təsis etdiyi "Müstəqil qəzet"in baş redaktorudur. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 5 şer kitabının, ədəbi-tənqidi və publisistik məqalələrin müəllifidir. Azərbaycan komsomolu mükafatı laureatıdır. Bir sıra xarici ölkələrdə yaradıcılıq ezamiyyətində olmuşdur.
Ailəlidir, 2 övladı var.

Born 19 June 1952 in Deller-Jayir village, Shamkir district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1980. Editor-in-Chief of the newspaper "Mustagil Gazet" since 1992.
Married, has two children.



UMUDOV EYNULLA UMUD OĞLU
"Gələcək gün" qəzetinin baş redaktoru

Umudov Eynulla Umud oglu
Editor-in-chief of the newspaper "Gelejek Gun"

1948 il mayın 4-də Azərbaycan Respublikası Ucar rayonunun Təzə Şilyan kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1982 ildə ADU-nun jurnalistika fakültəsini bitirmişdir. 1971 ildən "Neft daşları" qəzetində ədəbi işçi, redaktor, "And" qəzetində redaktor vəzifələrində işləmişdir. 1993 ildən "Gələcək gün" qəzetinin baş redaktorudur. "Qızıl qədəm" mükafatına, XTNS-nin bürünc medalına və Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanına layiq görülüb.
Evlidir, 4 övladı var.

Born 1948 May 4 in Taza Shilyan village, Ujar district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1982. Editor-in-chief of the newspaper "Gelejek Gun" since 1993.
Married, has four children.



VEYSƏLLİ NEMƏT BAYRAMALI OĞLU
"Mədəniyyət" qəzetinin baş redaktoru

Veysalli Nemet Bayramali oglu
Editor-in-chief of the newspaper "Medeniyyet"

1941 il martın 21-də Azərbaycan Respublikası Füzuli rayonunun Yuxarı Veysəlli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə ADU-nun jurnalistika fakültəsini bitirmişdir. Dövlət Televiziya və Radio Verilişləri Komitəsində, Azərbaycan Yazıçılar İttifaqında, "Azərbaycan", "Ulduz" jurnallarında, "Azərbaycan ordusu" qəzetində müxtəlif vəzifələrdə çalışmışdır. Hazırda "Mədəniyyət" qəzetinin baş redaktorudur. Azərbaycan Yazıçılar Birliyi və Jurnalistlər Birliyinin üzvüdür. 7 bədii kitabın müəllifidir. "Qızıl qələm" mükafatı laureatıdır.
Evlidir, 4 övladı var.

Born 21 March 1941 in Yukhary Veysalli village, Fizuli district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1971. Editor-in-chief of the newspaper "Medeniyyet" at present
Married, has four children.



VƏLİ XRAMÇAYLI (NƏSİBOV VƏLİ ALI OĞLU)
"Ocaq" qəzetinin baş redaktoru

Veli Khramchayly (Nasibov Veli Ali oglu)
Editor-in-chief of the newspaper "Ojag"

1955 ildə RF Tomsk vilayəti Baxçar rayonunun Çernışovka kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1983 ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1985 ildən "Azərbaycan təbiəti" jurnalında şöbə müdiri, məsul katib, baş redaktorun müavini vəzifələrində işləmişdir. Hazırda "Ocaq" qəzetinin təsisçisi və baş redaktorudur. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 4 şer kitabının müəllifidir.

Born 1955 in Chernyshovka village, Bakhchar district, Tomsk Region, Russian Federation. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1983. Editor-in-chief of the newspaper "Ojag" at present.



VƏLİYEV İSMAYIL ÖMƏR OĞLU
Azərbaycan Milli Ensiklopediyasının baş redaktoru

Veliyev Ismayil Omar oglu
Editor-in-chief of the Azerbaijan National Encyclopedia

1951 il martın 18-də sonralar Ermənistan Respublikasına qatılmış qədim Loru mahalında (Dağ Borçalı) Allahverdi bölgəsinin Böyük Ayrım kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1965 ildə doğma kəndində səkkizillik məktəbi, 1968 ildə qonşu rayonun Yuxarı Körpülü kəndində orta məktəbi (əla qiymətlərlə), 1975 ildə Bakıda Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. 1975 ildən Azərnəşrdə korrektor, redaktor, 1978 ildən "Yazıçı" nəşriyyatında redaktor, redaksiya müdiri, 1980 ildən Azərbaycan Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsində Nəşriyyatlar İdarəsinin rəisi, 1984 ildən Azərbaycan KP MK-nın təbliğat və təşviqat şöbəsində təlimatçı, mühaziraçi, MK katibinin köməkçisi, şöbə müdirinin müavini vəzifələrində işləmişdir. 1989 ildən Azərbaycan Sovet Ensiklopediyası baş redaktorunun birinci müavini, 1991 ildən baş redaktoru, 1992 ildən Azərbaycan—Türkiyə birgə müəssisəsi "Göytürk" Nəşriyyat, Poliqrafiya və Ticarət Şirkətinin baş direktoru olmuşdur. 1992 ildən Azərbaycan Milli Ensiklopediyasının baş redaktorudur. Ədəbi-bədii, publisistik və tərcümə yaradıcılığı ilə ardıcıl məşğul olur. Qədim Şumerlərin məhşur "Bilqamıs dastanı"nı, "Avesta"dan parçaları, Qədim Misir ədəbiyyatı nümunələrini dilimizə tərcümə etmişdir. Filologiya elmləri doktoru, professordur (2001). Azərbaycan Jurnalistlər Birliyinin (1979) və Yazıçılar Birliyinin (1985) üzvüdür. 15 kitabın, 6 tərcümə kitabının, 300-dən çox elmi, 500-dən çox elmi və publisistik məqalənin müəllifidir. Onlarla irihəcmli ensiklopedik, elmi və bədii kitabın redaktoru və tərtibçisi olmuşdur. Bəzi əsərləri türk, ukrayna, rus və ərəb dillərinə tərcümə olunmuşdur. Azərbaycan Jurnalistlərinin "Qızıl qələm" mükafatına (1995) və "Azərbaycan bayrağı" diplomuna (2001) layiq görülmüşdür. Bir çox qəzet və jurnal redaksiya heyətinin və ictimai təşkilatın üzvüdür.
Evlidir, 3 övladı var.

Born 18 March 1951 Boyuk Ayrym village, Allahverdi district, Western Azerbaijan (now Armenian Republic). Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1975. Director General of the Publishing-Polygraphic Union of Azerbaijan National Encyclopedia in 1992. Editor-in-chief of the Azerbaijan National Encyclopedia at present.
Married, has three children.



YOLÇUYEV VARİS MUSA OĞLU
"168 saat" qəzetinin baş redaktoru

Yolchuyev Varis Musa oglu
Editor-in-chief of the newspaper "168 Saat"

1964 ildə Azərbaycan Respublikasının Cumqayıt şəhərində anadan olmuşdur. 1990 ildə BDU-nun filologiya fakültəsini bitirmişdir. 1991 ildən "168 saat" qəzetinin baş redaktoru, 1993 ildən Azərbaycan Televiziyasının əməkdaşı olmuşdur. 1997 ildən "168 saat" qəzetinin baş redaktorudur. "İlin ən yaxşı baş redaktoru" (1998), "Beynəlxalq Qızıl ulduz" ("168 saat" qəzeti, 2001) mükafatlarına layiq görülmüşdür.

Born 1964 in Sumgait, Azerbaijan Republic. Graduated from the Baku State University in 1990. Editor-in-chief of the newspaper "168 Saat" since 1997.



ZEMFİRA ŞƏRƏFXANLI (ƏKBƏROVA ZEMFİRA ƏSGƏR QIZI)
"Tale" qəzetinin baş redaktoru

Zemfira Sharafkhanly (Akberova Zemfira Asger gyzy)
Editor-in-chief of the newspaper "Tale"

1959 ildə Azərbaycan Respublikası Ağcabədi rayonunun Şərəfxanlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1985 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Bir çox qəzetlərdə müxbir, şöbə müdiri, redaktor müavini, redaktor işləmişdir. 1994 ildən "Tale" müstəqil ictimai-siyasi qəzetinin təsisçisi və baş redaktorudur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Üç bədii kitabın müəllifidir. "Məşhəti Gəncəvi" mükafatı laureatıdır. Ailəlidir, 3 övladı var.

Born 1959 in Sharafkhanly village, Agjabedi district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1985. Editor-in-chief of the newspaper "Tale" since 1994. Married, has three children.

İCTİMAİ BİRLİKLƏR, CƏMİYYƏTLƏR, İDARƏLƏR



BABAYEV BAXIŞ ABUTALIB OĞLU
Azərbaycan Elektrik Şəbəkələri Tikinti Trestinin rəisi

Babayev Bakhysh Abutalib oglu
Chief of the Construction Trust of Azerbaijan Energetic Nets

1937 il mayın 15-də Azərbaycan Respublikası Qubadlı rayonunun Çərəli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1958 ildə Bakı Energetika Texnikumunu, 1966 ildə Azərbaycan Dövlət Universitetinin tarix-filologiya fakültəsini, 1973 ildə Azərbaycan Dövlət Sənaye İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə 1954 ildə Azərbaycan Boru Prokatı Zavodunda fəhləliklə başlamış, 1955—1959 illərdə Qaradağ NQÇİ-də çilingər işləmişdir. 1959 ildən Madagis SES-in baş mühəndisi, 1961 ildən Muğan SES-in direktoru, 1962 ildən Zəngilan rayonlararası 6 saylı Elektrik Quraşdırma İdarəsinin rəisi, 1964 ildən Bakı Şəhər Elektrik Quraşdırma İdarəsinin rəisi vəzifələrində çalışmışdır. 1970 ildən Azərbaycan Elektrik Şəbəkələri Tikinti Trestinin rəisidir.
"Əmək rəşadətinə görə" medalı, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Keçmiş "SSRİ-nin fəxri energetiki", Azərbaycan Respublikasının Əməkdar energetikidir.
Evlidir, 3 övladı var.

Born 15 May 1937 in Charali village, Gubadly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Industrial Institute in 1973. Chief of the Construction Trust of Azerbaijan Energetic Nets.
Married, has three children.



BALAYEV RASİM ƏHMƏD OĞLU
Azərbaycan Kinematoqrafçılar İttifaqının birinci katibi

Balayev Rasim Ahmad oglu
First Secretary of the Union of Azerbaijan Cinematographists

1948 il avqustun 8-də Azərbaycan Respublikasının Ağsu rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir. Kino və dram aktyorudur.
Əmək fəaliyyətinə 1969 ildən tədris teatrında başlamışdır. 1972—1990 illərdə "Azərbaycanfilm" kinostudiyasının aktyoru olmuşdur. 1990 ilin mayından Azərbaycan Kinematoqrafçılar İttifaqının birinci katibidir. 1974 ildən Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvüdür. 1982 ildə Azərbaycan SSR xalq artisti fəxri adına, 1986 ildə Dövlət mükafatına, 1989 ildə "Şərəf nişanı" ordeninə layiq görülmüşdür.
Evlidir, 2 övladı var.

Born 8 August 1948 in Agsu district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Art Institute in 1969. The First Secretary of the Union of Azerbaijan Cinematographists since 1990.
Married, has two children.



BAYRAMOV VİDADİ MEHRALI OĞLU
Qazax Xeyriyyə Cəmiyyətinin sədri

Bayramov Vidadi Mehraly oglu
Chairman of the Gazakh Charitable Society

1935 il dekabrın 27-də Azərbaycan Respublikası Qazax rayonunun I Şıxlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1964—1969 illərdə Azərbaycan Dövlət Politexnik İnstitutunda təhsil almışdır. 1969 ildən Azərbaycan Dövlət Təchizat Komitəsində şöbə müdirinin müavini, şöbə müdiri, "Azərmaştəchizat" Birliyi baş direktorunun birinci müavini, birliyin baş direktoru, 1983 ildən Azərbaycan Əhaliyə Məişət Xidməti nazirinin müavini, 1988 ildən "Azərmaştəchizat" Birliyinin baş direktoru, 1992 ildən baş direktorun birinci müavini işləmişdir. 1992 ilin noyabrından Qazax Xeyriyyə Cəmiyyətinin sədridir.

Born 27 December 1935 in I Shykhly village, Gazakh district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1969. Chairman of the Gazakh Charitable Society since 1992.



DAŞDƏMİROV MUSTAFA ƏLİ OĞLU
"Pəmbək" Xeyriyyə Cəmiyyətinin sədri

Dashdemirov Mustafa Ali oglu
Chairman of the "Pembek" Charity Society

1952 il dekabrın 2-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Spitak rayonunun Qursalı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1971—1979 illərdə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin axşam şöbəsində təhsil almışdır. 1980—1994 illərdə Azərbaycan Dövlət Universitetinin Elm-İstehsalat Mərkəzində riyaziyyatçı-proqramçı, şöbə müdiri, direktor müavini işləmişdir. 1995 ilin fevralından həmin mərkəzin direktorudur. Bakı Dövlət Universitetinin böyük elmi şurasının üzvüdür (1995). İqtisad elmləri namizədidir (1988). 1992 ildən "Pəmbək" Xeyriyyə Cəmiyyətinin sədridir. "Vətən həsrəti" qəzetini təsis etmişdir. Yeni Azərbaycan Partiyasının üzvüdür. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin xüsusi diplom və medalına layiq görülmüşdür (1984).
Evlidir, 1 övladı var.

Born 1952 December 2 in Gursaly village, Spitak district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1979. Director of the Scientific-Production Centre, Baku State University since 1995.
Married, has one child.

1952 il martın 18-də Azərbaycan Respublikasının Bərdə rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1974 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. Mühəndis-hidrotexnikdir. 1974—1978 illərdə təyinatla göndərildiyi Rusiya Federasiyasının Saratov vilayətinin meliorasiya obyektlərində fəaliyyət göstərmişdir. 1979 ilin əvvəllərində Vətənə qayıdaraq Azərbaycan Su Qurğuları Tikintisi Baş İdarəsində rəhbər vəzifələrdə çalışmışdır. 1992 ildən Samur-Abşeron Su Tikinti Trestinin müdiridir.
Evlidir, 2 övladı var.

Born 18 March 1952 in Barda district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1974. Chief of the Samur-Absheron Water Construction Trust since 1992.
Married, has two children.



ƏHMƏDOV RAFİQ SURXAY OĞLU
Samur-Abşeron Su Tikinti Trestinin müdiri

Ahmadov Rafig Surkhay oglu
Chief of the Samur-Absheron Water Construction Trust

1954 il martın 21-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1977 ildə Leninqrad Ali Rəssamlıq Sənaye Məktəbini bitirmişdir.
Əmək fəaliyyətinə 1977 ildə ÜETTEİ Azərbaycan filialında başlamışdır. 1979 ildən burada dərəcəli dizayner, bölmə müdiri, baş dizayner vəzifələrində işləmişdir. 1993 ildən ADİ-nin sədridir. 1980 ildən Azərbaycan Rəssamlar İttifaqının, 1987 ildən Dizaynerlər İttifaqının üzvüdür. 100-ə yaxın dizayn və rəssamlıq əsəri vardır.
Evlidir, 2 övladı var.

Born 1954 March 21 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Leningrad Higher Art Industrial School in 1977. Chairman of the Azerbaijan Designers since 1993.
Married, has two children.



ƏLƏSGƏROV ŞAHİN MƏMMƏDHÜSEYN OĞLU
Azərbaycan Dizaynerlər İttifaqının sədri

Aleskerov Shahin Memmedhuseyn oglu
Chairman of the Union of Azerbaijan Designers



ƏLİYEV ƏLİ MUSA OĞLU
Azərbaycan—Almaniya "AzVİRT" Birgə Müəssisəsinin baş direktoru

Aliyev Ali Musa oglu
Director of the joint company "AzVIRT" Azerbaijan—Almaniya

1933 il mayın 20-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Vedi rayonunun Dəhnəz kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1937 ildə valideynləri ilə birlikdə Qazaxıstan SSR Cambul vilayətinə sürgün edilmişdir. 1953 ildə Frunze şəhərindəki Sənaye Texnikumunun şəhər yollarının tikintisi və körpülər fakültəsini bitirdikdən sonra Frunze—Oş avtomobil yolunun tikintisində iş icraçısı işləmişdir. Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. 1958 ildən Bakıda Yol Təmir-tikinti Baş İdarəsində iş icraçısı, baş mühəndis, 1972 ildən isə Baş İdarənin rəisi işləmişdir. Hazırda "AzVİRT" Birgə Müəssisəsinin baş direktorudur. 1973 ildə "Aktivləşmiş mineral tozlu yol asfalt-betonlarının tədqiqi" mövzusunda namizədlik, 1983 ildə isə "Asfalt-betonun regenerasiyası" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1985 ildə professor adını almışdır. 1996 ildə Beynəlxalq Ekoenerji Akademiyasının akademiki seçilmişdir. 56 elmi əsərin, o cümlədən 3 kitabın və 9 ixtiranın müəllifidir.
Onun texnologiyası əsasında keçmiş SSRİ ölkələrinin 70 faizində, habelə Almaniya və Çexoslovakiyada asfalt-beton qarışığı hazırlanır. Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanı, Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif edilmişdir.
Evlidir, 3 övladı var.

Born 20 May 1933 in Dahnaz village, Vedi district, Western Azerbaijan (now Armenia). Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute. Director of the joint company "AzVIRT" Azerbaijan—Almaniya.
Married, has three children.



ƏLİYEV İLHAM İSMAYIL OĞLU
Azərbaycan Memarlar İttifaqının sədri

Aliyev Ilham Ismayil oglu
Chairman of the Azerbaijan Architects Union

1937 il aprelin 7-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1959 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. Memardır. Əmək fəaliyyətinə 1959 ildə Azərbaycan EA-nın Memarlıq və İncəsənət İnsitutunda başlamış, kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri, institut direktorunun müavini vəzifələrində işləmişdir. Memarlıq elmləri namizədi, Azərbaycanın Əməkdar memarı (1979), Memarlar İttifaqının üzvüdür (1966). 1992 ilin noyabr ayından Memarlar İttifaqının sədridir.
Evlidir, 2 övladı var.

Born 7 April 1937 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1959. Chairman of the Azerbaijan Architects Union since 1992.
Married, has two children.



ƏLİYEVA SEVİL HEYDƏR QIZI
Azərbaycan Respublikası "Sevil" Qadınlar Cəmiyyətinin sədri

Aliyeva Sevil Haydar gyzy
Chairman of the "Sevil" Women Society of the Azerbaijan Republic

1955 il oktyabrın 12-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1961—1971 illərdə orta məktəbdə, eyni zamanda musiqi məktəbində təhsil almışdır. 1971—1977 illərdə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsində təhsilini davam etdirmişdir.
1977—1980 illərdə Moskva SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun aspiranturasında oxumuşdur.
1981 ildə elmi tədqiqatını uğurla başa çatdırıb namizədlik dissertasiyası müdafiə etmişdir. Tarix elmləri namizədidir.
1981—1986 illərdə SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun elmi əməkdaşı olmuşdur. 1986 ildən musiqi sahəsində fəaliyyətini davam etdirir.
Ailəlidir, 3 övladı var.

Born 12 October 1955 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1977. Chairman of the "Sevil" Women Society of the Azerbaijan Republic.
Married, has three children.



ƏLİYEV ŞƏMSƏDDİN ƏYYUB OĞLU
"Qranit" müəssisəsinin direktoru

Aliyev Shamsaddin Eyyub oglu
Director of the Enterprise of "Granit"

1950 il fevralın 1-də Azərbaycan Respublikasının Lerik rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1980—1985 illərdə Leninqrad Politexnik İnstitutunda təhsil almışdır. Əmək fəaliyyətinə 1968 ildə Bakı Üzlük Materialları Kombinatında fəhləliklə başlamış və burada müxtəlif vəzifələrdə işləmişdir. 1991 ildən "Qranit" müəssisəsinin direktorudur. Abşeron rayonunun Saray qəsəbəsində öz vəsaiti ilə "Şəhidlər kompleksi" tikdirmişdir. Şəhid ailələri, Qarabağ əlilləri və qaçqınlara, kimsəsiz və imkansız adamlara maddi-mənəvi köməklik göstərir.
Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətinin Fəxri Fərmanı, Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir.
Evlidir, 1 övladı var.

Born 1950 February 1 in Lerik district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Leningrad Polytechnical Institute in 1985. Director of the Enterprise of "Granit" since 1991.
Married, has one child.



ƏLİZADƏ HACI CƏBRAYIL ZƏRBƏLİ OĞLU
Bakı və Kəndlər Birliyinin sədri

Alizade Hajy Jabrail Zarbali oglu
Chairman of the Baku and Villages Union

1941 il yanvarın 15-də Azərbaycan Respublikası Bakı şəhərinin Nardaran kəndində doğulmuşdur. Azərbaycanlıdır. 1967—1972 illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun əmtəəşünaslıq fakültəsində təhsil almışdır. 1971—1991 illərdə Abşeron sovxoz fəhlə istehlak cəmiyyətində çalışmışdır. 1991 ildə Nardaran Qəsəbə Sovetinin sədri, 1992—1993 illərdə isə Sabunçu Rayon İcra hakimiyyətinin başçısı olmuşdur. 1993 ilin dekabrında Bakı və Kəndlər Birliyinin sədri seçilmişdir.

Born 1941 January 15 in Nardaran village, Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1972. Chairman of the Baku and Villages Union since 1993.



FAMİL MEHDİ (MEHDİYEV FAMİL AĞALAR OĞLU)
Qarabağ Nicat Cəmiyyətinin sədri

Famil Mehdi (Mehdiyev Famil Agalar ogly)
Chairman of the Azerbaijan Rescue Society on Garabag

1934 il dekabrın 25-də Azərbaycan Respublikası Ağdam rayonunun Sarıhacılı kəndində doğulmuşdur. Azərbaycanlıdır. 1953—1958 illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika şöbəsində təhsil almışdır. 1958 ildən "Bakı" axşam qəzetində ədəbi işçi, 1965 ildən ADU-nun jurnalistika fakültəsində baş laborant, müəllim, baş müəllim, kafedra müdiri olmuşdur. Filologiya elmləri doktoru (1974), professordur (1977). 20-dən artıq şer toplusu, monoqrafiyası və dərs vəsaiti nəşr olunmuşdur. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Bakı Şəhəri Yasamal Rayon Sovetinə deputat seçilmişdir. 1991 ilin axırlarında təsis edilmiş Qarabağ Nicat Cəmiyyətinin sədri seçilmişdir.
Evlidir, 3 övladı var.

Born 25 December 1934 in Saryhajyly village, Agdam district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1958. Chairman of the Azerbaijan Rescue Society on Garabag since 1991.
Married, has three children.

1934 il sentyabrın 1-də Azərbaycan Respublikası Şəmkir rayonunun Təzəkənd kəndində anadan olmuşdur. Azərbaycanlıdır.
Əmək fəaliyyətinə 1952 ildə Şəmkir rayonu sığorta idarəsində sahə müvəkkili kimi başlamışdır. 1957 ildən Türkmənistan Respublikası Tacan şəhərinin pambıq zavodunda mühasib, tikintidə iş icraçısı, idarə rəisi, 1964 ildən "Baş Qaraqum" tikinti idarəsində baş mütəxəssis vəzifələrində işləmişdir. 1970 ildən Türkmənistan Dövlət Tikinti Komitəsi İnşaat Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsil almışdır. Burada bir sıra obyektlərin tikilməsinə rəhbərlik etmişdir. 1977 ildən Azərbaycan Su Təsərrüfatı və Meliorasiya Nazirliyində işləmişdir. 1978 ildən Azərbaycan Ədəbiyyat fondunun direktoru, 1986 ildən Türkmənistan Mərkəzi Tikinti İdarəsinin sahə rəisi olmuşdur. 7 kitabı və 8 tərcümə toplusu nəşr edilmişdir.
1994 il sentyabrın 8-də Azərbaycan—Türkmənistan Ədəbi Əlaqələr Cəmiyyətinin prezidenti seçilmişdir.



FƏXRƏDDİN ƏLİİZİ (ƏLİYEV FƏXRƏDDİN HÜSEYN OĞLU)
Azərbaycan—Türkmənistan Ədəbi Əlaqələr Cəmiyyətinin prezidenti

Aliyev Fakhraddin Huseyn oglu
President of the Society of Azerbaijan-Turkmanistan Literary Relations

Born 1 September 1934 in Tazakend village, Shemkir district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Turkmanistan Polytechnical Institute. President of the Society of Azerbaijan—Turkmanistan Literary Relations since 1994.

1925 il fevralın 18-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1957 ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1950 ildən "Azərbaycan gəncləri" qəzetində ədəbi işçi, şöbə müdiri, 1953 ildən Azərbaycan radiosunda məsul redaktor, baş redaktor, 1959 ildən Uşaqgəncnəşrdə baş redaktor, Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində baş redaktor, 1970 ildən "Müxbir" jurnalının baş redaktoru vəzifələrində işləmişdir. 1989 ildən Azərbaycan Jurnalistlər Birliyinin sədridir.
Çoxsaylı publisistik məqalələrin və tərcümə əsərlərinin müəllifidir.
Xidmətləri iki medalla qiymətləndirilmişdir.
Evlidir, 3 övladı var.

Born 18 February 1925 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1957. Chairman of the Azerbaijan Journalists Union since 1989.
Married, has three children.



HACIYEV HACI ƏLİHEYDƏR OĞLU
Azərbaycan Jurnalistlər Birliyinin sədri

Hajiyev Haji Aliheydar oglu
Chairman of the Azerbaijan Journalists Union



HACIYEV MAQSUD İBRAHİM OĞLU
Tat Mədəniyyət Mərkəzinin sədri

Hajiyev Magsud Ibrahim oglu
Chairman of the Azerbaijan Tat Cultural Centre

1935 il sentyabrın 10-da Azərbaycan Respublikası Quba rayonunun Gümür kəndində anadan olmuşdur. 1959 ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir.
1959 ildən Azərbaycan EA Şərqşünaslıq İnstitutunda kiçik və baş elmi işçi, 1962 ildən İran və Əfqanıstanda tərcüməçi, Sovet səfirliyində ikinci katib, 1992 ildən Milli Münasibətlər İnstitutunda böyük elmi işçi olmuşdur. Hazırda Azərbaycan EA Nəsimi adına Dilçilik İnstitutunda böyük elmi işçidir. Azərbaycan və tat dillərində 14 monoqrafiya, kitab və kitabçanın, 200-dən artıq publisistik məqalənin müəllifidir. Beynəlxalq Şərqşünaslar Assosiasiyasının (1982), Azərbaycan Yazıçılar Birliyinin (1994) və Azərbaycan Jurnalistlər Birliyinin (1993) üzvüdür. Filologiya elmləri namizədidir (1966).
"Əmək veteranı" (1990) və "Əmək rəşadətinə görə" (1982) medalı ilə təltif olunmuşdur. Əfqanıstan müharibəsi iştirakçısıdır.
Evlidir, 4 övladı var.

Born 1935 September 10 in Kumur village, Gonagkend (now Guba) district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1959. Senior Scientific Worker, Nasimi Institute of Language, Azerbaijan Academy of Sciences.
Married, has four children.



HACIYEVA GÜLŞƏN FƏRHAD QIZI
Azərbaycan Muzey Sərvətlərinin və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin direktoru

Hajiyeva Gulshan Farhad gyzy
Director of the Scientific Restoration Centre of Azerbaijan Museum Resources and Memorable Things

1950 il iyulun 10-da Azərbaycan Respublikasının Şamaxı şəhərində anadan olmuşdur. 1965 ildə Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olmuş, 1973—1980 illərdə V.Repin adına Leninqrad Rəssamlıq, Heykəltəraşlıq və Arxitektura İnstitutunda təhsilini davam etdirmişdir. 1969 ildən Bakı Bədii Sərgi Salonunun şəkil qalereyasında rəssam, 1981 ildən Bərpa Mərkəzində qrafika şöbəsinin müdiri işləmiş, 1985 ildən Azərbaycan EA İncəsənət və Memarlıq İnstitutunun aspiranturasında qiyabi təhsil almışdır. 1990 ildən Beynəlxalq Muzeylər Komitəsinin üzvüdür. 1987 ildən Elmi Bərpa Mərkəzinin direktorudur. 10-a qədər elmi əsərin müəllifidir. Keramika üzrə rəssam kimi fəaliyyət göstərir. 1983 ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllimlik edir.
Ailəlidir, 1 övladı var.

Born 1950 July 10 in Shamakhy, Azerbaijan Republic. Graduated from the V.Repin Institute of Art, Sculpture and Architecture in 1980. Director of the Scientific Restoration Centre of Azerbaijan Museum Resources and Memorable Things since 1987.
Married, has one child.



HƏSƏNOV KAMİL ƏKBƏR OĞLU
"Ronayi" Kürd Mədəniyyət Mərkəzinin sədri

Hasanov Kamil Akber oglu
Chairman of the "Ronayi" Kurd Cultural Centre

1948 ildə Azərbaycan Respublikası Laçın rayonunun Qarakeşdi kəndində anadan olmuşdur. Kürddür.
1968—1972 illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil almışdır. İqtisad elmləri namizədidir. İqtisadiyyat mövzusunda 15 elmi əsərin və "Azərbaycan SSR -in əmək ehtiyatları" monoqrafiyasının şərikli müəllifidir. 1980 ildən Bakı Plan-İqtisad Texnikumunda şöbə müdiri işləmişdir. Hazırda direktor müavinidir. 1992 ildən "Ronayi" Kürd Mədəniyyət Mərkəzinin sədridir.
Evlidir, 4 övladı var.

Born 1948 in Garakeshdi village, Lachyn district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Institute of National Economy in 1972. Chairman of the "Ronayi" Kurd Cultural Centre since 1992.
Married, has four children.



HÜSEYNOV KAMRAN ƏSƏD OĞLU
Azərbaycan Ağsaqqallar Şurası sədrinin müavini

Huseynov Kamran Asad oglu
Vise-chairman of the Council Elders

1913 il dekabrın 15-də Azərbaycan Respublikası Qubadlı rayonunun Çərəli kəndində anadan olmuşdur. Azərbaycanlıdır.
Əmək fəaliyyətinə 1925 ildə fəhləliklə başlamışdır. 1934 ildən Bakı "Duda" zavodunda fəhlə, iş icraçısı işləmişdir. 1940—1941 illərdə Neft Sənayesi Akademiyasının müdavimi, 1941 ildən 4-9 saylı zavodda (NBNZ) sex rəisi, 7 saylı Sumqayıt "SK" zavodunda, 1942 ildən indiki Binəqədi rayonunun 1 May "Maşın-İnşaat" zavodunda ÜİKP-nın nümayəndəsi kimi çalışmışdır. 1944 ildən Sumqayıt Rayon Partiya Komitəsinin katibi, 1947 ildən Respublika Ali Partiya Məktəbinin məzunu, 1949 ildən Mingəçevirdə Kommunist Partiyasının nümayəndəsi, 1952 ildən Neftçala Rayon Partiya Komitəsinin birinci katibi, 1953 ildən Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi, 1958 ildən Respublika Həmkarlar Şurasının sədri, 1961 ildən ÜİHİMŞ-in katibi, 1968 ildən Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, 1980 ildən Respublika Ticarət və Sənaye Palatasının prezidenti olmuşdur. 1993 ildən Ticarət və Sənaye Palatası prezidentinin müşaviri, Respublika Ağsaqqallar Şurası sədrinin müavinidir. Sumqayıt və Mingəçevir şəhərlərinin fəxri vətəndaşıdır. Mingəçevir şəhərinin küçələrindən biri onun adını daşıyır.
Azərbaycan Respublikası Ali Sovetinin (2,3,4,5,8,9,10-cu çağırış) və RSFSR Ali Sovetinin (7-ci çağırış) deputatı olmuşdur.
"Şərəf nişanı", dörd Qırmızı Əmək Bayrağı ordeni, Monqolustan Respublikasının fəxri ordeni, Ümumittifaq XTNS-in iki Qızıl medalı, Beynəlxalq Qızıl Merkuri mükafatı və bir sıra medalla təltif olunmuşdur. Tarix elmləri doktorudur. 170 elmi məqalənin, 17 monoqrafiyanın müəllifidir.
5 övladı var.

Born 15 December 1913 in Chereli village, Gubadly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Oil Industry Academy in 1941: Republican Higher Party School in 1947. Vise-chairman of the Council Elders at present.
Married, has five children.



HÜSEYNOV RƏHİM ƏLİHÜSEYN OĞLU
Elmi və Texniki Cəmiyyətləri İdarə Heyətinin sədri

Huseynov Rahim Alihuseyn oglu
Chairman of the Administrative Personnel of Scientific and Technical Societies

1936 il aprelin 5-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1959 ildə Moskva Metallurgiya İnstitununu bitirmişdir.
Əmək fəaliyyətinə Sumqayıt Boru-Prokat Zavodunda başlamışdır. 1959 ildən burada usta köməkçisi, usta, baş texnoloq, Azərbaycan Dövlət Plan Komitəsində şöbə müdiri, Azərbaycan Maddi-Texniki Təchizat Komitəsi sədrinin müavini, sədri, Azərbaycan Dövlət Plan Komitəsinin sədri, Azərbaycan Respublikasının Baş naziri vəzifələrində işləmişdir. Hazırda Elmi və Texniki Cəmiyyətləri İdarə Heyətinin sədridir. "Xəzər" Beynəlxalq fondunun prezidentidir. Ekoenergetika Beynəlxalq Akademiyasının üzvü, Azərbaycan Milli Yaradıcılıq Akademiyasının iqtisad elmləri doktorudur. Azərbaycanın Əməkdar iqtisadçısıdır. Azərbaycan SSR Ali Sovetinin (IX—XI çağırış) deputatı seçilmişdir. Qırmızı Əmək Bayrağı, "Xalqlar dostluğu" ordenlərinə, "Əmək veteranı medalı"na layiq görülmüşdür.

Born 5 April 1936 in Baku, Azerbaijan Republic. Graduated from the Institute of Metallurgy in 1959, Moscow. Chairman of the Administrative Personnel of Scientific and Technical Societies.



HÜSEYNOV VAQİF QULU OĞLU
"Qum adası" Neft və Qazçıxarma İdarəsinin rəisi

Huseynov Vagif Gulu oglu
Chief of the "Gum-Adasy" Oil and Gas Extracting Administration

1941 ildə Azərbaycan Respublikasının Tovuz şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1960—1966 illərdə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunda təhsil almışdır. Əmək fəaliyyətinə 1966 ildə Leninneft Neft və Qazçıxarma İdarəsində başlamışdır. 1966—1969 illərdə həmin idarədə operator, sahə rəisi, 1969—1991 illərdə Xəzər Dəniz Neft İstehsalat Birliyində mühəndis, böyük mühəndis, Mərkəzi Dispetçer İdarəsinin rəisi, Mərkəzi Mühəndis Texnoloji Sahəsinin rəisi, 1991—1996 illərdə Neft Daşları Neft və Qazçıxarma İdarəsinin rəisi vəzifələrində işləmişdir. 1996 ildən "Qum adası" Neft və Qazçıxarma İdarəsinin rəisidir.
Evlidir, 2 övladı var.

Born 1941 in Tovuz, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1966. Chief of the "Gum Adasy" Oil and Gas Extracting Administration since 1996.
Married, has two children.

1946 il oktyabrın 26-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1966 ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini, 1975 ildə Moskva Poliqrafiya İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə 1963 ildə Azərbaycan Musiqili Komediya Teatrında rəssam kimi başlamışdır. 1987 ildə Azərbaycan Rəssamlar İttifaqının sədri seçilmişdir. 1976 ildə Moskvada "Fərhad Xəlilov" kitabı çap edilmişdir. 1987 ildə Azərbaycanın Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.
Evlidir, 2 övladı var.

Born 26 October 1946 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Moscow Polygraphic Institute in 1975. Chairman of the Union of Azerbaijan Painters since 1987
Married, has two children.



XƏLİLOV FƏRHAD QURBAN OĞLU
Azərbaycan Rəssamlar İttifaqının sədri

Khalilov Farhad Gurban oglu
Chairman of the Union of Azerbaijan Painters

1915 il dekabrın 31-də Azərbaycan Respublikası Naxçıvan MR-in Ordubad şəhərində anadan olmuşdur.Azərbaycanlıdır. 1956 ildən Azərbaycan Neft və Kimya İnstitutunda istehsal proseslərinin avtomatlaşdırılması kafedrasının müdiri, 1960 ildən həmin institutun rektoru, 1970 ildən Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmişdir. 1988 ildən respublika Uşaq Fondunun sədridir.
Azərbaycan EA-nın həqiqi üzvü (1980), texnika elmləri doktoru, professordur (1968). SSRİ Dövlət mükafatı laureatı (1983), Sosialist Əməyi Qəhrəmanıdır (1986). Uzun müddət "Ali məktəb xəbərləri", "Neft və qaz" jurnallarının redaktoru, Azərbaycan EA "Kibernetika" kompleks problemi üzrə Elmi Şuranın sədri, 1980—1990 illərdə Azərbaycan SSR Ali Sovetinin xalq təhsili və elm üzrə komissiyasının sədri olmuşdur. Azərbaycan Ali Sovetinə (VI, VII çağırış), SSRİ Ali Sovetinə (X, XI çağırış) deputat seçilmişdir. Birinci və ikinci dərəcəli "Vətən müharibəsi", "Qırmızı Ulduz", "Lenin", "Oktyabr inqilabı", Qırmızı Əmək Bayrağı (üç dəfə) ordenləri və bir sıra medallarla təltif edilmişdir. Azərbaycanın Əməkdar elm xadimi, "Fəxri neftçi", "Qaz sənayesinin fəxri işçisi" adlarına layiq görülmüşdür.

Born 31 December 1915 in Ordubad, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Chairman of the Childrens Fund of the Azerbaijan Republic since 1988.



İBRAHİMOV İSMAYIL ƏLİ OĞLU
Azərbaycan Respublikası Uşaq Fondunun sədri

Ibrahimov Ismayil Ali oglu
Chairman of the Childrens Fund of the Azerbaijan Republic



İSRAFİLOV SƏRDAR QURBAN OĞLU
Azərbaycan Respublikası Nazirlər Kabineti Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyətləri Respublika Şurasının sədri

Israfilov Sardar Gurban oglu
Chairman of the Republican Council of Voluntary Military Patriotic Technical Sport Society, Cabinet of Ministers of the Azerbaijan Republic
Major-General

1946 il oktyabrın 12-də Azərbaycan Respublikası Yevlax rayonunun Lənbəti kəndində anadan olmuşdur. 1967 ildə Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində, 1976 ildə M.V.Frunze adına Hərbi Akademiyada təhsilini davam etdirmişdir.
Əmək fəaliyyətinə 1960 ildə Yevlax rayonunun Füzuli adına kolxozunda çoban kimi başlamış, sonra meyvəçilik sovxozunda motorist-mexanik işləmişdir. 1968 ildən Qırmızıbayraqlı Zaqafqaziya hərbi Dairəsinin hərbi hissəsində vzvod, sonra isə rota komandiri, hərbi hissənin operativ əməliyyat şöbəsinin rəis müavini, atıcı alayı komandirinin müavini, 1981 ildən ADR-dəki sovet qoşunları qrupunun müəyyən alayının qərargah rəisi—komandir müavini, ASQQ-nin hərbi hissəsində alay komandiri, həmin qrupun Qırmızı bayraqlı Zaqafqaziya Hərbi Dairəsinin hərbi hissəsində diviziya komandirinin müavini, 1988 ildən Azərbaycan SSR OADKYC MK sədrinin müavini vəzifələrində işləmişdir. 1990 ilin fevralından Azərbaycan Respublikası Nazirlər Kabineti Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyətləri Respublika Şurasının sədridir. "Qırmızı Ulduz" ordeni, keçmiş SSRİ-nin 10, xarici dövlətlərin isə 9 medalı ilə təltif edilmişdir. Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçilmişdir (1990).

Born 1946 October 12 in Lenbeti village, Yevlakh district, Azerbaijan Republic. Graduated from the M.V.Frunze Military Academy. Chairman of the Republican Council of Voluntary Military Patriotic Technical Sport Society, Cabinet of Ministers of the Azerbaijan Republic since 1990.



İSRAFİLOVA FİRUZƏ HÜSEYN QIZI
ELTAC MEDİKL "Gözəllik" Şirkətinin prezidenti

Israfilova Firuza Huseyn gyzy
President of the ELTAJ MEDICAL "Gozellik" Company

1951 il dekabrın 27-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1968—1974 illərdə Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində təhsil almışdır. 1974 ildən Respublika Dəri-Zöhrəvi Dispanserində dermatoloq kimi ixtisaslaşmış və poliklinikada dermatoloq işləmişdir. 1976—1977 illərdə Moskvada Elmi-Tədqiqat Kosmetologiya İnstitutunda kosmetoloq ixtisasına yiyələnmişdir. 1978 ildən "Gözəllik" İnstitutunda həkim-kosmetoloq işləmişdir. 1986 ildən Moskvada Elmi-Tədqiqat Kosmetologiya İnstitutunun dissertantı olmuşdur. 1989 ildə "ACVE"-nin Azərbaycan vulkan palçıqları ilə müalicəsi" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsi almışdır. 1988 ildə Praqa şəhərində gözəllik institutunda təcrübə keçmişdir. 1991 ildən ELTAC MEDİKL "Gözəllik" Şirkətinin prezidentidir. İxtisası üzrə metodik vəsaitlər və elmi məqalələr dərc etdirmişdir. "Evdarlıq" kitabının tərtibində yaxından iştirak etmişdir. 1998 ilin iyun ayında I Ümumdünya Kosmetoloqlar Konfransında Professional Kosmetoloqlar Liqasına üzv seçilmişdir. Azərbaycan Beynəlxalq Qadınlar Klubu və Qadınlar Assosiasiyasının üzvüdür.
Ailəlidir, 1 övladı var.

Born 27 December 1951 in Ganja, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Medical Institute in 1974. President of the ELTAJ MEDICAL "Gozellik" Company since 1991.
Married, has one child.

1934 il yanvarın 24-də Azərbaycan Respublikası Yevlax rayonunun Yuxarı Qarxun kəndində doğulmuşdur. Azərbaycanlıdır. 1952—1957 illərdə Azərbaycan Dövlət Universitetində təhsil almışdır. 1957—1961 illərdə Binəqədineft Neft Mədənləri İdarəsində operator, müdir müavini, 1961—1969 illərdə "Azərdənizneftkəşfiyyat" trestinin sınaq kontorunda böyük mühəndis, sex rəisi, 1969—1970 illərdə respublika Neftqazçıxarma Nazirliyində şöbə müdiri, 1970—1976 illərdə "Azərdənizneftkəşfiyyat" tresti sınaq kontorunun müdiri, 1976—1979 illərdə "Azərneft" İstehsalat Birliyi Quyuların Əsaslı Təmiri və Layların Neftvermə İdarəsinin baş mühəndisi və baş mexaniki, 1979—1981 illərdə "Azərneft" İstehsalat Birliyi quyuların əsaslı təmiri şöbəsinin rəisi, 1981—1987 illərdə "Qaradağneft" NMİ-in rəisi, 1987—1992 illərdə 26 Bakı komissarı adına NQÇİ-nin rəisi vəzifələrində işləmişdir. 1992 ildən Ə.C.Əmirov adına NQÇİ-nin rəisidir. "Azərneft" İstehsalat Birliyi Əmək kollektivinin sədridir. Respublikanın Əməkdar mühəndisidir. Dəfələrlə şəhər və rayon sovetlərinə, respublika Ali Sovetinə deputat seçilmişdir (1990). SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc, gümüş və qızıl medalları, 1984-cü ildə "Xalqlar dostluğu" ordeni ilə təltif edilmişdir. Azərbaycan Milli Ziyalılar Akademiyasının üzvüdür.
Evlidir, 3 övladı var.



KƏRİMOV KƏRİM MƏMMƏD OĞLU
Ə.C.Əmirov adına Neft və Qazçıxarma İdarəsinin rəisi

Kerimov Kerim Memmed oglu
Chief of the A.J.Amirov Oil and Gas-Extracting Administration

Born 24 January 1934 in Yukhary Garkhun village, Yevlakh district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1957. Chief of the A.J.Amirov Oil and Gas-Extracting Administration since 1992.
Married, has three children.

1953 il fevralın 19-da Azərbaycan Respublikası İmişli rayonunun Məmmədli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1971—1973 illərdə ordu sıralarında xidmət etmişdir. 1979 ildə Azərbaycan İnşaat Mühəndisləri İnistutunu bitirmişdir. Mühəndisdir.
Əmək fəaliyyətinə 1970 ildə Binəqədi NQÇİ-nin Mənzil-Kommunal İdarəsində fəhləliklə başlamış və 1980 ilin fevral ayına qədər burada mühəndis və baş mühəndis vəzifələrində çalışmışdır. 1980—1988 illərdə indiki Rəsulzadə adına Qəsəbə Soveti İcraiyyə Komitəsinin sədri, 1988—1990 illərdə Bakı Şəhər İcraiyyə Komitəsi tikinti və memarlıq şöbəsinin müdiri, 1990—1991 illərdə Binəqədi Rayon İcraiyyə Komitəsi sədrinin birinci müavini vəzifələrində işləmişdir. 1991 ilin noyabr ayından Bakı Şəhəri İcra Hakimiyyəti Dövlət Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsinin rəisidir.
Evlidir, 3 övladı var.



QARAŞOV ARİF XANOĞLAN OĞLU
Bakı Şəhər İcra Hakimiyyəti Dövlət Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsinin rəisi

Garashov Arif Khanoglan oglu
Head of the Registration Administration of State Technical Inventory and Property Rights of the Executive Power of Baku City

Born 1953 February 19 in Memmedli village, Imishli district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Civil Engineering Institute in 1979. Head of the Registration Administration of State Technical Inventory and Property Rights of the Executive Power of Baku City since 1991.
Married, has three children.



QASIMOVA SVETLANA ÇİNGİZ QIZI
"İşgüzar qadın" Assosiasiyasının sədri

Gasymova Svetlana Chingiz gyzy
Chairman of the "Ishguzar gadyn" Association

1938 il iyunun 11-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Dövlət Universiteti və İctimai Elmlər Akademiyasında təhsil almışdır. 1971 ildən Bakı Şəhər İcraiyyə Komitəsinin sədr müavini, 1975 ildən Ticarət nazirinin müavini, 1979 ildən Ticarət naziri, 1983 ildən Azərbaycan KP MK katibi, 1988 ildən Bakı Şəhər Partiya Komitəsinin katibi, 1990 ildən Azərbaycan Dövlət Əmək Komitəsi sədrinin birinci müavini və sədri vəzifələrində işləmişdir. Azərbaycan Ali Sovetinin deputatı seçilmişdir. İki Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.
Ailəlidir, 1 övladı var.

Born 1938 June 11 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University. Chairman of the "Ishguzar Gadyn" Association.
Married, has one child.



QULİYEV ELŞAD HEYBƏT OĞLU
Azərbaycan "Bilik" Maarifçilik Cəmiyyəti İdarə Heyətinin sədri

Guliyev Elshad Haybat oglu
Chairman of the Board of Administration of the Azerbaijan Enlightenment Society "Bilik"

1941 il yanvarın 23-də Azərbaycan Respublikasının Cəlilabad şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Dövlət Universiteti və İctimai Elmlər Akademiyasını bitirmişdir. 1966 ildən Dövlət Televiziya və Radio Verilişləri Komitəsində tərcüməçi, televiziya proqramları Baş redaksiyasının baş redaktoru, Komitə sədrinin birinci müavini, 1983—1990 illərdə Komitə sədri vəzifələrində çalışmışdır. 1990 ilin fevralından Azərbaycan "Bilik" Maarifçilik Cəmiyyəti İdarə Heyətinin sədridir. Azərbaycan Jurnalistlər Birliyinin və Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvüdür. Bakı Sovetinə və Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. "Şərəf nişanı", Qırmızı Əmək Bayrağı ordenlərinə, Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanlarına, Akademik Vavilov adına medal və mükafata layiq görülmüşdür.

Born 1941 January 23 in Jalilabad, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1963. Chairman of the Board of Administration of the Azerbaijan Enlightenment Society "Bilik" since 1990.



MEHDİYEV TOFİQ ŞƏFAƏT OĞLU
Zəngəzur Cəmiyyətləri Birliyi İdarə Heyətinin sədri

Mehdiyev Tofig Shafaet oglu
Chairman of the Administrative Board of the Union of Zangazur Societies

1946 il sentyabrın 14-də Azərbaycan Respublikası Zəngilan rayonunun Pirçivan qəsəbəsində anadan olmuşdur. Azərbaycanlıdır. 1970 ildə Azərbaycan Texniki Universitetini bitirmişdir. Mühəndisdir.
Əmək fəaliyyətinə 1964 ildə Bakı Ekskavator Təmiri Zavodunda fəhləliklə başlamış, Bakı Elektrik Maşınqayırma Zavodunda usta köməkçisi, usta işləmişdir. 1971 ildən Azərbaycan Elmi-Tədqiqat Energetika İnstitutunda mühəndis, 1973 ildən Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Kökəltmə Birliyində böyük mühəndis, 1976 ildən Ümumittifaq Elmi-Tədqiqat İnstitutu Qafqaz Dayaq Məntəqəsinin rəisi, 1977 ildən Kənd Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsində əmək müfəttişi, katib, 1982 ildən Azərbaycan KP MK-nın kənd təsərrüfatı şöbəsində təlimatçı, katib köməkçisi, şöbə müdirinin müavini, 1987 ildən Zəngilan Rayon Partiya Komitəsinin birinci katibi, 1991 ildən "Azərittifaq" İdarə Heyətinin sədri vəzifələrində çalışmışdır. 2001 ildən Zəngəzur Cəmiyyətləri Birliyi İdarə Heyətinin sədridir.
İki çağırış Azərbaycan Respublikası Ali Sovetinə deputat seçilmiş, Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 1946 September 14 in Pirchivan settlement, Zangilan district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan Technical University in 1970. Chairman of the Administrative Board of the Union of Zangazur Societies since 2001.
Married, has two children.



MƏHƏRRƏMOV FARİZ HİDAYƏT OĞLU
Rəşid İbrahimov adına "Ağrıdağ" Xeyriyyə Cəmiyyətinin sədri

Maharramov Fariz Hidayat oglu
Chairman of the "Agrydag" Charity Society named after Rashid Ibrahimov

1952 il oktyabrın 1-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Basarkeçər rayonunun Çaxırlı kəndində anadan olmuşdur. 1962—1973 illərdə Azərbaycan Neft və Kimya İnstitutunun energetika fakültəsinin axşam şöbəsində təhsil almışdır. 1973 ildən Birləşmiş Qazanxana Qurğuları və İstilik Şəbəkələri İdarəsində böyük mühəndis, sahə rəisi, baş mühəndis, 1978 ildən Nəsimi rayon İİK-da rəis, 1984 ildən Nəsimi rayon Mənzil Təsərrüfatı İdarəsinin rəisi, 1985 ildən ZMYU "Xəzri" idarəsində həmkarlar təşkilatının sədri və partiya təşkilatının katibi, 1989 ildən Suraxanı Rayon Mənzil Təsərrüfatı İdarəsinin rəisi, Mənzil Kommunal Təsərrüfatı Birliyinin baş direktoru, rayon İcra Hakimiyyəti başçısının müavini, birinci müavini vəzifələrində işləmişdir. 1994 il avqustun 28-dən Rəşid İbrahimov adına "Ağrıdağ" Xeyriyyə Cəmiyyətinin sədridir.
Evlidir, 2 övladı var.

Born 1952 October 1 in Chakhyrly village, Basarkechar district, Azerbaijan (now Armenia). Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1973. Chairman of the "Agrydag" Charity Society named after Rashid Ibrahimov since 1994.
Married, has two children.



MƏHYƏDDİNOV ƏHMƏD MƏHYƏDDİN OĞLU
Azərbaycan Mübariz Müharibə Veteranları Birliyinin sədri

Mahyaddinov Ahmad Mahyaddin oglu
Chairman of the Union of Azerbaijan Fighting War Veterana

1955 il yanvarın 10-da Azərbaycan Respublikası Qubadlı rayonunun Çaytumas kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1977 ildə Azərbaycan Pedaqoji İnstitutunun kimya fakültəsini, 1986 ildə həmin institutun aspiranturasını bitirmişdir. Pedaqoji elmlər namizədidir.
Əmək fəaliyyətinə 1977 ildə doğma kənddəki orta məktəbdə müəllimliklə başlamışdır. 1982 ildən Çaytumas Kənd Orta Məktəbinin tədris hissə üzrə direktor müavini, 1988 ildən respublika Uşaq Fondunun əməkdaşı, 1992—1996 illərdə "Aqrostintez" firmasının prezidenti vəzifələrində işləmişdir. 1999 ilin iyun ayından Azərbaycan Mübariz Müharibə Veteranları Birliyinin sədridir. Qarabağ müharibəsi iştirakçısıdır.
Evlidir, 4 övladı var.

Born 1955 January 10 in Chaytumas village, Gubadly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedogogical Institute in 1977. Chairman of the Union of Azerbaijan Fighting War Veterana since 1999.
Married, has four children.



MƏMMƏDOV ƏKRƏM QAFLAN OĞLU

Xaricdə yaşayan həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti—"Vətən" Cəmiyyəti Rəyasət Heyəti sədrinin müavini


Memmedov Ekrem Gaflan oglu
Vice-Chairman of the Presidium of "Vatan" Society

1951 il aprelin 26-da Azərbaycan Respublikasının Quba rayonunun Səbətlər kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1983—1988 illərdə Azərbaycan Dövlət İncəsənət Universitetində təhsil almışdır. Əmək fəaliyyətinə fəhləliklə başlamışdır. Sonra Binəqədi rayonundakı mədəniyyət evində bədii rəhbər, 1979 ildən Azərbaycan Yazıçılar Birliyində təsərrüfat işləri üzrə katib müavini, baş müvəkkil, 1988 ildən "Vətən" Cəmiyyətində baş referent, ümumi şöbənin müdiri, rəyasət heyətinin məsul katibi vəzifələrində işləmişdir. Hazırda rəyasət heyəti sədrinin müavinidir. Respublika mətbuatında bədii yazılarla çıxış edir.
Evlidir, 3 övladı var.

Born 26 April 1951 in Sabatlar (Chichi) village, Guba district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Art Institute in 1988. Vice-Chairman of the Presidium of "Vatan" Society since 1988.
Married, has three children.

1951 il martın 24-də Azərbaycan Respublikası Şəki rayonunun Qayabaşı kəndində anadan olmuşdur. Mariopol şəhəri Nəqliyyatın İstismarı Texnikumunda təhsil almışdır. 1982—1990 illərdə Bakıdakı 2 saylı Sərnişindaşınma Müəssisəsində sürücülükdən avtomobil dəstəsinin rəisi vəzifəsinədək yüksəlmişdir.
1990 il yanvarın 19-dan 20-ə keçən gecə təcavüzkar rus sovet ordusunun Bakıdakı törətdiyi qırğın zamanı qızını itirmiş, özü də ağır yaralanaraq II dərəcəli əlil olmuşdur. "20 Yanvar" batalyonunun təşkilində yaxından iştirak etmişdir. 1990 ildə "20 Yanvar" qəzetini təşkil edənlərdən biri və həmin qəzetin təsisçisidir. 1991 ildən "20 Yanvar" Cəmiyyətinin sədridir.

Born 24 March 1951 in Gayabashy village, Sheki district, Azerbaijan Republic. Graduated from the Technical School of Exploitation of Transport in Mariopol. Chairman of the Society of "20 January" since 1991.



MƏMMƏDOV FƏRMAN HÜSEYN OĞLU
"20 Yanvar" Cəmiyyətinin sədri

Memmedov Farman Huseyn oglu
Chairman of the Society of "20 January"

1942 il martın 20-də Azərbaycan Respublikası Astara rayonunun Ərcivan kəndində anadan olmuşdur. 1964 ildə M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutunun Qərbi Avropa dilləri fakültəsini bitirmişdir. Filologiya elmləri namizədidir (1971). 1970 ildən Azərbaycan EA Nəsimi adına Dilçilik İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri vəzifələrində işləmişdir. 1991 ildən Dilçilik İnstitutunun ümumi dilçilik və dil əlaqələri şöbəsində dil əlaqələri qrupunun rəhbəridir. 50-dən çox elmi əsərin müəllifidir. "Əmək veteranı"dır. 1992—1994 illərdə "Talışi sədo", 1994 ildə "Nicat yolu" qəzetlərinin baş redaktoru vəzifələrində çalışmışdır.
1989 ilin sentyabrından Azərbaycan Respublikası Talış Mədəniyyət Mərkəzi İdarə Heyətinin sədridir.
Evlidir, 2 övladı var.

Born 1942 March 20 in Arjivan village, Astara district, Azerbaijan Republic. Graduated from the M.F.Akhundov Azerbaijan State Pedagogical Institute of Foreign Languages in 1964. Chairman of the Board of Talysh Cultural Centre, Azerbaijan Republic since 1989.
Married, has two children.



MƏMMƏDOV NOVRUZƏLİ XANMƏMMƏD OĞLU
Azərbaycan Respublikası Talış Mədəniyyət Mərkəzi İdarə Heyətinin sədri

Memmedov Novruzali Khanmemmed oglu
Chairman of the Board of Talysh Cultural Centre of the Azerbaijan Republic



MƏMMƏDOV İSMAYIL İMRAN OĞLU
AzFEN Birgə Müəssisəsinin baş direktoru

Memmedov İsmayıl İmran oglu
Director General of the "AzFEN" Joint Enterprise

1950 il fevralın 10-da Qərbi Azərbaycanın Yuxarı Körpülü kəndində anadan olmuşdur. 1971 ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir.
Həmin ildən "Dənizneftqazlayihə" İnstitutunda mühəndis, 1977 ildən "Azərdənizneftikinti" trestində mühəndis, böyük mühəndis, baş mühəndis, idarə müdiri, trest müdiri, 1990 ildən "Xəzərdənizsosialtikinti" trestinin müdiri vəzifələrində işləmişdir. 1996 ildən AzFEN Azərbaycan—Türkiyə Birgə Müəssisəsinin baş direktorudur.
Evlidir, 3 övladı var.

Born 1950 February 10 in Yukhary Korpulu village, Wuse Azerbaijan. Graduated from the Azerbaijan State Polyteshnical İnstitute in 1971. Director General of the "AzFEN" Azerbaijan—Turkey Joint Enterprise since 1996.
Married, has three children.



TAĞIZADƏ SURXAY İMRAN OĞLU
Azərbaycan "Farmproqress" Beynəlxalq Elmi-Texniki Əlaqələr Mərkəzinin direktoru

Tagizadeh Surkhay Imran oglu
Director of the Azerbaijan "Farmprogress" center of International Scientific and Technical Cooperation

1932 il aprelin 8-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. 1954 ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun baytarlıq fakültəsini bitirmişdir. Həmin ildən doğma institutda müəllim, Özbəkistan və Azərbaycan Elmi Tədqiqat Baytarlıq İnstitutlarında şöbə müdiri, 1967 ildən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyində Təbliğat İdarəsinin rəisi, Azərbaycan KP MK Kənd təsərrüfatı şöbəsi müdirinin müavini, müdiri, respublika Kənd Təsərrüfatı nazirinin müavini, Kənd Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, AHİŞ-in katibi, Dövlət Plan Komitəsi sədrinin müavini vəzifələrində işləmişdir. 1996 ildən Azərbaycan "Farmproqress" Beynəlxalq Elmi Texniki Əlaqələr Mərkəzinin direktorudur. "Azərbaycan fermeri" jurnalının təsisçisi, respublika Fermerlər İttifaqı İdarə Heyəti sədrinin müavinidir. Respublikanın Əməkdar kənd təsərrüfatı işçisidir.
İki dəfə Qırmızı Əmək Bayrağı, Xalqlar Dostluğu ordenləri, medallarla, Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Azərbaycan Respublikası Ali Sovetinə (11-ci çağırış) deputat seçilmişdir.
Evlidir, 3 övladı var.

Born 1932 April 8 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from Azerbaijan Agricultural Institute in 1954. Director of the Azerbaijan "Farmprogress" center of International Scientific and Technical Cooperation.
Married, has three children.



MURADOV ABDULLA CƏLAL OĞLU
Xəzər Dəniz Neft və Qazçıxarma İstehsalat Birliyi Texnoloji Nəqliyyat İdarəsinin rəisi

Muradov Abdulla Jalal oglu
Chief of the Adminstration of Technological Transport, Union of the Caspian Sea Oil and Gas-Extracting Production

1935 il aprelin 25-də Azərbaycan Respublikası Qubadlı rayonunun Çardaxlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1954 ildə Qubadlı Şəhər Orta Məktəbini bitirdikdən sonra iki il sovet ordusu sıralarında xidmət etmişdir. Əmək fəaliyyətinə 1956 ildə Qaradağneft Qazma İdarəsində fəhləliklə başlamışdır. 1957—1960 illərdə istehsalatdan ayrılmadan Bakı Neft Texnikumunda təhsil almışdır. 1965 ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun qiyabi şöbəsini və 1968 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir. İnstitutda oxuduğu illərdə Qaradağ rayonundakı 180 saylı Orta Məktəbdə müəllim işləmişdir. 1972—1986 illərdə Bakı Soyuducular Zavodunda baş direktorun müavini vəzifəsində çalışmışdır. 1986 il avqust ayının 6-dan Xəzər Dəniz Neft və Qazçıxarma İstehsalat Birliyi Texnoloji Nəqliyyat İdarəsinin rəisidir.
Evlidir, 3 övladı var.

Born 25 April 1935 in Chardakhly village, Gubadly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Physical Culture in 1965: Baku Higher Party School in 1968. Chief of the Adminstration of Technological Transport, Union of the Caspian Sea Oil and Gas-Extracting Production since 1986.
Married, has three children.



MURAD BAYKAL (ABDULOV MURAD ƏLƏKBƏR OĞLU)
Azərbaycan "Cəmiyyət və Siyasət" Assosiasiyasının sədri

Murad Baykal (Abdulov Murad Alekber oglu)

Chairman of the Azerbaijan Association of "Society and Politics

1949 il sentyabrın 27-də Azərbaycan Respublikasının Zaqatala şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1966—1971 illərdə Azərbaycan Dövlət Politexnik İnstitutunun mülki tikinti fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1964 ildən fəhləliklə başlamışdır. 1971 ildən komsomol, partiya və sovet orqanlarında müxtəlif vəzifələrdə çalışmışdır. 1990 ildən Azərbaycan KP MK şöbə müdirinin müavini, 1991 ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri olmuşdur. Hazırda "Cəmiyyət və Siyasət" Assosiasiyasının sədri, "Arı südü" hərəkatının lideri kimi fəaliyyət göstərir. 1966 ildən dövri mətbuatda və mavi ekranda bədii və publisist əsərləri ilə çıxış edir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür (1983).
Evlidir, 2 övladı var.

Born 27 September 1949 in Zagatala city, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1971. Chairman of the Azerbaijan Association of "Society and Politics" at present.
Married, has two children.



MUSAYEV ƏLİ MƏCİD OĞLU
"Samur" Ləzgi Milli Mərkəzinin sədri

Musayev Ali Mejid oglu
Chairman of the "Samur" Lezghin National Centre

1941 il avqustun 17-də Azərbaycan Respublikasının Qusar şəhərində anadan olmuşdur. Ləzgidir. 1959—1964 illərdə M.F.Axundov adına Pedaqoji Dillər İnstitutunun fransız dili şöbəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1963 ildə həmin institutun fransız dili kafedrasında laborant kimi başlamışdır. 1964 ildən burada fransız dili kafedrasının müəllimidir. 1983 ilin martından fransız dili leksikası, nitq praktikası və Fransa ölkəşünaslığı kafedrasının müdiridir. 1966—1970 illərdə Əlcəzairdə fransız və rus dilləri üzrə tərcüməçi olmuşdur. Filologiya elmləri doktoru (1990), professordur (1991). 2 monoqrafiyanın və 70-dən çox elmi məqalənin müəllifidir. 1991 il mayın 19-dan Samur Ləzgi Mədəniyyət Mərkəzinin, 1992 ilin oktyabr ayından isə "Samur" Ləzgi Milli Mərkəzinin sədridir.
Evlidir, 3 övladı var.

Born 1941 in August 17 in Gusar, Azerbaijan Republic. Lezghin. Graduated from the M.F. Akhundov Azerbaijan State Pedagogical Institute of Languages in 1964. Chairman of the "Samur" Lezghin National Centre since 1992.
Married, has three children.



MUSTAFA ÇƏMƏNLİ (MUSTAFAYEV MUSTAFA ŞURA OĞLU)
Azərbaycan Uşaq Ədəbiyyatı Fondunun sədri

Mustafa Chemenli (Mustafayev Mustafa Shura oglu)

Chairman of the Azerbaijan Childrens Literature Fund

1947 il sentyabrın 10-da Azərbaycan Respublikası Ağdam rayonunun Çəmənli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1972—1977 illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır. "Yazıçı" nəşriyyatında korrektor, 1978 ildən redaktor, redaksiya müdiri vəzifələrində işləmişdir. 1992 ilin avqustundan "Gənclik" nəşriyyatının baş redaktorudur. 1994 ilin oktyabrından Uşaq Ədəbiyyatı Fondunun sədridir. 5 kitabın müəllifidir. Azərbaycan Mətbuat Fondunun "Dan ulduzu" mükafatı laureatıdır (1993).
Evlidir, 1 övladı var.

Born 10 September 1947 in Chemenli village, Agdam district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1977. Chairman of the Azerbaijan Childrens Literature Fund since 1994.
Married, has one child.

1934 il fevralın 1-də Azərbaycan Respublikası Ağstafa rayonunun Köçəsgər kəndində anadan olmuşdur. 1955—1960 illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. 1967 ildən "Ədəbiyyat və incəsənət" qəzetində ədəbi işçi, böyük ədəbi işçi, şöbə müdiri, 1971 ildən Ümumittifaq Müəlliflik Hüququ Agentliyi Azərbaycan Respublika şöbəsinin rəisi, 1983 ildən "Maarif" nəşriyyatında böyük redaktor, 1990 ildən Qarabağa Xalq Yardımı Komitəsində nəşriyyat redaktoru vəzifələrində çalışmışdır. 1991 ilin fevralından "20 Yanvar" Fondunun İdarə Heyətinə sədr seçilmişdir. Dövri mətbuatda oçerk, hekayə, publisistik məqalələr və tərcümələrlə çıxış etmişdir. 2 övladından biri — Azər 20 yanvar hadisələri zamanı şəhid olmuş və Şəhidlər Xiyabanında dəfn edilmişdir.
Evlidir, 2 övladı var.

Born 1 February 1934 in Kochasker village, Agstafa district, Azerbaijan Republic. Graduated from the Azerbaijan State University in 1960. Chairman of the Management Personnel "20 January" Fund since 1991.
Married, has two children.



NƏSİB AZƏR (ƏLƏKBƏROV NƏSİB QURBAN OĞLU)
"20 Yanvar" Fondu İdarə Heyətinin sədri

Nasib Azer (Alekberov Nasib Gurban oglu)
Chairman of the Management Personnel of "20 January" Fund

1937 il avqustun 27-də Azərbaycan Respublikası Tovuz rayonunun Düzqırıxlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1962 ildə Azərbaycan Pedaqoji Dillər İnstitutunun ingilis-Azərbaycan dilləri fakültəsini bitirmişdir. 1964 ildən doğma institutda müəllim, 1972 ildən kafedra müdiri, 1990 ildən Bakı Dövlət Universitetində dosent vəzifələrində çalışmışdır. 1994 ildən universitetin professorudur. 1969 ildən filologiya elmləri namizədi ("Azərbaycan dilinin Kərkük dialekti"), 1993 ildən filologiya elmləri doktorudur ("İraq—türkman folkloru"). Bir çox dərslik və monoqrafiyaların, elmi və elmi-publisistik məqalələrin, "İraq—Kərkük bayatıları", "Arzu—Qəmbər dastanı", "Kərkük mahnıları", "İraq—Kərkük atalar sözləri", "Kərkük tapmacaları", "Altı il Dəclə-Fərat sahillərində", "Kərkük folkloru antologiyası", "Nəsiminin İraq divanı", "İraq—türkman folkloru" və başqa kitabların müəllifidir. Əsərləri xarici ölkələrdə çap edilmişdir. Rus, türk, ingilis və ərəb dillərini bilir.
1997 ildən Azərbaycan—İraq Dostluq Cəmiyyətinin sədr müavini, Ədəbiyyat Üzrə İxtisaslaşdırılmış Doktorluq Müdafiə Şurasının həmsədridir.
Evlidir, 5 övladı var.

Born 27 August 1937 in Duzgyrykhly village, Tovuz district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute of Foreign Languages in 1962. Vice-Chairman of the Azerbaijan—Irag Friendship Society since 1997.
Married, has five children.



PAŞAYEV QƏZƏNFƏR MƏHƏMMƏD OĞLU
Azərbaycan—İraq Dostluq Cəmiyyəti sədrinin müavini

Pashayev Gazanfar Mahammad oglu
Vice-Chairman of the Azerbaijan—Irag Friendship Society



RƏHMANZADƏ FAZİL ŞAMİL OĞLU
Beynəlxalq "Soydaş" Assosiasiyasının prezidenti

Rahmanzade Fazil Shamil oglu
President of the International "Soydash" Association

1942 il fevralın 9-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.
Əmək fəaliyyətinə 1960 ildə "İdman" qəzeti redaksiyasında korrektor kimi başlamışdır. 1961—1965 illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində qiyabi təhsil almışdır.
1963 ildən "Bakı" və "Baku" qəzetləri redaksiyasında ədəbi işçi, ədəbiyyat və incəsənət şöbəsinin müdiri, 1981 ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşı, 1983 ildən "Azərbaycan müəllimi" qəzeti redaksiyasında şöbə müdiri olmuşdur. 1994 ildə Beynəlxalq "Soydaş" Assosiasiyasının prezidenti seçilmişdir. 10-dan çox kitabın, külli miqdarda ədəbi-publisistik məqalənin müəllifidir. Kaliforniyadakı "Azərbaycan Evi" İdarə Heyətinin, Frankfurt-Mayn şəhərindəki Avropa Türk İslam Cəmiyyətləri Birliyinin Fəxri üzvü seçilmişdir.

Born 1942 February 9 in Baku, Azerbaijan Republic. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1965. President of the International "Soydash" Association since 1994.



RZABƏYOV İDRİS İBRAHİM OĞLU
28 May NQÇİ-nin rəisi

Rzabeyov Idris Ibrahim oglu
Chief of the 28 May OGEA

1938 il fevralın 13-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1961 ildə M.Əzizbəov adına Neft və Kimya İnstitutunu bitirmişdir. Bir çox elmi məqalə, 5 ixtira və 50-dən artıq səmərələşdirici təklifin müəllifidir. 1961 ildə "Gürganneft" NMİ-də operator kimi əmək fəaliyyətinə başlamışdır. 1962—1971 illərdə həmin idarədə mühəndis, böyük geoloq, 1971—1973 illərdə Kuba Respublikasında neft yataqlarının işlənməsi üzrə böyük geoloq, 1973—1978 illərdə Sov.İKP XXII qurultayı adına NQÇİ-də mühəndis-texnoloq, 6 saylı RMTX rəisinin müavini, elmi-tədqiqat laboratiyasının müdiri, 1978—1994 illərdə 28 May NQÇİ-nin baş geoloqu—rəis müavini vəzifələrində işləmişdir. 1994 ilin avqust ayından 28 May NQÇİ-nin rəisidir.
Evlidir, 3 övladı var.

Born 13 February 1938 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1961. Chief of the 28 May OGEA since 1994.
Married, has three children.



SALAHOVA ZƏRİFƏ TEYMUR QIZI
Azərbaycan Respublikası "Kitab" Cəmiyyəti İdarə Heyətinin sədri

Salahova Zerife Teymur gyzy
Chairman of the Administrative Personnel of "Kitab" Society

1957 il martın 31-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1983 ildə P.Lumumba adına Moskva Xalqlar Dostluğu Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1987—1990 illərdə SSRİ DİN Milis Akademiyasının 3-cü fakültəsində təhsil almışdır.
Əmək fəaliyyətinə 1984 ildə başlamış, Bakı Xüsusi Orta Milis Məktəbində pedaqoji işə qəbul edilmişdir. 1991 ildə Moskva şəhərində "Cinayət qanununun dərkedilmə prosesində həqiqət meyarları" mövzusunda dissertasiya müdafiə edərək hüquq elmləri namizədi adını almışdır. 1992 ildən Bakı Xüsusi Orta Milis Məktəbi rəisinin tədris işləri üzrə birinci müavini vəzifəsinə təyin edilmişdir. 1995 ildə dosent elmi vəzifəsini almışdır. Hazırda respublika DİN Polis Akademiyası rəisinin birinci müavinidir. Azərbaycan Respublikası ETMEK, KPİ və HKTİ Elmi şuralarının üzvüdür. 40-dan çox monoqrafiya, tədris vəsaiti və elmi məqalənin müəllifidir.
Evlidir, 2 övladı var.

Born 1957 March 31 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the P.Lumumba Moscow University of Peoples Friendship in 1983. First Vice- chief of the Police Academy on Training Affairs, Ministry of Internal Affairs of the Azerbaijan Republic.
Married, has two children.



ƏKBƏROV MƏHƏMMƏD HÜSEYN OĞLU
Naxçıvan Muxtar Respublikası İqtisad Məhkəməsinin sədri, baş ədliyyə müşaviri

Akberov Mahammad Huseyn oglu
Chairman of the Economic Court of the Nakhchivan Autonomous Republic

1958 il aprelin 10-da Azərbaycan Respublikası Naxçıvan MR Şərur rayonunun Qızılgül kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1976—1978 illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir. 1975 ildə Şərur rayonu Siyaqut Kənd Orta Məktəbini, 1979 ildə M.F.Axundov adına Azərbaycan Rus Dili və Ədəbiyyatı İnstitutunu, 1992 ildə Moskva Hüquq İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə 1975 ildə fəhləliklə başlamışdır. 1981—1985 illərdə komsomol komitəsinin katibi, 1985—1990 illərdə Naxçıvan Vilayət Komsomol Komitəsinin təmatçısı, şöbə müdiri, katibi, 1990—1995 illərdə Naxçıvan MR Ədliyyə Nazirliyində aparıcı mütəxəssis, 1995—1998 illərdə Naxçıvan MR Arbitraj Məhkəməsində hakim, 1998 ilin aprel ayından Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri vəzifələrində işləmişdir. 2000 ildən Naxçıvan MR İqtisad Məhkəməsinin sədridir.
Evlidir, 4 övladı var.

Born 1958 April 10 in Gyzylgul village, Sharur district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of the Russian Language and Literature in 1979, Moscow Institute of Law in 1992. Chairman of the Economic Court of the Nakhchivan Autonomous Republic since 2000.
Married, has four children.

1951 ildə Azərbaycan Respublikası Naxçıvan MR Şərur rayonunun Maxta kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Moskva şəhəri Jdanov rayon Daxili İşlər İdarəsində milis nəfəri kimi əmək fəaliyyətinə başlamışdır. 1978 ildə Moskva şəhər Orta Xüsusi Milis Məktəbini bitirdikdən sonra şəhər Milis İdarəsi 131 saylı milis bölməsinə cinayət işləri üzrə əməliyyat müvəkkili vəzifəsinə təyin edilmişdir. 1985 ildə Moskvada Ümumittifaq Hüquq İnstitutunu bitirmişdir. Bakı şəhərinin Nizami, Sabunçu, Xətai, Səbail rayon Polis İdarələrində rəhbər vəzifələrdə çalışmışdır. 1993 ildən Bakı Şəhər Baş Polis İdarəsinin rəisidir. Respublika Prezidentinin fərmanı ilə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir (1995).
Evlidir, 2 övladı var.

Born 1951 in Makhta village, Sharur district, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Moscow All-Union Institute of Law in 1985. Chief of the Central Police Administration of Baku city since 1993.
Married, has two children.



ƏLİYEV MƏHƏRRƏM ABIŞ OĞLU
Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru

Aliyev Maharram Abysh oglu
Chief of the Central Police Administration of Baku city, Police Major-General

1959 il aprelin 15-də Azərbaycan Respublikası Lənkəran rayonunun Biləsər kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1980—1982 illərdə Novosibirsk Xüsusi Orta Milis Məktəbində, 1984—1989 illərdə Omsk Ali Milis Məktəbində təhsil almışdır. 1982—1986 illərdə Krasnoyarsk Şəhər Nəqliyyat Milis İdarəsində əməliyyat müvəkkili, 1986—1990 illərdə Azərbaycan Respublikası DİN-in Tədris Mərkəzində müəllim, 1990—1992 illərdə Bakı Xüsusi Orta Milis Məktəbində müəllim, baş müəllim, bölmə rəisi vəzifələrində işləmişdir. 1992 ilin may ayından Polis Akademiyası Cinayət və mülki hüquq kafedrasının rəisidir. Hüqüq elmləri namizədi (1995), dosentdir (1997).
Evlidir, 2 övladı var.

Born 1959 April 15 in Bilasar village, Lenkeran district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Omsk Higher Militia School in 1989, Russia Federation.
Chief of the Department of Criminal and Civil Law of the Police Academy since 1992.
Married, has two children.



ƏLİYEV ƏLİŞA İBİŞ OĞLU
Azərbaycan Respublikası DİN Polis Akademiyası Cinayət və mülki hüquq kafedrasının rəisi, hüquq elmləri namizədi, dosent, polis podpolkovniki

Aliyev Alisha Ibish oglu
Chief of the Department of Criminal and Civil Law, Police Academy the Ministry of Internal Affairs of the Azerbaijan Republic, Police Colonel



ƏLİYEV MƏZAHİR MƏMMƏD OĞLU
Azərbaycan Respublikası DİN Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis polkovniki

Aliyev Mazahir Memmed oglu
Chief of the Department on Combating Narcotics of the Ministry of Internal Affairs of the Azerbaijan Republic

1949 il aprelin 7-də Azərbaycan Respublikasının Ağdaş şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Bakı Xüsusi Orta Milis Məktəbini, 1980 ildə SSRİ DİN-in Milis Akademiyasını bitirmişdir.
1973 ildən Ucar Rayon DİŞ-də sahə müvəkkili, baş inspektor, 1978 ildən Beyləqan Rayon DİŞ rəisinin müavini, 1987 ildən Yevlax Şəhər DİŞ-in rəisi, 1990 ildən Bakı Şəhəri Binəqədi Rayon Polis İdarəsinin rəisi, 1992 ildən Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavini, Bakı şəhər Baş Polis İdarəsinin rəisi, DİN Xüsusi İdarəsinin rəisi, 1993 ildən Lənkəran Şəhər Polis Şöbəsinin rəisi, 1994 ildən DİN Baş Mühafizə İdarəsinin rəisi, Narkotiklərlə Mübarizə İdarəsi rəisinin müavini vəzifələrində işləmişdir. Hazırda respublika DİN Narkotiklərlə Mübarizə İdarəsinin rəisidir.
"Qırmızı ulduz" ordeni, I, II, III dərəcə medallar, SSRİ DİN və Azərbaycan Respublikası DİN-in Milis əlaçısı Döş nişanları, fəxri fərmanlar və üç medalla təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 1949 April 7 in Agdash, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Militia Academy in 1980. Chief of the Department on Combating Narcotics of the Ministry of Internal Affairs of the Azerbaijan Republic at present.
Married, has two children.



ƏLİYEV OQTAY CƏLİL OĞLU
Azərbaycan Respublikası DİN Nəqliyyatda Baş Polis İdarəsinin rəisi, daxili xidmət polkovniki

Aliyev Ogtay Jalil oglu
Chief of the Central Administration of Police in Transport, Ministry of Internal Affairs of the Azerbaijan Republic, Colonel

1941 il noyabrın 28-də Azərbaycan Respublikası Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1964 ildə Azərbaycan Dövlət Universitetini, 1969 ildə Azərbaycan Xüsusi Milis Məktəbini, 1981 ildə SSRİ DİN Milis Akademiyasının Rostov filialını bitirmişdir. 1964—1975 illərdə respublika Nəqliyyatda Baş Milis İdarəsinin əməliyyat müvəkkili, baş əməliyyat müvəkkili, qrup rəhbəri, 1975—1980 illərdə Biləcəri Xətt Milis şöbəsinin rəisi, 1980—1982 illərdə Gəncə Şəhər Nəqliyyatda Milis İdarəsinin rəisi, 1982—1990 illərdə Azərbaycan Respublikası Nəqliyyatda Baş Milis İdarəsi rəisinin əməliyyat işləri üzrə müavini, 1990—1993 illərdə həmin idarənin rəisi, 1993—1994 illərdə respublika Daxili İşlər Nazirliyi baş Cinayət Axtarışı İdarəsi rəisinin müavini vəzifələrində işləmişdir. 1994 ilin avqust ayından Azərbaycan Respublikası DİN Nəqliyyatda Baş Polis İdarəsinin rəisidir. SSRİ və Azərbaycan SSR-in "Milis əlaçısı" Döş nişanları, SSRİ Daxili İşlər orqanlarının əməkdar işçisi diplomu, SSRİ DİN əməkdar təşviqatçısı, SSRİ-nin əməkdar dəmiryolçusu, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.
Evlidir, 5 övladı var.

Born 28 November 1941 in Safikurd village, Goranboy district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Rostov Branch of the Moscow Military Academy, Ministry of Internal Affairs of the USSR in 1981. Chief of the Central Administration of Police in Transport, Ministry of Internal Affairs of the Azerbaijan Republic since 1994.
Married, has five children.



ƏLİYEV YAŞAR ƏDİLXAN OĞLU
Bakı Şəhər Baş Polis İdarəsi rəisinin müavini, polis polkovniki

Aliyev Yashar Adilkhan oglu
Vice- chief of the Central Police Administration of Baku city, Police Colonel

1960 il sentyabrın 8-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1981 ildə SSRİ DİN-in Ali Hərbi Siyasi Məktəbini, 1993 ildə Moskva Ümumittifaq Hüquq İnstitutunun qiyabi şöbəsini bitirmişdir.
1981—1985 illərdə Gürcüstan Respublikasının Kutaisi şəhərində SSRİ DİN-in müşayiət alayında rota komandirinin siyasi məsələlər üzrə müavini, 1985—1987 illərdə Tbilisi şəhərindəki "N" hərbi hissəsində batalyon komandirinin siyasi məsələlər üzrə müavini, 1987—1988 illərdə Bakı şəhərində "N" hərbi hissəsinin siyasi şöbəsində baş təlimatçı, 1989—1992 illərdə Bakı şəhər DİŞ-in Post Patrul Xidməti Alayında rota komandirinin müavini, Alay komandirinin müavini, 1992 ildən Bakı şəhər Binəqədi rayon Pİ rəisinin müavini vəzifələrində işləmişdir. 1992 il oktyabrın 5-dən Bakı Şəhər baş Polis İdarəsi rəisinin müavinidir.
"Hərbi xidmətdə fərqləndiyinə görə" (1985) "İctimai asayişin mühafizəsində fərqləndiyinə görə " (1988), "İgidliyə görə" (1995) medalları ilə təltif edilmişdir. Qarabağ müharibəsi veteranıdır.
Evlidir, 1 övladı var.

Born 1960 September 8 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Higher Military Political School of the Ministry of Internal Affairs of the USSR in 1981; Moscow All-Union Institute of Law in 1993. Vice- chief of the Central Police Administration of Baku city since 1992.
Married, has one child.



ƏSƏDOV BAĞIR HƏBİB OĞLU
Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi

Asadov Bagyr Habib oglu
Judge of the Supreme Court of the Azerbaijan Republic

1948 il sentyabrın 25-də Azərbaycan Respublikası İsmayıllı rayonunun Həftəsov kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1975 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. 1975—1976 illərdə Ümumittifaq Müəlliflik Hüququ Agentliyinin Azərbaycan Respublika şöbəsində baş hüquq məsləhətçisi işləmişdir. 1975 ilin may ayında müsabiqə yolu ilə Azərbaycan Dövlət Universiteti hüquq fakültəsi Mülki hüquq kafedrasının müəllimi seçilmiş, müəllim, baş müəllim vəzifələrində çalışmışdır. Hazırda həmin kafedranın dosenti, 1993 ilin may ayından Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimidir.
1988 ildə Moskva Dövlət Universitetində namizədlik dissertasiyası müdafiə etmişdir. 60-dan artıq elmi və metodiki məqalənin müəllifidir. "Hüquq ensiklopediyası" kitabının müəlliflərindəndir.
Evlidir, 3 övladı var.

Born 1948 September 25 in Haftasov village, Ismayilli district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1975. Judge of the Supreme Court of the Azerbaijan Republic since 1993.
Married, has three children.



ƏSGƏROV RAFİQ HACIAĞA OĞLU
C.Naxçıvanski adına Hərbi Litseyin rəis əvəzi, kontr-admiral

Asgerov Rafig Hajiaga oglu
Chief of the J.Nakhchivanski Military Lyseum

1949 il fevralın 16-da Azərbaycan Respublikası Lerik rayonunun Alburdərə kəndində anadan olmuşdur. 1972 ildə Ali Hərbi Dənizçilik Məktəbini bitirmişdir. Həmin ildən Xəzər Donanmasında döyüş hissə komandiri, tral divizionunun komandiri işləmiş, donanmanın qərargahında müxtəlif vəzifələrdə çalışmışdır. 1992 ildən Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələri komandanının birinci müavini, qərargah rəisi, Müdafiə nazirinin müavini, Hərbi Dəniz Qüvvələri komandanı, 1995 ildən Silahlı Qüvvələrin baş müfəttişi, 1996 ildən C.Naxçıvanski adına Hərbi Litsey rəisinin müavini vəzifələrində işləmişdir. 1999 ilin may ayından Hərbi Litseyin rəis əvəzidir.
1 orden və 20 medalla təltif edilmişdir.
Evlidir, 1 övladı var.

Born 16 February 1949 in Alburdara village, Lerik district, Azerbaijan Republic. Graduated from the Higher Military Nautical School in 1972. Chief of the J.Nakhchivanski Military Lyseum since 1999.
Married, has one child.



ƏSGƏROV YAQUB QAÇAY OĞLU
Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini

Askerov Yagub Gachay oglu
Vice-Chairman of the Supreme Court of the Azerbaijan Republic

1944 il martın 2-də Azərbaycan Respublikası Kəlbəcər rayonunun Xallanlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1967 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini, 1970 ildə Bakı Ali Partiya Məktəbini bitirmişdir.
1960—1962 illərdə Kəlbəcər Rayon Xalq Məhkəməsində məhkəmə iclas katibi, 1964 ildən Bərdə rayonu "Kommunizm yolu" qəzetinin xüsusi müxbiri, 1964—1968 illərdə Kəlbəcər Rayon Partiya Komitəsində təlimatçı, 1970—1971 illərdə Kənd Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsində texniki müfəttiş, 1971—1972 illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində baş məsləhətçi, 1972—1976 illərdə Naxçıvan MSSR Ali Məhkəməsinin üzvü və Şərur Rayon Xalq Məhkəməsinin xalq hakimi, 1976—1981 illərdə Gəncə Şəhər Xalq Məhkəməsində Xalq hakimi, 1981—1987 illərdə Gəncə şəhəri Kəpəz Rayon Xalq Məhkəməsinin sədri, 1987—1988 illərdə Bərdə Rayon Xalq Məhkəməsinin sədri, 1988 ilin may ayından Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifələrində işləmişdir. 2000 ildən Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavinidir.
Evlidir, 2 övladı var.

Born 1944 March 2 in Khallanly village, Kelbajar district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1967, Baku Higher Party School in 1970. Vice-Chairman of the Supreme Court of the Azerbaijan Republic since 2000.
Married, has two children.



HAQVERDİYEV YAŞAR HƏSƏN OĞLU
Bakı Şəhər Baş Polis İdarəsi İstintaq İdarəsinin rəisi, polis polkovniki

Hagverdiyev Yashar Hasan oglu
Chief of the Central Police Investigation Administration of Baku city, Police Colonel

1955 il iyulun 3-də Qərbi Azərbaycanın (indiki Ermənistan) Vedi rayonunda anadan olmuşdur. Azərbaycanlıdır.
1977 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
Əmək fəaliyyətinə 1977 ildə başlamışdır. 1977—1978 illərdə Naxçıvan MR DİN-də əməliyyat müvəkkili, 1978—1983 illərdə Şahbuz rayon DİŞ-də müstəntiq, 1983—1987 illərdə Babək rayon DİŞ-də baş müstəntiq, 1987—1991 illərdə Naxçıvan MR DİN-nin İstintaq İdarəsində baş müstəntiq, 1994—1996 illərdə Bakı şəhəri Binəqədi rayon Polis İdarəsi istintaq şöbəsinin rəisi, 1996—1997 illərdə Azərbaycan Respublikası DİN İstintaq İdarəsi rəisinin müavini vəzifələrində işləmişdir. 1997 ilin mart ayından Bakı Şəhər Baş Polis İdarəsi İstintaq İdarəsinin rəisidir.
Azərbaycan Respublikası DİN-in Döş nişanı və başqa mükafatlara layiq görülmüşdür.
Evlidir, 3 övladı var.

Born 1955 July 3 in Vedi district, West Azerbaijan (now Armenia Republic). Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1977. Chief of the Central Police Investigation Administration of Baku city since 1997.
Married, has three children.



HƏSƏNOV ASƏF ƏHMƏD OĞLU
Azərbaycan Respublikası DİN Baş Mühafizə İdarəsinin rəisi, polis polkovniki

Hasanov Asaf Ahmad oglu
Chief of the Central Protection Administration, Ministry of Internal Affairs of the Azerbaijan Republic, Police Colonel

1945 il iyulun 22-də Azərbaycan Respublikası Lənkəran rayonunun Lüvəsər kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1970 ildə Azərbaycan Politexnik İnstitutunu, 1985 ildə Moskva Milis Akademiyasının Rostov filialını bitirmişdir.
Əmək fəaliyyətinə 1963 ildə "Azərelektroişıq" zavodunda fəhləliklə başlamışdır. 1969—1970 illərdə Azərbaycan Dəmiryolunun Distansiya Təmir Emalatxanasının rəisi, 1970—1971 illərdə N.Nərimanov adına Lənkəran şəhər Balıqçılıq Kombinatında baş mühəndis, 1972—1974 illərdə Bakı şəhəri Nərimanov rayon Mühafizə Şöbəsində mühəndis, 1974 ildən Azərbaycan SSR DİN Nəqliyyatda Baş Polis İdarəsinin Təyyarə Limanı Üzrə milis bölməsində əməliyyat müvəkkili, 1975—1985 illərdə Azərbaycan SSR DİN-də baş müvəkkil, bölmə rəisinin müavini, 1985—1990 illərdə Bakı Şəhəri Nəsimi Rayon Milis Şöbəsində SƏDM üzrə baş əməliyyat müvəkkili, 1993—1995 illərdə respublika DİN Nəqliyyatda Baş Polis İdarəsi Su Nəqliyyatı Polis İdarəsi rəisinin müavini vəzifələrində çalışmışdır. 1995 ilin may ayından Azərbaycan Respublikası DİN Baş Mühafizə İdarəsinin rəisidir. Qüsursuz xidmətlərinə görə I, II və III dərəcə medallarla təltif olunmuşdur.
Evlidir, 2 övladı var.

Born 1945 July 22 in Luvasar village, Lenkaran district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1970; Rostov branch of the Moscow Police Academy in 1985. Chief of the Central Protection Administration, Ministry of Internal Affairs of the Azerbaijan Republic since 1995.
Married, has two children.



HƏSƏNOV İLHAM MƏMMƏDCƏFƏR OĞLU
Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin hakimi, Cinayət işləri və inzibati hüquq pozmalara dair məhkəmə kollegiyasının sədri

Hasanov Ilham Memmedjafar oglu
Judge of the Court of Appeal of the Azerbaijan Republic

1951 il aprelin 2-də Azərbaycan Respublikası Qəbələ rayonunun Hacalı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1968—1973 illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır. Hüquqşünasdır. Universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra təyinatla respublika Ədliyyə Nazirliyinə göndərilmiş və məsləhətçi vəzifəsinə təyin edilmişdir. 1977—1979 illərdə Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutunda kiçik elmi işçi, 1979—1980 illərdə respublika Ədliyyə Nazirliyi hüquq təbliğatı və vətəndaşların hüquq tərbiyəsi şöbəsinin rəisi, 1980—1982 illərdə Bakı şəhəri Qaradağ Rayon Xalq Məhkəməsinin xalq hakimi, 1982—1987 illərdə Mingəçevir Şəhər Xalq Məhkəməsinin xalq hakimi, məhkəmənin sədri, 1987—2000 illərdə Bakı Şəhər Məhkəməsinin hakimi vəzifələrində işləmiş, Rəyasət Heyətinin üzvü seçilmişdir. 2000 ilin avqust ayından Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin hakimi, cinayət işləri və inzibati hüquqpozmalara dair məhkəmə kollegiyasının sədridir.
Evlidir, 1 övladı var.

Born 1951 April 2 in Hajaly village, Gabala district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1973. Judge of the Court of Appeal of the Azerbaijan Republic since 2000.
Married, has one child.



HƏŞİMOV VİDADİ QURBAN OĞLU
Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi

Hashimov Vidadi Gurban oglu
Judge of the Supreme Court of the Azerbaijan Republic

1940 il avqustun 5-də Azərbaycan Respublikası Bakı şəhərinin Biləcəri qəsəbəsində anadan olmuşdur. Azərbaycanlıdır. 1965 ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini, 1972 ildə isə hüquq fakültəsini bitirmişdir. 1958—1960 illərdə Bakı Şəhəri Biləcəri Qəsəbə Sovetində kitabxana müdiri və texnik, 1965—1974 illərdə Bakı Şəhəri Binəqədi rayonunun orta məktəblərində rus dili və ədəbiyyatı müəllimi, 1974—1975 illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində baş məsləhətçi, 1975—1976 illərdə Əli Bayramlı Şəhər Xalq Məhkəməsinin sədri, 1976—1977 illərdə Bakı Şəhər Səbail Rayon Xalq Məhkəməsinin xalq hakimi vəzifələrində çalışmışdır. 1977 ilin dekabr ayından Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimidir.
1983—1994 illərdə Ali Məhkəmənin hakimi və eyni zamanda Ali Məhkəmə Plenumunun katibi vəzifəsində işləmişdir.
Dəfələrlə SSRİ Ədliyyə Nazirliyinin mükafalatları və "Əmək veteranı" medalı ilə təltif edilmişdir.
Evlidir, 4 övladı var.

Born 1940 August 5 in Bilajary settlement, Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1972. Judge of the Supreme Court of the Azerbaijan Republic since 1977.
Married, has four children.

1942 il mayın 1-də Azərbaycan Respublikası Yardımlı rayonunun Onçakələ kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1966 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
1965 ildən Abşeron Rayon Xalq Məhkəməsində məhkəmə icraçısı, 1969 ildən Abşeron Rayon Dövlət Notariat Kontorunda dövlət notariusu, 1971 ildən Sumqayıt Şəhər Dövlət Notariat Kontorunda baş dövlət notariusu, 1973 ildən Şuşa Rayon xalq hakimi, 1982 ildən İsmayıllı Rayon xalq hakimi vəzifələrində çalışmışdır. 1987 ilin mart ayından Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimidir.
"Şərəf nişanı" ordeni ilə təltif edilmişdir (1986).
Evlidir, 4 övladı var.

Born 1942 May 1 in Onjakele village, Yardymly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1966. Judge of the Supreme Court of the Azerbaijan Republic since 1987.
Married, has four children.



HİDAYEV ŞAHMURAD ƏZİZAĞA OĞLU
Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi

Hidayev Shahmurad Azizaga oglu
Judge of the Supreme Court of the Azerbaijan Republic

1953 il oktyabrın 23-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1975 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. 1975 ildə təyinatla respublika Prokurorluğunda işə qəbul olunmuşdur. 1975—1979 illərdə Bakı Şəhəri Nərimanov Rayon Prokurorluğunda müstəntiq, 1979—1981 illərdə respublika prokurorunun köməkçisi, 1981—1985 illərdə Bakı Şəhəri Səbail Rayon prokurorunun müavini, 1985—1986 illərdə respublika Ədliyyə Nazirliyində məsləhətçi, 1986—1990 illərdə respublika Ali Məhkəməsində məsləhətçi, sədrin köməkçisi, 1990—2000 illərdə Bakı Şəhər Məhkəməsinin hakimi vəzifələrində işləmişdir. 2000 ilin sentyabr ayından Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin hakimidir.
1995 ildə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü seçilmişdir.
Evlidir, 2 övladı var.

Born 1953 October 23 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1975. Judge of the Court on Affairs of Heinous Crimes of the Azerbaijan Republic since 2000.
Married, has two children.



HÜSEYNOV AZƏR QƏMBƏR OĞLU
Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin hakimi

Huseynov Azer Gambar oglu
Judge of the Court on Affairs of Heinous Crimes of the Azerbaijan Republic



HÜSEYNOV ƏLİAĞA İZZƏT OĞLU
Azərbaycan Respublikasının Hərbi komissarı

Huseynov Aliaga Izzet Oglu
Military Commisar of the Azerbaijan Republic

1946 il dekabrın 16-da Azərbaycan Respublikasının Salyan rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1970 ildə Azərbaycan Politexnik İnstitutunu, 1974 ildə Bakı Ali Ümumqoşun Komandirlər Məktəbini, 1975 ildə isə səfərbərlik üzrə Baş Ştabın Mərkəzi Kursunu bitirmişdir. Polkovnikdir.
1970—1972 illərdə Bakı şəhər Tramvay-Trolleybus İdarəsində fəhlə işləmişdir. 1972—1976 illərdə Bakı şəhəri indiki Səbail Rayon Hərbi Komissarlığında şöbə rəisinin köməkçisi vəzifəsində çalışmışdır. 1976 ildən İmişli Rayon hərbi komissarının müavini, 1978 ildən Bakı Şəhəri Əzizbəyov Rayon Hərbi Komissarlığında 2-ci şöbənin rəisi, 1983 ildən Əzizbəyov rayonunun Hərbi komissarı, 1988 ildən Yasamal rayonunun Hərbi komissarı vəzifələrində işləmişdir. 1997 ilin may ayından Azərbaycan Respublikasının Hərbi komissarıdır.
Evlidir, 2 övladı var.

Born 16 December 1946 in Salyan district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1970. Military Commissar of the Azerbaijan Republic since 1997.
Married, has two children.



HÜSEYNOV MURAD QOŞUN OĞLU
Azərbaycan Respublikası DİN Baş Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, polis polkovniki

Huseynov Murad Goshun oglu
Chief of the Central Administration of Fire Security, Ministry of Internal Affairs of the Azerbaijan Republic

1948 il aprelin 4-də Qərbi Azərbaycanın (indiki Ermənistan) Qafan rayonunda anadan olmuşdur. Azərbaycanlıdır.
1973—1978 illərdə SSRİ DİN Ali Mühəndis Yanğın-Texniki Məktəbində təhsil almışdır. Texnika elmləri namizədidir. Bir çox elmi əsərlərin müəllifidir.
1965 ildə "Leninneft" Neft və Qaxçıxarma İdarəsinin 11 №-li mədənində fəhlə kimi əmək fəaliyyətinə başlamışdır. 1966—1968 illərdə Azərbaycan SSR DİN Yanğından mühafizə İdarəsi 1 №-li Tabeçilikdə olan Hərbiləşdirilmiş Yanğın hissəsinin yanğınsöndüreni işləmişdir. 1968—1971 illərdə SSRİ DİN Xarkov Yanğın-Texniki Məktəbinin kursantı olmuşdur. 1971—1972 illərdə Azərbaycan SSR DİN Yanğından Mühafizə İdarəsi 2 №-li Tabeçilikdə olan Hərbiləşdirilmiş Yanğın hissəsinin qarovul rəisi, 1972—1978 illərdə Azərbaycan SSR DİN Yanğından Mühafizə İdarəsində təlim dəstəsinin müəllimi, 1978—1983 illərdə Azərbaycan SSR DİN Yanğından Mühafizə İdarəsində kiçik və orta rəis heyəti hazırlığı məktəbinin baş müəllimi, 1983—1988 illərdə Naxçıvan MSSR DİN-də şöbə rəisi, 1988—1992 illərdə Azərbaycan SSR DİN BYM və QXİİ-də (Qəza Xilas İşləri İdarəsi) şöbə rəisi, 1992—1995 illərdə Azərbaycan Respublikası DİN BYM və QXİİ Dövlət Neft Şirkəti üzrə Yanğından Mühafizə İdarəsinin rəisi vəzifələrində çalışmışdır. 1995 ilin aprel ayından Azərbaycan Respublikası DİN Baş Yanğın Təhlükəsizliyi İdarəsinin rəisidir. "Yanğında igidliyə görə" və qüsursuz xidmətlərinə görə üç dərəcə medallarla təltif edilmişdir.
Evlidir, 4 övladı var.

Born 1948 April 4 in Gafan district, West Azerbaijan (now Armenia Republic). Azerbaijanian. Graduated from the Higher Engineer Fire-Technical School, Ministry of Internal Affairs of the USSR in 1978. Chief of the Central Administration of Fire Security, Ministry of Internal Affairs of the Azerbaijan Republic since 1995.
Married, has four children.

1958 il mayın 30-da Azərbaycan Respublikasının Ağdam şəhərində anadan olmuşdur. 1987 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. 1979 ildən Azərbaycan Respublikası Ali Məhkəməsində məhkəmə iclas katibi, 1986 ildən Plenum və Rəyasət heyəti katibliyinin məsul katibi, 1987 ildən Plenum və Rəyasət Heyəti Katibliyinin müdiri, 1990 ildən Rəyasət Heyəti Katibliyinin rəisi, 1992 ildən Azərbaycan Respublikası Ali Məhkəməsi Hərbi Kollegiyasının hakimi vəzifələrində işləmişdir. Hazırda Respublika Apellyasiya Məhkəməsi Məsləhət qrupunun rəhbəridir.
Evlidir, 2 övladı var.

Born 1958 May 30 in Aghdam, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1987. Head of the Consulting group of Court of Appeal of the Azerbaijan Republic at present.
Married, has two children.



HÜSEYNOV NİZAMİ HƏBİB OĞLU
Azərbaycan Respublikası Apellyasiya Məhkəməsi Məsləhət qrupunun rəhbəri, ədliyyə polkovniki

Huseynov Nizami Habib oglu
Head of the Consulting group of Court of Appeal of the Azerbaijan Republic, justice colonel

1952 il iyulun 25-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1968—1973 illərdə Azərbaycan Dövlət Universitetində, 1984—1986 illərdə SSRİ DİN-in Milis Akademiyasında təhsil almışdır.
Əmək fəaliyyətinə 1973 ildə müəllimliklə başlamışdır. 1977—1979 illərdə Novomoskovsk şəhər Daxili İşlər İdarəsində yetkinlik yaşına çatmayanlar üzrə əməliyyat müvəkkili, baş əməliyyat müvəkkili, Cinayət-Axtarış şöbəsi rəisinin müavini və rəisi, 1986—1987 illərdə Novomoskovsk Vilayət Daxili İşlər İdarəsində mühüm işlər üzrə baş əməliyyat müvəkkili, Tula şəhəri Proletar rayon Dİİ rəisinin birinci müavini, 1987—1989 illərdə Türkmənistan SSR Cərco Vilayət Daxili İşlər İdarəsində Cinayət-Axtarış şöbəsinin rəisi, 1989—1992 illərdə Bakı Xüsusi Orta Milis Məktəbində baş müəllim, xüsusi fənlər bölməsinin rəisi vəzifələrində çalışmışdır. 1992 ildən Polis Akademiyası DİO-nun Əməliyyat-axtarış fəaliyyəti kafedrasının rəisidir. Bir çox elmi əsərlərin və dərs vəsaitlərinin müəllifidir.
Evlidir, 5 övladı var.

Born 1952 July 25 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1973; Militia Academy of Ministry of Internal Affairs, USSR in 1986. Chief of a department of Operation and Investigation Activities in BIA, Police Academy of the Ministry of Internal Affairs of the Azerbaijan Republic since 1992.
Married, has five children.



HÜSEYNOV ŞAHİN İSLAM OĞLU
Azərbaycan Respublikası DİN Polis Akademiyası DİO-nun Əməliyyat-axtarış fəaliyyəti kafedrasının rəisi, polis polkovniki

Huseynov Shahin Islam oglu
Chief of the Police Department of Operation and Investigation Activities in BIA, Police Academy, Ministry of Internal Affairs of the Azerbaijan Republic, Police Colonel



HÜSEYNOV ZEYQƏM HÜSEYN OĞLU
Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi

Huseynov Zeygam Huseyn oglu
Judge of the Supreme Court of the Azerbaijan Republic

1949 ildə Qərbi Azərbaycanda (indiki Ermənistan) Vedi rayonunun Şirazlı kəndində anadan olmuşdur.
1974 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
1971—1976 illərdə Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsində məhkəmə icraçısı, 1976—1987 illərdə Zəngilan Rayon Xalq Məhkəməsinin xalq hakimi, 1987—1990 illərdə Füzuli Rayon Xalq Məhkəməsinin xalq hakimi, 1990 ilin avqust ayından Xaçmaz Rayon Xalq Məhkəməsinin sədri vəzifələrində işləmişdir. 2000 ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimidir.
Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin iki Fəxri Fərmanı ilə təltif edilmişdir.

Born 1949 in Shirazly village, Vedi district, West Azerbaijan (now Armenia Republic). Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1974. Judge of the Supreme Court of the Azerbaijan Republic since 2000.



HÜSEYNOV MİRPAŞA SÜLEYMAN OĞLU
Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin hakimi

Huseynov Mirpasha Suleyman oglu
Judge of the Court of Appeal of the Azerbaijan Republic

1953 il aprelin 25-də Azərbaycan Respublikası Sabirabad rayonunun Qarağac kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1986 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
1990 ildən Əli Bayramlı Şəhər Hüquq Məsləhətxanasında vəkil, Laçın Rayon xalq hakimi, 1993 ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifələrində işləmişdir. 2000 ilin avqust ayından Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin hakimidir.
Evlidir, 3 övladı var.

Born 1953 April 25 in Garaghaj village, Sabirabad district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1986.
Judge of the Court of Appeal of the Azerbaijan Republic since 2000.
Married, has three children.

1954 il iyunun 27-də Azərbaycan Respublikasının Ağcabədi şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1974 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu, 1994 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. 1977 ildən Bakı Metropoliteni Milis Şöbəsində müvəkkil, 1980 ildən Bakı şəhərinin Nərimanov, Nizami və Lenin rayonları daxili işlər şöbəsində SƏDM üzrə əməliyyat müvəkkili, 1987 ildən Bakı Şəhəri Əzizbəyov Rayon DİŞ-də SƏDM bölməsinin rəisi, 1989 ildən Bakı Şəhəri Nərimanov Rayon DİŞ-də SƏDM bölməsinin rəisi, 1990 ildən respublika DİN 6-cı İdarəsi rəisinin müavini, şöbə rəisi, 1991 ildən DİN İqtisadi Cinayətkarlıqla Mübarizə İdarəsində şöbə rəisi, 1993 ildən Bakı Şəhər Baş Polis İdarəsində mütəşəkkil cinayətkarlığa qarşı mübarizə şöbəsinin rəisi vəzifələrində işləmişdir. 1997 ilin sentyabr ayından Bakı Şəhəri Nəsimi Rayon Polis İdarəsinin rəisidir.
DİN-in Döş nişanları və fəxri fərmanları ilə təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 1954 June 27 in Agjabedi, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1974; Azerbaijan State University in 1994. Chief of the Police Department of Nasimi district, Baku city since 1997.
Married, has two children.



XƏLİLOV NİYAZİ CALAL OĞLU
Bakı Şəhəri Nəsimi Rayon Polis İdarəsinin rəisi, polis polkovniki

Khalilov Niyazi Jalal oglu
Chief of the Police Department of Nasimi district, Baku city, Police Colonel

1957 il sentyabrın 7-də Azərbaycan Respublikasının Masallı rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1981 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.
1981—1983 illərdə Gəncə Şəhəri Kəpəz Rayon Prokurorluğunun müstəntiqi, Gəncə Şəhər Prokurorluğunun baş müstəntiqi, Gəncə Şəhər prokurorunun köməkçisi, 1993—1994 illərdə Bakı Şəhər Prokurorluğu daxili işlər orqanlarında qanunların icrasına nəzarət şöbəsi rəisinin müavini, 1994—1998 illərdə Azərbaycan Respublikası Prokurorluğu daxili işlər orqanlarında qanunların icrasına nəzarət idarəsi rəisinin müavini, İstintaq İdarəsi rəisinin müavini, 1998 ildən Bakı Şəhəri Səbail Rayon prokuroru vəzifələrində işləmişdir. 2000 ildən Azərbaycan Respublikası Prokurorluğu Ağır Cinayətlərə Dair İstintaq İdarəsinin rəisidir.
"Azərbaycan Bayrağı" ordeni və "Prokurorluğun Fəxri işçisi" Döş nişanı ilə təltif edilmişdir.
Evlidir, 3 övladı var.

Born 1957 September 7 in Masally district, Azerbaijan Republic.Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1981. Head of the Investigation Administration on Heinous Crimes of the Office of Public Prosecutor of Azerbaijan Republic since 2000.
Married, has three children.



KAZIMOV TAHİR LƏLƏKİŞİ OĞLU
Azərbaycan Respublikası Prokurorluğu Ağır Cinayətlərə Dair İstintaq İdarəsinin rəisi

Kazimov Tahir Lelekishi oglu
Head of the Investigation Administration on Heinous Crimes of the Office of Public Prosecutor, Azerbaijan Republic



KƏRİMOV İKRAM HEYDƏR OĞLU
Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Hərbi Məhkəməsinin sədri

Kerimov Ikram Heydar oglu
Chairman of the Military Court on Affairs of Grave Crimes of the Azerbaijan Republic

1942 il aprelin 18-də Azərbaycan Respublikasının Kürdəmir şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Əmək fəaliyyətinə 1959 ildə sovxozda fəhlə kimi başlamışdır. 1961—1966 illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır. Hüquqşünasdır. 1966 ildən Qusar və Xaçmaz rayon prokurorluqlarında müstəntiq, 1969 ildən Azərbaycan Respublikası Prokuroru yanında mühüm işlər müstəntiqi, 1978 ildən Bakı şəhəri Əzizbəyov Rayon prokuroru, 1984 ildən Bakı şəhər Prokurorunun birinci müavini, eyni zamanda istintaq şöbəsinin rəisi, 1987 ildən Bakı Şəhər Məhkəməsinin sədri vəzifələrində işləmişdir.
2000 ildən Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Hərbi Məhkəməsinin sədridir.
"Şərəf nişanı" ordeni (1982), "Əmək veteranı" medalı (1987), Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı (1972), SSRİ Baş prokuroru və ÜİHİMŞ-in Fəxri fərmanı (1987), SSRİ Baş prokuroru, Azərbaycan SSR prokurorunun, Ədliyyə Nazirliyinin fəxri fərmanları, təşəkkürləri, qiymətli hədiyyələri ilə mükafatlandırılmış, adı "Prokurorluğun fəxri müstəntiqi" kitabına yazılmışdır. Dəfələrlə Bakı şəhər və rayon sovetlərinə deputat seçilmişdir.
Evlidir, 3 övladı var.

Born 1942 April 18 in Kurdamir, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1966. Chairman of the Military Court on Affairs of Grave Crimes of the Azerbaijan Republic.
Married, has three children.



QASIMOV TOFİQ QAÇAY OĞLU
Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin rəis əvəzi, polkovnik

Gasymov Tofig Gachay oglu
Acting Chief of the Baku Higher United Command School

1960 ildə Azərbaycan Respublikasının Sumqayıt şəhərində anadan olmuşdur. 1977 ildə C.Naxçıvanski adına Hərbi Məktəbi, 1981 ildə Bakı Ali Ümumqoşun Komandirlər Məktəbini bitirmişdir. Keçmiş sovet ordusunun zabiti olmuş, 1992 ildən Azərbaycan Silahlı Qüvvələrində xidmətini davam etdirmişdir. Tabır, alay, briqada komandiri vəzifələrində çalışmışdır. Hazırda BABKM-nin rəisi vəzifəsini icra edir.
Evlidir, 2 övladı var.

Born 1960 in Sumgait, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku Higher Command School in 1981. Acting Chief of the Baku Higher United Command School at present.
Married, has two children.

1951 il oktyabrın 28-də Azərbaycan Respublikası Naxçıvan MR-in Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1972 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu, 1982 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir.
Əmək fəaliyyətinə 1973 ildə başlamış və Azərbaycan Xüsusi Montaj Trestində iqtisadçı, 1974—1978 illərdə respublika DİN-in CAŞ-da inspektor, 1978—1981 illərdə Bakı Hava Limanı DİŞ rəisinin müavini, 1981—1982 illərdə Bakı Dəniz Limanı DİŞ rəisinin müavini, 1982—1985 illərdə Bakı Dəniz Limanı DİŞ rəisi əvəzi, DİŞ-in rəisi, 1985—1989 illərdə Bakı Su Xətti DİŞ-in rəisi, 1989—1991 illərdə Mühafizə İdarəsinin inspektoru, 1991—1993 illərdə Bakı şəhəri Nərimanov Rayon Mühafizə Şöbəsinin rəisi, 1993 ilin aprel ayından Bakı şəhəri Sabunçu Rayon Polis İdarəsinin rəisi vəzifələrində işləmişdir. Hazırda Suraxanı Rayon Polis İdarəsinin rəisidir.
Azərbaycan Respublikası DİN-in "Milis əlaçısı", "Sərhəd Qoşunları əlaçısı" Döş nişanlarına, fəxri fərmanlara, qiymətli hədiyyələrə layiq görülmüş, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 1951 October 28 in Nakhchivan, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1982. Chief of the Police Department of Surakhany district, Baku city since 2000.
Married, has two children.



QAZIBƏYOV ETİBAR RƏŞİD OĞLU
Bakı şəhəri Suraxanı Rayon Polis İdarəsinin rəisi, polis polkovniki

Cazibeyov Etibar Rashid oglu
Chief of the Police Department of Surakhany district, Baku city, Police Colonel

1957 il avqustun 10-da Azərbaycan Respublikası Ağdam rayonunun Qasımlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1978—1984 illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır.
1975—1977 illərdə hərbi xidmətdə olmuşdur. Əmək fəaliyyətinə 1974 ilin sentyabr ayından başlamış və 1975 ilin noyabr ayına qədər Samur-Abşeron Su Tikinti Trestinin Texnoloji Komplektləşdirmə İdarəsində fəhlə, 1977—1979 illərdə Abşeron Rayon 4 saylı Sənaye Kombinatında betonçu işləmişdir. 1979—1983 illərdə Abşeron Rayon Komsomol Komitəsində təlimatçı, 1983—1987 illərdə Abşeron Rayon Partiya Komitəsində təlimatçı, 1987—1990 illərdə Abşeron Rayon Xalq Məhkəməsində xalq hakimi, 1990—1994 illərdə Xızı Rayon Xalq Məhkəməsində hakim, 1994 ildən Abşeron Rayon Xalq Məhkəməsinin hakimi vəzifələrində işləmişdir. 2000 ildən Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin hakimidir.
1997 ilin aprel ayında Həcc ziyarətində olmuşdur.
Evlidir, 2 övladı var.

Born 1957 August 10 in Gasymly village, Agdam district, Azerbaijan Republic.Avars. Graduated from the Azerbaijan State University in 1984. Judge of the Court of Appeal of the Azerbaijan Republic since 2000.
Married, has two children.



QULİYEV ƏLƏKBƏR HÜSÜ OĞLU
Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin hakimi

Guliyev Alekber Husu oglu
Judge of the Court of Appeal of the Azerbaijan Republic



QULİYEV MƏDƏT QƏZƏNFƏR OĞLU
Azərbaycan Respublikası DİN Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi, polis polkovniki, Azərbaycanın Milli Qəhrəmanı

Guliyev Madat Gazanfar oglu
Chief of the Administration of Struggle against the Organized Griminal, Ministry of İnternal Affairs, Azerbaijan Republic, Colonel

1958 il sentyabrın 27-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. 1980 ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu, 1997 ildə respublika DİN-in Polis Akademiyasını bitirmişdir. 1983 ildən Gəncə ŞDİİ-nin kadrlar bölməsində təlimatçı-metodist, "Dinamo" BTİ cəmiyyəti sədrinin müavini, 1991 ildən Gəncə ŞDİİ-də CAŞ-ın baş əməliyyat müvəkkili, 1993 ildən Gəncə ŞPİ-də terrorizm və banditizmə qarşı mübarizə şöbəsinin baş əməliyyat müvəkkili, şöbə rəisinin müavini, bölmə rəisi, 1995 ildən Mütəşəkkil Cinayətkarlıqla mübarizə şöbəsinin rəisi, Azərbaycan Respublikası DİN MCMİ-də şöbə rəisi və idarə rəisinin müavini vəzifələrində işləmişdir. 2001 ilin iyun ayından DİN Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisidir. 2001 ildə ABŞ Luiziana Dövlət Universitetinin xüsusi kursunu bitirmişdir.
1990 ildə Gəncə Şəhər Sovetinə deputat seçilmişdir.
Evlidir, 1 övladı var.

Born 27 September 1958 in Ganja, Azerbaijan Republic. Graduated from the Azerbaijan State İnstitute of Physical Culture in 1980, Police Acedemy of Ministry of İnternal Affairs, Azerbaijan Republic in 1997. National hero of the Azerbaijan.
Chief of the Administration of Struggle against the Organized Griminal, Ministry of İnternal Affairs, Azerbaijan Republic.
Married, has one child.



MAQSUDOV OQTAY MAQSUD OĞLU
Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi, ədliyyə general-mayoru

Magsudov Ogtay Magsud oglu
Judge of the Supreme Court of the Azerbaijan Republic, Major-General

1937 il oktyabrın 31-də Azərbaycan Respublikası İmişli rayonunun Qaradonlu kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1957—1962 illərdə Azərbaycan Dövlət Universitetinin (M.Ə.Rəsulzadə adına BDU) hüquq fakültəsində təhsil almışdır. Hüquqşünasdır.
Əmək fəaliyyətinə 1962 ildə Azərbaycan Respublikası Ali Məhkəməsində tərcüməçi kimi başlamış, sonra Bakı şəhəri Narimanov Rayon Xalq Məhkəməsində stajçı işləmişdir. 1964 ildən Bakı şəhəri Xətai Rayon Prokurorluğunda müstəntiq, 1966 ildən Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətində məsləhətçi, baş məsləhətçi, 1973—1976 illərdə Əzizbəyov rayonunun xalq hakimi, 1976—1984 illərdə Əzizbəyov Rayon Xalq Məhkəməsinin sədri, 1984 ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin üzvü vəzifələrinə seçilmişdir. 1993 ildən Azərbaycan Respublikası Ali Məhkəməsi Hərbi Kollegiyasının sədri vəzifəsini icra etmiş, 1994 ilin iyul ayında həmin vəzifəyə təsdiq olunmuşdur. 2000 ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimidir.
Evlidir, 2 övladı var.

Born 1937 October 31 in Garadonlu village, Imishli district, Azerbaijan Republic.Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1962. Judge of the Supreme Court of the Azerbaijan Republic since 2000.
Married, has two children.

1956 il noyabrın 28-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1978 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun maliyyə-kredit fakültəsini, 1992 ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
1980—1983 illərdə Bakı Şəhəri Qaradağ Rayon Xüsusi Komendaturasında əməliyyat müvəkkili, 1983—1985 illərdə Bakı Şəhər Dİİ Xüsusi Komendaturalar üzrə bölməsində əməliyyat müvəkkili, 1985—1987 illərdə Bakı Şəhəri Binəqədi Rayon DİŞ-də SƏDM üzrə əməliyyat müvəkkili, 1987—1990 illərdə Bakı Şəhəri Nərimanov Rayon PŞ-də cinayət axtarışı üzrə baş əməliyyat müvəkkili, 1990—1992 illərdə Azərbaycan Respublikası DİN Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsində baş əməliyyat müvəkkili, 1992—1993 illərdə DİN Narkomaniya və Narkobiznesə Qarşı Mübarizə İdarəsində şöbə rəisi, idarə rəisinin müavini, 1993—1999 illərdə DİN İqtisadi Sahədə Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin rəisi, 1999 ildən Azərbaycan Respublikası DİN İqtisadi Cinayətkarlığa Qarşı Əməliyyat Əlaqələndirmə İdarəsinin rəisi vəzifələrində işləmişdir. 2001 ildən DİN İqtisadiyyatda Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisidir.
Evlidir, 3 övladı var.

Born 1956 November 28 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1978; Baku State University in 1992. Chief of the Department of Economic Crime . Te Ministry of Internal Affairs of the Azerbaijan Republic.
Married, has three children.



MAHMUDOV ELDAR ƏHMƏD OĞLU
Azərbaycan Respublikası DİN İqtisadiyyatda Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi, polis polkovniki

Mahmudov Eldar Ahmad oglu
Chief of the Department of Economic Crime, Azerbaijan Republic, The Ministry of İnternal Affairs, Police Colonel

1962 il avqustun 11-də Azərbaycan Respublikası Astara rayonunun Hamuşam kəndində anadan olmuşdur. 1985—1989 illərdə Rusiya Federasiyasının Xabarovsk Ali Milis Məktəbində təhsil almışdır.
Əmək fəaliyyətinə 1979 ildə Astara şəhər Kərpic Zavodunda fəhləliklə başlamışdır. 1983—1984 illərdə Rusiya Federasiyası Kurqan şəhər Dəmiryol İdarəsində fəhlə işləmiş və 1984 ildə Kurqan şəhərində daxili işlər orqanlarına işə göndərilmişdir. 1989—1992 illərdə Kurqan Şəhər Daxili İşlər İdarəsində, 1992 ildən Çelyabinsk Vilayəti Daxili İşlər İdarəsində müstəntiq vəzifəsində çalışmışdır. 1992 ilin oktyabr ayından Azərbaycan Respublikası DİN Polis Akademiyasının müəllimi, 1997 ildən isə baş müəllimidir.
Kriminalistika (1997, 1998) və məhkəmə ekspertizası (1998) fənnləri üzrə tədris proqramlarının müəlliflərindəndir.
Evlidir, 3 övladı var.

Born 11 August 1962 in Hamusham village, Astara district, Azerbaijan Republic.Azerbaijanian. Graduated from the Khabarovsk Higher Military School in 1989, Russian Federation. Senior Lecturer of the Police Academy, Ministry of Internal Affairs of the Azerbaijan Republic since 1997.
Married, has three children.



MAHMUDOV ALLAHVERDİ MİRZAĞA OĞLU
Azərbaycan Respublikası DİN Polis Akademiyasının baş müəllimi

Mahmudov Allahverdi Mirzaga oglu
Senior Lecturer of the Police Academy, Ministry of Internal Affairs of the Azerbaijan Republic



MEHMANOV MEHMAN VEYİS OĞLU
Azərbaycan Respublikası DİN Şəxsi Heyətlə İş Üzrə İdarəsinin rəisi, polis polkovniki

Mehmanov Mehman Veyis oglu
Chief of the Administration on the Affairs of Personnel Staff, Ministry of Internal Affairs of the Azerbaijan Republic, Police Colonel

1955 il mayın 27-də Gürcüstan Respublikası Bolnisi rayonunun Arıxlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1980 ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini, 1997 ildə BDU-nun hüquq fakültəsini bitirmişdir. 1981—1992 illərdə Daxili İşlər Nazirliyi "Mübariz keşikdə" qəzetinin müxbiri, redaktoru və 1992—1994 illərdə DİN orqanlarında müxtəlif vəzifələrdə işləmişdir. 1995 ildən DİN Şəxsi Heyətlə İş Üzrə İdarənin rəisidir. "Qanlı əlcək" kitabının müəllifidir.
Evlidir, 2 övladı var.

Born 27 May 1955 in Arykhly village, Bolnisi district, Georgia. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1977. Chief of the Administration on the Affairs of Personnel Staff, Ministry of Internal Affairs of the Azerbaijan Republic since 1995.
Married, has two children.



MEHRƏLİYEV SƏRVƏR HƏŞDƏR OĞLU
Azərbaycan Respublikası DİN İstintaq və Təhqiqat İdarəsinin rəisi, polis polkovniki

Mehraliyev Sarvar Hashdar oglu
Chief of the Investigation Administration of the Ministry of Internal Affairs of the Azerbaijan Republic, Police Colonel

1957 il fevralın 5-də Azərbaycan Respublikası Zəngilan rayonunun Şayıflı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1974 ildə Şayıflı Kənd Orta Məktəbini bitirmişdir.
Əmək fəaliyyətinə 1974 ildə Zəngilan Rayon Əhaliyə Məişət Xidməti Kombinatında fəhləliklə başlamışdır. 1981 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. 1981—1987 illərdə Naxçıvan Şəhər Daxili İşlər Şöbəsində müstəntiq, 1987 ildən Azərbaycan Respublikası DİN İstintaq İdarəsinin İstintaq Hissəsində müstəntiq, mühüm işlər üzrə baş müstəntiq, 1996—1999 illərdə İstintaq Hissəsinin rəisi vəzifələrində işləmişdir. 1999 ilin sentyabr ayından Azərbaycan Respublikası DİN İstintaq və Təhqiqat İdarəsinin rəisidir.
Evlidir, 2 övladı var.

Born 1957 February 5 in Shayifli village, Zangilan district, Azerbaijan Republic.Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1981. Chief of the Investigation Administration of the Ministry of Internal Affairs of the Azerbaijan Republic since 1999.
Married, has two children.

1953 il yanvarın 3-də Gürcüstan Respublikası Başkeçid (Dmanisi) rayonunun Şahmarlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1974 ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji İnstitutunu, 1983 ildə Krasnoyarsk Dövlət Universitetinin hüquq fakültəsini, 1985 ildə SSRİ DİN Polis Akademiyasını bitirmişdir. 1974 ildən Şahmarlı 8 illik məktəbində müəllim, 1975 ildən Krasnoyarsk Şəhər Oktyabr rayon milis şöbəsində əməliyyat müvəkkili, 1979 ildən bölmə rəisi, 1985 ildən Krasnoyarsk şəhər Polis İdarəsində şöbə rəisi, 1987 ildən Krasnoyarsk şəhəri Oktyabr rayon Daxili İşlər Şöbəsi rəisinin birinci müavini, 1988 ildən Bakı şəhəri Binəqədi rayon Polis Şöbəsi rəisinin müavini, 1989 ildən Bakı Şəhər Polis İdarəsində şöbə rəisi, 1990 ildən Bakı Şəhər Baş Polis İdarəsi rəisinin müavini, 1992 ildən Qaradağ rayon Polis İdarəsinin rəisi, 1993 ildən Bakı şəhər Baş Polis İdarəsinin rəisi, DİN İctimai Təhlükəsizlik İdarəsi rəisinin müavini vəzifələrində çalışmışdır. 1995 ilin iyun ayından Azərbaycan Respublikası DİN İctimai Təhlükəsizlik İdarəsinin rəisidir.
Evlidir, 2 övladı var.

Born 3 January 1953 in Shahmarly village, Dmanisi (former Bashkechid) district, Georgia. Azerbaijanian. Graduated from the M.F.Akhundov Azerbaijan State Pedagogical Institute in 1974; Krasnoyarsk State University in 1983. Chief of the Social Security Administration Ministry of Internal Affairs of the Azerbaijan Republic since 1995.
Married, has two children.



MƏMMƏDOV CAVANŞİR QƏHRƏMAN OĞLU
Azərbaycan Respublikası DİN İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis polkovniki

Memmedov Javanshir Gahraman oglu
Chief of the Social Security Administration Ministry of Internal Affairs of the Azerbaijan Republic, Police Colonel

1954 il martın 31-də Azərbaycan Respublikasının Dəvəçi şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.
1971 ildə T.Abbasov adına Dəvəçi Şəhər Orta Məktəbini, 1976 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini və Misir Ərəb Respublikası Polis Akademiyasının ixtisasartırma kursunu bitirmişdir. Hüquqşünasdır.
1976—1980 illərdə Şuşa Rayon DİŞ-də müstəntiq, 1980—1984 illərdə Qusar Rayon DİŞ-də müstəntiq, 1984—1992 illərdə respublika DİN-in İstintaq İdarəsində müstəntiq, baş müstəntiq, şöbə rəisinin müavini, 1992—1993 illərdə Xaçmaz Rayon PŞ istintaq bölməsinin rəisi, 1993—1997 illərdə DİN İstintaq İdarəsi şöbə rəisinin müavini, 1997 ildən DİN İstintaq İdarəsi rəisinin müavini vəzifələrində işləmişdir. Hazırda DİN-də bölmə rəisidir.
Evlidir, 3 övladı var.

Born 1954 March 31 in Devechi, Azerbaijan Republic.Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1976. Chief of the Section in the Ministry of Internal Affairs of the Azerbaijan Republic at present.
Married, has three children.



MƏMMƏDOV ƏNVƏR MƏMMƏDMÖVSÜM OĞLU
Azərbaycan Respublikası DİN-də bölmə rəisi, polis polkovniki

Memmedov Anvar Memmedmovsum oglu
Chief of the Section in the Ministry of Internal Affairs of the Azerbaijan Republic, Police Colonel



MƏMMƏDOV FÜZULİ MƏMMƏD OĞLU
Bakı Şəhər Hərbi prokuroru, ədliyyə polkovniki

Memmedov Fizuli Memmed oglu
Military Procurator of Baku city

1952 il noyabrın 19-da Azərbaycan Respublikası Saatlı rayonunun Cəfərxanlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. BDU-nun hüquq fakültəsini bitirmişdir.
1979 ildən Mingəçevir Şəhər DİŞ-də sahə müvəkkili, 1982 ildən Qazax Rayon DİŞ-də böyük müstəntiq, 1987 ildən DİN İstintaq İdarəsində mühüm işlər üzrə böyük müstəntiq, 1992 ildən Respublika Hərbi Prokurorluğu və Respublika Prokurorluğunda xüsusilə böyük işlər üzrə böyük müstəntiq, 1995 ildən Azərbaycan Respublikası Prokurorluğunda Daxili İşlər Orqanlarında Qanunların İcrasına Nəzarət İdarəsi rəisinin müavini və rəisi vəzifələrində işləmişdir. 2001 ilin fevral ayından Bakı Şəhər Hərbi prokurorudur. Hüquq elmləri namizədidir (2000). Qarabağ müharibəsi veteranıdır. "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir (1995).
Evlidir, 2 övladı var.

Born 19 November 1952 in Jafarkhanly settlement, Saatly district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku State University. Military Procurator of Baku city since 2001.
Married, has two children.



MƏMMƏDOV İLHAM SABİR OĞLU
Azərbaycan Respublikası DİN Polis Akademiyası Hüquq və dövlət nəzəriyyəsi kafedrasının rəisi, polis podpolkovniki

Memmedov Ilham Sabir oglu
Chief of the Department of Theory of Law and State, Police Academy, Ministry of Internal Affairs of the Azerbaijan Republic, Police Colonel

1961 il iyunun 6-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1987 ildə SSRİ DİN Milis Akademiyasının Qazan filialını bitirmişdir.
Əmək fəaliyyətinə 1978 ildə başlayaraq daxili işlər orqanlarında çalışmışdır. 1990—1992 illərdə Bakı Xüsusi Orta Milis Məktəbində müəllim, 1992—1995 illərdə baş müəllim vəzifələrində işləmişdir. 1995 ildən respublika DİN Polis Akademiyası Hüquq və dövlət nəzəriyyəsi kafedrasının rəisidir. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasını üzvüdür (1998). Bir çox elmi məqalə və vəsaitlərin müəllifidir.
Evlidir.

Born 1961 June 6 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Kazan Branch of the Police Academy of the Ministry of Internal Affairs of the USSR in 1987. Chief of the Department of Theory of Law and State, Police Academy since 1995.
Married.

1948 il dekabrın 3-də Azərbaycan Respublikası Naxçıvan MR-in Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1973 ildə Azərbaycan Politexnik İnstitutunu, 1980 ildə SSRİ DİN-in Milis Akademiyasını bitirmişdir.
Əmək fəaliyyətinə 1968 ildə Bakı şəhər 12 saylı internat məktəbində müəllimliklə başlamışdır. 1976 ildən Azərbaycan Respublikası DİN ictimai asayişi mühafizə şöbəsində müvəkkil, baş müvəkkil, bölmə rəisi, şöbə rəisinin müavini vəzifələrində işləmişdir. 1988 ildən respublikanın sərhədyanı bölgələrində gedən döyüşlərdə iştirak etmiş, 1990—1992 illərdə Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri vəzifəsində çalışmışdır. 1992 ilin avqust ayından Bakı Şəhər Baş Polis İdarəsi rəisinin müavinidir.
SSRİ DİN-in Şura üzvü (1990), Azərbaycan Respublikası DİN-in kollegiya üzvü (1991), Azərbaycan Respublikası Milli Məclisinin deputatı (1990—1995) seçilmişdir. "İctimai asayişin mühafizəsində fəal iştirakına görə" medalına (1980), SSRİ DİN və Azərbaycan Respublikası DİN-in mükafatlarına layiq görülmüşdür. Qarabağ müharibəsi veteranıdır.
Evlidir, 2 övladı var.

Born 1948 December 3 in Nakhchivan, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Militia Academy of the Ministry of Internal Affairs of the USSR in 1980. Vice- chief of the Central Police Academy Administration of Baku city since 1992.
Married, has two children.



MƏMMƏDOV MƏMMƏD XEYRULLA OĞLU
Bakı Şəhər Baş Polis İdarəsi rəisinin müavini, polis polkovniki

Memmedov Memmed Kheyrulla oglu
Vice- chief of the Central Police Academy Administration of Baku city, Police Colonel

1962 il dekabrın 15-də Azərbaycan Respublikası Gədəbəy rayonunun Arabaçı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1990 ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
1990 ildən Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunda böyük laborant, kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi vəzifələrində işləmişdir. 2000 ilin avqust ayından Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin hakimidir.
Evlidir, 4 övladı var.

Born 1962 December 15 in Arabachy village, Gadabay district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Baku State University in 1990. Judge of the Court of Appeal of the Azerbaijan Republic at present.
Married, has four children.



NƏBİYEV LƏTİF ƏDİL OĞLU
Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin hakimi

Nabiyev Latif Adil oglu
Judge of the Court of Appeal of the Azerbaijan Republic



MƏMMƏDOV RAFİQ UĞUZ OĞLU
Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi

Memmedov Rafig Uguz oglu
Judge of the Supreme Court of the Azerbaijan Republic

1945 il oktyabrın 13-də Azərbaycan Respublikası Beyləqan rayonunun Dünyamallar kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1974 ildə Rusiya Federasiyası Kuban Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
Əmək fəaliyyətinə 1963 ilin yanvar ayında başlamış və 1964 ilin oktyabr ayına qədər Beyləqan Rayon Hidrometereoloji Stansiyasında texnik-metereoloq işləmişdir. 1968—1969 illərdə Beyləqan Rayon Maliyyə Şöbəsində iqtisadçı, 1969—1974 illərdə Beyləqan Rayon Xalq Məhkəməsində məhkəmə iclas katibi, 1974—1975 illərdə Azərbaycan Respublikası Ali Məhkəməsində Cinayət İşləri Üzrə Məhkəmə Kollegiyasının katibi, 1975—1982 illərdə qəbul və nəzarət şöbəsində baş məsləhətçi, 1982—1989 illərdə Ali Məhkəmədə məhkəmə təcrübəsinin ümumiləşdirilməsi şöbəsinin rəisi, 1989—2000 illərdə Bakı Şəhər Məhkəməsinin hakimi, Cinayət işləri üzrə məhkəmə kollegiyasının sədri vəzifələrində çalışmışdır. 2000 ilin iyul ayından Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimidir.
Evlidir, 4 övladı var.

Born 1945 October 13 in Dunyamallar village, Beylagan district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1974. Judge of the Supreme Court of the Azerbaijan Republic since 2000.
Married, has four children.



MƏMMƏDOV VƏLİ MUSA OĞLU
Bakı Şəhər Baş Polis İdarəsi Metropolitenin Mühafizəsi Üzrə Polis Şöbəsinin rəisi, polis polkovniki

Memmedov Veli Musa oglu
Chief of the Police Department on Protection of Metro of the Central Police Administration of Baku city, Police Colonel

1949 il fevralın 9-da Azərbaycan Respublikası Qəbələ rayonunun Bum kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1968—1970 illərdə ordu sıralarında xidmət etmişdir. 1975 ildə Azərbaycan Pedaqoji İnstitutunu fərqlənmə diplomu ilə, 1980 ildə SSRİ DİN-in Milis Akademiyasını bitirmişdir. Əmək fəaliyyətinə 1973 ildə başlayaraq, 1974 ilə qədər Bakı Şəhər Milis İdarəsində komendant işləmişdir. 1975—1976 illərdə Bakı Şəhər Səbail Rayon DİŞ-də azyaşlılar üzrə cinayət axtarış müfəttişi, 1976—1978 illərdə Bakı Şəhər Milis İdarəsində mühafizə alayı komandirinin müavini, 1980—1981 illərdə Metropolitenin Mühafizəsi Üzrə Milis Şöbəsi rəisinin müavini, 1981—1988 illərdə Bakı Şəhər Nəsimi Rayon DİŞ rəisinin müavini, 1988—1990 illərdə Bakı Şəhər Yasamal Rayon Pİ 2-ci Polis Bölməsinin rəisi, 1990—1993 illərdə Bakı Şəhəri Xətai Rayon Pİ rəisinin müavini, 1993—1994 illərdə Bakı Şəhər Baş Polis İdarəsində şöbə rəisi, 1994—1995 illərdə Bakı Şəhər Suraxanı Rayon Pİ-nin rəisi vəzifələrində çalışmışdır. 1995 ilin noyabr ayından Bakı Şəhər Baş Polis İdarəsi Metropolitenin Mühafizəsi Üzrə Polis Şöbəsinin rəisidir.
Qarabağ müharibəsi veteranıdır.
SSRİ DİN-in I, II, III dərəcə medalları, "Milis əlaçısı" Döş nişanı (1983), Azərbaycan Respublikasının və respublika DİN-in Fəxri fərmanları ilə təltif edilmişdir. Əməkdar polis işçisidir.
Evlidir, 2 övladı var.

Born 1949 February 9 in Bum village, Gabala district, Azerbaijan Republic.Azerbaijanian. Graduated from the Azerbaijan State Pedagogical Institute in 1975; Militia Academy of the Ministry of Internal Affairs of the USSR in 1980. Chief of the Police Department on Protection of Metro of the Central Police Administration of Baku city 1995.
Married, has two children.

1952 il iyunun 19-da Azərbaycan Respublikasının Salyan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1977 ildə Azərbaycan Dövlət Universiteti hüquq fakültəsinin axşam şöbəsini bitirmişdir.
Əmək fəaliyyətinə 1969 ildə başlamış, Bakı Şəhəri Əzizbəyov Rayonu Buzovna Qəsəbə Mədəniyyət Sarayında uşaq bölməsinin müdiri, 1970—1971 illərdə M.F.Axundov adına Respublika Kitabxanasında kiçik kitabxanaçı, 1972—1977 illərdə respublika Prokurorluğunun ümumi şöbəsində katibə işləmişdir. Universiteti bitirdikdən sonra ixtisası üzrə əmək fəaliyyətini davam etdirmişdir. 1977—1982 illərdə Azərbaycan Respublikası Prokurorluğu mülki işlərin məhkəmə baxışına nəzarət şöbəsində prokuror, böyük prokuror vəzifələrində çalışmışdır. 1982 ilin fevral ayından Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimidir.
"Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.
Ailəlidir, 1 övladı var.

Born 1952 June 19 in Salyan, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1977. Judge of the Supreme Court of the Azerbaijan Republic since 1982.
Married, has one child.



MƏMMƏDOVA ŞƏLALƏ AĞAKƏRİM QIZI
Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi

Memmedova Shelale Agakerim gyzy
Judge of the Supreme Court of the Azerbaijan Republic

1945 il yanvarın 1-də Azərbaycan Respublikası İmişli rayonunun Poltavka kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1962—1967 illərdə Azərbaycan Dövlət Universitetində, 1982—1987 illərdə SSRİ DİN-in Milis Akademiyasında təhsil almışdır. 1968—1970 illərdə İmişli rayonunun Suvorovka Kənd Orta Məktəbində, 1970—1972 illərdə isə Poltavka Kənd Orta Məktəbində dil və ədəbiyyat müəllimi işləmişdir. 1972 ildə İmişli Rayon Partiya Komitəsi bürosunun qərarı ilə daxili işlər orqanlarına işə göndərilmişdir. 1972—1981 illərdə İmişli şəhər Xətt Milis Şöbəsində inspektor, baş inspektor, bölmə rəisi, şöbə rəisinin müavini, 1981—1990 illərdə Naxçıvan Şəhər Xətt Milis Şöbəsinin rəisi, 1990—1993 illərdə Bakı Şəhər Xətt Milis Şöbəsinin rəisi, 1993 ildən Azərbaycan Respublikası Dəmiryol Polis İdarəsinin rəisi, Bakı Şəhəri Səbail Rayon Polis İdarəsi rəisinin müavini, 1994 ilin avqust ayından Bakı Şəhəri Nərimanov Rayon Polis İdarəsinin rəisi vəzifələrində işləmişdir. Hazırda Polis Akademiyasının əməkdaşıdır.
SSRİ DİN-in I, II və III dərəcəli medalları, SSRİ DİN və Azərbaycan Respublikası DİN-in "Milis əlaçısı" Döş nişanları ilə təltif edilmişdir.
Evlidir, 4 övladı var.

Born 1945 January 1 in Poltavka village, Imishli district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1967, Militia Academy of the Ministry of Internal Affairs of the USSR in 1987. Collaboration of the Police Academy, Ministry of Internal Affairs of the Azerbaijan Republic at present.
Married, has four children.



MİKAYILOV MAHİR HƏZİ OĞLU
Azərbaycan Respublikası DİN Polis Akademiyasının əməkdaşı, polis polkovniki

Mikayilov Mahir Hazi oglu
Collaboration of the Police Academy, Ministry of Internal Affairs of the Azerbaijan Republic, Police Colonel



MİRZƏLİYEV ƏSƏD ABDULLA OĞLU
Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi

Mirzaliyev Asad Abdulla oglu
Judge of the Supreme Court of the Azerbaijan Republic

1954 il sentyabrın 24-də Azərbaycan Respublikası Ağdam rayonunun İmamqulubəyli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1979 ildə ADU-nun hüquq fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə fəhləliklə başlamışdır. 1974 ildən kolxozda hüquq məsləhətçisi, 1978 ildən Ağdam Rayon Notariat Kontorunda baş dövlət notariusu, 1982 ildən Xaçmaz Rayon xalq hakimi, 1985 ildən Ağsu Rayon xalq hakimi, 1987 ildən Salyan Rayon Məhkəməsinin sədri vəzifələrində işləmişdir. 2000 ilin iyul ayından Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimidir.
Evlidir, 3 övladı var.

Born 1954, September 24 in İmamgulubeyli village, Aghdam district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1979. Judge of the Supreme Court of the Azerbaijan Republic since 2000.
Married, has three children.



MÖVLAMOV ƏZİZ MÖVLAM OĞLU
Əli Bayramlı Şəhər Polis İdarəsinin rəisi, polis polkovniki

Movlamov Aziz Movlam oglu
Chief of the Police Department of Ali-Bayramly city, Police Colonel

1947 il yanvarın 10-da Azərbaycan Respublikası İsmayıllı rayonunun Basqal kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə M.F.Axundov adına Xarici Dillər İnstitutunun rus dili və ədəbiyyatı fakültəsini, 1982 ildə SSRİ DİN Moskva Milis Akademiyasını fərqlənmə diplomu ilə bitirmişdir.
Əmək fəaliyyətinə 1971 ildə başlamış, bir il doğma rayonun Sulut kəndində müəllimlik etmişdir. 1975 ildə komsomol zəmanəti ilə daxili işlər orqanlarına işə göndərilmişdir. 1975 ildən Azərbaycan Nəqliyyat Milis İdarəsində inspektor, 1978 ildən Qazıməmməd Rayon Xətt Milis Məntəqəsinin rəisi, 1982 ildən Azərbaycan Respublikası DİN Cinayət Axtarışı İdarəsində mühüm işlər üzrə baş əməliyyat müvəkkili, 1984 ildən Qubadlı Rayon DİŞ-in rəisi, 1988 ildən Əli Bayramlı Rayon DİŞ-in rəisi, 1990 ildən Salyan Rayon DİŞ-in rəisi, 1994 ildən Ağdam Rayon DİŞ-in rəisi, Azərbaycan Respublikası DİN Şəxsi Heyət Üzrə xüsusi İdarənin rəisi vəzifələrində işləmişdir. Hazırda Əli Bayramlı Şəhər Polis İdarəsinin rəisidir.
1992 ilin iyun ayında Həcc, 1993 ilin dekabrında Kərbəla ziyarətində olmuşdur.
Evlidir, 2 övladı var.

Born 1947 January 10 in Basgal village, Ismayilli district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Foreign languages in 1971; Police Academy of the Ministry of Internal Affairs of the USSR in 1982. Chief of the Police Department of Ali-Bayramly city at present.
Married, has two children.

1959 il iyunun 27-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Göyçə mahalının Nərimanlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1981 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir.
Əmək fəaliyyətinə 1981 ilin noyabr ayından başlamışdır. 1981—1995 illərdə Bakı Şəhəri Sabunçu Rayon Polis İdarəsində müstəntiq, baş müstəntiq, 1995—1996 illərdə Bakı Şəhəri Nəsimi Rayon Polis İdarəsində istintaq şöbəsinin rəisi vəzifələrində işləmişdir. 1996 ilin may ayından Abşeron Rayon Polis Şöbəsinin rəisidir.
Evlidir, 1 övladı var.

Born 1959 June 27 in Narimanly village, Goyja region, West Azerbaijan (now Armenia Republic). Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1981. Chief of the Police Department of Absheron district since 1996.
Married, has one child.



MUSAYEV İLQAR SƏFYAR OĞLU
Abşeron Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki

Musayev Ilgar Safyar oglu
Chief of the Police Department of Absheron district, Police Colonel

1954 il martın 15-də Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1978 ildə Azərbaycan Dövlət Universitetini, 1993 ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir. Hüquqşünas və politoloqdur.
Əmək fəaliyyətinə 1972 ildə Xəzər Dəniz Gəmiçiliyində radiomontajçı kimi başlamışdır. 1974—1976 illərdə Azərbaycan SSR Səhiyyə Nazirliyi sistemində böyük hüquq məsləhətçisi, 1979—1981 illərdə Azərbaycan Dövlət Universitetinin müəllimi, 1981—1987 illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti hüquq şöbəsinin böyük hüquq məsləhətçisi, 1987—1990 illərdə Azərbaycan KP MK inzibati orqanlar şöbəsinin təlimatçısı,1990—1995 illərdə Azərbaycan Respublikası Prezidenti Aparatı dövlət hüquq şöbəsinin məsləhətçisi, böyük məsləhətçisi, 1995 ildən Azərbaycan Respublikası Prokurorluğu Kadrlar İdarəsinin rəisi vəzifələrində işləmişdir. Hazırda Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kadrlar İdarəsinin rəisidir.
Qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində xidmətlərinə görə və Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Prokurorluğu və Azərbaycan Dövlət İdarələri İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Mərkəzi Komitəsinin Fəxri fərmanı ilə təltif edilmişdir.
Evlidir, 2 övladı var.

Born 1954 March 15 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1978. Chief of the Personnel Department of the Ministry of Justice of the Azerbaijan Republic at present.
Married, has two children.



MUSAYEV TOĞRUL SİRAC OĞLU
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kadrlar İdarəsinin rəisi, baş ədliyyə müşaviri

Musayev Togrul Siraj oglu
Chief of the Personnel Department of the Ministry of Justice of the Azerbaijan Republic



NAĞIYEV İMAN MƏMMƏD OĞLU
Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi

Nagiyev Iman Memmed oglu
Judge of the Supreme Court of the Azerbaijan Republic

1957 il fevralın 4-də Azərbaycan Respublikası Gədəbəy rayonunun Dəyirmandağ kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1978—1984 illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır.
1978—1979 illərdə Azərbaycan EA Genetika və Seleksiya İnstitutunda çilingər, 1979—1987 illərdə Bakı Şəhəri Yasamal Rayon Xalq Məhkəməsində kargüzar, tərcüməçi və məhkəmə iclas katibi, 1987—1990 illərdə Şamaxı Rayon Xalq Məhkəməsində xalq hakimi, 1990 il avqustun 20-dən Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsi sədrinin müavini vəzifələrində işləmişdir. 2000 ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimidir.
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü seçilmişdir (1995).
Evlidir, 2 övladı var.

Born 1957 February 4 in Deyirmandag village, Gedebey district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1984. Judge of the Supreme Court of the Azerbaijan Republic since 2000.
Married, has two children.



NAĞIYEV RAMİZ TAĞI OĞLU
Azərbaycan Respublikası DİN Daxili Təhqiqatlar İdarəsinin rəisi, polis polkovniki

Nagiyev Ramis Tagy oglu
Chief of the Internal Investigation Administration of the Ministry of Internal Affairs of the Azerbaijan Republic, Police Colonel

1951 il mayın 20-də Azərbaycan Respublikası Naxçıvan MR Şərur rayonunun Düdəngə kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1980 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
1969—1970 illərdə Cəlilkənd Orta Məktəbində , 1973—1975 illərdə Şərur Şəhər 1 Saylı Orta Məktəbində müəllim işləmişdir. 1975 ilin dekabr ayında DİO-ya qəbul edilmişdir. 1975—1986 illərdə Şərur Rayon DİŞ-də sahə müvəkkili, profilaktika üzrə baş inspektor, Cinayət-Axtarış üzrə baş inspektor, müstəntiq, 1987—1992 illərdə Quba Rayon PŞ-də müstəntiq, baş müstəntiq, 1993 ildən Azərbaycan Respublikası DİN-nin İstintaq İdarəsində müstəntiq, 1993—1995 illərdə Daxili Təhqiqatlar İdarəsində inspektor, baş inspektor, 1995—1999 illərdə 7-ci İdarənin rəisi vəzifələrində çalışmışdır. 1999 ilin fevral ayından Azərbaycan Respublikası DİN Daxili Təhqiqatlar İdarəsinin rəisidir.
Evlidir, 3 övladı var.

Born 1951 May 20 in Dudenge village, Sharur district, Nakhchivan, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1980. Chief of the Internal Investigation Administration of the Ministry of Internal Affairs of the Azerbaijan Republic since 1999.
Married, has three children.



NƏBİYEV MAHMUD YUSİF OĞLU
Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin sədri

Nabiyev Mahmud Yusif oglu
Chairman of the Court on Affairs of Grave Crimes of the Azerbaijan Republic

1957 il mayın 29-da Azərbaycan Respublikası Naxçıvan MR-in Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1981 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
1981 ildən Bakı Şəhəri Sabunçu Rayon Prokurorluğunda stajçı, Bakı Şəhər prokurorunun köməkçisi, Səbail Rayon prokurorunun müavini, 1987 ildən Gəncə Şəhəri Nizami Rayon prokuroru, 1993 ildən Azərbaycan Respublikası Nəqliyyat prokurorunun müavini, 1994 ildən Sumqayıt Şəhər prokuroru, 1999 ildən Azərbaycan Respublikası Prokurorluğu Elm və Tədris İdarəsinin rəisi vəzifələrində işləmişdir. 2000 ilin sentyabr ayından Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin sədridir.
Evlidir, 4 övladı var.

Born 1957, May 29 in Nakhchivan, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1981. Chairman of the Court on Affairs of Grave Crimes of the Azerbaijan Republic.
Married, has four children.



NƏSİROV ZAKİR ƏSƏD OĞLU
Azərbaycan Respublikası DİN Baş Cinayət-Axtarış İdarəsinin rəisi, polis general-mayoru

Nasirov Zakir Asad oglu
Chief of the Central Criminal Investigation Board of the Ministry of Internal Affairs of the Azerbaijan Republic, Major-General

1947 il iyunun 17-də Azərbaycan Respublikası Sabirabad rayonunun Qalaqayın kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1974 ildə SSRİ DİN Volqoqrad Şəhər Ali İstintaq Məktəbini bitirmişdir. 1974—1976 illərdə Bakı şəhəri Yasamal Rayon Milis Şöbəsində müstəntiq, 1976—1978 illərdə Bakı Şəhər Milis İdarəsində baş müstəntiq, 1978—1979 illərdə Bakı şəhəri Yasamal Rayon Milis Şöbəsində əməliyyat müvəkkili, 1979—1981 illərdə Bakı şəhəri Nəsimi Rayon Milis Şöbəsində baş əməliyyat müvəkkili, 1981—1982 illərdə Azərbaycan SSR Daxili İşlər Nazirliyində mühüm işlər üzrə baş əməliyyat müvəkkili, 1982—1988 illərdə DİN-də bölmə rəisi, 1988—1989 illərdə şöbə rəisi, 1989—1990 illərdə Bakı Baş Polis İdarəsi rəisinin birinci müavini vəzifələrində işləmişdir. 1992 ilin oktyabr ayından Azərbaycan Respublikası DİN Baş Cinayət-Axtarış İdarəsinin rəisidir.
"Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir (1995).
Evlidir, 2 övladı var.

Born 1947 June 17 in Galagayin village, Sabirabad district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Volgograd Higher Investigation School, MIA, USSR in 1974. Chief of the Central Criminal Investigation Board of the Ministry of Internal Affairs of the Azerbaijan Republic since 1992.
Married, has two children.



ORUCOV AZƏR KƏLPƏLİ OĞLU
Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin hakimi

Orujov Azer Kelpeli oglu
Judge of the Supreme Court on Affairs of Heinous Crimes of the Azerbaijan Republic

1947 il sentyabrın 16-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1972 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
Əmək fəaliyyətinə 1965 ildə Bakı şəhəri 26 Bakı komissarı (indiki Səbail) Rayon Xalq Məhkəməsində məhkəmə iclas katibi kimi başlamış və 1968 ilə qədər bu vəzifədə çalışmışdır. 1968—1971 illərdə Bakı şəhəri Biləcəri Qəsəbə Soveti sədrinin müavini, 1971—1975 illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Orqanları İdarəsində məsləhətçi, baş məsləhətçi, 1975—1976 illərdə Göyçay Rayon Xalq Məhkəməsində xalq hakimi, 1976—1979 illərdə Bakı şəhəri Əzizbəyov Rayon Xalq Məhkəməsində xalq hakimi. 1979—2000 illərdə Bakı Şəhər Məhkəməsinin hakimi, eyni zamanda həmkarlar təşkilatının sədri vəzifələrində işləmişdir. 2000 ilin sentyabr ayından Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin hakimidir.
Dəfələrlə keçmiş SSRİ Ədliyyə Nazirliyi və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin fəxri fərmanlarına layiq görülmüş, "Əmək veteranı" medalı ilə təltif edilmişdir.
Evlidir, 4 övladı var.

Born 1947 September 16 in Baku, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1972. Judge of the Supreme Court on Affairs of Heinous Crimes of the Azerbaijan Republic since 2000.
Married, has four children.



ORUCOV ƏLİSAAB SƏFTƏR OĞLU
Azərbaycan Respublikası Notariat və VVA İdarəsinin rəisi

Orujov Alisaab Saftar oglu
Chief of the Administration of Notary and RSCS of the Azerbaijan Republic

1946 il yanvarın 24-də Azərbaycan Respublikasının Göyçay şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1971 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. 1971—1973 illərdə Azərbaycan SSR Ədliyyə Nazirliyi Məhkəmə Orqanları İdarəsində məsləhətçi, 1973 ildən Bakı şəhəri Nəsimi Rayon Xalq Məhkəməsində xalq hakimi, 1973—1977 illərdə Kirovabad şəhərinin xalq hakimi, 1977—1980 illərdə SSRİ Ali Məhkəməsinin üzvü, 1980—1982 illərdə Azərbaycan SSR Ali Məhkəməsi sədrinin müavini, 1982—1985 illərdə Azərbaycan SSR Ali Məhkəməsi sədrinin birinci müavini, 1985—1992 illərdə Azərbaycan Respublikasının Ədliyyə naziri, 1992 ildən Azərbaycan Respublikası Prezidentinin fövqəladə və səlahiyyətli nümayəndəsi, 1992—1993 illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini, 1993—1995 illərdə Azərbaycan Milli Yaradıcılıq Akademiyası Prezidentinin müavini vəzifələrində işləmişdir. 1995 ilin iyul ayından Azərbaycan Respublikası Notariat və VVA İdarəsinin rəisidir. 1985—1990, 1990—1991 illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur.
Evlidir, 4 övladı var.

Born 1946 January 24 in Goychay, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1971. Chief of the Administration of Notary and RSCS, Ministry of Justice. of the Azerbaijan Republic since 1995.
Married, has four children.

1952 il iyunun 15-də Azərbaycan Respublikası Ağdam rayonunun Bağbanlar kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1979—1985 illərdə Azərbaycan Dövlət Universitetində, 1989—1995 illərdə Rusiya Beynəlxalq Hüquq İnstitutunda təhsil almışdır.
Əmək fəaliyyətinə 1973 ildə başlamış və Bakı Şəhəri Əzizbəyov rayonunun Mühafizə Şöbəsində milis nəfəri işləmişdir. 1982—1989 illərdə Abşeron Rayon Daxili İşlər Şöbəsində müvəkkil, 1989—1991 illərdə baş müvəkkil, 1991—1994 illərdə pasport bölməsinin rəisi, 1994—1996 illərdə Dəvəçi Rayon Polis Şöbəsinin rəisi, 1996—1997 illərdə Salyan Rayon Polis Şöbəsinin rəisi vəzifələrində çalışmışdır. 1997 ilin mart ayından Bakı Şəhəri Əzizbəyov Rayon Polis İdarəsinin rəisidir.
Azərbaycan Respublikası DİN-in fəxri fərmanı, "Polis əlaçısı" Döş nişanına və başqa mükafatlara layiq görülmüşdür.
Evlidir, 2 övladı var.

Born 1952 June 15 in Bagbanlar village, Agdam district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1985; Russian International Institute of Law in 1995. Chief of the Police Department of Azizbeyov district, Baku city since 1997.
Married, has two children.



RƏHİMOV TOĞRUL ƏZİM OĞLU
Bakı Şəhəri Əzizbəyov Rayon Polis İdarəsinin rəisi, polis polkovniki

Rahimov Togrul Azim oglu
Chief of the Police Department of Azizbeyov district, Baku city, Police Colonel

1939 il mayın 10-da Azərbaycan Respublikasının Astara şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1963 ildə SSRİ DİN Orconikidze Şəhər Hərbi Məktəbini, 1971 ildə Lenin adına Moskva Hərbi-Siyasi Akademiyasını, 1991 ildə SSRİ DİN-in aspiranturasını bitirmişdir. Hüquq elmləri namizədidir. Cinayət hüququ və kriminologiya üzrə 10-dan çox elmi əsərin müəllifidir. 1958—1960 illərdə hərbi xidmətdə olmuşdur. 1963—1965 illərdə SSRİ DİN hərbi hissəsində rota komandiri, 1965—1966 illərdə komsomol komitəsinin katibi, 1966—1967 illərdə İdarəetmə rotası komandirinin müavini, 1967—1970 illərdə siyasi şöbə rəisinin köməkçisi, 1970—1972 illərdə hərbi hissənin təlimatçısı, 1972—1974 illərdə siyasi şöbə rəisinin müavini, 1974—1979 illərdə Azərbaycan KP MK inzibati orqanlar şöbəsinin təlimatçısı, 1979—1987 illərdə Bakı Şəhər Daxili İşlər İdarəsinin rəisi, 1987—1992 illərdə Bakı Xüsusi Orta Milis Məktəbinin rəisi vəzifələrində işləmişdir. 1992 ilin iyun ayından Polis Akademiyasının rəisidir.
1981—1985, 1986—1987 illərdə Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, bir neçə medalla təltif edilmişdir. İngilis dilini bilir.
Evlidir, 2 övladı var.

Born 1939 May 10 in Astara, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Lenin Moscow Military-Political Academy in 1971. Chief of the Police Academy since 1992.
Married, has two children.



RƏSULOV RƏSUL İSLAM OĞLU
Azərbaycan Respublikası DİN Polis Akademiyasının rəisi, polis general-mayoru

Rasulov Rasul Islam oglu
Chief of the Police Academy, Ministry of Internal Affairs of the Azerbaijan Republic, Major-General



RÜSTƏMOV ŞAHİN MÖHÜBBƏT OĞLU
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi beynəlxalq hüquq məsələləri şöbəsinin rəisi

Rustamov Shahin Mohubbat oglu
Judge of the Constitutional Court of the Azerbaijan Republic

1954 il iyulun 11-də Azərbaycan Respublikası Ağdam rayonunun Çullu kəndində anadan olmuşdur. Azərbaycanlıdır.
1972 ildə Ağdam rayonunun Quzanlı Kənd Orta Məktəbini, 1986 ildə Azərbaycan Dövlət Universitetinin (indiki M.Ə.Rəsulzadə adına BDU) hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Hüquqşünasdır.
Əmək fəaliyyətinə 1972 ildə başlamışdır. 1972—1973 illərdə Ağdam rayonunun Quzanlı kəndindəki kolxozda kolxozçu, 1975—1976 illərdə Ağdam Rayon Barama Zavodunda fəhlə, 1976—1981 illərdə "Azərbaşenerji"nin Bakı Təmir Zavodunda çilingər işləmişdir. Universitetin hüquq fakültəsinin axşam şöbəsinə qəbul olunduqdan sonra ədliyyə orqanlarında fəaliyyətə başlamışdır. 1981—1987 illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində inspektor, redaktor, 1987—1993 illərdə Tovuz Rayon xalq hakimi, 1993 ildən Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini, Hərbi Kollegiyanın sədri, 1993 ildən Azərbaycan Respublikası Ali Məhkəməsi Hərbi Kollegiyasının hakimi vəzifələrində işləmişdir. Hazırda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi beynəlxalq hüquq məsələləri şöbəsinin rəisidir.
Evlidir, 2 övladı var.

Born 1954 July 11 in Chullu village, Agdam district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1986. Judge of the Constitutional Court of the Azerbaijan Republic at present.
Married, has two children.



RZAYEV RAMİZ YAQUB OĞLU
Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini, III dərəcə dövlət ədliyyə müşaviri

Rzayev Ramiz Yagub oglu
First Vice-Procurator-General of the Azerbaijan Republic, III degree state counsellor of the Justice

1953 il fevralın 25-də Azərbaycan Respublikasının Xudat rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1971—1977 illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır. 1979 ildən Bakı Şəhər Nərimanov Rayon Prokurorluğunun müstəntiqi, Bakı Şəhər Prokurorluğunun baş müstəntiqi, Azərbaycan Respublikası Baş prokuroru yanında xüsusilə mühüm işlər üzrə müstəntiq, respublika Prokurorluğu xüsusilə mühüm işlər üzrə istintaq şöbəsinin böyük prokuroru, Dəvəçi və Beyləqan rayonlarının prokuroru, 1995 il iyunun 17-dən Azərbaycan Respublikasının Hərbi prokuroru vəzifələrində işləmişdir. 2000 ilin may ayından Azərbaycan Respublikası Baş prokurorunun birinci müavinidir.
Evlidir, 3 övladı var.

Born 1953 February 25 in Khudat district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1977. First Vice-Procurator-General of the Azerbaijan Republic since 2000.
Married, has three children.



SADIQOV HACIBALA MÜSEYİB OĞLU
Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini

Sadygov Hajibala Museyib oglu
Vice-Chairman of the Supreme Court of the Azerbaijan Republic

1935 il aprelin 10-da Azərbaycan Respublikası Naxçıvan MR Ordubad rayonunun Dəstə kəndində anadan olmuşdur. Azərbaycanlıdır.
1958 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. 1958—1965 illərdə Azərbaycan SSR Ali Sovetinin təltif və hüquq şöbələrində məsləhətçi, referent, 1965—1970 illərdə Salyan Rayon xalq hakimi, 1970—1972 illərdə Yevlax Rayon xalq hakimi, 1972—1978 illərdə Azərbaycan Respublikası Ali Məhkəməsinin üzvü, 1978—1983 illərdə Naxçıvan MSSR Ali Məhkəməsinin sədri, 1983 ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifələrində işləmişdir. 2000 ildən Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavinidir.
Naxçıvan MSSR Ali Sovetinin (1980) deputatı seçilmişdir. "Şərəf nişanı" ordeni (1980), Naxçıvan MSSR Ali Sovetinin Fəxri fərmanı (1983), SSRİ Ədliyyə Nazirliyinin Döş nişanı (1988) ilə təltif edilmişdir. Azərbaycan Respublikasının "Əməkdar hüquqşünası"dır (1991).
Evlidir, 4 övladı var.

Born 1935 April 10 in Deste village, Ordubad district, Nakhchivan, Nakhchivan AR, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1958. Vice-Chairman of the Supreme Court of the Azerbaijan Republic since 2000.
Married, has four children.



SALMANOVA SONA SADIX QIZI
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi

Salmanova Sona Sadykh gyzy
Judge of the Constitutional Court of the Azerbaijan Republic

1956 il mayın 12-də Qərbi Azərbaycanın (indiki Ermənistan) Spitak rayonunda anadan olmuşdur. Azərbaycanlıdır.
1979 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
1979—1980 illərdə Bakı Şəhər Məhkəməsində məhkəmə iclas katibi, 1980—1983 illərdə Azərbaycan Respublikası Ali Məhkəməsində məsləhətçi, Ali Məhkəmə Plenumunun katibi, Ali Məhkəmə Rəyasət Heyəti və Plenumunun katibi, 1983—1998 illərdə respublika Ali Məhkəməsinin üzvü vəzifələrində işləmişdir. 1998 ilin iyul ayından Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimidir.
Ailəlidir, 2 övladı var.

Born 1956 May 12 in Spitak district, West Azerbaijan (now Armenia Republic). Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1979. Judge of the Constitutional Court of the Azerbaijan Republic since 1998.
Married, has two children.



SEYIDOV ƏNVƏR CÜMŞÜD OĞLU
Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin hakimi

Seyidov Anvar Jumshud oglu
Judge of the Court on Affairs of Heinous Crimes of the Azerbaijan Republic

1949 il martın 29-da Azərbaycan Respublikasının Oğuz şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.
1968 ildə Bakı Rabitə Elektrotexnikumunu, 1975 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.
Əmək fəaliyyətinə 1966 ildə Bakı Şəhər Yel Xəstəlikləri Xəstəxanasında maşinist-ocaqçı kimi başlamış, 1968—1972 illərdə Bakı Poçtamptında operator köməkçisi, 7 və 23 saylı poçtlarda operator. 1972—1973 illərdə 4 və 8 saylı Dövlət Notariat Kontorlarında məsləhətçi, 1973—1976 illərdə respublika VVA Arxivinin müdiri. 1976—1978 illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi yanında Notariat və VVA İdarəsində baş məsləhətçi, 1978—1982 illərdə Zaqatala Rayon Xalq Məhkəməsinin xalq hakimi, 1982—1987 illərdə Cəlilabad Rayon Xalq Məhkəməsinin xalq hakimi. 1987—1990 illərdə Cəlilabad Rayon Xalq Məhkəməsinin sədri, 1990 ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifələrində işləmişdir. 2000 ildən Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin hakimidir.
Zaqatala və Cəlilabad rayon Sovetlərinin deputatı, 1995 ildən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü, nəzarət-təftiş xidmətinin rəhbəri olmuşdur.
Evlidir, 3 övladı var.

Born 1949 March 29 in Oguz, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1975. Judge of the Court on Affairs of Heinous Crimes of the Azerbaijan Republic since 2000.
Married, has three children.



SƏFƏROV RƏSUL NADİR OĞLU
Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin hakimi

Safarov Rasul Nadir oglu
Judge of the Court of Appeal of the Azerbaijan Republic

1938 il mayın 18-də Azərbaycan Respublikası İsmayıllı rayonunun Gəraybəyli kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1969 ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu, 1976 ildə Azərbaycan Dövlət Universiteti hüquq fakültəsinin qiyabi şöbəsini bitirmişdir.
1964—1977 illərdə Sabunçu Rayon İcraiyyə Komitəsində böyük iqtisadçı və təşkilat şöbəsinin müdiri, 1977—1978 illərdə Sabunçu Rayon Xalq Məhkəməsində təcrübəçi, 1978—1979 illərdə həmin məhkəmədə xalq hakimi əvəzi, 1979—1981 illərdə isə xalq hakimi, 1981—1990 illərdə Bakı Şəhər Məhkəməsinin üzvü, 1990 ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifələrində çalışmışdır. 2000 ildən Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin hakimidir.
Bir medala, respublika Ədliyyə Nazirliyinin Fəxri fərmanına və başqa mükafatlara layiq görülmüşdür. 5 çağırış Sabunçu Rayon Sovetinə deputat seçilmişdir.
Evlidir, 4 övladı var.

Born 1938 May 18 in Geraybeyli village, Ismayilli district, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of National Economy in 1969; Azerbaijan State University in 1976. Judge of the Court of Appeal of the Azerbaijan Republic since 2000.
Married, has four children.



SƏFƏROV SEVİNDİK SƏFƏR OĞLU
Sumqayıt Şəhər Polis İdarəsinin rəisi, polis polkovkniki

Safarov Sevindik Safar oglu
Chief of the Police Administration of Sumgait sity, Police Colonel

1945 il mayın 25-də Qərbi Azərbaycanda (indiki Ermənistan) Əzizbəyov rayonunun Cul kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1970 ildə Azərbaycan Politexnik İnstitutunu, 1990 ildə SSRİ DİN Milis Akademiyasını bitirmişdir.
1974—1980 illərdə Bakı Şəhər Baş Polis İdarəsinin kadrlar şöbəsində inspektor, baş inspektor, 1980—1985 illərdə respublika DİN-nin Cinayət-Axtarış İdarəsində əməliyyat müvəkkili, mühüm işlər üzrə baş əməliyyat müvəkkili, 1985—1986 illərdə Naxçıvan Muxtar Respublikası DİN Cinayət-Axtarış Şöbəsinin rəisi, 1986—1988 illərdə Naxçıvan MR Daxili İşlər nazirinin müavini, 1990—1992 illərdə Şəki rayon (şəhər) Polis Şöbəsinin rəisi, 1994 ildən Bakı şəhəri Sabunçu rayon Daxili İşlər Şöbəsində bölmə rəisi, 1994—1996 illərdə respublika DİN Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi rəisinin müavini, 1996 ildən həmin idarənin rəisi vəzifələrində işləmişdir. Hazırda Sumqayıt Şəhər Polis idarəsinin rəisidir. "Azərbaycan Bayrağı" ordeni, medallar və fəxri fərmanlarla təltif edilmişdir.
Evlidir, 3 övladı var.

Born 1945 May 25 in Jul village, Azizbeyov district, Armenia. Azerbaijanian. Graduated from the Azerbaijan State Polytechnical Institute in 1970; Moscow Police Academy of Ministry of Internal Affairs, USSR in 1990. Chief of the Administration of Struggle against the Organized Criminal, Ministry of Internal Affairs of the Azerbaijan Republic since 1996.
Married, has three children.



SULTANOV ƏLƏDDİN CAMAL OĞLU
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi

Sultanov Aladdin Jamal oglu
Judge of the Constitutional Court of the Azerbaijan Republic

1928 il iyulun 31-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.1952 ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
1952—1956 illərdə Bərdə Rayon Prokurorluğunda müstəntiq, 1956—1963 illərdə Bakı Şəhəri Səbail Rayon Prokurorluğunda və Bakı Şəhər Prokurorluğunda müstəntiq, 1963—1967 illərdə Bakı Şəhəri Yasamal və Səbail rayonlarında prokurorun müavini, 1967—1970 illərdə Mingəçevir Şəhər prokuroru, 1970—1977 illərdə Lənkəran Rayon prokuroru, 1977—1979 illərdə Bakı Şəhəri Sabunçu Rayon prokuroru, 1979—1980 illərdə Bakı Şəhər prokurorunun müavini, 1980—1981 illərdə Naxçıvan Muxtar Respublikasının prokuroru, 1981—1987 illərdə Azərbaycan Respublikası prokurorunun birinci müavini, 1987 ildən Bakı Şəhər Prokurorluğunun şöbə prokuroru, 1987—1990 illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi yanında Hüquq Kadrlarının Təkmilləşdirilməsi İnstitutunun prorektoru vəzifələrində çalışmışdır. 1990—1992 illərdə Azərbaycan Respublikası Prokurorluğunda müxtəlif vəzifələrdə işləmiş və təqaüdə çıxmışdır. 1992—1998 illərdə Bakı Şəhər İcra Hakimiyyətində qəbul otağının müdiri və İcra Hakimiyyəti başçısı aparatının rəhbəri vəzifələrində çalışmışdır. 1998 ilin iyul ayından Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimidir.
Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı (1972) və "Xalqlar dostluğu" ordeni (1982) ilə təltif edilmişdir.
Evlidir, 4 övladı var.

Born 1928 July 31 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1952. Judge of the Constitutional Court of the Azerbaijan Republic since 1998.
Married, has four children.



SULTANOV CAVADAĞA TƏVƏKKÜL OĞLU
Bakı Şəhəri Binəqədi Rayon Polis İdarəsinin rəisi, polis polkovniki

Sultanov Javadaga Tavakkul oglu
Chief of the Police Department of Binagadi district, Baku city, Polise Colonel

1958 il yanvarın 27-də Azərbaycan Respublikası Salyan rayonunun Kürqaraqaşlı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1975 ildə Azərbaycan Neft və Kimya İnstitutunu, 1993 ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.
1981 ildən daxili işlər orqanlarında fəaliyyət göstərir. Həmin ildən Partiya-Sovet orqanlarının mühafizə şöbəsində müxtəlif vəzifələrdə, Bakı Şəhəri Suraxanı Rayon DİŞ-də əməliyyat müvəkkili, respublika DİN CAİ-də əməliyyat müvəkkili, mühüm işlər üzrə baş əməliyyat müvəkkili, Cəlilabad Rayon DİŞ-də əməliyyat işləri üzrə rəis müavini, Bakı Şəhəri Suraxanı Rayon Pİ-də CAŞ-ın rəisi, Yevlax Rayon PŞ-də əməliyyat işləri üzrə müavin, 1991 ildən Bakı Şəhəri Xətai Rayon Pİ-nin rəisi, 1997 ildən Bakı Şəhər Baş Polis İdarəsində CAİ rəisinin müavini, həmin idarənin rəisi vəzifələrində işləmişdir. 2000 ilin oktyabr ayından Bakı Şəhəri Binəqədi Rayon Polis İdarəsinin rəisidir. Dəfələrlə DİN-in fəxri fərmanları və mükafatlarına layiq görülmüşdür.
Evlidir, 2 övladı var.

Born 1958 January 27 in Kurgara-gashly village, Salyan district. Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State Institute of Oil and Chemistry in 1975, Baku State University in 1993. Chief of the Police Departament of Binagadi district, Baku city 2000.
Marritd, has two children.



SÜLEYMANOV CEYHUN AYDIN OĞLU
Azərbaycan Respublikası DİN Polis Akademiyasının baş müəllimi

Suleymanov Jeyhun Aydin oglu
Senior Lecturer of the Police Academy, Ministry of Internal Affairs of the Azerbaijan Republic

1967 il noyabrın 25-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1988—1989 illərdə Rusiya Federasiyasının Rjev şəhərində milis orqanlarında xidmət etmişdir. 1993 ildə Karaqanda Ali Milis Məktəbini fərqlənmə diplomu ilə bitirmişdir. 1993 ildən Azərbaycan Respublikası DİN-in Tədris Mərkəzində növbətçi-müvəkkil, Polis Akademiyasında müəllim işləmişdir. Hazırda Polis Akademiyasının Hüquq və dövlət nəzəriyyəsi kafedrasının baş müəllimidir.
Azərbaycan MEA Fəlsəfə və Füquq İnstitutunun dissertantıdır. "Referendum" mövzusunda namizədlik dissertasiyası üzərində işləyir. Bir çox tədris vəsaiti və elmi məqalələrin müəllifidir.

Born 1967 November 25 in Ganja, Azerbaijan Republic. Azerbaijanian. Graduated from the Karaganda Higher Militiaman School in 1993. Kazakhstan Republic. Senior Teacher of the Police Academy, Ministry of Internal Affairs of the Azerbaijan Republic.



ŞADİYEV ƏNVƏR ƏHMƏD OĞLU
Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi

Shadiyev Anvar Ahmad oglu
Judge of the Supreme Court of the Azerbaijan Republic

1954 il martın 8-də Özbəkistan Respublikası Fərqanə vilayəti Taşlaq rayonunun Qumarıq kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1975—1981 illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır.
1981—1985 illərdə Xaçmaz Rayon Xalq Məhkəməsində məhkəmə iclas katibi, 1985—1987 illərdə Yevlax Şəhər Xalq Məhkəməsində xalq hakimi, 1987—1990 illərdə Yevlax Şəhər Xalq Məhkəməsinin sədri, 1990 ildən Quba Rayon Xalq Məhkəməsinin sədri vəzifələrində işləmişdir. 2000 ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimidir.
1985 ildə Yevlax Şəhər Sovetinə, 1991 ildə Quba Rayon Sovetinə deputat seçilmişdir.
Evlidir, 3 övladı var.

Born 1954 March 8 in Gumaryg village, Tashlag district, Fargana Region, Uzbek Republic. Azerbaijanian. Graduated from the Azerbaijan State University in 1981. Judge of the Supreme Court of the Azerbaijan Republic since 2000.
Married, has three children.



ŞİRİNOV HƏSƏN KAMİL OĞLU
Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin rəisi, polis polkovniki

Shirinov Hasan Kamil oglu
Chief of the Administration of Baku City State Road Police, Colonel

1950 il yanvarın 26-da Azərbaycan Respublikası Naxçıvan MR Babək rayonunun Cəhri kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1978 ildə Azərbaycan Politexnik İnstitutunu, 1993 ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir.
